AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

MƏHƏMMƏD ALLAHMANLI

# AZƏRBAYCANIN QƏRB BÖLGƏSİNİN MƏNƏVİ MƏDƏNİYYƏTİNDƏN

***(tarixi-etnoqrafik tədqiqat)***

**"Nurlan"**
**Bakı - 2011**

***Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.***

**Elmi redaktor: Teymur Bünyadov**
*AMEA-nın həqiqi üzvü,*
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Fəzail Vəli İmranoğlu**
*tarix elmləri doktoru*
**Baba Tofiq**
*tarix elmləri üzrə fəlsəfə doktoru,*
*əməkdar mədəniyyət xadimi*
**Əsəd Əliyev (Təhləli)**
*tarix elmləri üzrə fəlsəfə doktoru*

**M.Q. Allahmanlı** Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən (*tarixi-etnoqrafik tədqiqat*).
Bakı, "Nurlan" , 2011. 176 səh.

Tarix elmləri üzrə fəlsəfə doktoru Məhəmməd Allahmanlının «Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat)» monoqrafiyası etnoqrafiya elminin ən aktual və həlli vacib olan problemlərindən birinə – mənəvi mədəniyyət probleminə həsr olunmuşdur. Monoqrafiyada ilk dəfə olaraq Qərb bölgəsinin Qazax və Ağstafa rayonlarından toplanmış çöl-etnoqrafik materialların elmi-etnoqrafik təhlili nəticəsində xalqımızın mənəvi mədəniyyətinin bir çox sahələri – aşıq sənəti, el şairləri, bayatılar, atalar sözləri və məsəllər, nağıl və əfsanələr, xalq musiqisi, rəqslər, musiqi alətləri, oyun və əyləncələr, din, xalq bayramları (Qurban bayramı, Orucluq bayramı, Novruz bayramı), elm və maarif, xalq təbabəti, qonaqpərvərlik və s. tarixi-etnoqrafik tədqiqata cəlb olunmuşdur. Əsərdə Qərb bölgəsi əhalisinin mənəvi mədəniyyətinin formalaşması tarixilik və mədəni varislik prizmasından öyrənilmiş, onun təkamül və inkişaf mərhələləri dövrün sosial-siyasi, etnik-mədəni və təbii-iqtisadi amillərin fəal təsiri kontekstində araşdırılmışdır.

$\frac{4702000000}{N098-2011}$ ***qrifli nəşr***

**© «Nurlan», 2011**

## MÜNDƏRİCAT

**İXTİSARLARIN SİYAHISI** .......................................................... 4

**ÖLÜM, SƏNƏ ÖLÜM OLSUN… (Ön söz əvəzi)** .......................... 5

**GİRİŞ** ....................................................................................... 13

**I FƏSİL**
**XALQ YARADICILIĞI** .................................................................. 21

**1.1. Aşıq sənəti** ........................................................................ 22
**1.2. El şairləri** .......................................................................... 31
**1.3. Bayatılar** ........................................................................... 50
**1.4. Atalar sözləri və məsəllər** ................................................ 57
**1.5. Nağıllar və əfsanələr** ....................................................... 60
**1.6. Musiqi** .............................................................................. 68
**1.7. Musiqi alətləri** ................................................................. 74
**1.8. Rəqs** ................................................................................. 81
**1.9. Oyun və əyləncələr** .......................................................... 84

**II FƏSİL**
**DİN VƏ XALQ BAYRAMLARI** ...................................................... 100

**2.1. Din** ................................................................................... 102
**2.2. Qurban bayramı** ................................................................ 114
**2.3. Orucluq bayramı** ............................................................... 118
**2.4. Novruz bayramı** ................................................................ 120

**III FƏSİL**
**İCTİMAİ MƏİŞƏT** ....................................................................... 138

**3.1. Maarif, elm** ....................................................................... 138
**3.2. Xalq təbabəti** .................................................................... 149
**3.3. Qonaqpərvərlik** ................................................................ 155

**NƏTİCƏ** ...................................................................................... 161
**MƏLUMATÇILARIN SİYAHISI** .................................................... 165

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ............................................ 167



## İXTİSARLARIN SİYAHISI

**AEM** Azərbaycan Etnoqrafik Məcmuəsi
**ASE** Azərbaycan Sovet Ensiklopediyası
**Tədqiqlər** Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər
**МИЭБГКЗК** Материалы для изучения экономического быта государственных крестьян Закавказского края
**ОРВЗК** Обозрение Российских владений за Кавказом
**СЭ** Советская этнография
**СМОМПК** Сборник материалов для описания местностей и племен Кавказа

## ÖLÜM, SƏNƏ ÖLÜM OLSUN!..

## (ÖN SÖZ ƏVƏZİ)

Özümü tanıyandan, ağlım kəsəndən, duyğularıma, düşüncələrimə, təfəkkürümə sahiblik edəndən bəri daim təsəvvürlərimdə idbar sifətli, əli qılınclı, pəzəvəng kimi canlandırdığım Ölüm adlı qaniçən kabusa lənətlər yağdırmışam, «çox analar saç yolubdur əlindən, əlac ola, asam səni dilindən!» - demişəm. Yaxınlarımı, əzizlərimi – ata nənəm 105 yaşlı Sənəm qarını, atamı, anamı, əlli yaşını yenicə tamamlamış böyük qardaşım Mahalı, əmim Əşrəfi, heç əlli yaşına çatmamış qaynım Xaliqi əlimdən alıb özü ilə qol-boyun aparanda göz yaşlarımı içimə axıdıb qovrulmuşam, Ölüm kabusunu qarğımışam, talan olub parçalanmış ürəyimi boşaltmağa çalışmışam…

Bu sinəmə çəkdiyi çalın-çarpaz dağları hələ az bilmiş kimi, qardaşım qədər xətrini əziz bildiyim etnoqraf-alim, Azərbaycan etnoqrafiyası elmində öz dəst-xətti, yazı və danışıq manerası olan, ensiklopedik biliyinə çoxlarının həsəd apardığı Qara oğlu Məhəmmədi (Məhəmməd Allahmanlını) da mənə çox gördü, arzularının, əməllərinin yenicə ayaq tutub yeridiyi bir yaş dövründə – qırx yeddi yaşında dünyasını dəyişdirdi, məni qədər AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun mehriban kollektivini, «Tarixi etnoqrafiya» şöbəsinin bütün əməkdaşlarını, bütövlükdə onu tanıyan elmi ictimaiyyəti hədsiz kədərləndirdi.

Hüznlü, pərişan payızın «sarılığa tutulduğu», qışın soyuq nəfəsini artıq yanaqlarımızda hiss etdiyimiz dekabrın ilk ongünlüyündə Məhəmmədin vəfatının qırx günü tamam olacaq. Bu günlərdə dəfələrlə özümü tarazlamağa, alim-etnoqraf qardaşım haqqında düşündüklərimi vərəqlərə köçürməyə cəhd etsəm də, xeyri olmayıb: elə bil ki, bütün varlığım payızın rənginə bürünüb, beynimin içi gün vurub yel döymüş payız kövşəni kimi saralıb, yazı masama



ifçinlədiyim ağ vərəqlərə də bir sarılıq hakim kəsilib, bu yazını yazmaq üçün seçib-sonaladığım qələm sanki qıvrılan bir ilana dönüb, barmağımı dişləyib. Çünki bu vaxtsız ölümə inana bilməmişəm, Məhəmmədin yoxluğuna özümü inandıra bilməmişəm, çəkdiyim əzablar içində qovrulmuşam. Ancaq deyirlər, sən saydığını say, gör zalım fələk nə sayır. Nə qədər acı, nə qədər ürəkağrıdan olsa da, artıq Qara oğlu Məhəmmədin aramızda, sıramızda olmadığı bəlli olur, yeri görünür. Mən də, məni məndən alan, beynimi dəmirçi kürzü kimi döyəcləməkdə olan bu qara xəbəri yavaş-yavaş özümünküləşdirirəm, onun Ərşi-Əlaya çəkilən müqəddəs ruhu ilə söhbətləşirəm…

Sən niyə belə elədin, Qara oğlu Məhəmməd? Zalım fələyin göndərdiyi Ölüm kabusu ilə belə erkən qol-boyun olub haqq dünyana qovuşmağın bu qədərmi həsrətlisi idin!? Canından artıq sevdiyin Vətəni, anan – hər sözü-söhbəti həzin nəğmələrdən də şirin olan el ağbirçəyi Fəxrənsə anamızı, həyat yoldaşın – bacım əvəzi Mənsurəni, üç övladını – Zauru, Qaranı, Fəxrənsəni, qardaşın – folklor araşdırıcısı, elmlər doktoru, cavan olmasına baxmayaraq ağsaqqal kəlamlı Mahmud Allahmanlını, doğulub boya-başa çatdığın İncə dərəsinin ağır-ləngər ellərini, qohum-əqrəbanı, səni tanıyıb qiymətləndirən dostlarını, yoldaşlarını belə vaxtsız tərk etmək, gözlərini yaşlı qoyub getməklə nə demək istədin!?

Mən heç, çünki mən səndən bir köynək uzaqda yaşayırdım. Bəs, iş yoldaşın, yaxın qonşun, hər gün Arxeologiya və Etnoqrafiya İnstitutuna işə qoşa gəldiyiniz Əsəd Təhləlini – dünyanın özü boyda dərdlərini, Məhəmməd itkisini bir yumruq-əzələ ürəyində qövrləndirib dünyalaşan, piranіləşən şair-etnoqraf qardaşımız Əsəd Təhləlini kimə tapşırıb getdin!? O ki, səninlə nəfəs alırdı, o ki, sənə arxam-dayağım deyirdi, səninlə qürrələnirdi. Şəxsən mən belə vəfasızlığı sənə yaraşdıran deyiləm!

İyirmi səkkiz ildir ki, əməkdaşı olduğum Arxeologiya və Etnoqrafiya İnstitutunda çox etnoqraf-alimlərimizin dünyalarını dəyişmələrinə kədərlənmiş, bunları elmimiz

üçün ağır itki hesab etmişəm. XX əsrin sonu-XXI əsrin əvvəllərində haqq dünyalarını tapanların – Əsgər Əhmədovun, şair-etnoqraf Şota Salehin, Həsən Quliyevin, Qiyasəddin Qeybullayevin, Həvil Həvilovun, Ətiqə xanım İsmayılovanın, Qəmərşah Cavadovun, Tofik Kərimovun, Şahpələng Quliyevin, Mirzə Mirzəyevin, Yavər Rüstəmovun, nəhayət, institutumuzun sabiq direktoru Arif Abbasovun ölməz xatirələri ilə onda təskinlik tapmışam ki, bunların hər biri altmış yaşlarını keçmiş, dünyanın çox üzünü görmüş, ömür paylarının çoxunu yaşamışdılar. Bəs, sən bu sanılı ömrün neçəsini yaşadın? – cəmisi qırx yeddisini! Sənə böyük Peyğəmbərimiz Məhəmməd Əleyhissalamın adını qoymuşdular. Gərək buna da dönük çıxmayaydın, sənin yaşamağa, yaratmağa haqqın vardı! Qədərini nə tez bitirdin, əziz qardaşım!?

Haqqında bu hüzn dolu vida yazısını yazmaqda məramım, məqsədim heç də sənin ruhunu incidib özümdən rəncidə salmaq deyil. Sənin vaxtsız-vədəsiz vəfatına heyfsilənirəm, sənsizliyimi qılınclayıram, səni ölümün pəncəsindən ala bilmədiyimə yas tuturam, yoxluğuna ağı deyirəm.

Ehtimal nəzəriyyəsinin banisi hesab olunan məşhur riyaziyyatçı Albert Eynşteynin ölümün fəlsəfəsi haqqında maraqlı fikirləri var. O deyir ki, ölüm bizə Ulu Yaradan tərəfindən verilən və bizim müyyən müddətə unutduğumuz köhnə borcdur. Haçansa onu qaytarmağa borcluyuq. Bu borcu hərə öz yaşam məqamına uyğun geri qaytarır – kimi çiçəyi burnunda ikən cavan yaşında, kimi də yüzünü, yüz əllisini keçəndən sonra (Allah sənə rəhmət eləsin, Şirəli baba!). Sən bunların birincilərindən oldun, Qara oğlu Məhəmməd! Bu köhnə borcu qaytarmağa yaman tələsdin! Niyə qara gəldi ömrünün payızı!? Buydumu zalım fələyin yazdığı yazı!? «Əcəl vədə irməyincə kimsə ölməz» - demişdi Dədəmiz Qorqud. Sən də əcəlin verdiyi vədəni özünəməxsus yaşadın: məğrur, saf, müqəddəs, sözübütöv, əməli-saleh, bir sözlə, ər oğlu ər kimi!

Şəxsən mənim aləmimdə «ölüm haqdır, bu haqdan qaçmaq olmaz» - fəlsəfəsinə inam birmənalıdır: bir gün yaranan bir gün də öz yaradanına qovuşmalıdır. Müqəddəs



kitabımız olan «Qurani-Kərim»in Cuma surəsinin 8-ci ayəsində yazılır: «De ki, «O ölümdən ki, siz qaçırsız, mütləq haqlayar sizi. Və axır dönərsiniz görülməzi, görüləni bilənin dərgahına. O da bildirər sizə nə iş tuturdunuzsa». Qara oğlu Məhəmməd! Ölümünlə Allah dərgahına yüksəldin, müqəddəsliyə qovuşdun, əbədi rahatlığını tapdın! Bu sənin haqqın idi. Ancaq bizi göynədən sənin haqq dünyasına belə vaxtsız-vədəsiz hicrətin oldu.

Keçən əsrin əvvəllərində qardaşı Hüseynqulunun vaxtsız vəfatından sarsılan böyük dramaturqumuz Cəfər Cabbarlı ölmək və ölümün fəlsəfəsi haqqında bunları nəzmə çəkmişdi:

Ölmək! bu geniş körpüdən hər kəs keçəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir!
Hər süslü çiçək sonda saralmış quru yapraq,
İnsan da nədir, əvvəli topraq, sonu topraq!

Qara oğlu Məhəmməd! Sən də ölümünlə Vətən torpağını bir ovuc çoxaltdın, əbədi haqq dünyana qovuşduğun füsunkar İncə dərəsinin Kəmərli qəbiristanlığındakı qəbirlərin sayını bir başdaşı sayı qədər də artırdın. Bu qəbiristanlıqda uyuyan atan Qara kişinin tənha başdaşını qoşalaşdırdın. Bundan sonra boyunu sevib məzarını süsləyən İncə çayın həzin zümzüməli nəğmələri olacaq, ziyarətinə hamıdan çox ağırləngər İncəli elləri gələcək. Xalqın məişət və mədəniyyətini tarixi-etnoqrafik araşdırmalara cəlb edib tarix yazan alim-etnoqrafın ən şərafətli sonucu bundan artıq nə ola bilər!?

Bu dünyanın fani, yalan, yaman olmağı haqqında istər şifahi, istərsə də yazılı ədəbiyyatımızda çox fikirlər səslənib, çox mətləblərin üzərinə ziyalı fəhminin, təfəkkürünün işığı saçılıb. İlk yazılı abidəmiz olan «Kitabi-Dədə Qorqud» dastanında:

Qanı dediyim mərd ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,

Fani dünya kimə qaldı?
(Gəlimli, gedimli) dünya!
Axır-son ucu ölümlü dünya! –

deyilir. Bu fikri bir qədər də dərinləşdirən xalq şairi Səməd Vurğun yazır:

Əzəldən belədir çünki kainat,
Cahan daimidir, ömür amanat.
Əldən ələ keçir vəfasız həyat,
Biz gəldi gedərik, sən yaşa, dünya!

Bəli, dünya yaşayır, onun torpağını zinətləndirən insan karvanı dünyaya gəlir, dövranını açır, köçünü-qafiləsini sürüb gedir, qoca dünya, qocaların qocası kimi, bu dolub-boşalmanı laqeydcəsinə seyr edir. Bir zamanlar Qara oğlu Məhəmməd də beləcə bu yalan, yaman, vəfasız dünyaya gəlmişdi, ömür payının qırx yeddisini yaşamışdı, indi bizləri göynər qoyub getdi. Getdi öz dünyasına. Əbədi məskəninə – İncə dərəsinə köçdü, elinə-obasına qovuşdu. Bizlərə də haqqındakı xoş xatirələri, bir də yanıb-yaxılmağı borc saxladı.

Qara oğlu Məhəmmədi tanıyandan onun tariximiz barədə nə qədər zəngin biliklərə malik olmasını, asudə vaxtlarda duzlu-məzəli lətifələri ilə könlümüzü açdığını dəfələrlə müşahidə etmişdim. Son dərəcə maraqlı, saf qəlbli, vətənpərvər, ailəcanlı, dostluğa səmimi, qərəzdən, paxıllıqdan uzaq, açıq ürəkli, qonaqpərvər bir insan təsiri bağışlamışdı mənə. Yaxşı yadımdadır, «Əhmədli» metrosu həndəvərindəki birotaqlı evini satıb Xırdalan qəsəbəsi tərəfdə həyət evi almışdı. Evini hələ təzəcə tikib qurtarar-qurtarmaz yığışıb el adətincə ev görməsinə getdik. Şöbə müdirimiz Teymur müəllim başda olmaqla ona gözaydınlığı verdik, axşama qədər həyətində şənləndik. Özümüz kabab bişirdik, samovar çayı dəmlədik. Onda Məhəmmədin əli-ayağı yerə dəymirdi. Gəlişimizə nə qədər sevinmişdi. Həyət yoldaşı Mənsurə bacının bişirdiyi içalat qovurmasının dadı hələ də damağımdadır. 2010-cu ilin oktyabrın əvvəllərində Məhəmməd təzəcə xəstələnmişdi və mənə xəbər çatdı ki, Qanköçürmə İnstitutunun 3-cü qatında, 6 saylı palatadadır.



İş yoldaşım Əsəd Təhləlini də götürüb Məhəmmədin yanına getdik. Onda hələ özündə hansı proseslərin baş verdiyini özü də anlamaqdan uzaq idi. Xəstəxananın geniş dəhlizində üç saata qədər söhbət elədik, zarafatlaşdıq, «bura sənin yerin deyil» – deyə onu bir silkələdim də. Əsədin yanında ona dedim ki, nola, bu xəstəliyin hamısı yalan ola, sağalıb evinə-ailənə dönəsən, gedib dədə yurdumdan – Eldardan sənə bir xınalı erkək qurban gətirəcəyəm. Bütün iş yoldaşlarımızı, dostlarımızı başımıza yığıb şənlənərik. Hətta zarafatla dedim ki, mənim şəkər xəstəliyim var, mən o qurbanlıqdan Mənsurə bacının bişirdiyi içalat qovurmasının bircə tikəsini yeyəcəyəm. Qalanı sizlərə halal olsun! Qara oğlu Məhəmməd! Niyə mənim arzularımı gözümdə qoydun!? Niyə, niyə, niyə!?..

Deyirlər qardaşın necə adamdır, adətən cavab da verirlər ki, yol yoldaşı olmamışam. Qara oğlu Məhəmmədin həm də yaxşıca yol yoldaşlığı vardı. Onunla Azərbaycanın bir çox bölgələrində etnoqrafik ekspedisiya və səfərlərdə olmuşduq. Ədəbi-ərkanı, əxlaqı, böyük-kiçik yeri bilməsi, material toplamaqda səriştəsi, məlumatçılarla davranışı məni heyran edirdi. O əsil etnoqraf-alim idi. Bunu 2003-cü ildə «ərazicə kiçik, mənəviyyatca böyük» (Əziz Şərif) olan Naxçıvan torpağına İnstitutumuz tərəfindən təşkil olunmuş etnoqrafik ekspedisiya zamanı tamamilə dəqiqləşdirdim. Məhəmməd müəllim onda Azərbaycan xalqının mənəvi mədəniyyəti ilə məşğul idi, 1998-ci ildə hətta Qərb bölgəsinin mənəvi mədəniyyətinə həsr olunmuş namizədlik dissertasiyası da müdafiə etmişdi. İndi gözlərimə dərd gətirən foto-şəkillərə baxdıqca o məsud günlərimizin çox davam eləmədiyinə heyfslənirəm.

Qara oğlu Məhəmməd əsil türk oğlu türk idi. Tovuzlu aşıq-şair Murad Niyazlı demişkən, poladdan da bərk, möhkəm xarakterli, susayana sərin su, üşüyənə kürk idi Qara oğlu Məhəmməd! Söhbət türk ellərindən, türkçülükdən, soykökümüzdən, türk savaş sənətindən düşəndə onun gözləri yanar, bir türk qəhrəmanı görkəmi alardı. Türk sultanı II Mehmet Fatehi daha çox sevirdi. Onun qələbələrindən

danışmaqdan yorulmazdı. Hətta bəzən mən zarafatla onu Mehmet Fateh deyə çağırardım. Onun bu söhbətlərinə heyran olan şair-etnoqraf Əsəd Təhləli bir dəfə «Müxalifət» qəzetində nəşr etdirdiyi şeirini də məhz Qara oğlu Məhəmmədə xitabən belə başlamışdı:

Ehey… Qara oğlu Məhəmməd!
Türk oğlu xırdalanmaz!
Xırdalanmır böyüklər, atam oğlu,
Xır-da-lan-mır!

Onun möhkəm xarakteri, iti, analitik və aydın təfəkkür imkanları, xırdalanmaqdan uzaq bütövlüyü İnstitutumuzda keçirilən elmi seminarlarda, şöbəyə təqdim olunan elmi işlərin müzakirəsində də hamının nəzər-diqqətini cəlb edirdi. Məhəmməd müəllim özündən çox özgələri üçün – iş yoldaşları, gənc aspirantlar və dissertantlar üçün işləməyi özünə borc bilirdi. Neçə-neçə monoqrafiyaların elmi məsləhətçisi, rəyçisi və redaktoru olmuşdu.

Uzun illər idi ki, Azərbaycan etnoqrafiyası elmində bağçılıq mədəniyyətinin tarixi-etnoqrafik araşdırılması problem olaraq qalırdı. Düzdür, bu sahənin bölgələr üzrə tədqiqinə cəhdlər edilmişdi, ancaq bütövlükdə, kompleks şəkildə tədqiqi araşdırıcısını gözləyirdi. 2007-ci ilin meyxoş aprel günlərinin birində akademik Teymur Bünyadovun kabinetində bu mövzunun Məhəmməd müəllimə verilməsini iş yoldaşımız Tofik Babayev təklif etdi. Onu mən də, Əsəd Təhləli də, Qəzənfər Rəcəbli də dəstəklədik. Bilirdik ki, Məhəmməd müəllim az vaxt ərzində bu mövzunu tədqiq edə biləcəkdir. Teymur müəllim də razılaşdı. Qərar qəbul olundu: mövzu doktorluq işi kimi təsdiqləndi.

İşıqlı dünyamızı vaxtsız-vədəsiz tərk etməklə, bütün arzularını, həm də bizim etimadımızı puç etdin, Qara oğlu Məhəmməd! Hələ övladların Zaurun, atanın adını yaşadan Qaranın, nənəsinin adı üstündə olan gözəl-göyçək qız balan Fəxrənsənin toylarında qol götürüb oynayacaqdın, yenicə adına möhürlənmiş doktorluq işini başa çatdıracaqdın, neçə-neçə həll olunmamış elmi problemlərə tədqiqatçı-etnoqraf münasibətini bildirəcəkdin, dost sevindirəcəkdin, düşmən gözünü kor edəcəkdin! Ölüm səni bizlərə çox gördü. Bax buna görə ölümün düşməniyəm! Həmişə də yaxşıları daha tez qoynuna salan, pislərə yaşamaq imkanı verən ölümün.



İndi düşmən tapdağında olan Kəlbəcər rayonunun Tatlar kəndində müəllim işlədiyim vaxtlar idi. Kəlbəcərin məşhur el ağsaqqalı Dədə Şəmşir haqq dünyasına qovuşmuşdu. Rayonun «Yenilik» qəzetində şair Bəhmən Vətənoğlunun haqq aşığının ölümü ilə əlaqədar bir şeirini oxudum. Şeir başdan başa ölümə qarğış üstünə köklənmişdi. Sonunda da deyilirdi:

Ölüm, sənə ölüm olsun,
Necə qıydın sənətkara!?

Mən də bu vida yızısını həmin kədərli, ürəkağrıdıcı notlarla tamamlayaraq, dünyasını vaxtsız dəyişən Qara oğlu Məhəmmədin ruhu ilə söhbətimi dayandırır, ona böyük Allahdan qəni-qəni rəhmətlər diləyir, ölümü lənətləyərək deyirəm: ölüm, sənə ölüm olsun, necə qıydın Məhəmmədə!?

* * *

Təqdim etdiyimiz monoqrafiya Qara oğlu Məhəmmədin 1998-ci ildə müdafiə edərək tarix elmləri namizədi (indi: tarix elmləri üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi aldığı dissertasiyasıdır. Ona olan son vicdani borcumuzu təmənnasız, dostluğa, yoldaşlığa sədaqət naminə verib, əsərinin nəşrinə nail olduq. Çalışdıq ki, müəllifin yazı manerasına toxunmayaq, onun duyğularını, düşüncələrini, xalqın milli-mənəvi dəyərlərinə verdiyi qiyməti öz qələminə məxsus axıcılıqla verək. Bütün bunlara nə dərəcədə nail olduğumuzu isə möhtərəm oxucular dəyərləndirsinlər.

**Fəzail Vəli İmranoğlu,**
*tarix elmləri doktoru*

# GİRİŞ

Azərbaycan etnoqrafiyası elminin qarşısında duran ən mühüm məsələlərdən biri mənəvi mədəniyyətin hərtərəfli və dərindən öyrənilməsidir. Xalqın maddi mədəniyyəti ilə onun mənəvi mədəniyyəti – ədəbiyyatı, incəsənəti, musiqisi, bayram və mərasimləri, folkloru, adət-ənənələri tarix boyu həmişə bir-biri ilə əlaqədə inkişaf etmişdir. Xalqın dünyagörüşünü, etnik psixologiyasını, istək və arzularını, dərdini, kədərini, sevincini, bir sözlə, etnosun məskun olduğu etnik-mədəni mühitin özəlliklərini öyrənmək üçün mənəvi mədəniyyət mühüm əhəmiyyət kəsb edir. Bütün həyat və məişət sahələri ilə bağlı duyum, düşüm və yozum tərzi mənəvi mədəniyyətdə öz əksini tapdığından, onun öyrənilməsi etnoqrafiya elminin vacib problemlərindəndir.

Elmin, texnikanın inkişafının müasir şəraitində təkcə maddi mədəniyyət deyil, mənəvi mədəniyyət də böyük dəyişikliklərə məruz qalır. Daha doğrusu, xalqın min illər boyu yaratdığı mənəvi dünyanın təxəyyül imkanları öz ilkinliyini itirir. Eyni zamanda, elmin, texnikanın inkişafının indiki mərhələsində «sənaye məhsullarının kütləvi yayılması nəticəsində etnik spesifika daha çox maddi mədəniyyət sahəsindən mənəvi mədəniyyət sahəsinə keçməyə başlayır» (122, 64). Mövzunun aktuallığının başqa bir cəhəti mənəvi mədəniyyətin daşıyıcıları olan ağsaqqalların, ağbirçək nənələrin tədricən öz dünyalarını dəyişmələri və bu zəngin el xəzinələrini yazıya alınmadan sinələrində aparmalarıdır. «Heç kimə gizli deyildir ki, elmi-texniki tərəqqi xalqın təkcə yeməyinə, geyiminə, yaşayış tərzinə deyil, həm də onun mənəvi mədəniyyətinə ciddi təsir etmişdir. Digər tərəfdən, xalqın maddi mədəniyyət elementləri, onların unudulub aradan çıxan müxtəlif nümunələri mütəxəssislər tərəfindən muzey eksponatları kimi toplanıb gələcək nəsillər üçün



qorunub saxlanırsa, bu cəhət mənəvi mədəniyyətə şamil deyildir. Odur ki, mənəvi sərvətin itib-batması, aradan çıxması daha qorxuludur» ( 34, 101).

Mövzunun aktuallığının başqa bir cəhəti də tədqiqatın zonal xarakterindədir. Belə tədqiqatlar bölgələrin mənəvi mədəniyyətinin spesifik xüsusiyyətlərinin daha dərindən və hərtərəfli öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Etnoqrafiya elmində artıq qəbul edilmiş bu prinsip daha məqsədyönlü və obyektiv araşdırmalar aparmağa imkan verir. Bunu nəzərə alaraq məşhur gürcü etnoqrafı Q.S.Çitaya yazır: «Etnoqrafik-çöl tədqiqatlarında etnoqrafik müşahidələrin dərinliyi onun genişliyindən daha vacibdir. Kiçik ərazinin dərindən öyrənilməsi əyalət, vilayət kimi geniş ərazinin ayaqüstü öyrənilməsindən daha əhəmiyyətlidir» (154, 27). Doğrudan da, Azərbaycanın Qərb bölgəsi özünün maddi mədəniyyəti, təsərrüfat və ailə məişətinin zəngin olması ilə yanaşı, mənəvi mədəniyyətinin zənginliyi ilə də Azərbaycanın digər tarixi-etnoqrafik bölgələri arasında xüsusi yer tutur. Burada zaman-zaman müxtəlif sosial-iqtisadi, mədəni, etno-siyasi amillərin fəal təsiri nəticəsində spesifik-lokal cəhətləri ilə seçilən mənəvi mədəniyyət formalaşmışdır. Bölgə əhalisinin mənəvi mədəniyyətinin bütün özəlliklərini tarixi-etnoqrafik baxımdan tədqiqata cəlb etmək, ümumazərbaycan mənəvi mədəniyyəti fonunda Qərb bölgəsinin yerini və rolunu müəyyənləşdirmək tədqiqatın aktuallığını şərtləndirən mühüm cəhətlərdən biridir.

Mövzunun aktuallığının digər bir cəhəti onun təbliği ilə bağlıdır. Milli özünüdərkin, özünəqayıdışın müasir mərhələsində milli-mənəvi mədəniyyətimizin dərindən və hərtərəfli öyrənilib təbliğ edilməsi olduqca vacib məsələdir.

Azərbaycanda hakim etnosun milli ləyaqətinin və yaradıcı təfəkkürünün mühüm göstəricisi olan mənəvi mədəniyyətin tarixi-etnoqrafik cəhətdən öyrənilməsi sahəsində xeyli işlər görülmüşdür. Bunların bir qismi ümumrespublika kontekstində öyrənilmişsə, digər bir qismi zonal xarakter daşımışdır. Qərb bölgəsinin maddi mədəniyyəti üzrə F.Vəliyev (124), müasir kənd ailəsi problemi üzrə N.Quliyeva

(141) namizədlik dissertasiyaları yazıb müdafiə etmiş, qismən də olsa, mənəvi mədəniyyət məsələlərinə toxunmuşlar. Lakin Qərb bölgəsinin mənəvi mədəniyyəti bu vaxta qədər hərtərəfli öyrənilib dərindən araşdırılmamışdır. Qərb bölgəsi əhalisinin mənəvi mədəniyyəti mövzusu üzrə toplanan etnoqrafik materiallar, bu materialların digər etnoqrafik bölgələrdən götürülmüş məlumatlarla aparılan analoqu və elmi cəhətdən təhlili inamla söyləməyə imkan verir ki, Qazax bölgəsi tarixi-etnoqrafik cəhətdən özünəməxsus xüsusiyyətləri ilə Azərbaycanın Qərb bölgəsinin böyük bir hissəsi kimi etnoqrafik cəhətdən maraqlıdır. Monoqrafiyada Qazax bölgəsi əhalisinin mənəvi dünyasının müxtəlif sahələri – xalq yaradıcılığı, bayram və mərasimlər, sosial məişətin ayrı-ayrı tərəfləri ilk dəfə olaraq geniş tarixi-etnoqrafik araşdırmalara cəlb edilir, bölgədə tarixən formalaşan zəngin mənəvi mədəniyyət irsinə tədqiqatçı-etnoqraf münasibəti bildirilir.

Tədqiqat işinin başlıca məqsədi Azərbaycanın Qərb bölgəsi əhalisinin XIX əsr və XX əsrin əvvəllərində mənəvi mədəniyyətinin tarixi-etnoqrafik cəhətdən öyrənilməsidir. Monoqrafiyada bununla əlaqədar aşağıdakı məsələlərin araşdırılmasına cəhd edilir:

-- Folklorda öz əksini tapan xalq həyatının və məişətinin müxtəlif sahələrinin xalqın mənəvi dünyasının formalaşmasına təsiri məsələlərinin tarixi-etnoqrafik baxımdan araşdırılması;

- Bəzən xalq həyatında unudulmuş, lakin folklorda öz izini saxlamış adətlərin elmi-etnoqrafik cəhətdən öyrənilməsi;

- Folklorda özünü göstərən mənəvi mədəniyyət izlərinin xalq həyatında və məişətində paralellərinin tapılıb aşkara çıxarılması;

- Xalq bayramlarının və dinin xalqın həyatında oynadığı rol, onların tarixi kökləri, müasir həyatımızdakı təzahürləri və spesifik xüsüsiyyətləri məsələlərinə aydınlıq gətirilməsi;

- Xalq oyun və əyləncələri ilə bağlı etnoqrafik materialların təhlili, onların məişətdə, el şənliklərində, xalq həyatında yerinin müəyyənləşdirilməsi;



- Elm, xalq maarifi, onların tarixi kökləri, bu sahədə yaradıcı xadimlərin yetişməsi və xalq maarifinin sonrakı inkişafına təsiri kimi sosial məişət məsələlərinin elmi-etnoqrafik araşdırılması;

- Xalq təbabəti, müalicə formaları və bugünkü dövrdə xalq təbabətindən müalicə vasitəsi kimi istifadənin əhəmiyyətinin diqqət mərkəzinə çəkilməsi;

- Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyəti probleminin tarixi-etnoqrafik araşdırmalara cəlb etməklə bu bölgənin ümumazərbaycan mənəvi mədəniyyəti fonunda yerinin və rolunun müəyyənləşdirilməsi, burada mövcud olan etnik-mədəni və mənəvi təfəkkür mühitinin aparıcı mühit kimi üstünlüyünün aşkara çıxarılması.

Qərb (Qazax) bölgəsi əhalisinin mənəvi mədəniyyəti üzrə toplanan etnoqrafik materiallar XIX əsr və XX əsrin əvvəllərini əhatə edir. Lakin mövzu bu dövrü əhatə etsə də, tədqiqat bəzən nəzərdə tutulan ümumi çərçivədən çıxır. Bunun başlıca səbəbi bölgənin mənəvi mədəniyyətinin təkcə XIX əsr və XX əsrin əvvəllərini deyil, daha qədimlərin də izlərini və xalqın həyatının müxtəlif sahələrini özündə birləşdirməsidir. Bu materiallarda təkcə sinifli cəmiyyət dövrü deyil, hətta ibtidai icma quruluşunun da əlamətləri özünə yer tapmışdır. Məhz bu səbəbdəndir ki, mənəvi mədəniyyətdə özünə yer tapan tarixilik prinsipi, eləcə də sosial-iqtisadi, siyasi-mədəni amillər və onların XIX-XX əsrin əvvəllərində mənəvi mədəniyyətdə əks olunması da tarixi-etnoqrafik cəhətdən öyrənilir. Nəticə etibarilə bölgə əhalisinin mənəvi mədəniyyətinin bütün sahələrində tarixi-etnoqrafik varisliyin olduğu təsdiqlənir, mənəvi mədəniyyətin vacib elementlərinin uzun əsrlər boyu fasiləsiz təkamül və inkişaf mərhələləri keçdiyi bəlli olur.

Tədqiqatın əsas obyekti kimi keçmiş Qazax mahalının əhalisi və onun məskunlaşdığı ərazi götürülmüşdür. Bəşərin əski yaranış çağlarından bu ərazinin qədim insan məskəni olduğunu tariximizin müxtəlif dövrlərini özündə əks etdirən Aveydağ, Damcılı, Daşsalahlı, Töyrətəpə, Şomutəpə, Qarğalar təpəsi, Babadərviş, Nadirtəpə, Sarıtəpə və s. arxeoloji

abidələr sübut edir. Antik və ilk orta əsrlər dövründə Qazax Qafqaz Albaniyasının tərkibində olmuşdur. Albaniya ərazisi Kiçik Qafqazdan, Kür-Araz hövzəsindən tutmuş, Böyük Qafqazın şimal-şərq yamaclarına qədər ərazini əhatə edirdi. Bu ərazidə yerləşən Xalxal şəhəri eradan əvvəl III əsrdə daha da inkişaf edərək Alban çarlarının qış iqamətgahına çevrilmişdir. Qazax bölgəsi VIII-IX əsrlərdə ərəblərin, X əsrdə Şəddadilərin, sonralar isə Atabəylərin, Hülakülər-Elxanilərin, Qaraqoyunluların və Ağqoyunluların hakimiyyəti altında olmuşdur. 18 yanvar 1801-ci ildə Qazax sultanlığı Şərqi Gürcüstanla birgə Rusiya imperiyasının tərkibinə birləşdirilmiş, 1826-cı ildə Cənubi Qafqazda keçirilən inzibati-ərazi islahatı ilə əlaqədar olaraq Qazax distansiyasına çevrilmişdir. 1840-1841-ci illərdə çar Rusiyasının keçirdiyi yeni inzibati-idarəçilik islahatlarından sonra Qazax distansiyası Gürcüstan-İmeretiya quberniyasının, 1846-cı ildə isə Tiflis quberniyasının tərkibinə qatılmışdır. 1868-ci ildə Bakı, Tiflis və qismən də İrəvan quberniyalarının əraziləri hesabına Yelizavetpol quberniyası yaradılmış və Qazax bölgəsinin ərazisi bu quberniyaya daxil edilmişdir. Qazax qəzası adı ilə Yelizavetpol quberniyasının tərkibində bu ərazi 1929-cu ilə qədər qalmışdır (138, 20-21, 88, 91-92).

Tədqiqatlar göstərir ki, tarixən Qazax bölgəsinin ərazisi onun indiki ərazisindən daha geniş olmuşdur. Belə ki, hələ XIX əsrin birinci rübündə Qazax bölgəsinin ərazisi bir tərəfdən Dilican dərəsi və Göyçə gölü, digər tərəfdən Borçalı çökəyi və Sığnaq eli, o biri tərəfdən Ceyrançöl və Şəmşəddinlə qədər ərazini əhatə etmişdir (144, 213). Bizim tədqiqat obyekti kimi seçdiyimiz əhali və ərazi müasir inzibati-ərazi bölgüsü üzrə Qazax və Ağstafa rayonlarını əhatələyir.

Azərbaycanın Qərb (Qazax) bölgəsi rayonlarının mənəvi mədəniyyəti bu vaxta qədər tarixi-etnoqrafik cəhətdən geniş tədqiqata cəlb olunmamışdır. İstər XIX əsr nəşrlərində, istərsə də XX əsrin əvvəllərində, eləcə də müasir dövrün tədqiqatlarında Qazax bölgəsi araşdırıcıları əsasən sosial-iqtisadi cəhətdən maraqlandırmış, tədqiqatlar



bilavasitə bu istiqamətə yönəlmişdir. Mənəvi mədəniyyət məsələləri bir qədər kölgədə qalmışdır. Bunun başlıca səbəbləri Qazax bölgəsinin də tərkibinə qatıldığı Rusiya imperiyasının iqtisadi-sosial maraqları ilə izah olunmalıdır. Vaxtilə rus çarı I Pyotr İrana göndərdiyi diplomat Artemi Petroviç Volınskiyə (1689-1740) verdiyi tapşırıqda da bunu qeyd etmişdir. Belə ki, o başlıca olaraq İran və Cənubi Qafqazın iqtisadi və siyasi vəziyyəti haqqında materiallar toplamağı tapşırmışdır (139).

Sovet dövrü tədqiqatçılarının diqqətinin əsasən iqtisadi sahəyə yönəlməsinin başlıca səbəbi isə, fikrimizcə, marksizm-leninizm ideologiyasının materiyanın birinciliyi və ruhun ikinciliyi fikri və bu ideya arxasında gizlənən iqtisadi mənafelər, eləcə də insanın manqurtlaşdırılması siyasətidir. F.Engels göstərirdi: «İnsanlar siyasətlə, elmlə, incəsənətlə, dinlə və s. məşğul olmazdan əvvəl yeməli, içməli və mənzilə sahib olmalıdırlar» (132, 350). Elə bu səbəbdəndir ki, XIX əsrdə D.Zubarevin, İ.A.Serebryakovun, N.F.Dubrovinin, A.D.Yeritsovun, N.A.Abelovun (119, 131; 133; 135; 147) əsərlərində maddi mədəniyyətə geniş yer verilmişdir. B.Veniaminovun əsəri isə (123) maddi mədəniyyət, təsərrüfat və əhalinin sosial tərkibi haqqında məlumat verməklə yanaşı, mənəvi mədəniyyət haqqında da mülahizələr yürütmək baxımından əhəmiyyətlidir. Tədqiqatların bu yönümü XX əsrin əvvəllərində və hətta Sovet dövründə də davam etmişdir.

Qazax bölgəsinin mənəvi mədəniyyətinin öyrənilməsində D.C.Bağırovun əsəri (121) mühüm rol oynayır. Burada müəllif uşaq oyunları, xalq inamları, bayramlar və s. haqqında ətraflı məlumatlar verir. Mənəvi mədəniyyətin öyrənilməsində H.Əlizadənin XX əsrin 30-cu illərində toplayb nəşr etdirdiyi folklor nümunələri də mühüm rol oynayır. Mövzunun araşdırılmasında bizə F.Köçərlinin, S.Vurğunun, H.Qayıbovun, İ.Şıxlının, H.Hüseynzadənin (Hüseyn Arif), F.Eyvazlının, T.Bünyadovun, M.Həkimovun (66; 67; 96; 97; 19; 20; 106; 107; 55; 40; 26; 27; 28; 50; 51) və b. araşdırmaları daha çox yardımçı olmuşdur. Doğrudur, bu əsərlərin çoxu etnoqrafik əsərlər deyildir, lakin faktoloji

materialların səhihliyi və çoxluğu cəhətdən onların hər biri xüsusi əhəmiyyətə malikdir.

Faktik materialların toplanması baxımından «Əkinçi», «Qafqaz» və s. kimi dövri mətbuat orqanları da özünəməxsusluğu ilə seçilir. Araşdırmalarımızın gedişində burada toplanan etnoqrafik materiallardan, yeri gəldikcə, istifadə etməyə çalışmışıq. Bütün bu materiallar Azərbaycanın Qərb (Qazax) bölgəsi əhalisinin mənəvi mədəniyyətinin ayrı-ayrı sahələrini etnoqrafik tədqiqata cəlb etmək, müqayisələr və ümumiləşdirmələr aparmaq, tədqiq olunan bölgənin ümumazərbaycan mənəvi mədəniyyəti fonunda yerini və rolunu müəyyənləşdirmək nöqteyi-nəzərindən olduqca qiymətlidir.

Monoqrafiyanın nəzəri-metodoloji əsasını, ilk növbədə, tədqiqatçı-alimlərin etnoqrafiya elmi sahəsində apardıqları araşdırmalar təşkil edir. Müəllif monoqrafiyada mənəvi mədəniyyət problemini tarixi-etnoqrafik baxımdan araşdırır, onun Azərbaycan tarixi ilə bağlı inkişafının mərhələlərini tədqiq edib öyrənməyə çalışır.

Monoqrafiyanın yazılması üçün əsas mənbə müəllifin 1990-1994-cü illərdə Qazax bölgəsinə elmi-etnoqrafik ezamiyyətləri zamanı topladığı çöl-etnoqrafik materiallarıdır. Eyni zamanda, XIX əsrdən bu günümüzə qədər nəşr olunan məcmuələr, dövri mətbuat, bədii ədəbiyyat nümunələri də əhəmiyyətli mənbə kimi tədqiqata cəlb edilmişdir. Bütün bunlarla yanaşı, mənbəşünaslıq bazası kimi, müxtəlif arxeoloji və tarixi əsərlərə, folklorşünaslıq və sənətşünaslıq əsərlərinə, etnoqraflarımızın digər bölgələrlə bağlı apardıqları araşdırmalara da müraciət edilmişdir.

Monoqrafik tədqiqat əsərində ilk dəfə olaraq Azərbaycanın qərb rayonlarının mənəvi mədəniyyəti tarixi-etnoqrafik baxımdan kompleks şəkildə öyrənilir. Özünəməxsus lokal-məhəlli xüsusiyyətlərə malik olan qərb rayonlarının mənəvi mədəniyyətində öz əksini tapan xalq həyat və məişətinin müxtəlif sahələri, onların ümumi və fərqli cəhətləri müəyyənləşdirilir. İlk dəfə olaraq bölgənin folkloru, musiqisi, xalq bayramları, islam dini və onun nəqşibəndilik təriqəti, oyun və əyləncələri, təbabəti, elm və



maarifi bütövlükdə etnoqrafik cəhətdən tədqiqata cəlb olunur. Xalq həyatından silinmiş, lakin mənəvi mədəniyyətdə, daha doğrusu, folklorda özünü göstərən adətlər, inamlar və s. araşdırılır və bəzi məqamlarda digər bölgələrlə müqayisəli tədqiq olunur. Əsərdə, eyni zamanda, müxtəlif yaradıcı SAhələr üzrə yetişən şəxsiyyətlərin haqqında verilən məlumatlar da özünün ilkinliyi ilə maraqlıdır.

Tədqiqat işinin elmi-praktik əhəmiyyətinə gəldikdə isə qeyd edə bilərik ki, onun materialları və elmi nəticələri xalqımızın mənəvi mədəniyyətinin tarixi-etnoqrafik cəhətdən həm ayrı-ayrı bölgələr üzrə, həm də ümumazərbaycan kontekstində öyrənilməsində, çoxcildlik «Azərbaycan etnoqrafiyası»nın, «Azərbaycanın mənəvi mədəniyyət tarixi»nin yazılmasında, ali məktəblərdə etnoqrafiya elmi üzrə xüsusi kursların və seminarların keçirilməsində istifadə oluna bilər. Monoqrafiyanın elmi nəticələrindən tarixçilər və etnoqraflarla yanaşı, ədəbiyyatçılar, folklorşünaslar, müsiqişünaslar və sənətşünaslar da istifadə edə bilərlər.

Çox təəssüflər olsun ki, təqdim olunan monoqrafik tədqiqat əsəri müəllifin ömrünün çiçəklənən çağında – qırx yeddi yaşında dünyasını dəyişəndən sonra nəşrə hazırlanmışdır. Buna görə də mərhum etnoqraf-alimin ailəsi və qardaşı – folklorşünas-alim, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı monoqrafiyanın geniş müzakirələrində, nəşrə hazırlanmasında iştirak etmiş AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun rəhbərliyinə, «Tarixi etnoqrafiya» şöbəsinin bütün əməkdaşlarına, xüsusilə də əsərin elmi redaktoru, akademik Teymur Bünyadova, elmi rəyçilər – tarix elmləri doktoru Fəzail Vəli İmranoğluna, tarix elmləri üzrə fəlsəfə doktoru, əməkdar elm xadimi Baba Tofiqə, tarix elmləri üzrə fəlsəfə doktoru, şair-etnoqraf Əsəd Əliyevə (Təhləliyə) və əsərin kompüterdə yığılmasında əməyi olan Gülmirə xanım Qasımovaya dərin minnətdarlığını bildirir.

# I FƏSİL

## XALQ YARADICILIĞI

Azərbaycan xalqının yaratdığı zəngin mənəvi dəyərlər içərisində xalq yaradıcılığı - folklor özünün zənginliyi, qədimliyi və janr müxtəlifliyi ilə xüsusi əhəmiyyət kəsb edir. Folklor xalqımızın keçib gəldiyi tarixi inkişaf yolunda onlara daim yol yoldaşı olmuşdur. Orda əcdadlarımızın həyat, dünya haqqında düşüncələri, inamları, arzu və istəkləri, dərdi-qəmi, sevinci və s. əks olunmuşdur. Xalqımızın həyatının elə bir sahəsi, elə bir tərəfi olmamışdır ki, o bu xalq yaradıcılığı nümunələrində öz əksini tapmasın. Zəngin yaradıcılıq sahəsi olan folklor tarixi keçmişimizi, adət-ənənələrimizi, məişətimizi özündə əks etdirən əvəzsiz xəzinədir. Ona görə də bütün araşdırıcılar bu zəngin xəzinəyə müraciət edərək ondan faydalanırlar.

Xalq zəngin bədii yaradıcılıq sahəsi olan folklorun yaradıcısıdır. Ulularımız öz niyyətlərini orada yaşatmaqla bir növ gələcək nəslə çatdırmaq istəmişlər. Həmin yaradıcılıq nümunələrinin toplanıb müxtəlif sahələr üzrə araşdırılması mühüm və vacib məsələ kimi diqqəti cəlb edir. Maldarlıq, əkinçilik və ovçuluqla bağlı yaranan nəğmələrin şübhəsiz ki, olduqca qədim olan bir tarixi vardır. Bunlar maldarlıq, əkinçilik mədəniyyətinin izlərini bu günümüzə qədər özündə qoruyub saxlayır. Eləcə də digər sahələr, mövsüm və məişət mərasimləri və s. xalqımızın yaşayışından, keçib gəldiyi inkişaf yolundan xəbər verir. Bu zəngin xəzinənin bölgələr üzrə araşdırılmasının özünün mühüm əhəmiyyəti vardır. Çünki hər bir ərazinin spesifik xüsusiyyətlərinin tədqiqində xalq yaradıcılığı əsas materialdır.



Azərbaycanın bir hissəsi kimi Qazax bölgəsində də şifahi xalq ədəbiyyatı özünün zənginliyi ilə maraq doğurur. Xalq təfəkkürünün ayrılmaz bir hissəsi kimi diqqəti cəlb edir. Xalqının xarakterini öyrənmək üçün material (130, 236) kimi folklorun etnoqrafik cəhətdən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda demək olar ki, ümumi savadsızlıq şəraitində folklor estetik tələbatı ödəmək üçün ən əhəmiyyətli mənbə rolunu oynayırdı. Şifahi yaradıcılıqda xalqın həyatının və məişətinin ən müxtəlif olan cəhətləri öz əksini tapmışdır (126, 188) Xalq bu nümunələrdə öz arzu və istəyini, sevincli və kədərli günlərini, mübarizəsini əks etdirmişdir. Xalqın həyatı, təsərrüfatı, adət-ənənələri, toyu, yası, əxlaqı, dünyagörüşü və s. folklorda geniş şəkildə əks olunduğu üçün o ən etibarlı mənbədir. Bu sərvətin toplanıb tədqiq olunması həmişə böyük əhəmiyyət kəsb etmişdir. Xalqın musiqisi də folklorla qırılmaz tellərlə bağlıdır və bəzən bunlar bir-birilə elə qovuşur ki, hətta mütəxəssislər belə bir-birindən ayırmaqda çətinlik çəkirlər. Folklor kimi musiqi də xalqın həyatından doğur və xalqı musiqisiz təsəvvür etmək olmaz. Çünki musiqi folklorla bərabər xalqın mərasimlərinin, bayramlarının, toyunun, yasının və s. tarix boyu yol yoldaşı olmuşdur.

Bütün bunları nəzərə alıb digər bir cəhəti də demək lazımdır ki, xalqımızın yaratdığı mənəvi sərvətlərin – folklorumuzun, musiqimizin araşdırılması sahəsində müəyyən işlər görülsə də, hələ onun bölgələr üzrə tədqiqi işinə başlanmamışdır. Buna görə də Qazax bölgəsinin mənəvi mədəniyyətini kompleks şəkildə araşdırmağı qarşımıza məqsəd qoymuşuq.

### 1.1. AŞIQ SƏNƏTİ

Şifahi ədəbiyyatın ən geniş yayılmış qolu aşıq yaradıcılığıdır. Xalqın çoxəsrlik mübarizəsi, arzu və istəkləri, təmiz məhəbbət duyğuları, həyata, cəmiyyətə münasibəti bu zə-

ngin xəzinədə özünün geniş əksini tapmışdır. Elə bunun nəticəsidir ki, aşıqlar xalq arasında böyük nüfuz sahibi olub, «el anası», «el aşığı», «haqq aşığı», «dədə» və s. adlarla xatırlanmışdır.

Aşıq yaradıcılığı öz kökləri etibarilə çox qədimdir. Çünki bu sənət xalqın təsərrüfat həyatından, əmək vərdişlərindən doğaraq yaranmışdır. Y.Ağayev yazır: «Türk-tatar xalqlarının aşıq sənəti onların ərəb və farslarla mübarizəsindən hələ çox qabaq mövcud olmuşdur» (3). «Azərbaycan aşıq sənətinin tarixini hər şeydən əvvəl, bu ərazidə məskən salan yarımköçəri tayfaların məişətində axtarmaq daha düzgündür». Bu sənətin rişələri qədim dövrlərə gedib çıxır. Etnoqrafik müşahidələrdən belə məlum olur ki, aşıq sənətinin yaradıcıları maldar tayfalar olmuşlar (26, 42). Göründüyü kimi, bu fikir aşıq sənətinin mənşəyini çox dəqiq ifadə edir. Çünki dağda, düzdə, çöldə, mal, qoyun otaran maldar – çoban üçün sazı çiynində gəzdirmək daha münasib, daha asandır. Akademik Teymur Bünyadov eyni zamanda aşıq sənətinin tarixini belə qeyd edir: «Faktları diqqətlə təhlil etdikdə Azərbaycan ərazisində yaşayan qəbilələrin 3 min il bundan qabaq sazdan istifadə etdiyinə şübhə yeri qalmır» (26,43). Aşıq yaradıcılığının başqa musiqi sahələrindən qədim olmasını Ü.Hacıbəyov da qeyd edir: «Aşıqlar Azərbaycan bayatılarının və şikəstələrinin ən yaxşı ifaçısıdır. Azərbaycanda aşıqlar sazandalardan əvvəl meydana gəlmişlər» (48, 206). Bu qədim tarixə malik olan sənət sahəsinin xalqa yaxın olmasının başlıca səbəblərindən biri «xalqın öz yaradıcılığı» olmasıdır (48, 206).

Aşıq yaradıcılığı mahiyyəti etibarilə bir çox sənət sahələrini özündə birləşdirir. M.H.Təhmasib yazır: «Aşıq xalq sənətkarıdır. Bu sənət həmişə sinkretik olmuş, indi də sinkretikliyin bütün xüsusiyyətlərini özündə yaşatmaqdadır. Yəni bu gün də aşıq həm şair, həm bəstəkar, həm dastançı, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm də nağılçıdır. Başqa şəkildə deyilsə o, həm şeir, həm dastan,



həm də musiqi havaları yaradan, yaratdıqlarını isə öz məlahətli səsi ilə, məharətli barmaqları ilə ifadə etməyi bacaran bir sənətkardır (110, 28). Böyük bəstəkarımız Bülbül də təqribən bu fikri irəli sürür: «Aşıqlar hər şeydən əvvəl şairdir, ifadə etdiyi mahnıların yaradıcısıdır. Aşıq müğənnidir. O öz nağılının xeyli hissəsini mahnı şəklində ifadə edir. Aşıq çalğıçıdır. O öz hekayəsini və mahnısını saz ilə müşayiət edir. O özünəməxsus xarakterik mimika ilə müşayiət edir, gəzişir, rəqs edir, çox vaxt hekayə qəhrəmanının hərəkətini təsvir edir. Aşıq reçitativ ifaçılıq ustasıdır» (25, 139). Buradan göründüyü kimi, aşıq demək olar ki, öz qəhrəmanının həyatını yaşayır. Onun hərəkətlərini, ağrı və əzablarını, sevincini qəhrəmanı ilə birgə çəkir, birgə dərdlənib, birgə gülür. Elə bunun nəticəsidir ki, aşıq sənəti xalqın ən doğma sənəti olmuşdur. H.Zərdabi xalqın bu sənətə olan məhəbbətini belə ifadə edir: «Bizim Qafqaz müsəlmanlarına heç bir yazı və dil ilə deyilən söz o qədər əsər etməz, necə ki, şeir ilə deyilən söz… Bir baxın aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara. Bu zaman qulaq asanlar elə hala gəlirlər ki, bəistilahi-türk, ətin kəssən də xəbəri olmaz. Elə ki, sonra toy qurtardı, aşıqlar evlərinə getdi, beş-on gün uşaqlar oxuya-oxuya gəzirlər və bir-birlərinin qələtlərini düzəldirlər» (117). Bütün bunlar aşıq sənətinin xalq arasında böyük nüfuz qazandığını göstərir.

XIX əsrdə və XX əsrin əvvəllərində aşıqlar öz fəaliyyətlərini əsasən kəndlərdə həyata keçirirdilər. El aşıqları öz sazları ilə toylarda, el şənliklərində, bayramlarda, məclislərdə iştirak edir, çaldıqları havalarla oxuduqları mahnılarla, danışdıqları dastanlarla xalqı sevindirirdilər.

XIX əsr aşıq yaradıcılığının inkişafında xüsusi mərhələdir. Bu dövr yeni-yeni ustad sənətkarların meydana çıxması və yeni saz havalarının yaranması ilə xarakterizə olunur. Bunun başlıca səbəbi odur ki, «XIX əsrin başlanğıcından etibarən aşıq şeiri və musiqisi böyük inkişaf yoluna düşür.

Hər şeydən əvvəl, sazın quruluşca təkmilləşməsi – pərdə və simlərin nizamlı düzülüşü ilə, bütün bunların yekunu kimi də sazda üç melodik səs axarının yaranması ilə əlaqədar ortaya çıxır. Bir sözlə, sazda məhsuldar pərdələrin sayı bir deyil, üç olur. Yəni sazın daha iki pərdəsi müəyyən təkamül prosesi keçirərək şah pərdə səviyyəsinə qalxır. Ona görə də bu dövrdə yeni saz havalarının yaranması üçün olduqca əlverişli imkan yaranır» (87, 4). Elə həmin dövrdə Yəhya bəy Dilqəmin yaradıcılığı ilə bağlı Dilqəm kökü yaranır. Məhz «Cəlili», «Qəhrəmani», «Dilqəmi», «Göyçə gülü», «Göyçə şərilisi» və s. saz havaları da bu əsrdə yaranır. Aşıq Zülfüqar «Qazax səbzəsi», «Qazax dübeytisi»ni yaradır. Hər iki hava əvvəlki dövrlərdən inkişaf edib gələn müvəffəqiyyətin məntiqi nəticəsidir. Hələ buna qədər M.P.Vaqif tərəfindən «Vaqifi», M.V.Vidadi tərəfindən «Qazax yurd yeri» havaları yaranmışdır. Belə irad tutula bilər ki, Vaqif və Vidadi aşıq deyil, şairdir. Lakin qeyd etməliyik ki, hər iki sənətkarın yaradıcılığının əsasını aşıq şeiri üslubunda yazılmış şeirlər təşkil edir. Onların yaradıcılığı təkcə Qazax aşıq yaradıcılığına deyil, bütünlükdə sonrakı dövr ədəbiyyata təsir göstərmişdir. Şübhəsiz ki, hər iki el şairi saz çala bilmişlər. Digər tərəfdən Vidadinin saz çala bilməsini Vaqifin ona yazdığı məktub-qoşmasından da aydın şəkildə görürük:

Hatəm ağanın ki, sazın çalarsan,
Eşqin atəşini cana salarsan (19, 27).

XIX əsrdə öz inkişaf səviyyəsinə görə aşıq sənəti Qazaxda başqa mahallara nisbətən daha çox inkişaf etmişdi. Lakin «mətbuatın əhatə dairəsinin hələ lazımı qədər geniş olmadığı əsrlərdə aşıq yaradıcılığı daha çox məhəlli olurdu» (4, 206). Aşıq sənətinin məhəlli xarakterli olması fikrini qəbul etməklə yanaşı, qeyd etməliyik ki, ayrı-ayrı yerlərdə yaranan aşıq yaradıcılığı öz içinə qapılıb qalmamış, bir-



birinə qarşılıqlı sürətdə təsirini göstərmiş və inkişaf etmişdir. Bu dövrdə Qazax aşıq yaradıcılığı Göyçə, Tovuz və Borçalı aşıq məktəbləri ilə təmasda daha çox uğurlar qazanmışdır. Məsələn: T.Miralay ustad aşıq Ələsgərin Qazaxa gəldiyini söyləyir (80). Sonra müəllif ustad aşığın 1924-cü ilədək Gəncə və Qazax qəzalarında dəfələrlə səfərlərdə olduğunu söyləyir. Eyni zamanda, Ağ Aşığın və Aşıq Alının əsərlərindən aydın olur ki, onlar da Qazaxda olmuş, heç şübhəsiz ki, məclislər keçirmişlər (56, 56-57). Bu təmaslarda Qazax aşıq yaradıcılığının özünün spesifik xüsusiyyətləri yaranmışdır. Belə ki, Göyçə və Borçalı aşıqları əsasən fərdi şəkildə, Tovuz aşıqları balabanla məclis aparmışdılarsa, Qazax aşıqları orta mövqeydə durmuşdular. Burada balabansız məclis aparan aşıqlarla yanaşı, balabanla məclis aparan aşıqlara da təsadüf edilirdi. Başqa bir tərəfdən Qazax aşıq sənətində yaradıcı aşıqlar deyil, peşəkar aşıqlar çoxluq təşkil edirdi. Çox təəssüf ki, onların çoxunun adı bizim üçün naməlum qalmışdır.

Bu dövrdə artıq aşıq məclislərinin keçirilməsi qaydası formalaşır. M.Qasımlı aşıq məclislərinin «Baş divani» ilə açıldığını göstərərək yazır: «Aşıq məclisləri, bir qayda olaraq, ağıl, könül havası sayılan «Baş divani»ylə açılır. Onun «Məclis divanisi» adıyla adlanması da bu səbəbdəndir (68, 69). Ustadnamələrdən sonra «El havası» («Qaraçı» da deyirlər) və s. aşıq havaları üzrə şeirlər oxunardı. «Qaraçı» xalq arasında ən çox sevilən hava olmuşdur. «El havası» adlanması da çox güman ki, elə bununla bağlıdır. Çünki bu hava xalqın həyatından törəyir, aran-dağ köçünü özündə əks etdirir. Rəşid Göyçəlinin dili ilə desək, hər dəfə «Qaraçı» havasını eşidəndə uşaq vaxtı gördüyümüz çənin-çisəyin içindən köçən «arançı köçü» yada düşür (125, 9). Məclislər bir neçə gün çəkər və bu zaman dastanlar söylənilərdi. Bu dastanlar öz ideyasından, yəni qəhrəmanlıq və məhəbbət dastanı olmasından asılı olmayaraq tam şəkildə söylənər və maraqla sonadək dinlənərdi. Bu dastanlar adətən «Aşıq

Qərib», «Əsli və Kərəm», «Şah İsmayıl», «Koroğlu» və s. ibarət olardı. P.Bostrikov XX əsrin əvvəllərində aşıqlar haqqında yazırdı: «Aşıqlar əsasən kəndlərdə olurlar. Onları xalqın öz içindən çıxan adamlar təşkil edir. Aşıqların sayı ikidən az olmur, biri sazda çalıb oxuyur, o biri balabanda onu müşayiət edir, bəzən məclisdə əllərində saz iki ustad aşıq olur; onlar növbə ilə çalıb oxuyur və deyişirlər. Aşıqlar Zaqafqaziya (Cənubi Qafqaz – M.A.) əyalətlərində kəndlərdə sazandarlar şəhərlərdə malik olduqları qədər hörmətə malikdirlər» (60) . Aşıqlara bu zaman hətta qaçaq dəstələrində də rast gəlmək olurdu. Qaçaq Kərəmin dəstəsində gözəl səsi və yaradıcılıq qabiliyyəti olan İncəli Aşıq Abdulla olmuşdur.

Aşıqlar yaradıcılıq qabiliyyətlərinə görə müəyyən qruplara ayrılır. Folklorşünas V.Vəliyev onları ustad aşıqlar, ifaçı aşıqlar və el şairlərinə bölür (113, 147-148). P.Əfəndiyev isə onları ustad və ifaçı aşıqlar adı ilə qruplaşdırır (41, 170). Bizcə, V.Vəliyevin bölgüsü daha düzgündür. Çünki, el şairlərinin səsləri olmasa da, məclis aparmasalar da, onlar saz çala bilmiş və yaratdıqları aşıq ədəbiyyatının tərkib hissəsinə çevrilmişlər.

Bu dövrdə qaçaq hərəkatı ilə bağlı çoxlu dastanlar yaranır. Bunun nəticəsində XIX əsrin ikinci yarısından etibarən aşıq yaradıcılığında müasir mövzular, mübarizə motivləri ön plana keçir. Bu dövr dastanların məzmun və forma xüsusiyyətində də müəyyən dəyişikliklər nəzərə çarpır. Klassik aşıq dastanlarından fərqli olaraq tarixi səpkili hekayələr şəklini alırlar. Bu dövrdə, daha doğrusu, XIX əsrin ortalarından etibarən Qaçaq Kərəmlə bağlı dastan-hekayələr yaranmağa başlayır.

Aşıq yaradıcılığı öz qidasını xalqın həyatından alır. Xalqın təsərrüfatı, mədəniyyəti, adət-ənənəsi, əxlaqı, məhəbbəti, ictimai vəziyyəti və s. aşıq yaradıcılığının mövzusuna çevrilir.



XIX əsr Azərbaycan aşıq ədəbiyyatının inkişafında Qazax aşıqlarının xüsusi rolu vardır. Bu dövrdə yaşayıb yaradan aşıqlardan biri Aşıq Mayıldır. Ədəbiyyatçılar onun Qazax və Tovuz tərəflərdən olduğunu ehtimal edirlər (14, 272). Yüksək təbə malik olan bu sənətkarın həyatı haqqında məlumat olduqca azdır. Lakin «Tənbəl» adlı şeirindən aydın olur ki, o, sovet hakimiyyətinin ilk illərində həyatda olmuşdur. Aşığın yaradıcılığının əsasını məhəbbət, qadın gözəlliyi, əhd, vəfa və s. təşkil edir:

Dosta dost ol gözəl gülgəz,
Seyraqubun bağrını əz.
Sən yaxşısan yaxşıyla gəz,
Qoşulma yamana, Zöhrə.

Aşıq bu gözəli bütün geyimi, bəzəyi ilə təsvir edir. Aşığın «qaşı qara», «xalı hindu, gözü şəhla», «qaşları kaman», «qumru avazlı, şirin sözlü» gözəlləri yaşıl, al geyir, üzündə rübəndi ilə «cilvələnən yaşılbaşa» bənzəyir. Aşıq «peykan kirpikli», «ala gözlü, mah camallı, siyah xallı, sona sığallı» gözəli «nazik əldə corab toxuyan» yerdə görüb təsvir edir. Onun gözəli əyninə al-qırmızı geymiş, başına qırmızı şal örtmüşdür. Aşıq hətta onun yaşını da qeyd edir:

Töküb gərdəninə qara telləri,
Zülflərin tağı nə gözəl-gözəl –

deyən aşıq gözəlin əyninə zər-ziba, əlində güllü dəsmal, telində şirmayə şana, başında cuna, belində gümüş kəmər olduğunu sənətkarlıqla təsvir etməklə, gözlərimiz qarşısında onun sürətini canlandırır.

Qazax aşıqları içərisində Miskin Əli də öz yaradıcılığı ilə seçilir. H.Əlizadə onun 1881-ci ildə dağ kəndində doğulduğunu, mal-qara otardığını və dülgərlik etdiyini göstərir (9,

430). Aşığın şeirləri əsasən qadın gözəlliyinin tərənnümünə həsr olunmuşdur:

Xub saxla namus, arını,
İstərəm etibarını,
Atıb vəfalı yarını,
Seyraqubu bulma, aman.

Göründüyü kimi, burada namus, ar, etibar, vəfa başlıca məsələ kimi diqqət mərkəzində durur.

Qazax şairləri içərisində Aşıq Həsən də maraq doğurur. Onun təsvirləri özünün obrazlılığı və səmimiliyilə diqqətəlayiqdir:

Qarğı barmaqlarda gümüşdən üzük,
Minadı gərdəni, incəsi nazik,
Bəyaz biləklərdə qızıl bilərzik,
Dolanıb qollarda çalxalanırmı?

Aşıq hətta «al, şal geymiş», köynəyinə zər bəzənmiş gözəlin haqqında danışarkən öz elinin-obasının da adını çəkir.

İyid sözü mərdanə,
Obası Eynallı Gülnaz.

Aşıq Cəfərin isə şeirlərində bu gözəlliklərin təsviri ilə yanaşı, qadın tənbəlliyi, səliqə-sahmana fikir verməməsi də tənqid olunur. Onun «Dul arvad» şeiri bu baxımdan maraqlıdır:

Quruyar üstündə xamır duvağın,
Silməz qab-qaşığın, yumaz tabağın,
Qonaq görçək salar qaşın-qabağın (10, 6).

Aşıq Mənsurun da yaradıcılığı bu dövr ədəbiyyatın xarakterik xüsusiyyətlərini yaşatmaqla özünəməxsusluğu ilə seçilir. Elin-obanın dərdi-sərini, adət-ənənəsini özündə əks etdirir. Onun ustadnamə tipli «Qocalar» şeiri müəllifin dünya haqqında düşüncələrini əks etdirir, insanlardakı dualist xarakteri, yaxşılıq, yamanlıq münasibətlərini açıqlayır:



Yaxşı adam bu dünyada ölməsin,
Yaman adam uzun ömür sürməsin,
Oğulsuz kişinin varı olmasın,
Hər sabah malını sanar, qocalar.

Aşığın «Yaradan canım» təcnisi milli psixologiyamızı, adət-ənənələrimizi açmaq baxımından əhəmiyyətlidir:

Düşmən, bu qisası səndən alaram,
Əgər ki, almasa yaradan canım.

Burada bəzən əsrlərdən bəri davam edən düşmənçilik, qan izləri, qisasçılıq qalır. Şeir özünün poetikliyi ilə diqqəti cəlb edir. Lakin çox təəssüflər olsun ki, ustad sənətkarın yaradıcılığındakı bu xüsusiyyətlər nəinki araşdırılmamış, hətta toplanıb çap olunmamışdır. Elə sənətkarlar var ki, ancaq onların haqqında xalq arasında müəyyən xatirələr, əhvalatlar yaşayır. Şeirləri isə toplanıb çap olunmadığı üçün unudulmaq üzrədir. H.Əlizadənin bu aşıq-şairlərin şeirlərinin toplanmasında xidməti əvəzsizdir. İndi onların həyat və yaradıcılığının öyrənilməsi vaxtı çatmışdır. Mənəvi mədəniyyətimizin öyrənilməsində həmin sənətkarların yaradıcılığı böyük əhəmiyyətə malikdirlər.

Qazax mahalında Kəsəmənli Qəmli Hüseyn və Aşıq Əli Köçəsgərli də tanınmış aşıqlardan olmuşdur. Lakin bununla belə, o dövr aşıqların yaradıcılığı haqqında məlumat çox azdır. Bunun başlıca səbəbi, bizə belə gəlir ki, mahalda yaradıcı aşıqların az olub peşəkarların əksəriyyət təşkil etməsilə bağlıdır. Bildiyimiz kimi, peşəkar aşıqlar aşıq sənətinin inkişafında, təbliğində nə qədər böyük rol oynasalar da, onlar yaddaşlardan tez silinib gedir. Lakin bununla belə aşıq yaradıcılığı öz inkişafını davam etdirmiş, müasir dövrümüzdə xalq arasında geniş şöhrət qazanan Şıxlı

Dərya Məhəmməd, Qaymaqlı, «İncə Gülü» havasının yaradıcısı Aşıq Avdı, Kəmərli Aşıq Calal («Calaloğlu» havasının yaradıcısı), H.Xaloğlu və s. kimi aşıqlar yetişmişdir.

## 1.2. EL ŞAİRLƏRİ

Aşıq yaradıcılığının mühüm bir hissəsini el şairlərinin yaradıcılığı təşkil edir. Lakin bu sənətkarlar bir sıra xüsusiyyətləri ilə aşıqlardan fərqlənirlər. Belə ki, onlar ustad və peşəkar aşıqlardan fərqli olaraq heç vaxt məclis aparmayıblar. Eyni zamanda, onların nə yaxşı oxumağı, nə də səsləri olmamışdır. Çalmağı da yüksək səviyyədə bacarmamışlar. Bütün bunlarla yanaşı, onlar özlərinin yaradıcılıq ruhu, mənəvi aləmlərinin bağlılığı etibarilə xalq yaradıcılığı ilə əlaqəlidirlər. Xalqın həyat tərzi, məişəti, düşdüyü problemlərlə birgədirlər. Hətta demək olar ki, həmin vəziyyətlərin fəal iştirakçıları, dərd-sərlərin daşıyıcılarıdırlar. Məhz belə keyfiyyətləri etibarilə bu sənətkarlar aşıqlar kimi xalqın sevimlisi, elin-obanın dar gündə dayağı, məsləhətçisi olmuşlar.

El şairləri öz əsərlərini sazın ümumi ahənginə uyğun olaraq yaratmışlar. Onların şeirlərində dil sadəliyi, fikir aydınlığı, məna tutumu da bunu göstərir. Məhz ona görə də el şairlərinin şeirləri də, aşıqların şeirləri kimi məclislərdə müxtəlif havacatlar üzərində oxunmuşdur. Xalq tərəfindən böyük məhəbbət hissilə qarşılandığından, əzbərlənmişdir. Onların yaradıcılığında mövzu rəngarəngliyi də olmuşdur. Təbiətin əsrarəngiz gözəlliyi, təmiz məhəbbət duyğuları, dövrün bu və ya digər sosial-siyasi hadisələri həmin sənətkarların yaradıcılığının əsas motivini təşkil etmişdir. Xalqın onlara olan məhəbbətinin digər bir səbəbi də geniş kütlənin dərdi-sərinə yanmaları, ağrılı-acılı həyatına şeirlər həsr edib ona tənqidi münasibət bəsləmələrində olmuşdur.

El şairləri aşıq poeziyasının inkişafında, zənginləşməsində mühüm rol oynamışdır. Ə.Axundov bu məsələ ilə əlaqədar olaraq yazır: «Klassik aşıq şeirlərindən və xalq dastanlarından qidalanan bu el şairləri də aşıq tərzində yaradır, bu əsərlər də aşıqlar tərəfindən şifahi yolla yayılır, aşıq ədəbiyyatı əsərləri sırasına keçirlər. Onlar da aşıq ədəbiyyatının bütün janrlarında öz qələmlərini sınayaraq sənətkarlıq baxımından yüksək səviyyəli sənət nümunələri yaradırlar. Müxtəlif səpkili qoşma, gəraylı, bayatı, təcnis, cığalı təcnis, dodaqdəyməz, divani, müxəmməs və s. şəkillərdə qələmlərini sınayaraq dövrün aktual problemlərinə münasibətlərini bildirirlər.(4, 178).

Aşıq sənətinin beşiyi olan Qazaxda da, respublikamızın digər bölgələrində olduğu kimi, qüdrətli el şairləri yaşayıb yaratmışdır. Həmin sənətkarlar hələ öz sağlığında dövrün qabaqcıl dünyagörüşlü adamlarının diqqətini cəlb etmiş, hətta əsərlərinin müəyyən hissəsi onların tərtib etdiyi məcmuələrə düşmüşdür. Müəyyən bir qismi isə xalq arasında yaşayaraq nəsildən-nəsilə keçib yaddaş adamlarının, şeir, sənət həvəskarlarının hafizəsində bizə qədər gəlib çatmışdır. Onu da qeyd edək ki, müəyyən bir hissəsi el aşıqlarının repertuarında səslənməklə məclislərdə müxtəlif havacatlarda oxuna-oxuna bu günümüzə gəlib çatmışdır. XIX əsr və XX əsrin əvvəlləri üçün xarakterik olan cəhətlərdən biri el şairləri arasında məktublaşmalardır. Onlar dövrün bu və ya digər məsələsilə bağlı müasirlərinə məktublar yazır və müqabilində həmin sənətkarların hadisəyə münasibətini öyrənirdilər. Belə poetik nümunələr mühüm əhəmiyyət kəsb edərək çox böyük sürətlə xalq arasında yayılır və sevilə-sevilə məclislərdə söylənməyə başlayırdı. Qazax el şairləri həmin dövrdə istedadı, fərdi yaradıcılıq keyfiyyətləri ilə həmin dövrdə diqqət mərkəzində olmuşlar. Onlar yaşadıqları ərazidən çox-çox uzaqlarda müasirlərinin diqqətini cəlb edərək çoxlu mənzum məktublar almışlar. Həmin məktublarda onlara ustad sənətkar kimi müraciət edilir və əhli-hal sahibi sayılırdılar. Əbdürrəhman ağa Dilbozoğlu, Kazım ağa Salik, Mustafa ağa Arif Şıxlinski və

başqaları belə şairlərdən idi. XIX əsrdə Qazaxda yaşamış el şairləri həm say etibarilə, həm də bədii yaradıcılıq dəyəri etibarilə mühüm maraq doğururlar. Onların hər biri özlərinin yarıdıcılıq taleyi ilə diqqətəlayiqdir. Bəziləri haqqında kifayət qədər materiallara rast gəliriksə, həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermək mümkünsə, bəziləri haqqında məlumat çox azdır. Ya şeirlərindən bir neçə nümunə var ya da müasirlərinin əsərlərində adları çəkilir, haqqında ötəri məlumatlar verilir. Elə sənətkarlar da vardır ki, bütün yaradıcılığı ilə unudulmaq üzrədir. Ancaq ağsaqqal və ağbirçəklərin, şeir-sənət həvəskarlarının hafizəsində qalıblar. Bu el şairləri haqqında ayrılıqda məlumat verməyə çalışacağıq. Onların bəziləri tərəfimizdən ilk dəfə ədəbi ictimaiyyətə çatdırılır.

**ƏBDÜRRƏHMAN AĞA DİLBOZOĞLU:** Qazax mahalı şairləri içərisində öz dəst-xətti, xüsusi deyim tərzi olan şairlərdən biri Əbdürrəhman ağa Dilbozoğludur. O, Qazaxda məşhur Dilbozoğlular nəslindəndir. Xanlıqlar kəndində anadan olmuş, şeirlərini «Şair» təxəllüsü ilə yazmışdır. Çox təəssüf ki, onun haqqında yazan tədqiqatçılar anadan olma tarixini müəyyənləşdirə bilməmişlər. Şairin bir şeirindən aydın olur ki, 1797-ci ildə onun gözləri çıxarılmışdır. Və həmin vaxt onun qırx bir yaşı olmuşdur. Buradan da məlum olur ki, o, 1756-cı ildə anadan olmuşdur. Lakin onun ölüm tarixi hələlik qaranlıq olaraq qalır. Bir onu söyləmək olar ki, 1804-cü il Gəncə hadisələrinə iki şeir həsr etmişdir. Deməli o bu vaxtdan sonra da yaşamışdır (5).

Şeirlərindən göründüyü kimi, Əbdürrəhman ağa yüksək istedada malik olmuşdur. F.Köçərli onu «mədəni, fəsih və dilavər» bir adam kimi xarakterizə edir. Şairin bizə çatan şeirləri əsasən onun öz halını təsvir edir:

Mən qəribəm vətənimdə, qazılar,
İtirmişəm ağır ellər, ağlaram.
Könül həsrət qaldı, can intizarda,
Gözlərəm sübhü şam yollar, ağlaram (20, 127) -



deyən şair öz halı ilə bərabər, vətəninin asılılıq dərdinə də yanır:

Yüz verdi qovğayi-dəşti-Kərbəla,
Ruslar Gəncə şəhərin viran eylədi.

Bütün bunlar şairin həmin hadisələrin şahidi olduğunu və ürək ağrısı ilə qarşılaşdığını göstərir.

**ŞƏHRƏBANU:** XIX əsrdə yaşayıb yaradan Qazax el şairlərindən biri də Şəhrəbanudur. Ağsaqqalların verdiyi məlumata görə, o, Barxudarlı kəndindəndir. Haqqında olduqca az məlumat vardır. Anadan olma və vəfat tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. XIX əsrin 50-90-cı illərində yaşadığı ehtimal olunur. Ancaq haqqında şeir, sənət biliciləri müəyyən xatirələr, əhvalatlar danışır. Deyilənə görə yüksək təbə malik şair olmuşdur. Bunu məlum şeirlərinin dil gözəlliyi, sənətkarlığı da aydın göstərir.

Onun bizə gəlib çatan «Nadana verdilər» şeirinin yüksək sənət keyfiyyətləri diqqəti cəlb edir. Bu şeirdə o dövr azərbaycanlı qadınların hüquqsuzluğu, onların rəyi soruşulmadan istənilən adama verilməsi aydın görünür:

Necə deyim zalı matam yaşasın,
Otağına zəri-zərbaf döşəsin,
Məni necə verib elə boşasın
Anam, məni bir nadana verdilər,
Günahıma, babalıma girdilər! (15, 199)

Yanıqlı və şirin bir dildə yazılmış bu şeirdə qadınların hüquqsuz taleyi təsvir edilmişdir. Çünki bu dövrdə «nikah valideynlərin istəyindən asılı olurdu» (131, 372). Eyni zamanda boşanma da birtərəfli olaraq kişilərin istəyi ilə baş verən hərəkət idi (141, 80). Bəzən də işə qızın atasının qarışması nəticəsində nikah pozula bilərdi. Bu şeirdən eyni zamanda qızın rəyi soruşulmadan qazıların kəbin kəsdiyi «Lənət gəlsin kəbin kəsən qazıya» - misrasından aydın gö-

rünür. Etnoqrafik cəhətdən maraqlı olan bu şeirdə o dövrün xeyli həyat cizgilərinə rast gəlmək olar. Şeirdə çörək növü lavaşın, maldarlıqda qoyun və öküzün adı çəkilir. Eyni zamanda, çovdarların mal-qara alveri ilə məşğul olduğu göstərilir. Şeirin sonuncu bəndi çox maraq doğurur:

Mən Şəhrəbanuyam, xına bağlardım,
Siyah tellərimi yana bağlardım,
Kələğay altından cuna bağlardım,
Ana, məni bir nadana verdilər,
Günahıma, babalıma girdilər! (15, 200)

Bu bənddən həmin dövr gəlinlərin saçlarına xına qoymaları, onu yana daramaları aydın görünür. Fərdi səciyyə daşıyan bu şeirdə güclü ümumiləşdirmə qabiliyyəti nəzərə çarpır. Şair öz həyatını təcəssüm etdirməklə, bir növ, o dövr haqqında ümumi məlumat verir, yaşadığı tarixi mərhələnin bəlalarını poetikləşdirir. Yuxarıdakı bənddə baş örtüyü kimi kəlağayının adı çəkilir. Altından cuna bağlandığı göstərilir.

Şəhrəbanunun bu şeiri özünün etnoqrafik zənginliyi, tarixi əhəmiyyəti ilə diqqəti cəlb edir. Bir sıra ictimai bəlaları özündə təcəssüm etdirir. Eyni zamanda XIX əsrdə yaşayıb yaradan qüdrətli bir şairin olmasından məlumat verir.

**İSRAFİL AĞA KƏRBƏLAYEV**: Azərbaycanın qərb rayonlarında Qaçaq Kərəmlə İsrafil ağa haqqında çoxlu hekayə və rəvayətlər dolaşmaqdadır. Məclislərin, yığnaqların şirin söhbətidir. Hər iki el qəhrəmanı bir-birilə möhkəm bağlıdır. Birindən danışarkən digərini xatırlamamaq mümkün deyildir. Sanki onlar bir-birini tamamlayır.

İsrafil ağa ilə Qaçaq Kərəm ilk əvvəl dost olmuş, aralarında yaranan düşmənçilik münasibətləri sonralar baş vermişdir. Lakin düşmən olsalar da, el-oba arasında özlərinin mərdliyi ilə böyük hörmət qazanmışlar.

İsrafil ağa kimi tanınan bu el qəhrəmanı həm də şair olmuş, aşıq yaradıcılığı ruhunda şeirlər yazmışdır. O, XIX



əsrin 60-cı illərində Qıraq Kəsəmən kəndində anadan olmuşdur. Orada boya-başa çatıb el qəhrəmanı kimi məşhurlaşmışdır. «Sail» təxəllüsü ilə şeirlər yazan bu şəxs xalq şeirinin qoşma, gəraylı, bayatı, müxəmməs, divani və s. növlərində yüksək səviyyəli sənət nümunələri yaratmışdır. Əlimizdə olan «Dağlar» qoşması onun rəvan təbə, gözəl yaradıcılıq qabiliyyətinə malik olmasını göstərir:

Bahar fəsli Şəmşabadın yaylağı,
Ötər bülbülləri salar afaqi,
Dalbatlı bucağı, qırxlar xatiri,
Xoş keçəydi, ürüzgarın, a dağlar.

Baratdan aşanda yadıma düşdü,
Ötəndə qarşımdan xüblar ötüşdü,
Kül olsun gözünə ellərin köçdü,
Kimə qalıb yaylaqların, a dağlar.

Bir yanın Babacan, Şamlıq meşəsi,
Açılıb laləsi, tər bənövşəsi,
Dilican Dərəsi, Məmməd körpüsü,
Boş qalmasın oylaqların, a dağlar.

Burada şair o zamankı elin-obanın köçlü-qalaçalı həyatını, aran-yaylaq köçünü, buz bulaqların, laləli, nərgizli yaylaqların əvəzsiz təbiətini şirin bir dillə poetikləşdirir. Sanki babalarımızın köç edib yurd saldığı dağların xəritəsini cızır. Həmin yerlərin yurd-yurd adını pasportlaşdırır. «Kül olsun gözünə ellərin köçdü, Kimə qalıb yaylaqların, a dağlar» - deməklə şair gələcək faciələrimizi intuitiv bir duyumla görür. Şair bu yerlərin gözəlliyindən doymur. Bənövşəli, laləli, reyhanlı talaları, maralların oylağı olan yaylaqları vəsf edir, bir rəssam qüdrətilə kağız üzərinə köçürür, füsunkar təbiəti gözlərimiz önündə canlandırır. Bu şeir

İsrafil ağanın bir el şairi kimi yüksək təbə malik olduğunu və mükəmməl yaradıcılıq yolu keçdiyini göstərir.

**KAZIM AĞA SALİK:** Qazax mahalının ən məşhur el şairlərindən biri Kazım ağa Salikdir. O, 1781-ci ildə mahalın Şıxlı kəndində anadan olmuşdur. Lakin şair əslini şeirlərin birində belə təsvir edir:

Adım Kazım, vəli «Salik» ləqəb, şeirdə məşhurəm,
Ki ovtanım kənari-Kür, şikargahım Qarayazı.
Binayi-biki-nəxli-əslimiz Şəmkirdir amma,
Vəli tifli vücudumdur məkidə şiri Dilbazi
Şeyxzadə deyərlər bizlərə, gəlmiş Qazaxlıdan,
Şıxlı qəryəmizdir, həm biziz ol qəryə ezazı (20, 60).

Bu şeir Kazım ağa haqqında mükəmməl bir məlumat verir. Onun əslən Şəmkirdən olmasını aydınlaşdırır. Nəslinin Şeyxzadə kimi tanındığını müəyyənləşdirir. Eyni zamanda məlum olur ki, anası Dilbazilərdən olmuşdur. Çox güman ki, Şıxlı kəndinin adı da bu nəslin adı ilə bağlıdır. F.Köçərli onun haqqında yazır: «Molla Pənah Vaqifdən sonra mərhum Kazım ağa Salik nəinki vahid Qazax mahalında, bəlkə təmami Zaqafqaziyada (Cənubi Qafqazda – M.A.) zühür edən şüəranın müqtədirlərindən birisi hesab olunur» (66, 269). Şair mücərrəd mövzulardan çəkindiyi kimi, mövzu təkrarından da bacarıqla qaçmış və hər şeirini müəyyən hadisə ilə əlaqələndirmişdir (70, 62). Yaradıcılıq üçün mühüm keyfiyyət olan bu hal şairin özünə tələbkarlığından, dövrün hadisələrini əks etdirmək istəyindən irəli gəlmişdir.

Kazım ağa Salik şeirlərinin bir qismini gözəllərin mədhinə həsr etmişdir. Bu gözəllər onun şəxsən görüb tanıdığı gözəllərdir. Onların hamısını yüksək bir məhəbbətlə tərənnüm edir. Onların təsviri /Ceyran xanım, Tuba, Göyçədən gələn gözəl, Varşavadan gəlmiş polyak qızı/ müəyyən dərəcədə məhəlli koloriti daşıyır. Yüksək təbə malik olan bu



el şairinin şeirlərində fikir özü sadə və aydın deyimi ilə diqqəti cəlb edir:

Ey ləbləri nabat, dəhanı püstə,
Çəkər həsrətini bu dili-xəstə,
Xal deyil görünən ağ sinən üstə,
Bir quran hərfidir qaralanıbdır.

Bu şeir şairin orijinal təfəkkür tərzinə malik olmasını bir daha təsdiqləyir. Burada şairin müqayisələri onun fitri qabiliyyətinin nəticəsi kimi nəzərə çarpır. Müəllif həsrətini çəkdiyi «ləbləri nabat, dəhanı püstə» gözəllərin geyimlərini, bər-bəzəklərini də müəyyən ştrixlərlə verir. Bu gözəllərin «yaxası qızıl düyməli», «belində kəmər», «əlləri hənalı», «ayaqlarında başmaq, qaşları vəsməli» olduğunu şeirlərində müəyyən işarələrlə verir.

Şairin Kəmərli İbrahim ağa Qiyasbəyova yazdığı şeiri də tarixi əhəmiyyəti, etnoqrafik məlumatları əks etdirməsi baxımından qiymətlidir. Kazım ağa Salik ondan şaftalı, əncir, üzüm istəyərək XIX əsrdə həmin ərazidə bağçılığın inkişaf etdiyini göstərir. Şeirin digər bir əhəmiyyəti həmin dövrdə yaşamış bir el şairinin adını yaşatmasıdır:

Çəkərdi çox dur anın həyatı,
Kim verərdi bizə üzüm bəratı,
Çox deyərdi mən tək uzun bayatı,
A bal-Məhəmməd mərhumi məğfur
oldu gorbagor.

Oldu gorbagor, getdi fənadan,
Şair idi o da əzəl binadan,
Zad istərdi mən tək hər bir ədnadan,
Ta bir yanı Zəgəm, bir yanı Şəmkir
Ta Çini-fəğfur.

Şeirin İbrahim ağaya ünvanlanmasından güman etmək olar ki, Bal-Məhəmməd İncə dərəsindən – Kəmərli kəndindən olmuşdur. Burada eyni zamanda aydın olur ki, Bal-Məhəmməd Salik kimi o dövrdə ta Zəyəm, Şəmkirə qədər tanınmış bir el şairi imiş. Onun Bal-Məhəmməd adlanması isə şeirlərinin lətafətli, aydın və səlis olması ilə bağlı olmuşdur. Çox təəssüflər olsun ki, onun haqqında müəyyən rəvayətlərdən başqa, şeirlərindən heç nə əldə edə bilmədik.

Şairin şeirlərindən,eyni zamanda, onun ovçuluqla məşğul olması da görünür:

Bu dünyaya kimsə gəlməz dübara,
O köhlən atlara olsun süvarə,
Sabah axşam minin-çıxın şikarə,
Əlinizdə tuyğun, tərlan, baz olsun (20, 74)

Burada aydın olur ki, ovçular, əsasən, at belində ov quşları tərlan, tuyğun, bazla ov edərmişlər. Şairin digər bir şeirində də ovçuluğa olan marağını görürük:

Adım Kazım, vəli «Salik» ləqəb, şeiri də məşhurəm,
Gah ovtanım kənari-Kür, şikargahım Qarayazı.

Şair ov etdiyi yerlərin əsasən Kür qırağındakı Qarayazı meşələri olduğunu göstərir. Qeyd etmək lazımdır ki, indi Qarayazı meşələri yenə də ov heyvanları ilə zəngindir. Şair eyni zamanda ov üçün ən münasib vaxtın axşam, səhər olduğunu göstərir. Tor qurmaqla da ov edilməsini şeirlərində görürük:

Nəsib əfəndinin o tərs səbədi,
Heç dağılmaz əbədidir, əbədi,
Özü gəlsin görsün tərpənən nədi,
Bir heyvər toruna giriftar olmuş (20, 69).



Şair eyni zamanda o dövrün məşğuliyyəti, oyunları haqqında da məlumat verir. Onun şeirlərində nərd oyununun adı çəkilir. Xalqımız arasında geniş yayılan bu oyun, bir əyləncə vasitəsi kimi, qədim tarixə malik olmuş, indi də oynanılır:

Feyzin kimi eylə hər yanə dövran,
Bir yanə seyr etmə çün fili dəman,
Fikr eylə ki, nərrad oynayan zaman,
Hər atanda üstxanə şeş olmaz.

Buradan eyni zamanda nərddə istilahların əvvəllər də fars dilində olduğu aydınlaşır:

Pənc istəyən zaman çox gəlir cahar,
İstədiyin gəlməz onda biqərar,
Ta olursan mənim kimi bədqumar,
Əlin yekdən, düdən, sədən boş olmaz.

Kazım ağa Salikin yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri el-oba yaylaqlarının vəsf edilməsidir. O bu dağların müqəddəsliyindən, əvəzsizliyindən danışır, ağır yığnaqlar məskəni olmasını qeyd edir:

Bəs ki, Həmzə çəmənidir çəməni-bağı-irəm,
Vəh ki, abi-Ulaşəndir səbəbi-həzmi-təm.
Quzovunda qarağat xali-siyah tək görünür,
Günövündə məmələr başmıdır, ya çigələm,
Məhz Xalxallı imiş yer üzünün rüzgarı,
İntizarını çəkir o yerin Rumi Əcəm.

Şair müxtəlif yurd yerlərinin - Eşşəkquduran, Maymaq, Arxaşan, Altuntaxt, Göydağ, Ayranlı, Misxana, Çətin dağ, Şamlıq, Daş başı və s. adını çəkərək onların ab-havasından, əsrarəngiz təbiətindən danışır. «Gör necə xoş taleyəm ki, düşmüşəm Daş başına» - deyə təbiətə vurğunluğunu

bildirir, xoşbəxtliyini bu yerlərdə görür. Eyni zamanda şair «Kuhi-Maymaq ocaqdır» deməklə, unudulmuş bir ocaq yerimizin adını çəkir.

Kazım ağa Salikin şeirlərində məişətimizlə bağlı bir sıra terminlər işlənmişdir. Məsələn, sərkar, cürdək, dəyirman, donuzluq, nov, dəyirman daşı, kabab və s. etnoqrafik ifadələr həmin dövr el-obanın məşğuliyyətindən, həyat tərzindən xəbər verir. Bütün bunlar şairin zəngin yaradıcılığının məişətimizlə bağlılığını göstərir.

**İBRAHİM AĞA «MƏSUM» QİYASBƏYOV:** İbrahim ağa Qazaxın Kəmərli kəndində yaşayıb-yaratmışdır. Onun anadan olma və vəfat tarixi dəqiq məlum deyildir. Yaradıcılığı haqqında da çox az məlumat vardır. Xalq ədəbiyyatı biliciləri onunla bağlı ancaq müəyyən əhvalatlar söyləyirlər. Kazım ağa Saliklə şeirləşməsindən ehtimal etmək olar ki, onun müasiri olmuşdur. Nəslindən olanların dediyinə görə XVIII əsrin sonu və XIX əsrin birinci rübündə yaşamışdır.

Dövrümüzə qədər onun yalnız bir şeiri gəlib çatmışdır. Həmin şeir İbrahim ağanın arvadı vəfat edərkən Kazım ağanın yazdığı məktuba cavab şeiridir (20, 74-75). H.Qayıbovun tərtib etdiyi məcmuədə, eyni zamanda, Kazım ağa Salikə İbrahim ağanın cavab şeiri də verilmişdir. Kazım ağa Saliklə şeirləşməsindən və başqa bir şeirində Kazım ağanın ondan meyvə istəməsindən aydın olur ki, aralarında möhkəm əlaqə olmuş və yazışmaları ardıcıl olaraq davam etmişdir. Eyni zamanda Salik kimi bir sənətkarla şeirlə danışması, öz fikrini ona şeirlə bildirməsi onun yüksək sənətkarlıq qüdrətinə malik bir şair olmasından xəbər verir.

Kazım ağanın evlənmək haqqında yazdığı məsləhət cavabında İbrahim ağa ailə ilə bağlı fikirlərini ümumiləşdirir, evlənməkdə tərəddüd etməyinin səbəbini açıqlayır:

Salik istər idim yenə evlənəm,
Qorxuram aldığım bədxəyal ola.



Mənim ilə qolqırmadan güləşə,
Söylənə elllərdə bir misal ola.

Yaxam düşə eləsinin əlinə,
Yetişməyəm fəsadına, felinə,
Məni sala xalqı, elin dilinə,
Xalq danışa, mənim dilim lal ola (20, 74).

Şair burada ailə qurmağın çətinliklərindən, alacağı gözəlin xasiyyətindən danışır. Bədxəyal olacağından, elin-obanın dilinə düşəcəyindən ehtiyat edir. Sonrakı bəndlərdə bu haqda öz mülahizələrini, qadın gözəlliyini, onun təmiz əxlaqını, arzulamalarını verir:

Naməhrəmə göstərməyə üzünü,
El tənindən uzaq edə özünü,
Sübhü şam fikir edə ərin sözünü,
Özü gözəl ola, bu minval ola.

Məsum istər haqdən bu məzmun yarı
Xoşsifət, xoşəndam, gül-gülüzarı,
Xalqa məşhur ola namusu, arı,
Dəxi bundan artıq nə iqbal ola.

Bu fikirlər tək bir nəfərin deyil, ailə qurmaq haqqında müəllifin ümumiləşdirdiyi fikirlərdir. Göründüyü kimi, xalqımız evlənməkdən əsas meyar namusu, isməti, mənəvi aləmin təmizliyini və zənginliyini onun zahiri gözəlliklə tarazlığını əsas tutur. Hətta mənəvi gözəlliyi daha üstün tutur. Bu şeirdə eyni zamanda yaşadığı dövrdə güləşdə «qolqırma» fəndindən istifadə edildiyini də göstərir. Şeir şairin Məsum təxəllüsü ilə tanındığını da təsdiqləyir. Xalq arasında da Məsum imzası ilə əlaqədar maraqlı əhvalatlar danışılır. Bunlar şairin geniş nüfuz sahibi olduğundan xəbər verir.

**MUSTAFA AĞA ARİF:** Aşıq poeziyası ruhunda şeirlər yazan Qazax el şairlərindən biri də Mustafa ağa Arif Şıxlınskidir. F.Köçərli onun təvəllüd tarixini belə qeyd edir: «Mustafa ağa təvəllüd edibdir Qazax mahalının Şıxlı adlanan qəryəsindən hicrətin 1188-ci ilində» (66, 263). Həmin tarixi miladiyə çevirdikdə 1774-cü ilə düşür. Rusiyanın Azərbaycanı işğal etməsindən sonra xalq arasında böyük hörmət sahibi olan, xalqı ayağa qaldıra biləcək adamlar Rusiyanın içərilərinə sürgün olunurdu. Onlardan biri də Mustafa ağa Arif olmuşdur. O, sürgün müddətində də vətən həsrətilə yaşamış və belə bir həsrətlə də qəriblikdə vəfat etmişdir. Əlimizdə olan şeirləri də vətən məhəbbətli şeirlərdir. Şair həmin nümunələrdə ötən günlərini ürək ağrısı ilə qələmə alır:

Seyr eyləyib gəzib getdiyim yerlər,
Ovlağından keçib ötdüyüm yerlər,
Tərlan ilə şikar etdiyim yerlər,
Yada düşər o məkanlar ağlaram.

Sərçeşməli, nilufərli bulaqlar,
Süsənli, sünbüllü, laləli dağlar,
Dumanlı, çiskinli, qarlı yaylaqlar,
Hanı bizim o meydanlar, ağlaram.

Ellərimiz vardı bəyli, paşalı,
Dağlarımız vardı əlvan meşəli,
Süsənli, sünbüllü, tər bənövşəli,
Qaldı bizim xiyabanlar, ağlaram (20, 87-88).

Şair burada vətən məhəbbətini, ovlaqları, tərlan ilə şikar etdiyi yerləri, sərçeşməli, nilufərli bulaqları, süsənli, sünbüllü, laləli dağları, dumanlı, çiskinli, qarlı yaylaqları həsrətlə yad edir. «Ellərimiz vardı bəyli, paşalı» - deyə el-obasının işğaldan əvvəlki dövrünü xatırlayır. Müəllif, eyni zamanda, maraqlı bir məlumat da verir:



Ağlaram hər zaman düşəndə yada,
Bizim Qazax-Qaramanlar, ağlaram.

Bu yerlərin Qazax-Qaraman adlanmasını müəllif tarix üçün əbədiləşdirir. Mustafa ağanı bu qərib-qürbətdə daim bir şey narahat etmişdir. Bu onun yad ölkədə kafirlər içərisində ölmək məsələsi idi. Çünki şair elin-obanın adət-ənənəsinə bağlı olan dindar bir şəxs idi:

Qorxuram ki, ölüm küfran içində,
Bada gedə din-imanlar, ağlaram.

və yaxud da başqa bir şeirində oxuyuruq:

Ey gül, gecə-gündüz Arif ağlar,
Bülbül kimi zar-zar sənsiz.

Burada müəllif vətənə məhəbbətini bülbülün gülə olan məhəbbəti ilə müqayisə edir. Şairin bunlardan başqa əlimizə çatan üçüncü şeiri də var. Bu şeir Müfti Osman Əfəndinin yanında təhsil alan oğlu Əliyə ünvanlanmışdır. «Olma tərik dərsdən, ey ənvəri canım Əli» (20, 89) - deyə müəllif oğluna nəsihət edir, onu təhsilini davam etdirməyə çağırır. Bütün bunlar şairin geniş dünyagörüşlü, dövrünün qabaqcıl şəxsiyyətlərindən olduğunu, bir şair kimi qüdrətini, bir maarifçi kimi elmə verdiyi əhəmiyyəti, qəribə yaradıcılıq və həyat taleyini göstərir.

**MOLLAZAL:** Qazax el şairləri içərisində özünəməxsusluğu ilə diqqəti cəlb edənlərdən biri də Mollazaldır. O, savadlı, elmli bir adam olmuşdur. Ona görə də Mollazal adlanmışdır. O, məşhur el qəhrəmanı Qaçaq Kərəmin babasıdır. Barışmaz, mübariz əhvali-ruhiyyəli bir şəxs olduğu və haqsızlığa dözə bilmədiyi üçün ağalar və bəylərlə onun arasında kəskin ziddiyyət yaranmışdır. Bu ziddiyyətin nəticəsi olaraq Sibirə sürgün olunmuşdur. Uzun müddət sürgünlükdə qalmışdır. Ömrünün sonlarında azad olunaraq Qıraq Kəsəmən kəndinə qayıtmış və orada da vəfat etmişdir.

Mollazal həm də yaradıcı adam olmuşdur. Onun aşıq şeirləri üslubunda çoxlu şeirləri varmış. Lakin bu zəngin yaradıcılıqdan bizə ancaq bir şeir gəlib çatmışdır. Əlimizdə olan təcnis şairin zəngin yaradıcılıq yolu keçdiyini, mükəmməl dünyagörüşə malik olduğunu göstərir.

Aman təbib, mənə bir əlac eylə,
Sinəm eşq oduna yaxalanmamış.
Ölüb bu dünyadan nakam gedirəm,
Bir ağ buxaq öpüb, yaxalanmamış.

Versə idin sən mürgünə təzə dən,
Dəxl olmazdım bu azara təzədən,
Yar da mənə yara vurdu təzədən,
Köhnə yaralarım yaxalanmamış.

Mollazalam işim yetdi hər aya,
Bayram ayı demək olmaz hər aya,
Telli sənəm özün yetiş haraya.
Əzrayıl sinəmə yaxalanmamış.

İlkin başlanğıc kimi şeir Mollazal yaradıcılığının axtarışı sahəsində mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, gələcək araşdırmalar onun yaradıcılığından daha başqa nümunələrin də üzə çıxarılmasına səbəb olacaqdır. Xalq şeirinin belə bir çətin formasında mükəmməl sənət nümunəsi yaradan şairin təbii ki, zəngin yaradıcılığı olmuşdur.

**ZAL QIZI GÜLNAZ:** Mollazalın nəslindən olan el şairlərindən biri də Mollazalın qızı Gülnazdır. O məşhur el qəhrəmanı Qaçaq Kərəmin mamasıdır, atası İsgəndərin bacısıdır. Onun yaradıcılığının əsas hissəsini bayatılar təşkil edir. Həmin bayatıların hər biri müəyyən münasibətlə, müəyyən hadisələrlə bağlı deyilmişdir. Gülnaz nənənin bayatıları əsasən ağılardan ibarətdir. O bu ağıları qohumlarının ölümü münasibətilə demişdir. Bildiyimiz kimi, haqq-ədalət uğurunda uzun müddət mübarizə aparan bu nəsil döyüşlərdə, xüsusilə Gülnaz nənənin qardaşı İsgəndər



öldürüləndə xeyli itki vermişdir. Gülnaz nənənin qardaşı İsgəndər öldürüləndə dediyi bayatılar xüsusilə diqqəti cəlb edir. Bu hadisə 1888-ci il İsrafil ağanın nəsli ilə döyüşdə baş vermişdir. Qıraq Kəsəmənlə Poylu arasında baş verən «Mollazallar davası» adlanan bu döyüşdə İsrafil ağa Kərəmin atası İsgəndəri, Kərəm isə İsrafil ağanın iki əmisini öldürür (55, 43). Qardaşının ölümü ilə əlaqədar Gülnaz nənə ağı çəkir:

Boz at boyun burulaydı,
Yəhərin tərs vurulaydı.
İgid İsgəndərim hanı
Sənin belin qırılaydı, -

deyə, qardaşının ölümünə dözə bilməyən bacı ata qarğış edir. Sonra at yoxa çıxır. Bu bacıya daha dözülməz dərd olur:

Boz at niyə getdi?
Nə dedik, niyə getdi?
Evdən bir arxa gedər,
İkisi niyə getdi?

Tarixən xalqımız atı özünə arxa, dayaq hesab etmişdir. «At igidin qardaşıdır» - məsəli də buradan yaranmışdır. Xalq qəhrəmanı Koroğlu ilə Gülnaz nənənin fikri arasında bir bağlılıq var. Hər ikisi atı igidə arxa, dayaq hesab etmişdir. Atın sahibinə «etibarı haqqında da xalq arasında çoxlu rəvayətlər dolaşmaqdadır. Eldə-obada atın sahibi ölarkən onun ağladığını söyləyirlər. Belə bir hadisə İsgəndərin qəbri üzərində də baş verir. İtmiş atı səhər qəbrin üstündə ağlayan yerdə tapırlar:

Eləmi, mən ağlayım,
Ləlәmi mən ağlayım,
Gecəni sən ağladın
Səhəri mən ağlayım (55, 43)

Bildiyimiz kimi, xalq arasında papaq, at, arvad kişinin namusu sayılır. İsgəndər vurularkən bu müdrik el anası

İsgəndərin kiçik oğlu Həmidi güllə yağışı altında papaq və qoltuqaltını gətirməyə göndərir:

Güllə kimi uç, oğul,
Bərkdən, boşdan keç, oğul.
Köhləndən köhlən törər,
Qoç igiddən qoç oğul.

Bu dəyanətli el şairinin oğlu ölərkən (oğlunun adı Ələsdir) - dediyi bayatılar daha diqqəti cəlb edir. Toy günü oğlu öldürülərkən ana öz ləyaqətini alçaltmır. Toyu dayandırmadan bir yas məclisi də qurur:

Eləmi, toy yerində,
Toyum var toy yerində.
Qoy yasım yasa dönsün
Toyum var toy yerində (55, 49).

«Toyla yas qardaşdır» - deyən bir xalqın anasından yalnız bu qərarı gözləmək olar. Gülnaz nənənin yaradıcılığı yalnız bayatılarla, bitmir, qoşma şəklində də şeirləri vardır:

Sən gedirsən o Rüstəmin elində,
Can bəslərdin köhlənlərin belində
Niyə öldün bir gədanın əlində,
Atıb vuran kamandarım ölübdü
Əldən gedib ümidvarım ölübdü (55, 49).

Bütün bunlar Gülnaz nənənin qəhrəman təbiətli mərd bir insan olmasını, yüksək təbə, aydın, səlis dilə malik bir istedadlı şair olmasını göstərir.

**ALSÖYÜN:** Mollazal nəslindən olan el şairlərindən biri də Alsöyündür. O, Mollazalın qız nəvəsidir. Yuxarıda haqqında danışdığımız Gülnaz nənənin oğludur. Deyilənə görə onun bir dəftər şeiri olmuşdur. Sonralar naməlum səbəbdən itmişdir. Alsöyün 1931-ci ildə vəfat etmişdir. Mərhum şairimiz H.Arif onun şeirlərindən birini Əbdürrəhman Orucovun dəftərindən köçürmüş və iki bəndini «Gülnaz nənənin bayatıları» adlı məqaləsində vermişdir:

Əzəl qapısına elçi yollaram,
İşim düzəlməmiş tutmaram aram.



Ağ qızılı tərəziyə yığaram,
Əgər olsa hürü, qılman ağlama.

Onlar sözümə deməsə bəli,
Başıma yığaram bir neçə dəli,
Qaçırdaram istədiyim gözəli,
Verrəm igidlərə fərman ağlama (55, 49).

Bu şeir xalqımızın toy adət-ənənəsini özündə yaşadır. Mərasimin ilkin mərhələsini elçilik təşkil edir. Şair el adətincə elçi göndərib qızın «həsini alacığını» söyləyir. Aydındır ki, adətə görə ilk dəfədən heç vaxt razılıq verilməzdi. «İşim düzəlməmiş tutmaram aram» deməklə şair çox güman ki, bunu nəzərdə tutmuşdur. Ona görə də qız evinə elçi bir neçə dəfə gedərdi. «Ağ qızılı tərəziyə yığaram» - deməklə müəllif bu işdə var-dövlətin mühüm rol oynadığını, qıza başlıq verilməsinə işarə edir. Çünki xalqımızın ailə-nikah münasibətlərində oğlanın maddi vəziyyəti mühüm rol oynayırdı. Hətta bəzən elə olurdu ki, maddi vəziyyət yaxşı olduqda qızın rəyi soruşulmadan həmin adama ərə verirdilər. Bu şeirdə şair qızqaçırma adətinin də adını çəkir. Əgər qızı razılıqla verməzdilərsə qaçırardılar. Ailə-nikah məsələləri burada çox ustalıqla nizama salınmışdır. Bu isə sənətkarın yaradıcılıq qabiliyyətilə bağlıdır. Çox təəssüflər olsun ki, Alsöyünün də, digər müasirləri kimi, yaradıcılığı tam şəkildə bizə gəlib çatmamışdır. Ancaq əlimizə çatan nümunə onun haqqında bir el şairi kimi söhbət açmağa imkan verir.

**ÇOBAN ƏFQAN:** Qazax el şairləri içərisində diqqəti cəlb edənlərdən biri də Çoban Əfqandır. O, 1866-cı ildə muzdür ailəsində anadan olmuş və özü də kiçik yaşlarından nökərçilik etmişdir. Onun bu həyatı şeirlərində əksini tapmış və nəinki bədii sənət nümunəsi kimi, eyni zamanda, etnoqrafik cəhətdən də böyük əhəmiyyət kəsb etmişdir.

Şair çoban həyatını öz əsərlərində yeri gəldikcə təsvir edir. Aydın olur ki, onun yaşadığı yer pəyə olmuşdur. «Vay

deyə-deyə» şeirində isə altı aydan bir haqq verildiyi qeyd edilir. Etnoqrafik ədəbiyyatdan məlumdur ki, çobanlar altı aylıq əmək haqqı olaraq 20 qoyuna bir toğlu, yemək və paltar almışlar. Şeirlərindən görünür ki, çoban həyatı ağır olmuş, çobanlar üç ayda bir dəfə evlərinə gəlmiş, hətta bəzən itin unundan çörək bişirmişlər. Çörək sacda bişirilmişdir ki, bu da Qazax bölgəsinin təsərrüfat həyatından irəli gəlir. Çünki yayda yaylağa, qışda qışlağa gedən əhali üçün sac daha əlverişli idi:

Qarışıbdır bir-birinə qoyun-mal,
Köç eyləyir tozlu yolla dalbadal (104, 23).

Başqa bir şeirində «üstündən yeriyir Qazax elləri» - deyə şair köç edənlərin kimlər olduğunu da bildirir. Bu nümunələrdən aydın olur ki, həmin dövrdə buğda unu ilə bərabər, arpa və darıdan da çörək bişirilirmiş. Şair əsərlərində bozbaş, kabab, plov kimi yeməklərin, düyü, maş kimi əkinçilik məhsullarının adını çəkir və əkinçilikdə cütdən istifadə olunmasını qeyd edir. Başqa bir şeirində isə xalqın vəziyyəti ilə əlaqədar olaraq yazır:

Çoban Əfqan bulur halın,
Yenə qarışıb əhvalın.
Alıb xalqın yağın, balın,
Həsrət qoydular şora da.

Burada isə yağ, şor kimi süd məhsullarının, bal kimi arıçılıq məhsulunun adı çəkilir.

Şairin əsərlərində yatacaq əşyalarından yorğan, döşəyin, geyim və bəzəklərdən şuba, kürk, Buxara papaq, börk, gümüş kəmər, kəlağayı, qızıl bilərzik və s. adı çəkilir, paltar üçün al qumaş, İran kəşmiri, dəri qeyd olunur. Müəllifin əsərlərində adı çəkilən bütün etnoqrafik cizgilər xalq həyatından, maddi mədəniyyətdən xəbər verir. Burada göstərilən köç də, nökər həyatı da, yeməklər də, geyimlər də XIX əsr və XX əsrin əvvəllərində geniş yayılmışdır (124, 17).

Qazax mahalında el şairləri təkcə haqqında bəhs etdiklərimizlə bitmir. Onlarca el şairləri var ki, biz onların



haqqında söhbət aça bilmədik. Bu, əsasən, monoqrafiyanın həcm imkanları ilə bağlıdır. Yaradıcılıqları etnoqrafik baxımdan əhəmiyyətli olan belə sənətkarlardan M.V.Vidadinin nəvəsi Yəhya bəy Qazağini, Əbdürrəhman ağa Sabiri, Mirzə Məhəmməd Qaiboy Fədaini, Mustafa ağa Nasiri, İsgəndər ağa Şairi, Mehdixan Kühənsalı (S.Vurğunun babası), Dərviş Mahmudu, Mustafa Kəskini, Şeyda Əzizi və başqalarını göstərə bilərik.

## 1.3. BAYATILAR

Xalq yaradıcılığının ən geniş yayılmış qollarından biri bayatılardır. Qısa, yığcam lirik parçalar olan bu nümunələr öz dərin əxlaqi, fəlsəfi mənası, fikir genişliyi ilə diqqəti cəlb edir. Onlar xalqın hiss və həyəcanlarından, iztirablarından yaranmışdır. Bayatılar, «sözün geniş mənasında, Azərbaycan və həmçinin türk xalqlarının məskən saldığı, qanlı-qadalı güzəran keçirən, yadelli işğalçılara qənim kəsilən, dosta həlim münasibət bəsləyən acılı-şirinli ömür sürən babaların adət-ənənələrini, psixologiyasını əsrlərcə nəsillərdən-nəsillərə yaşadan bədii-tarixi salnamədir» (56, 24). Bayatılar xalqın həyatını, məişətini və mövcud mərasimlərini, adət-ənənələrni, inamını, etiqadı, ailə-nikah münasibətlərini, təsərrüfat həyatını, maddi və mənəvi mədəniyyətini, əxlaqını, dünyagörüşünü özündə əks etdirir. Məhz onlar xalqın tarixi qədər qədim olub, uzun əsrlər ərzində formalaşmışdır. Bayatılar özünü toy mərasimlərində vəsfi-hal, yasda ağı, körpələri yatırdarkən layla, oynadarkən oxşama şəklində göstərirsə, mövsüm mərasimlərində zəhmətə çağırış-holavar, sayacı sözü, inam, vəsfi-hal şəklində büruzə verir.

Bayatılar mövzu rəngarəngliyi etibarilə də çox zəngindir. Ümumi məzmunu isə, demək olar ki, əsasən məhəbbətlə bağlıdır (23, 94).

Bayatıların bir hissəsi Novruz bayramı ilə əlaqədar olub, axır çərşənbədə işlənən vəsfi-hal bayatılarıdır. Onlar əsasən fal xarakteri daşıyır. İlin axır çərşənbəsində qadınlar bir yerə yığılar, suya üzük, sırğa və s. əşyalar salar və sonra onları çıxararaq vəsfi-hal deyərdilər. Vəsfi-halın məzmununa uyğun olaraq öz taleyinin necə olacağına inanardılar. Xalq arasında ən çox yayılan vəsfi-hallardan bir belədir:

Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən.
Bizə də nəsib olsun
Heybədəki yemişdən.

Burada xoşbəxt bir gələcəyə ümid öz əksini tapır. Belə ki, at türkdilli xalqlarda xoşbəxtlik, arzuya, murada çatmaq rəmzidir. «At muraddır» - ifadəsi də bunu sübut edir. Buradakı ağ ifadəsi də xoşbəxtlik anlamındadır. «Vəsfi-haldakı «gümüş sinəbənd» də mənasız deyildir, xalq arasında bütün parlaq şeylər - gümüş, su, güzgü, nur, xoşbəxtliyə və parlaq gələcəyə aiddir (36, 75). Burada eyni zamanda xalqımızın həyatında mühüm rol oynayan atın adının çəkilməsi atçılığın geniş yayıldığını göstərir. Maddi mədəniyyətin nümunəsi kimi sinəbənd diqqəti cəlb edir. Yoxuş yerlərdə yəhərin geri sürüşməməsi üçün onun (yəhərin – M.A.) ön tərəfindən qayışdan döşlük düzəldirdilər. Bəzən döşlük və quşqunun üstü gümüş əşyalarla bəzədilirdi (29, 24). Bayatıda adı çəkilən sinəbənd məhz həmin döşlükdür. Eyni zamanda bostançılığın inkişafını əks etdirən məlumatlar da burada öz əksini tapır. «Bizə də qismət olsun heybədəki yemişdən» - ifadəsindən aydın olur ki, bostançılarımız hətta yemişi Novruza qədər saxlaya bilmişlər.

Başqa bir vəfsi-halda oxuyuruq:

Qara suyun yaxası,
Oğlan qıza baxası.
Güldən köynək tikmişəm
Bənövşədən yaxası (121, 190 ).



Bu bayatını misal gətirən D.Bağırov üzüyün yiyəsinin qızı olacağına inandıqlarını göstərir.

Xalqımızın maldarlıq, əkinçilik həyatını əks etdirən bayatılar da vardır. Bu təsərrüfat sahələri XIX əsrdə xalqımızın həyatında mühüm rol oynayırdı. Heç şübhəsiz ki, təsərrüfat məişətinin bu sahələri öz izini mənəvi mədəniyyət sahəsində tapmalı idi. Maldarlıq həmin dövrdə Qazax bölgəsində xeyli inkişaf etmişdi. Burada köçmə maldarlıq təsərrüfat həyatı hökm sürürdü. Maldarlar isti ayları yaylaqlarda, qışı isə əsasən Qarayazıda keçirirdilər. Bu bayatılarda da göstərilir:

Əzizim, qızaranda,
Dan yeri qızaranda.
Ömür keçdi, gün keçdi
Yay dağda, qış aranda (21 –inf.).

Burada XIX əsr maldarlıq təsərrüfatının adı çəkilməsə də, məhz maldarlıqdan danışıldığı aydın şəkildə görünür. Maldarlar ilin isti vaxtlarını dağlarda, soyuq vaxtlarını isə aranda keçirərdilər. Bayatıda ilin yalnız iki fəslinin adının çəkilməsi isə qədim təqvim bölgüsü ilə əlaqədardır. M.Dadaşzadə yazır: «Avesta» - da söhbət iki fəsildən gedir. Bunlardan biri yeddi aydan ibarət yay, digəri beş aydan ibarət qış fəsli hesab edilir. Belə bölgü sistemi bir sıra xalqların təqvimlərində də mövcud olmuşdur. Məsələn, son vaxtlara qədər türklərdə ili iki hissəyə bölürdülər. Birinci hissə Xızır, ikinci hissə isə Qasım adlanırdı. Xızır adlanan hissə altı aylıq yay mövsümü, Qasım adlanan hissə isə (altı aylıq) qış mövsümünün başlanğıcı hesab edilirdi. Xızır günü 28 apreldən, Qasım günü isə 26 oktyabrdan başlanırdı» (38, 94). Görünür, bu dövrdə qədim təqvimin izləri hələ də yaşayırdı.

Maldarlıqda ən geniş yayılan qoyunçuluq təsərrüfatı olmuşdur. Bu daha çox qədim tarixə malikdir. Qoyunçuluq da köçmə maldarlıq xarakteri daşıyırdı. Həmin sahə ilə bağlı çoxlu sayaçı sözləri yaranmışdır:

Nənəm, a xallı keçi,
Məməsi ballı keçi.
Yalçın qaya başında
Tutarsan yallı keçi (56, 51).

Nümunədə, məlum olduğu kimi, keçi haqqında söhbət gedir. Onun qayalarda məskən saldığı göstərilir. Əbəs deyil ki, xalq arasında «keçi itdi qayada axtar» - ifadəsi yaranmışdır. Digər bir cəhəti də qeyd edək ki, keçi qoyunçuluqda cüzi bir yer tutmuşdur:

Nənəm, a şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez gətir
Qırıldı uşaq qoyun (56, 51).

Şişək qoyun dedikdə bir yaşından yuxarı olan qoyunlar nəzərdə tutulmuşdur. Eyni zamanda o qoyunun yunundan da geniş istifadə olunmuşdur. Gəbə, kilim, xalı, yorğan, paltar və s. düzəltməklə yanaşı, döşək də düzəltmişlər. Bulamanı qoyunların doğandan sonrakı birinci gün sağılan ağız südündən hazırlayırdılar. Belə ki, ağız südünü qazana töküb bulayır və südü qatılaşdırıb pendir şəklinə düşəndən sonra ocaqdan götürüb soyudurdular. Buna bulama deyirlər. M.Həkimovun Qazax rayonunun Orta Salahlı kəndində Məcid Məmmədnəbi oğlundan topladığı başqa bir sayaçı sözünə fikir verək:

Həriklər,
Bozaq saya həriklər.
Boz ayında dölünü
Saya silkər, həriklər (56, 51).

Dölün boz ayda (fevral-mart) sona yetməsi səbəbsiz deyildi. Bu uzun illərin təcrübəsinin nəticəsi kimi yaranmışdır. Çünki təcrübəli qoyunçular çalışırdı ki, döl bu aylara, yazın gəlməsi vaxtlarına düşsün. Həmin vaxt təbiətin isinən, otun göyərən vaxtıdır. Qışda doğan qoyun isə təbii ki, həm özünü, həm də balasını doyuzdura bilməzdi. Başqa bir bayatıda heyvan xəstəliyi olan vaxtdan danışılır:



Saya haray,
Soy haray, saya haray,
Davara davax düşdü
Yetiş özün saya, haray (56, 51).

Davax (dabaq) - qoyunçuluqda geniş yayılan xəstəliklərdəndir. Bu, qoyunların ayaqlarında yaranıb, onların axsamasına səbəb olurdu. Başqa bir bayatıda isə qoyunçuluqda düşmən hesab edilən qurddan danışılır:

Saya oxu,
Say oxu, saya oxu.
Davara qurd toxunsa
Paralar saya oxu (56, 51)

Canavardan qoyunları qorumaq üçün çobanlar bir neçə it saxlayardılar. Eyni zamanda çobanlar bu işdə inamlardan da istifadə edərdilər.

Bayatılarda Qazax bölgəsi əhalisinin təkcə təsərrüfat həyatı deyil, onun maddi mədəniyyəti də öz əksini xeyli dərəcədə tapmışdır. Burada qadın və kişi geyimləri, bəzəklər, yeməklər, nəqliyyat vasitələri, evlər və s. haqqında xeyli dərəcədə məlumata rast gəlirik. Doğrudur, bu məlumatlar geniş deyil, hətta çox zaman adları çəkilir, lakin bu dəyərli məlumatlardır:

Əzizim xınasıdı,
Əlinin xınasıdır.
Belində gümüş kəmər
Dörd yanı abbasıdır.

Burada qadın bəzəyi kimi kəmərin gümüşdən hazırlandığı və dörd yanının abbasılarla bəzədildiyi göstərilir ki, bu özü çox dəyərli məlumatdır. Başqa bir bayatıda deyilir:

Çəpərə çəpər oldu gəl,
Çəpərə quşlar doldu gəl
Dolaqsız gedən oğlan
Dolaq tamam oldu gəl.

XIX əsr və XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi, Qazaxda da «ayağa qızqaytaran və ya kotuğu çarıq, bəzəkli corab geyər, baldırlarına naxışlı dolaq dolayardılar» (27, 74).

Bayatılarda əkinçilik, maldarlıq haqqında məlumatlara da rast gəlirik:

Almanın kal vaxtıdır,
Gilasın bal vaxtıdır.
Açdın sinəm düyməsin
Dilimin lal vaxtıdır.

Burada, göründüyü kimi, sevgililərin görüş vaxtı təsvir edilmişdir. Bu görüşün almanın kal, gilasın bal vaxtına, yəni yayın əvvəllərinə təsadüf etdiyi göstərilir. Eyni zamanda almanın kal, gilasın bal vaxtı uzunmüddətli müşahidələrin nəticəsi kimi uzlaşdırılıb şeirə gətirilə bilərdi. Bu da bağçılığın geniş inkişafını göstərir. Başqa bir cəhəti də burada qeyd etmək lazımdır. Burada almanın xatırlanması xalqın dünyagörüşü ilə bağlıdır. Çünki, «əski dünyagörüşə görə alma həyat verən, nəsil artıran, xoşbəxtlik gətirən sehirli qüvvədir» (69). Burada sevgililərin gələcəyinə inam ifadə olunur. Qeyd edək ki, Ağstafa rayonunun Muğanlı kəndində gəlin gələrkən gəlinin başına müxtəlif şirniyyat, pulla birgə, alma da atılır.

Bayatılarda toy mərasimlərinin də izləri qorunub saxlanmışdır:

Hər tərəf çiçəkləndi,
Gün doğdu göyçəkləndi.



Başlandı toy fətiri
Ayrılıq gerçəkləndi.

Toy şənliklərində yemək üçün fətir verilirdi. Qohum-qonşu qadınlar toydan 3-4 gün əvvəl yığılar və toy üçün fətir-yuxa bişirərdilər.

Çıxdı aya baxmağa,
Qapıya kilid taxmağa.
Oğlan xına göndərib
Qız əlinə yaxmağa.

Toylarda «xına yaxdı» deyilən bir adət də olmuşdur. Oğlan evindən qız evinə xına göndərilir və bu mərasimdə qızlar, qadınlar iştirak edərək qızın əlinə xına yaxardılar. Eyni zamanda qızlar, qadınlar da bu xınaya əlini batırardılar.

Dərmanı dizə sarı,
Məlhəmi gözə sarı.
Alım atım tərkinə
Qaçırım bizə sarı (15-inf.).

Bu bayatıda qız qaçırmanın izləri aydın görünür. Qeyd edək ki, qızqaçırma iki səbəbdən ola bilərdi. Ya oğlanın maddi imkanları yol vermədikdə, ya da valideynləri bu izdivaca razı olmadıqda.. Hətta bəzən heç bir səbəb olmadıqda da qızı götürüb qaçırırdılar. Ümumiyyətlə, bayatılarda bütün toy mərasimlərinin izlərinə, toydan sonra olan qaynana-gəlin münasibətlərinə və s. adət-ənənələrin əksinə də rast gəlirik. Toyla yanaşı, bayatılarda yas mərasimlərinin də izləri qorunub saxlanmışdır. Bu bayatılar ağı adı altında toplanmışdır. Ağılarda qardaş, bacı, ana, ata və s. itkisindən doğan dərin kədər, qəm ifadə olunmuşdur. Heç şübhəsiz ki, bu ağıları yasda iştirak edənlərin biri deyə bilərdi. H.Zeynallı xalq yaradıcılığının yüksək xarakterik xüsusiyyətlərini nəzərə alaraq yazır: «Bütün gözəlləmələr (vəsfi-hallar), qoşmalar, mahnılar bu kimi təbii, bədii həyəcandan doğan hissiyyatın təsiri ilə yaradılmışdır.

Buradakı həyəcan istər toy, istərsə də yas içində olsun, hər dəqiqə birisinin dili ilə ifadə olunmuş ümumin həyəcanıdır» (116, 229). İndi Qazaxda məşhur el qəhrəmanı Qaçaq Kərəmin nəslindən Zal qızı Gülnazın müxtəlif münasibətlərlə dediyi ağılar yaddaşlardadır. Kəmərli kəndində Eminə nənənin qardaşı Kərimin ölümü ilə bağlı dediyi ağılar haqqında indi də danışılır.

Bütün bunlar onu göstərir ki, bayatılar xalqın həyatının, məişətinin elə bir sahəsi yoxdur ki, özündə əks etdirməsin. Lakin bir cəhəti də qeyd etmək lazımdır ki, bunlar bəzən tam açıq şəkildə deyil, çox zaman müəyyən ştrixlərlə, bənzətmələrlə, müqayisələrlə ifadə olunur.

## 1.4. ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

Şifahi ədəbiyyatımızın ən geniş yayılmış sahələrindən biri atalar sözləri və məsəllərdir. Həcmcə çox kiçik, mənaca dərin olan atalar sözləri və məsəllər xalqın bütün təbəqələri tərəfindən söhbət əsnasında fikri qüvvətləndirmək üçün geniş şəkildə işlədilir. Çünki min illərin sınağından çıxan bu sözlər həyat təcrübəsinin nəticəsi olaraq yaranmışdır. Xalqımızın təsərrüfatı, məişəti, adət və ənənəsi, əxlaqı, dünyagörüşü atalar sözləri və məsəllərdə də öz əksini tapmışdır. «Atalar sözləri və məsəllər xalqın həyatı və məişəti, əmək fəaliyyəti ilə daha sıx bağlı olan formaca kiçik, mənaca geniş janrlardan biridir. Atalar sözləri və məsəllərdə xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq təcrübələrin nəticələri ümumiləşdirilmişdir» (41, 93). Elə bunun nəticəsidir ki, xalq öz danışığında, söhbətində ondan geniş istifadə edir, canlı danışıqda onlardan aydınlaşdırıcı və təsiredici ifadə vasitəsi kimi istifadə olunur (113, 128). Atalar sözləri və məsəllərdə xalqın həyat təcrübəsi, min illərin sınağından çıxardığı qənaətlər ümumiləşdirildiyi üçün diqqəti cəlb edir.



Ovçuluqla bağlı olaraq xalqın təcrübəsi «ovu barəsində vurarlar», «quşu quşla tutarlar» və s. kimi atalar sözlərində əks olunur. Məlum olduğu kimi, ovçuluğun qədim olan bir tarixi vardır. Quşla ov ovlamaq da xalqın tarixində olmuş bir hadisədir. «Dədə-Qorqud» dastanlarında şahinlə ov ovlamaq tez-tez xatırlanır. Burada başlıca ov heyvanları qaçarlardan maral, ceyran, uçarlardan qaz, ördək, kəklik və göyərçin idi. Bəslənən ov quşlarından qırğı, şahin və sunqurun adları çəkilir (103, 380). Kazım ağa Salik də əsərlərində tez-tez ovçuluqdan danışır. Kür qırağının ov yeri olduğunu göstərir.

Maldarlıqla bağlı olan atalar sözlərinə danışıqda tez-tez rast gəlinir. «Südlü qoyun sürüsündən çıxmaz», «Ver inəyə, bağla dirəyə», «Qurddan qorxan qoyun saxlamaz», «Qoyun əməyi, peyğəmbər ətəyi» - kimi, atarlar sözləri bu sahədə xalqın təcrübəsini, ona münasibətini aydın göstərir. «Südlü qoyun sürüsündən çıxmaz» - ifadəsində xalq öz təcrübəsini ümumiləşdirir. Min illərlə xalq qoyunun cinsini yaxşılaşdırmaq üçün təbii seçmədən istifadə etmişdir. Döllük üçün cins heyvanlar seçilir, ondan döllük üçün qoç, qoyun saxlayırdılar. Məhz bu səbəbdəndir ki, cins heyvanlar kəsilib satılmazdı. Qoyunçuluqda canavar əsas düşmən hesab edilirdi. Onunla mübarizə üçün itlər saxlanardı. Odur ki, xalq «arxalı köpək qurd basar» - demişdir. Qoyun itlərinin qoyunçuluqda rolu haqqında elmi ədəbiyyatda geniş söhbət açılmışdır (54, 73-77). Xalqın əsas dolanışıq sahəsi bilavasitə qoyunçuluq olduğundan, ulularımız «qoyun əməyi, peyğəmbər ətəyi» - demişlər. Var-dövlət kimi əsasən mal, qoyun və dəvə nəzərə alınmışdır. Odur ki, xalq «övladda nəvə, dövlətdə dəvə», «qoyunun oldu yüz, gir içində üz», «ver inəyə, bağla dirəyə» - demişdir.

Maldarlıq həmişə əkinçiliklə bağlı inkişaf etmişdir. Bu yerlərdə işlənən «dağda qurutdan oldum, aranda tutdan» - məsəli bunu aydın şəkildə göstərir. Bu iki sahəni xalq həmişə birlikdə inkişaf etdirmiş, yay aylarında əhalinin bir

ayağı dağda, biri aranda olmuşdur. Əkinçilikdəki ictimai bərabərsizlik də atalar sözlərində öz əksini tapmışdır. «Bəylə bostan əkənin tağı çiynində bitər», «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş» - kimi deyimlər bunun nəticəsi idi. «İnək kimi süd verməyən, öküz kimi kotan çəkər» - kimi atalar sözləri də əkinçiliklə maldarlığın qarşılıqlı inkişafını göstərir.

Qazax bölgəsi əhalisinin toy, evlənmə adətləri də atalar sözlərində öz bədii ifadəsini tapmışdır. Əsasən xalq qohumla evlənməyə üstünlük vermişdir. Odur ki, «əmioğlu ilə əmiqızının kəbini göydə kəsilib» - demişlər. Lakin xalq bunun yaxşı və pis cəhətlərini də yaddan çıxarmamışdır: «Qohumdan qız alma nəsil gödəlir, yaddan qız alma nəsil cırlaşır». Evlənmədə xalq əsasən namus məsələsinə üstünlük vermişdir: «Qırağına bax, bezini al, anasına bax qızını al», «Anası gəzən ağacı balası budaq-budaq gəzər». Ərə xəyanət ölümlə nəticələnərdi (131, 368). Ayrılmaların (boşanmaların) əsas səbəbi hətta uşaq olmaması deyil, namus idi (141, 80). Odur ki, xalq görüb tanıdığı qızlarla oğul evləndirməyi üstün tutmuş, «qonşu qızı görcəmli olar» - demişdir. Qızın tərbiyəsinə də xüsusi fikir verilmişdir: «Qızını döyməyən dizinə döyər» - ifadəsi də bunun nəticəsidir.

Bəhs olunan bölgənin əhalisi arasında qonaqpərvərliklə bağlı çoxlu atalar sözləri və məsəllər vardır: «Qonaq Allah qonağıdır», «Evin bəzəyi uşaq, süfrəninki qonaqdır». Ağsaqqal sözü xalqımız arasında həmişə müqəddəs sayılmış, ona hörmətlə yanaşmışlar. «Su kiçiyin, söz böyüyün», «Allahsız yerdə otur, ağsaqqalsız yerdə oturma», «ulu sözünə baxmayan ulaya-ulaya qalar» və s. Xalqın psixologiyası onun «kişinin sözü bir olar», «kişi tüpürdüyünü yalamaz», «kişinin bəzəyi qeyrət, qadının bəzəyi ismətdir», «yol böyüyündür», «namussuz yaşamaqdan ölüm yaxşıdır» və s. kimi atalar sözləri və məsəllərdə öz əksini tapmışdır.

Bu hikmət xəzinəsi xalqın yazılmamış qanunudur. Onun, demək olar, yol göstəricisidir. Xalq min illər boyu bu



yolla gedib, bu normalarla yaşamışdır. Yolundan çıxanı onunla yoluna qaytarmışdır. «Yoldan çıxanı yol vurar», «Yoldan çıxmaq eyib deyil, düzü yola qaytarmamaq eyibdir» - ifadələri də belə qənaətlərin nəticəsidir.

## 1.5. NAĞIL VƏ ƏFSANƏLƏR

Atalar sözləri və zərbi-məsəllər kimi, nağıl və əfsanələr də xalq yaradıcılığının maraq doğuran növlərindəndir. Nağıllar xalq arasında çox geniş yayılmışdır. Uzun qış axşamlarında əhali bir yerə yığılıb söhbət edər, nağıl danışardı. Nağıllar əsasən qocalar tərəfindən söylənilər və maraqla dinlənilərdi. Belə axşamların XIX əsrin 80-ci illərində Salahlı kəndində B.Veniaminov da şahidi olmuşdur. O, nağıl axşamlarını belə təsvir edir: «Salahlılar tapmaca və atalar sözlərini, xüsusilə qəhrəmanlar haqqında nağılları çox sevirlər. Uzun qış gecələrində yerli ağsaqqal Pənah ağa Vəkilovun sağlığında ictimai gecələr dəbdə idi. Burada qocalar öz işləri haqqında söhbət edər və ya gənclərlə birlikdə keçmiş haqqında söhbətlərə, ya da nağıllara qulaq asardılar» (123, 107). Müəllif burada «Məlik Məmməd və Məlik Cümşüd», «Əbil Qasım və Əbil Məmməd», «Şah Rüstəm», «Şah Qəmbər», «Şah İsmayıl», «Şərif» nağıllarını da toplayıb nəşr etdirmişdir.

Nağıllar özünün mövzu rəngarəngliyi ilə zəngindir. Folklorşünaslar onların təqribən belə qruplaşdırırlar: heyvanlar haqqında nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları, satirik nağıllar (42, 115). Lakin bu qruplaşmadan asılı olmayaraq onların mövsuzu xalqın həyatının müxtəlif sahələrini – təsərrüfat həyatını, maddi və mənəvi aləmini başqa folklor janrlarında olduğu kimi özündə əks etdirir. Nağıllar xalqımızın ilkin təsəvvürlərini yaşadır. Qədim əcdadlarımız ilkin olaraq təbiətlə, heyvanlarla təmasda olmuş və onlar da öz əksini bu və ya digər dərəcədə nağıllarımızda tapmışdır. Yaşayışının əsasını ovçuluq təşkil

edən əcdadlarımız heyvanları ovlamış, ətini yeyib dərisindən paltar tikmiş, soyuqdan, şaxtadan qorunmuşlar. Ovçuluqla məşğul olan əcdadlarımız sonralar heyvanları əhliləşdirmiş, onları qoruyub saxlamış və artırmağa çalışmışlar. Heyvanlar aləmindən bəhs edən nağıllarda rast gəldiyimiz totemlər heyvanlara olan hörmətin nəticəsidir: «Bu dövrdə insanların bədii təfəkküründə əsatiri görüşlər yaranmışdır. Onlar yaşamaq və təbiəti özlərinə tabe etmək yollarında əsatir yaratdıqları kimi, heyvanlara sitayiş etmiş, totem yaratmışlar. Heyvanlar aləmindən bəhs edən nağılların birinci mərhələsi totemlə əlaqədar olmuşdur» (113, 248). Nağıllarımızda rast gəlinən at, qurd, şir, simurq, ilan və s. bunun nəticəsi idi. İnsanlar belə heyvanları öz əcdadı hesab etmiş, ona hörmətlə yanaşmışlar. «Dədə-Qorqud» dastanlarında rast gəldiyimiz «Ağ qayanın qaplanının erkəyindən bir köküm var», «Ağ Sunqur erkəyindən bir köküm var», «Azvey qurd əniyi erkəyindən bir köküm var» və s. ifadələr bu inamın nəticəsi kimi özünü göstərir. «Dədə-Qorqud»un Drezden əlyazmasında VIII boyda «Qağan aslan» ata-totem, Vatikan əlyazmasında ana totem kimi verilmişdir. Bu sadəcə yazı uyuşmazlığı deyil, anaxaqanlığı institutunun ataxaqanlığına keçməsi ilə, əsatiri görüşlərlə bağlıdır… İlkin sinifli cəmiyyətə keçid mühitində həmin əcdad-totem xaqan kimi yad edilmişdir. «Qağan-aslan soykök-totemin «acıqlı» sifətini deyil, onun xaqanlığını, güc dünyasında tayı olmayan aslanın şahlığını hifz etməkdədir. Lakin Basatın Aslan döşündən süd əmib böyüməsi sonuncu təsəvvürdən qat-qat arxaikdir. Aşina oğullarının dişi qurddan törəməsi əfsanəsi ilə qneseoloji «qohumluqdadır», «soy-kök Aslan təsəvvürü «ana qurd» totemi üzərində yaranmışdır: deməli, qurd ilkin soy-kök sayıldığından, bir növ, totemlər totemi olmuşdur» (45, 257). Totem cəmiyyətin matriarxat dövründə yaranmış və heyvanlarla insanların sehirli qohumluğuna inamdan törəmişdir. Nağıl və əfsanələrdə, miflərdə aslanın, qurdun itən körpələri bəsləyib böyütdükləri



haqqında çoxlu faktlara rast gəlmək olur. Bununla belə, fiziki tələbatını əsasən ovçuluqda ödəyən insanlar nəhəng və vəhşi, yırtıcı heyvanlarla da qarşılaşmış və onlarla mübarizə etməli olmuşlar. Nağıllarda rast gəlinən div, əjdaha, təpəgöz və s. ilə mübarizə də çox güman ki, məhz bunun nəticəsində yaranmışdır. Elə bunun nəticəsidir ki, insanın dünyagörüşündə xeyir və şər qüvvələr haqqında inam yaranmışdır. Onların mübarizəsi insanın arzusuna uyğun olaraq xeyirin qələbəsi ilə başa çatır. «Nağıl xalq ədəbiyyatının qeyri-ənvaindən daha qədim olmalıdır, çünki fikir, etiqad və fəlsəfə etibarilə Zərdüştün «Avesta» və hindi-qədimin «Veda»sına yaxınlaşır. Bütün Azərbaycan nağılları içərisində «Məlik Məmməd» tipik sanıldığı üçün bunun təhlili qeyrilərini də izah edər zənnindəyəm, çünki hər bir nağıldakı fikir haqqın nahaqqa qələbə çalmağından ibarətdir. Yalnız vəqə və məzmun başqa-başqadır, «Məlik Məmməd»in fəlsəfi təbiətindəki ikiliyi təsvir eləyir. Bir tərəfdən Hörmüzd və onun xalq etdiyi nur, əbədi həyat, haqq və ədalət, o biri tərəfdən də Əhriman və guruhu: qaranlıq dünyanın məhsulu divlər, əjdahalar, büxl, həsəd, fəna fikirlər. Bir-birilə əbədi çarpışmada olan bu iki qüvvə Hörmüzdün qələbəsi ilə nəticələnir» (36, 45). Lakin bu cəhət daha ağlabatandır ki, nağıllarda rast gəlinən Xeyir və Şərin mübarizəsi fəlsəfəsi öz kökünü «Avesta»dan götürmür, bunun əksinə olması fikri daha inandırıcıdır. Çünki heç bir yazılı ədəbiyyat nümunəsi ağız ədəbiyyatı üçün qaynaq olmamalıdır. Elə bunun üçün də nağıllarda rast gəlinən xeyir və şər fəlsəfəsi öz kökünü ibtidai cəmiyyətdə xalqın ovçuluq həyatından alır. Nağıllarda rast gəlinən fiziki gücün təbliği, nağıl qəhrəmanlarının fiziki tərbiyəsi üçün xüsusi pəhləvanlardan təlim alması da, heç şübhəsiz, bu mübarizənin nəticəsi olmalıdır. Lakin nağıllarda əqli gücə də xüsusi yer verilir və qəhrəmanlar məktəblərdə tərbiyə alır. Bu, çox güman ki, sonrakı mərhələ ilə bağlıdır. Çünki həmin mərhələdə artıq dövlətlər arasında müharibələrdə

fiziki güclə yanaşı, ağıl da mühüm rol oynayır, çox zaman isə ondan üstün olur.

Sinifli cəmiyyətdə xalqın ədalətli şah arzusu da əks olunur. Orada zülmə, sinfi bərabərsizliyə qarşı mübarizə nağılların ruhuna, əzilən kütlənin arzu və istəyinə uyğun olaraq zalım, ədalətsiz şah devrilir və taxta adələtli şah çıxarılır. Bu mübarizə çox zaman qəhrəmanların mübarizəsi fonunda baş verir. Artıq sinifli cəmiyyətdə ovçuluq kasıblar üçün yaşayış vasitəsidirsə, varlılar üçün bir əyləncədir. «Ovçu Pirim», «Ovçu Əhməd», «Ovçu Nəbi» nağıllarında əsərin qəhrəmanları ovçuluqla dolanırsa «Taxta qızın nağılı», «Tilsimə düşmüş qız» və s. nağıllarda padşahlar, varlılar ov etməklə əylənirdilər.

Nağıllarda xalqımızın maldarlıq həyatı da öz əksini tapır. Səfərə çıxan qəhrəmanlar əsasən səfər zamanı yolda qoyun sürüsü otaran çobanlara, naxır otaran naxırçılara, at otaran ilxıçılara rast gəlirlər. Artıq bu dövrdə sinifli cəmiyyətin olduğunu görürük. Çünki çobanlar, naxırçılar, ilxıçılar özlərinin deyil, varlıların, şahların sürülərini, ilxı və naxırlarını otarır və onlardan haqq alaraq ailələrini bununla dolandırırlar. Bu dövrdə nəqliyyat vasitəsi olaraq atı görmək olar. At xalqın məişətində mühüm rol oynayırdı. Qobustanda Yazıtəpədə qaya təsvirində çılpaq atın ağzına yüyən verildiyi təsvir olunur. Atın üstündə olan şəxs əlində olan yabaya oxşar silahla maralı ovlayır (128, 45). Maraqlıdır ki, nağıllarda da ova atla çıxırlar. «Taxta qızın nağılı»nda Cahangir şahın atla ov yerinə gəlib atı cidarladığı, gün çıxana qədər ov etdiyi göstərilir. Nağıllarda tez-tez nağılların və qoyun sürülərinin xatırlanması da bu təsərrüfat formasının inkişaf etdiyini göstərir. Nağıl qəhrəmanlarının nəqliyyat vasitəsi kimi, atdan istifadə etməsi də, çox güman ki, bununla bağlıdır. «At ilxılarının sayının artması və ondan geniş istifadə edilməsinin ən başlıca səbəbi köçmə maldarlıq formasının inkişafı ilə əlaqədar olmuşdur. Tayfalar üstündə, ərazi və varlanma üstündə arasıkəsilməyən mübarizələr də atın inkişaf



etdirilməsinə şərait yaratmışdır» (13, 250). At min illər boyu xalqımızın ən yaxşı nəqliyyat vasitəsi, «qardaşı» olmuşdur. «Dəvə ərəblər üçün nə qədər lazım idisə, at da türklər üçün o qədər lazım idi. Geniş çölləri onunla keçər, ətindən yeyər, südündən içki /qımız/ hazırlayar, gönündən və qanından da faydalanardılar» (103, 377). Lakin biz nağıllarımızda atın ətindən, südündən istifadə edildiyinə rast gəlmirik. Bu çox güman ki, nağılçıların İslam dini təfəkkürü ilə bağlıdır. Bu din at əti yeməyi təqdir etmir. Halbuki «Dədə Qorqud» dastanlarında «atdan ayğır, dəvədən buğra, qoyundan qoç» qırıldığını, göl kimi qımız sağıldığını görürük. Beləliklə, inamla demək olar ki, məhz İslam dininin təsirilə at ətindən, südündən istifadə olunması aradan qalxır, lakin at nəqliyyat vasitəsi kimi mühüm rol oynamaqda XX əsrə qədər davam edir.

Nağıllarımızda tez-tez əkinçilik mədəniyyətinin izlərinə də rast gəlirik. Doğrudur, nağıllarımızda əkinçilikdən ayrıca bəhs olunmur, lakin tez-tez əkinçilik istilahları müəyyən münasibətlərlə işlədilir. Aydın olur ki, əkinlər cüt və kotanla əkilir. «Nardan xatun» nağılında arpa, buğda, ilə yanaşı, darı da əkildiyini görürük. Əsərin qəhrəmanlarına tez-tez dəyirmanlarda rast gəlindiyindən məlum olur ki, arpa, buğda, darı burada üyüdülür. Sonra isə «Taxta qızın nağılı»nda göstərildiyi kimi, təndir qalayıb, xəmir yoğurur, xəmiri kündələyib təndirə yaparaq çörək bişirirlər. Qəhrəmanlar çox zaman öz sevgililəri ilə bağlarda görüşür. Nağılarda tez-tez qarpız, yemiş, üzüm, alma, nar, qoz və s. kimi bağ-bostan bitkiləri xatırlanır. Qovurma, kabab, plov, qayğanaq və s. yeməklərdən də bəhs edilir. Pendir, qurud, süd, qatıq kimi süd məhsullarının da adı çəkilir. Yaşayış evlərindən alaçıq, qazma, koma, saray və s. adlara tez-tez rast gəlmək olur.

Nağıllarda ən geniş məlumat toy mərasimləri ilə bağlı verilir. Əsasən qəhrəmanlar sevgililərini görüb sevir, seçirlər. «Bəlli olur ki, indi, necədirsə, qədimdə də qızı görüb bəyənmək oğlanla qızın öz ixtiyarında imiş» (1, 89). Oğlanla qız bir-birini görən kimi dərhal sevmir, sınayırlar. «Dədə Qorqud»

dastanlarında «Banı Çiçək öz beşikkərtmə nişanlısı Beyrəyi sınamamış ona ərə getməyə razılıq vermir (64, 153). Nağıllarda da uşaqların beşikdə ikən nişanlanmasına rast gəlirik. Qızla oğlan bir-birini görüb bəyəndikdən sonra qız evinə elçi gedir, «allahın əmri, peyğəmbərin şəriəti» ilə qız oğlana alınır, üzük taxıb nişanlanır. Kəbin isə molla tərəfindən kəsilir. Nağıllarda valideynləri razı olmadıqda qızın götürülüb qaçırılmasına da rast gəlirik. Bəzən qızın razılığı olmadan da qızı götürüb qaçırırlar. Qızın valideynləri eyni zamanda oğlan evindən başlıq istəyir. Nağıllarda toy məclislərinin üç gün, üç gecə, yeddi gün, yeddi gecə, qırx gün, qırx gecə davam etdiyini görürük. Qırx gün, qırx gecə toy məclisinin davam etməsi haqqında məlumat olmasa da, üç gün, üç gecə, yeddi gün yeddi gecə toyların olduğu şübhə doğurmur. 1916-cı ildə Salahlıda Annax bəyin oğlunun toyunda iştirak edən Aşıq Ələsgər «bir həftə ziyarət göyə yüksəldi» - deyə, toyun yeddi gün davam etdiyini  göstərir. «Qaçaq Kərəm» romanında Söyünbəyli kəndində Hüseyn ağanın evində olan toy belə təsvir olunur: «Gecə yarıdan keçmişdi. Bir həftə idi ki, bu evdə çal-çağır idi. Əvvəl cümə, axırı cümə. Bu gün şənliyin axırıncı günü idi. Mərəkədə iştirak eyləyən kənd camaatı artıq dağılmışdı» (40, 78). Nağıllarda digər maraqlı cəhət təkarvadlılıqla yanaşı, çoxarvadlılığın da təsviridir. Çoxarvadlılar əsasən varlılardır. Nağıllarda tez-tez qohumların - əmioğlu, əmiqızı, dayıoğlu, mamaqızı, xalaoğlu, xalaqızı və s. evləndiyini görürük. Bununla belə, yad tayfalardan da qız alınmasına rast gəlinir. İndi də yaxın qohumla evlənmə halları Azərbaycan, Qafqaz, Orta Asiya xalqlarında mövcuddur. Nağıllardan aydın olur ki, yad yerdə qız sevən oğlanlar onları öz yerlərinə gətirir, ağsaqqal xeyir-duası almamış evlənmirlər. Övladı olmayanlar övladlığa uşaq götürür. Bunun üçün övladlığa götürülən uşağı qız və ya oğlan- fərqi yoxdur, evin qadını köynəyindən keçirib övladlığa qəbul edir. Bu adətə biz «Koroğlu» dastanında da rast gəlirik.



Nağıllarımızda yas mərasimlərinin izləri də vardır. Əzizləri ölən adamlar onun üçün yas saxlayırlar, yas əlaməti olaraq qara geyir, deyib-gülmür, ağlayırlar. Bəzən hətta ağlamaqdan gözləri tutulur. «Dədə Qorqud» dastanlarında Beyrəyin yası belə təsvir olunur: «Bəybura bəyin dünlügü altun ban evində şivən girdi. Qızı-gəlini  qas-qas gülməz oldu. Qızıl qına ağ əlini yağmaz oldu. Yeddi qız qardaşı ağ çıxardılar, qara donlar geydilər. Vay, bəgim qardaş! Muradına, məqsuduna irməyən yalnuz qardaş!» - deyib ağlaşdılar – bögürüşdülər. Beyrəyin yavuqlusuna xəbər oldu. Banıçiçək qaralar geydi, ağ qaftanını çıxardı. Güz alması kimi ağ yanağını dartdı, yırtdı» (40, 57-58). Göründüyü kimi, nağıllarda olanlar dastanlarda daha aydın verilir. Bildiyimiz kimi, indi də mərhum dəfn olunduqdan sonra üç gün onun qəbri üstündə ocaq qalanır. «Bəxtiyar» nağılında bu belə təsvir olunur: «Padşah qocalmışdı, o, oğlanlarını çağırıb vəsiyyət elədi ki, mən öləndən sonra həreniz bir gün qəbrimin üstündə keşik çəkərsiniz. Vaxt oldu ki, padşah öldü. Oğlanları onu dəfn elədilər. Birinci gecə böyük qardaş silahlandı, qəbiri üstündə yandırmaq üçün şam götürüb getdi» (24-inf). Bu süjetə B.Veniaminovun Salahlı kəndindən topladığı «Şərif» nağılında da rast gəlirik. Bunun mənasını Y.V.Çəmənzəminli belə açıqlayır: «Azərbaycanda ölüyə qüsl verilən yerdə üç axşam şam yanır. Bu adətin tarixi belədir: zərdüştlərcə ölünün ruhu üç gün, üç gecə himayəsiz qalır. Dördüncü gün işıq pərisi /mehr/ dağları işıqlandıranda ədalət məhkəməsi qurulur və ruhlar himayəyə alınır. İlk uç gecə divlər ruhları fənalığa sövq etməyə çalışırlar. Divlər qaranlığın məxluqu olub işıqdan qaçdıqları üçün ölü sahibi ya meyidin yanında və yaxud da qüsl verilən yerdə şam yandırarmış ki, ədalət məhkəməsinə qədər ruhu divlərin təcavüzündən mühafizə eləsin» (36, 87). Göründüyü kimi, bu ədavət xalqın qədim inamından doğmuş və indi də yaşayır.

Nağıllarımızda xalq təbabətinin izlərinə də rast gəlinir. Lakin onun haqqında ayrıca danışdığımızdan, burada söhbət açmırıq.

Qazax mahalında nağıllar kimi əfsanələr də geniş yayılmışdır. Bu yerlərdə tarixi şəxsiyyətlər – Makedoniyalı İsgəndər, Süleyman peyğəmbər, Şah Abbas, Koroğlu haqqında, eləcə də heyvanlar, quşlar – anadil, turac, ilanlar, bülbül, qızılgül, Yusif-Nəsif quşu və s., yer adları ilə bağlı – Eldar kəndi, Göyəzən, Ağoğlan, Qız qalası, Abbasbəyli və s. haqqında, göy cisimləri Ay və Günəş haqqında əfsanələr indi də yaşamaqdadır. Əfsanələrin süjetləri çox zaman sevgi üzərində qurulur. Kəmərli kəndində indi də Ağoğlan və Qız qalası haqqında əfsanələr dolaşmaqdadır. Əfsanədə göstərilir ki, xan qızı ilə sevişən kasıb Ağoğlan qızı götürüb qaçır. Xanın adamları Ağoğlanı öldürüb qızı əlindən alırlar. Qız qalada saxlanır. Onun göz yaşlarının axmasından qalanın divarları indi də yaşdır (16- inf). Burada nağıllardakından fərqli olaraq bir cəhət diqqəti cəlb edir: sosial mövqeyi bərabər olmayanlar evlənə bilməz. Bu qanuna əməl etməyənlər ölümə məhkumdur. Bu mənada, əfsanələr nağıllardan daha obyektivdir. Nağıllarda isə ən kasıb adam şah qızı ilə evlənə bilər. Əfsanələrdə qohum nikahının izlərinə də rast gəlinir. Əzizi ölən yas saxlayır, göz yaşı tökür. «Yeddi qız» əfsanəsində qızların, qadınların ismətlərini qorumaq üçün üzlərini gizlətdiyini görürük. Əfsanədə deyilir ki, bulaq başında əl-üzlərini yuyan qızları ovçu gördükdə onlar allaha yalvarıb daşa dönürlər (27, 65). Üz gizlədilməsinə «Dədə Qorqud» dastanlarında da rast gəlinir. Yerli əhali arasında üz gizlədilməsinin bir forması olan yaşmağa bu yaxınlara qədər rast gəlinirdi. «Qızıl qaya» əfsanəsində isə Rum elindən gələn işğalçılarla döyüşdə olan igidin qanı tökülən yerdən qaya çıxır. Qaya qana boyandığından qızıla çalır (43, 112-113). M.Həkimovun Kəmərli kənd sakini 110 yaşlı Bəhmən Mustafa oğlundan topladığı «Qarunun intiqamı» əfsanəsində sazın düzəldilməsi haqqında deyilir: «Mələklər dedi: - Ey bəni



insan, bil və agah ol! Arranatəşə gedən yolun üstündə qara bir tut ağacına rast gələcəksən. Onu kəsərsən, çömçə kimi içini oyarsan. Üzünə nazik taxta, qol düzəldərsən. Bəri biyanbanda bitən saqqız ağacının yapışqanı ilə onları bir-birinə yapışdırarsan. Qoldan üç qulaqcıq açarsan. Üç burmancı qulaqcığa taxarsan. Qola qoyun bağırsağından eşilmiş quru pərdə bağlamağı da unutmazsan. Dediklərimi hazır etdikdən sonra üçyaşar ürgənin quyruğundan ona tel çəkərsən. Onu çalarsan. O, gözəl çalğı alətidir. İşdir səs cır çıxarsa, çömçənin sinə taxtasından üç deşik açarsan» (56, 379). Sazın düzəldilməsi burada təfərrüatı ilə təsvir edilmişdir. Göründüyü kimi sazın çanağı indikindən fərqli olaraq bütöv olmuşdur. Telləri at tükündən, pərdələri qoyun bağırsağından hazırlanır və üçtellidir. Buradan aydın olur ki, sazın düzəldilməsinin ilkin şəkli ilə indiki arasında o qədər fərq yoxdur. Ümumiyyətlə, əfsanələrdə həyat həqiqəti xalq tərəfindən əfsanələrə bürünmüş şəkildə verilir və xalq həyatının müxtəlif sahələrinin inkişafını öyrənmək üçün bir mənbə rolunu oynayır.

## 1.6. MUSİQİ

Azərbaycan xalqının milli mənəvi mədəniyyətinin ən çox diqqəti cəlb edən sahələrindən biri musiqidir. Qədim tarixə malik olan Azərbaycan musiqisi nəinki Qafqazda, hətta yaxın Şərqdə, Orta Asiyada geniş yayılmışdır. Qonşu xalqların musiqisi ilə təmasda olan bu musiqi çox zaman onlara da öz güclü təsirini göstərmişdir. Hətta bəzən onları sıxışdıraraq həmin xalqların doğma musiqisinə çevrilmişdir. Bunu Girman Vamberinin «Orta Asiyaya səyahət» kitabındakı fikirlər də sübut edir. O yazır: «Türkmənlər Azərbaycanı yüksək sivilizasiyasının mərkəzi hesab edirlər. Əgər ilk baxımdan insan qəlbini riqqətə gətirən gözəl bir mahnı oxumağı xahiş etsələr, onda salona mütləq Azərbaycan təranələri yayılacaqdır» (153, 31). Azərbaycan

musiqisi bir çox qonşu xalqların musiqisinə bu və ya digər şəkildə təsir göstərmiş, hətta erməni xalqının musiqisini tamamilə əvəz etmişdir. Belə yüksək səviyyəyə malik Azərbaycan musiqisinin ayrı-ayrı bölgələr üzrə öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Qərb bölgəsində (Qazax rayonunda) bu musiqinin xarakterik xüsusiyyətlərinin araşdırılması xüsusi maraq doğurur.

Qədim tarixə malik olan Azərbaycan musiqisi əsasən üç yolla inkişaf etmişdir: 1. Xalq musiqisi. 2. aşıq yaradıcılığı. 3. Xanəndəlik. Bu hər üç musiqi özünəməxsus, orijinal, çoxcəhətli yaradıcılıq sahəsi olmuş, qarşılıqlı təmasda inkişaf etmiş və bir-birinə təsir göstərmişdir.

Azərbaycan musiqisinin ən qədim sahəsi xalq musiqisidir. Bu musiqi öz kökləri etibarilə ibtidai icma quruluşuna gedib çıxır desək, fikrimizdə yanılmarıq. Azərbaycan xalq musiqi yaradıcılığına mahnılar və oyun havaları daxildir (118, 4). Bu musiqi öz forma və janrları ilə çoxcəhətli və çoxşaxəli olmaqla başlanğıcını xalq həyatından alır. Xalq musiqisi nümunələri əsasən, əmək prosesi, ailə məişəti, mərasimlərlə, oyunlarla bağlı olaraq yaranmışdır. «Azərbaycanda oxumaq üçün əsas material xalqın adət-ənənələrini əks etdirən və xalqın özü tərəfindən yaradılan xalq nəğmələridir» (125, 34). Bu nəğmələrin ilk nümunələri xalqın həyatı – ovçuluq, maldarlıq, əkinçilik və mərasimlərlə bağlı yaranmış əkinçi nəğmələri, holavarlar, sayaçı sözləri, eydirmələr, mərasimlərdə oxunan mütləq məzmunlu nəğmələrdir. Eyni zamanda xalq mahnılarının rüşeymlərini qədim oyunlarda, tapmacalarda, laylalarda, oxşamalarda, sayaçı sözlərində, holavarlarda, oyun mərasim havalarında, cəngilərdə, hətta ağılarda axtarmaq lazımdır (75, 62). Mahnı xalq həyatını özündə əks etdirməsinə görə diqqəti daha çox cəlb edir. Xalqın bütövlükdə daxili aləmi, arzu və istəyi, düşüncəsi, xoş gündə istəyi, sevinci, dar gündə kədəri öz əksini onun musiqisində, nəğmələrində tapır. Ümumiyyətlə, «mahnı xalqın özüdür. Mahnılarına görə



xalqın həyat tərzini, toyunu, yasını, mübarizəsini müəyyənləşdirmək mümkündür» (41, 153).

Ən qədim mahnı nümunələri heç şübhəsiz ki, ovçu nəğmələri, sayaçılar, holavarlardır. Onların ilkin nümunələri unudulmuş və dövrümüzə qədər gəlib çatmamışdır. XIX əsrdə və XX əsrin əvvəllərində Qazax bölgəsində bu nəğmələr geniş yayılmışdır. Çox təəssüf ki, indi də holavarlar, sayaçı sözləri ağsaqqalların yaddaşında yaşasa da, ovçu nəğmələri, demək olar, unudulmuşdur. Bunun səbəbi bizə belə gəlir ki, ovçuluğun xalq təsərrüfatında yeri ilə bağlıdır. Çünki ovçuluq təsərrüfatı aparıcı sahə kimi artıq aradan çıxmış, əyləncə vasitəsinə çevrilmişdir. Bu dövrdə əkinçilik və maldarlıqla bağlı olan «A yel baba, yel baba», «Gün çıx, gün çıx», sağım nəğmələri – eydirmələr, nəhrə nəğmələri və s. xalq arasında geniş yayılmışdır. Xalq musiqisinin xeyli hissəsini mövsüm və mərasim nəğmələri təşkil edir. Bu nəğmələr əsasən mövsümlə əlaqədar olan nəğmələrdir. Mövsümlər isə öz növbəsində təbiətlə bağlıdır. Onları tam mənada bir-birindən ayırmaq mümkün deyildir. Biz mövsümlərlə bağlı nəğmələrin əsas nümunələri kimi «Xıdır Nəbi», «Kosa-kosa», «Hodu-hodu», «Səməni ay səməni», «Duman qaç-qaç», «Gün çıx, gün çıx», «Üzərliksən havasan», «Vəsfi-hal» və s. göstərə bilərik.

Ən geniş nəğmələr toy mərasimləri ilə bağlı nəğmələrdir. Onlar bir silsilə təşkil edir və bölgə əhalisi arasında indi də yaşamaqdadır. Toy nəğmələri həmin mərasimin müxtəlif mərhələlərini - nişan, toy, bəy tərifi, xonça, xına, gəlinaparma və s. özündə əks etdirir. Belə nəğmələr şən əhvali-ruhiyyə daşıyaraq sevinc, şənlik ovqatı yaradır. Qaynana-gəlin münasibətlərini əks etdirən nəğmələr də əhali arasında geniş yayılmışdır. Kənd toylarında əsasən qədim toy mahnıları oxunurdu. Onların əsas cəhəti şən əhvali-ruhiyyə yaratmasıdır. Onlar musiqi ilə bağlı olmuş, həm sözlər, həm də hava bir-birilə qarşılıqlı inkişaf etmişdir (41, 154). Belə mahnılara nümunə olaraq «Haralısan, haralı durna»,

«İstəkanın qırılsın», «Üçtelli durna», «Əlində sazın qurbanı», «Yaxan düyməló», «Xumar oldum», «Ayağında məsi var» və s. göstərmək olar. Bu mahnıların Qazax mahalında toy və şənliklərdə gözəl ifaçılarından biri Kəmərli Aşıq Əmiraslan olmuşdur. Ona aşıq deyilsə də o, saz çala bilməmiş, bu mahnıları qavalın müşayiəti ilə oxumuşdur. O, 1930-cu ildə qaçaq üçün mahnı oxuduğuna görə güllələnmişdir (34-inf.). Bu mahnılar indi də qalmaqdadır. Lakin «Pəncərəsi, ay pəncərəsi» mahnısının ancaq adı yaşamaqdadır. İ.Şıxlının xatirələrindən aydın olur ki, bu mahnı əsrimizin 40-cı illərinə qədər müğənnilər tərəfindən ifa olunmuşdur (106, 216). Haqqında danışdığımız mahnıların mətni əsasən bayatılardan ibarət idi. Lakin xalq mahnılarının xeyli hissəsinin mətnini gəraylı və qoşmalar təşkil edir. Xalq mahnılarının bu xüsusiyyəti aşıqların təsirilə izah edilməlidir (78, 34). Qazax el şairi Şeyda Əzizin «Bilirsənmi səndən niyə küsmüşəm» qoşması indi də xalq mahnısı kimi bütün Azərbaycan xalqı içərisində yayılmışdır. Qeyd etmək lazımdır ki, bu mahnılar təklikdə musiqisiz də oxunurdu.

Xalq musiqisinin bir hissəsini də xalqın kədərini, dərdini əks etdirən yas nəğmələri, ağılar təşkil edir. Ağılarda, bildiyimiz kimi, xalqın dərdi, kədəri yaşayır. İslam dini musiqini haram buyurduğu üçün onlar musiqisiz oxunur. Çox güman ki, islamdan əvvəl ağılar musiqi ilə oxunmuşdur.

Uşaqların saxlanması, boya-başa çatdırılması üçün yaranan mahnılar – laylalar, arzulamalar və oxşamalardır. Qazaxda özünəməxsusluğu ilə seçilərək respublikamızın başqa yerlərində rast gəlinməyən qımqımılar daha çox diqqəti cəlb edir. Qımqımılar əsasən Qaymaqlı kəndi ilə bağlıdır və çox zaman ona «Qaymaqlı qımqımıları» deyilir. Bu nəğmələr əsasən qadınlar tərəfindən oxunur. Qımqımılarda onlar öz arzu və istəyini intonasiya ilə müəyyən sözləri təkrar edərək oxuyurlar. Onu da qeyd edək ki, qımqımılar musiqinin müşayiəti olmadan ifa olunur.



Qaymaqlı kəndində indi də xüsusi qımqımı deyən qadınlar var. Onların qımqımılarının xüsusiyyətinin aydın görünməsi üçün bir nümunə veririk:

Ay gedən atdı,
atın tərə, atın tərə batdı.
Səni məndən, səni məndən
ayıranlar ölsün.
Bircə balan, bircə balan
mənə qalsın.

Bu dövrdə uşaq nəğmələri də geniş yayılmışdır. Onları uşaqlar oxuyurdular. Qeyd etmək lazımdır ki, bu nəğmələr intonasiya ilə musiqisiz oxunurdu. «Hamam-hamam içində», «Bacadan baxan hidra-göz», «Tülkü, tülkü, tünbəki», «A hastanda, hastanda», «Əkil-bəkil» və s. uşaq nəğmələrinə nümunədir.

Xalq musiqisinin tərkib hissəsi kimi oyun havaları da diqqəti cəlb edir. Oyun havaları el şənlikləri zamanı rəqs edərkən ifa olunurdu. Xalq bu havaların təranələri altında rəqs edər, şənlənərdi. Oyun havaları əsasən «Tərəkəmə», «Uzun dərə», «Qazağı», «Vağzalı», «Güləşəngi», «Atdandırma» və s.-dən ibarət idi. Bunlar lirik oyun və qəhrəmanlıq havalarına bölünürdü.

Xalq musiqisi xanəndəlik və aşıq sənəti ilə təmasda inkişaf etmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində Qazaxda aşıq yaradıcılığı geniş yayılmışdı. Aşıqlara bölgənin bütün kəndlərində rast gəlmək olardı. Aşıq sənəti öz qidasını zəngin xalq şerindən, musiqisindən alırdı. Eyni zamanda aşıq sənəti xanəndəliyə təsir göstərsə də, öz növbəsində də ondan qidalanmışdır. Belə ki, xanəndəlikdəki zəngulələri aşıqlar öz sənətinə gətirdiyi kimi, xanəndələr də aşıq sənətindəki oynaqlığı muğama gətirmişlər. «Klassik xanəndələrdən hacı Hüsü, Mirzə Məhəmməd Həsən, Cabbar Qaryağdı oğlu, Segah İslam, Seyid Şuşinski, xüsusilə Bülbül muğamatı genişləndirmək üçün aşıq formalarını və xalq mahnılarını muğamata daxil etmişlər, «Arazbarı», «Manı»,

«Şikəstə», «Bayatı», «Kərəmi», «Şərili», «Kürd ovşarı», «Kəsmə şikəstə», «Şirvan şikəstəsi» və buna bənzər aşıq musiqisi nümunələrini əsas tutmuş və bunları zildə oxumaqla bu formaları muğamata üzvü surətdə aşılayaraq onu daha da zənginləşdirmişlər. Eyni zamanda görkəmli aşıqlar aşıq yaradıcılığını inkişaf etdirmək üçün «Sarəng», «Şikəsteyi-fars», «Qatar-bayatı», «Əşiran», «Bayatı-Qacar», «Kürd Şahnaz», «Bayatı -Əcəm» kimi muğam nümunələrindən istifadə etmişlər» (109, 95).

XIX əsrdə Qazaxda aşıq yaradıcılığı inkişafının ən yüksək zirvəsinə çatır. Heç bir el şənliyi aşıqların iştirakı olmadan keçirilmir. Aşıq musiqisi xalqın mənəvi tələbatını ödəyən əsas vasitəyə çevrilir. Burada məşhur el aşıqları yetişir. «Qazax yurd yeri», «Qazax dübeytisi» kimi havalar meydana çıxır. Onlar öz mahiyyəti etibarilə xalqın həyatı ilə bağlıdır. Eyni zamanda bu havalara adicə zövqoxşayan musiqi havaları kimi də baxmaq olmaz. Hər bir hava müəyyən məna, qayə, hadisə və həyati faktla bağlıdır, xalq məişətinin, mübarizəsinin, tarixi keçmişinin, qəminin, sevincinin, arzu və bəlanın musiqi dili ilə ifadəsidir» (114, 140). M.İlqar bu xüsusiyyəti çox gözəl tutmuşdur:

«İncə gülü» - elin eşqi, ülfəti,
«Misiri» - Koroğlunun gücü, qüvvəti,
«Qaraçı» - qoynunda köçü, külfəti,
Yaylağa uzanan yoldu sinəmdə (62, 51).

Azərbaycan musiqisinin üçüncü qolunu xanəndəlik təşkil edir. Xanəndəlik sənəti orta əsrlərdə şəhərlərin inkişafı ilə əlaqədar meydana gəlmişdir (109, 12). Muğam sənəti öz qidasını klassik ədəbiyyatdan, qəzəllərdən almışdır. XX əsrin əvvəllərinə qədər xanəndələr əsasən fars dilində oxuyurdular. Deməк olar həm də şəhər toylarına çağırılırdılar. Kəndlilər üçün onlar anlaşılmaz olduğuna görə xanəndələri öz məclislərinə dəvət etmirdilər. Məhz buna görə də bu sənət Qazaxda yayılmamışdı. Doğrudur, əsrin əvvəllərində Salahlı Məşədi Əkbər kimi xanəndə



yetişmişdi. Lakin onun fəaliyyəti İrəvan, Tiflis kimi şəhərlərlə bağlı olmuşdur. Muğamın izlərinə Qazaxda nəqşbəndilər arasında da rast gəlmək olardı. Onlar öz məclislərində çalıb oynayır, təriqət başçıları Seyid Mirhəmzə Nigarinin qəzəllərini muğam üstündə oxuyurdular. Lakin qeyd etdiyimiz kimi, xalq kütlələri arasında xanəndəlik sənəti geniş təşəkkül tapa bilməmişdi.

## 1.7. MUSİQİ ALƏTLƏRİ

Azərbaycan xalqının həyatında dərin kökləri olub, mənəvi mədəniyyətdə mühüm yer tutan zəngin musiqini musiqi alətləri olmadan təsəvvür etmək olduqca çətindir. Musiqimiz də musiqi alətlərimiz kimi tarixən zəngin olmuşdur. Zaman keçdikcə musiqimizdə olduğu kimi, musiqi alətlərimizdə də inkişaf getmişdir. N.Gəncəvi hələ XII əsrdə 32 musiqi aləti haqqında öz əsərlərində məlumat vermişdir (143, 157). Bu musiqi alətlərinin əksəriyyəti dövrümüzə qədər gəlib çatmışdır və hər biri musiqi mədəniyyətimizin inkişafında öz yerini qoruyub saxlayır.

Musiqi alətləri quruluşu, ifa tərzi, səs ahəngi, ritmi ilə üç növə bölünür. Bunlar simli, nəfəsli və zərb alətlərindən ibarətdir. Bu alətlər əsrlər boyu bayramların, el şənliklərinin, toyların yaraşığı olmuş, onların ayrılmaz bir hissəsinə çevrilmişdir. Belə məclisləri musiqisiz və musiqi alətləri olmadan təsəvvür etmək mümkün deyildir. Bu musiqi alətləri məclislərdə ya təkcə, ya da ansambl şəklində istifadə olunmuşdur. Ansambl şəklində istifadə olunan musiqi alətlərinin səs uyğunluğu həmişə nəzərə alınmışdır.

Biz burada ancaq XIX əsrdə və XX əsrin əvvəllərində Qazaxda ən geniş şəkildə istifadə olunan musiqi alətlərindən söhbət açacağıq.

**SAZ**: XIX əsr və XX əsrin əvvəllərində Qazaxda ən geniş yayılan musiqi aləti saz olmuşdur. Bu məhz həmin dövrdə aşıq ədəbiyyatının, aşıq sənətinin geniş təşəkkül

tapması və xalqın bu sənətə marağının nəticəsi idi. O səbəbdəndir ki, hər bir evdə, demək olar, divardan tüfəng, xəncərlə yanaşı, saz da asılmışdır.

Saz öz tarixi etibarilə çox qədimdir. Bu sənətin kökünün köçmə maldarlıq təsərrüfatı ilə bağlı olduğunun qeydi də maraqlıdır. Azərbaycan ərazisində yaşayan qəbilələrin 3 min il bundan əvvəl sazdan istifadə etdikləri göstərilir (26, 42-43). Elə həmin dövrdən də saz xalqımızın tarixində ona yol yoldaşlığı etmişdir. «Kitabi-Dədə Qorqud» dastanlarında hətta düşmən əlində saz olardısa, sazın onun əlindən alındığını və saza hörmət əlaməti olaraq onun öldürülməyib, bağışlandığını görürük (64, 74). Klassik poeziyamızın nümayəndələri N.Gəncəvi, M.Füzuli, Ş.İ.Xətai, M.P.Vaqif, və başqaları saz haqqında öz əsərlərində müəyyən məlumatlar vermiş, onu hörmətlə xatırlamışlar. Şah İsmayıl Xətai hətta özünü bir gün sazsız təsəvvür edə bilmədiyini şeirlərində göstərmişdir:

Bu gün ələ almaz oldum mən sazım,
Ərşə dirək-dirək çıxar avazım,
Dörd şey vardır bir qarındaşa lazım,
Bir elm, bir kəlam, bir nəfəs, bir saz.

Saz özünün quruluşu etibarilə uzunboğazlı armuda bənzər musiqi alətidir. Onun əsas hissəsi (çanağı) 1-2 sm qalınlığında ayrı-ayrı taxtalardan əyilərək bir-birinə pərçimlənib düzəlir. Bu yarım armud şəkli alır. Çanaq hissə adətən tut ağacından düzəlir. Ə.Rəhmətov çanaq hissəsinin bütöv ovularaq düzəldiyini qeyd edir (88, 20). Sazın boğaz hissəsi isə qoz ağacından hazırlanır. Çanağın üst hissəsi nazik taxta parçaları ilə örtülür. Çanaq boğaz hissə ilə birləşdirilir. Sazın səsinin yaxşı çıxması üçün onun üst taxtalarında kiçik deşiklər açılır. Qolun üzərində 8-10 aşıq olur və simlər çanağın arxa hissəsindən gətirilərək ona bərkidilir. Simlərin sayı aşıqların sayına bərabər olur. Onu da qeyd edək ki, simlər metaldan ibarət olur. Aşıq sazı



kökləmək üçündür. Sazın qolları üstündə pərdələr var. Pərdələrin sayı adətən 10-14 olur. Pərdələr baş pərdə, ayaq pərdə, orta pərdə, şah pərdə, beçə pərdə və s. adlanır. Sazı çalmaq üçün mizrabdan (tazanədən) istifadə edilir. Mizrab gilas və ya albalı ağacı qabığından hazırlanır.

Sazda tarixən dəyişiklik sim və pərdələrin sayı ilə bağlı olmuşdur. Ə Xaqani yaradıcılığında bir simli sazdan danışılırsa, artıq XVI əsrdə M.Füzuli «Leyli və Məcnun» poemasında ikisimli sazdan söhbət açır. «Koroğlu» dastanında isə üç telli saz tez-tez xatırlanır. XX əsrin əvvəllərində P.Vostrikov sazın beşsimli olduğunu qeyd edir: «Saz beş simli musiqi alətidir. O, tatar xalq musiqiçiləri – aşıqlar arasında geniş yayılmışdır. Sazın telləri metaldandır, onu buynuz və ya albalı qabığı – mizrabın köməyi ilə çalırlar. Mizrabı baş barmaq və göstərici barmaq arasında tuturlar» (148, 5).

Göründüyü kimi, XIX əsrdə və XX əsrin əvvəllərində sazın simlərinin sayı beşə çatır. Hazırkı dövrdə isə simlərin sayı 8-10 arasındadır.

Sazda olan 10-14 pərdə də tarixən inkişaf edə-edə gəlmişdir. S.Paşayev XIX əsrdə daha iki pərdənin yarandığını, şah pərdə səviyyəsinə qalxdığını və bunun nəticəsində yeni saz havalarının meydana çıxması üçün əlverişli şəraitin yarandığını göstərir (87, 4). Ə.Eldarova pərdələrin sayının 15 olduğunu qeyd edir və onları belə qruplaşdırır: 1. Baş pərdə, 2. Baş pərdə (baş müxəmməs pərdəsi), 3. Orta pərdə (yarım pərdə, təcnis pərdə, kərəmi pərdə, ürfani pərdə), 4. Orta pərdə (yarım pərdə, gül pərdə, lal pərdə, kor pərdə, misri pərdə), 5. Şah pərdə. 6. Orta pərdə (lal pərdə, kor pərdə, səqir pərdə), 7. Divani pərdə (Ayaq divani), 8. Bayatı pərdə (yarım pərdə, Koroğlu pərdə), 9. Yarım pərdə (gül pərdə, kor pərdə, Bəhməni pərdə), 10. Kök pərdə (zil pərdə, ayaq şah pərdə), 11. beçə pərdə. 12. Baş pərdənin zili. 13. Orta pərdənin zili. 14. Şah pərdənin zili. 15. Qurtaracaq pərdə (39, 47).

Saz ölçüsünə görə də bir-birindən fərqlənir. Öz ölçüsünə görə saz üç cür olur: tavar saz, ana saz, cürə saz. Ustad aşıq Cəlal Qəhrəmanov bu haqda yazır:

Nadan qanmaz, qanan doymaz,
Hər yaramaz düz anlamaz.
Var tavar saz, var ana saz,
Bir də onun cürəsi var (12, 65).

Bu sazların ən böyüyü tavar sazdır. Onun uzunluğu 120-150 sm-dir. Ana saz bir qədər ondan kiçikdir. Onun ümumi uzunluğu 80-100 sm-dir. Ən kiçik saz isə cürə sazdır. Ona qoltuq sazı da deyirlər. Uzunluğu 50-70 sm-dir.

Saz tarixən xalq arasında ən geniş yayılan musiqi aləti olmuşdur. Elə bir el şənliyi, bayramı, məclisi olmazdı ki, onsuz keçirilsin. Xüsusilə Qazax rayonunda bu alət daha geniş yayılmışdır.

**TÜTƏK**: Azərbaycanın hər yerində olduğu kimi, Qazax bölgəsində də ən geniş yayılan musiqi alətlərindən biri tütəkdir. Ondan əsasən çobanlar istifadə edirlər. Bunu başqa musiqi alətlərinə nisbətən yığcamlığı, gəzdirilməyinin asanlığı ilə izah etmək olar. Tütəyin «Çoban tütəyi» adlanmasının bir səbəbi də məhz budur. Onun tarixi çox qədimdir. Tütək, xalqın təsərrüfatı, məişəti, mənəvi həyatı ilə sıx bağlı olmuşdur. Daha doğrusu, maldarlıqla əlaqədar yaranmışdır. «Deyilənə görə tütəyi dağların, düzlərin yaraşığı olan çobanlar icad etmiş, ilk dəfə onlar dilə gətirmişlər. Azərbaycanda yerli əhali 10-12 min il bundan əvvəl maldarlıqla məşğul olmuşdur. Çox güman ki, həmin dövrdə, yəni hələ ibtidai icma quruluşu şəraitində qəbilələr tütək qayırıb öz şənliklərində çalmışlar» (26, 98). 10-12 min il tarixi olan bu musiqi alətinin belə uzun müddətli yaşamasının başlıca səbəbi xalqın həyatı ilə bağlılığındadır.

Tarixən tütək indiki kimi olmamışdır, tədricən inkişaf edərək hazırkı şəklə düşmüşdür. İlk tütək barmaq dəlikləri olmayan adicə borudan ibarət olmuşdur (88, 32). Sonralar görünür ki, bu səsi inkişaf etdirmək, müxtəlif səviyyədə səs



almaq üçün yeni üsullar, vasitələr axtarılmışdır. Həmin axtarışların nəticəsi kimi tütəkdə dillər (dəliklər) açılmışdır.

Tütəyin uzunluğu 240 mm-dən 350 mm-dək olur. Onun uzunluğunun fərqi tütəyin səs səviyyəsi, kökü ilə bağlıdır. Tütək uzun olarsa, onun səsi bəm, qısa olarsa zil olardı. Tütək əvvəllər ağacdan hazırlanmışdır. Lakin soralar qamış tütək üçün ən yaxşı material hesab edilmişdir. Çünki taxtadan onu hazırlamaq çətindir və hər adam da hazırlaya bilməzdi. Qamış isə tütək üçün hazır materialdır. Ağacdan fərqli olaraq onu hər bir adam hazırlaya bilər. Ona görə də qamış tütək daha geniş yayılmışdır.

Tütəyin gövdəsinin üst tərəfində yeddi dəlik olur. Lülənin arxa hissəsində isə yuxarıda baş barmaq bərabərində bir dəlik açılır. Çalınmasında isə hər iki əl iştirak edir. Çalğı prosesində şəhadət orta adsız barmaqlarla tütəyin üst hissəsində olan yeddi dəlikdən altısı bağlanır, biri isə açıq qalır. Altında olan dəlik baş barmaqla tutulur.

Tütəkdə əsasən «Çoban bayatısı» ifa edilir. Adından göründüyü kimi, bu hava çobanlar tərəfindən bəstələnmişdir.

**ZURNA:** Xalqımızın yaratdığı musiqi alətləri içərisində zurnanın öz yeri vardır. Bu musiqi aləti qədimdə hərbi yürüşlərdə, müxtəlif xalq oyunları və əyləncələrdə, zorxanalarda, cıdır meydanlarında, xoruz və qoç döyüşlərində səsləndirilirdi. Zurnasız heç bir toy məclisi olmazdı (88, 39). Bu musiqi alətindən bütün xalq bayram və mərasimlərində istifadə edilmiş, el-obaya sevinc, xoşbəxtlik bəxş etmişdir. Onun zil səsi insanları coşdurur, onlarda qəhrəmanlıq ovqatı yaradır. Çox güclü və zil səsə malik olan bu musiqi aləti çalğıçıdan möhkəm üfürmə qabiliyyəti, nəfəs tələb edir.

Əsrin əvvəllərində P.Vostrikov zurna haqqında yazırdı: «Zurna nəfəsli alətdir və qaboyu əvəz edir, lakin öz quruluşu ilə ondan xeyli fərqlənir. Onun doqquz dəliyi olur. Onlardan səkkizi bir cərgədə gövdənin üst hissəsində, birisi isə altında olur. Zurna adətən armud ağacından düzəldilir və

qızıl, gümüşlə bəzəyirlər» (148, 5-6). Konus formalı, yəni baş tərəfi dar, qurtaracağından diametri isə böyük olan zurnanın uzunluğu 280-360 mm-dir. Üz tərəfində yeddi, altında olan bir deşik daha işləkdir. Üz tərəfində qıfa bənzər hissədə olan kiçik deşikdən isə adətən zurnanın köklənməsi üçün istifadə edilir. Zurnanın müştüyü qamışdan hazırlanır. Bu yonulmuş iki qamış parçasından ibarət olur. Uzunluğu isə 20-22 mm-dir. Müştüyə sümükdən dairəvi tağalaq bərkidilir. Zurnalar əvvəllər sümükdən, sonralar isə tut, qoz və ərik ağacından düzəldilmişdir (26, 106). Ə.Rəhmətov isə zurnanın yalnız ərik ağacından hazırlandığını qeyd edir. Bütün bunlar bizə belə nəticəyə gəlməyə imkan verir ki, XIX əsrdə və XX əsrin əvvəllərində təkcə armud ağacından hazırlanan zurna sonralar ərik, tut, qoz ağaclarından da hazırlanmışdır. Onu da qeyd edək ki, zurna məclislərdə balaban və nağara ilə birlikdə ifa olunmuşdur.

**BALABAN:** Xalq arasında yayılan musiqi alətlərindən biri də balabandır. Ona «yastı balaban» da deyilir. Əsasən tut ağacından hazırlanan balabanın uzunluğu 280-370 mm olur. Balabanın üstündə səkkiz, arxasında bir dəlik olur. Müştüyünün uzunluğu 90-100 mm-dir. Müştük ikiqat yastı qamışdan hazırlanır. Onun ortasından xərək keçirilir. Xərək hərəkət etdirildikcə balaban köklənir. Yumşaq və həlim səsə malik olan balaban zurna və sazla birlikdə çalınır və onlarda çalınan havanın dəmkeşini tutur. Xalq arasında balabanla bağlı şeirlər və bayatılar da vardır. Bu misralarda onun el-oba arasında geniş yayıldığı göstərilir:

Balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi
Bəs mənim balam hanı?

**NAĞARA:** Zərb alətləri içərisində Azərbaycanda ən geniş yayılanı nağaradır. Qərb rayonlarında, Qazaxda buna dəf də deyirlər. Bu musiqi aləti öz tarixi etibarilə ən qədim musiqi alətlərindən biridir. «Azərbaycanda nağaranın



tarixini daha qədimlərdə, heç olmazsa, ilk sinifli cəmiyyət dövründə axtarmaq lazımdır» (26, 122). Bu fikri Azərbaycanda ilk insan düşərgələrindən biri olan Qobustandakı Qaval daş da sübut edir. Bəlkə də insanlar ilk dəflərdən səs siqnalı kimi yaşayış məskənlərində istifadə etmiş, rəqslərdə çalmış, hətta dəf ovda heyvanları ürkdürərək müəyyən istiqamətlərə yönəltmək üçün lazım gəlmişdir.

Nağara öz quruluşu etibarilə hər iki tərəfdən dəri çəkilmiş dairəvi içi yonulmuş ağacdan ibarət olmuşdur. Dəri hissəsi əsasən keçi dərisindən hazırlanmışdır. Üzünün dərisi tarım olmaq üçün hər iki tərəfdən kəndirlə möhkəm çəkilir. Nağaranın diametri 350-400 mm. olur. Nağara biri böyük, digəri kiçik olmaqla iki ağacla çalınır. Eyni zamanda nağara iki zurna ilə üçlükdə əsas toylarda və el şənliklərində istifadə olunur.

**SAMTUR:** Azərbaycan musiqi alətləri içərisində orta əsrlərdə və XIX əsrdə geniş yayılanlardan biri də samturdur. Bu musiqi aləti Qazax əhalisi içərisində də geniş yayılmışdır. Doğrudur, samtur haqqında etnoqrafik material tapmaq mümkün olmadı, lakin Kazım ağa Salikin əsərlərindən görünür ki, bu musiqi aləti xalq arasında geniş yayılıb sevilmişdir. Maraqlısı isə budur ki, Kazım ağa Salik onun adını həmişə sazla birgə çəkir.

Trapesiya şəkilli ağacdan düzəldilən samtur çoxsimli musiqi aləti olmuşdur. Gövdəsinin üstündə rezenator dəlikləri qoyulmuşdur. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda saxlanan və 1878-ci ildə hazırlanmış samtur trapesiya şəkilli qutunu xatırladır. Bu samturun oturacağının uzun hissəsi 720 mm, gödək hissəsi 255 mm, eni 350 mm və hündürlüyü 60 mm-dir. Üstündə səs deşikləri var. Simlərin sayı 96-dır. Samtur ucları azacıq əyilmiş iki yonulmuş zərif ağac çubuqlar vasitəsilə çalınır. Samturun ayrı-ayrı səs ucalığında olan simləri tək, qoşa və ya üçər qoşulur (24, 64). Lakin Azərbaycan Sovet Ensiklopediyasında samturun simlərinin ikiləşmiş və

üçləşmiş şəkildə düzüldüyü və 16-24 olduğu, müğənnini müşayiət edən musiqi aləti kimi göstərilir (8, 290).

Əlimizdə dəqiq məlumat olmadığı üçün Qazaxda bu musiqi alətinin hansı quruluşda olması haqqında fikir yürütməkdə çətinlik çəkirik. Onun Qazaxda geniş yayılması isə şəksizdir.

**DÜMBƏK**: XIX əsrdə Qazax bölgəsi üçün xarakterik olan musiqi alətlərindən biri də dümbəkdir. Onu alman alimi Adam Oleari 1636-cı ildə Şamaxı və Ərdəbildə görüb, xatirələrində təsvir etmişdir (120, 35). R.Mustafayev adına İncəsənət Muzeyində Mirzə Qədim İrəvaninin XIX əsrdə çəkdiyi şəkillərdən birində rəqqasə dümbəklə təsvir olunur. Kazım ağa Salik Salahlı Sədəf oğlu Süleyman koxaya yazdığı şeirlərində dümbəyin adını çəkir:

Salik, işə salaq samturu, sazı,
Yıxılmış dünyaya nə vuraq dirək.
Çalaq dümbələk.

Şeirdən görünür ki, samturla yanaşı, dümbək də məclislərdə geniş istifadə olunmuşdur.

Dümbək zərb musiqi alətidir. Qədəkvari formaya malikdir, əsasən gildən hazırlanır. Bununla belə, ağac və metaldan da hazırlandığı göstərilir (7, 556). Üzünə nazik heyvan dərisindən üzlük çəkilir. Onu qoltuq altında tutub iki əlin barmaqları ilə çalırlar. Yüksək səsə malikdir. Dümbək uşaq və gənclər tərəfindən novruz mərasimlərində də istifadə olunmuşdur (120, 35). Lakin təəssüflə qeyd etmək lazımdır ki, samtur kimi dümbək də Qazax bölgəsinin musiqi repertuarında hal-hazırda istifadə olunmur.

## 1.8. RƏQS

Xalq rəqsləri mənəvi mədəniyyətimizin mühüm bir hissəsini təşkil edir. O, öz tarixi kökləri etibarilə ibtidai cəmiyyət dövrünə gedib çıxır. Mənəvi mədəniyyətimizin başqa sahələri kimi, rəqs də xalqın həyatı ilə bağlı yaranmış



və onun əmək fəaliyyətindən, sevinc və kədərini büruzə vermək istəyindən qaynaqlanaraq ibtidai təxəyyül imkanlarından və inamlarından doğmuşdur. Xüsusiyyətləri etibarilə rəqslər mərasim, əmək, idman, hərbi xarakter daşıyır. Onun ilk izlərinə qaya rəsmlərində rast gəlmək olar. Elə buna görədir ki, qaya rəsmləri zəngin incəsənətimizlə yanaşı, musiqi və rəqs mədəniyyətimizin inkişafı tarixini öyrənmək üçün də böyük əhəmiyyət kəsb edir (26, 42). Qobustan qayalarında bu çox gözəl şəkildə təsvir olunmuşdur. İbtidai insanın ilkin düşüncələri, istəyi tam aydın şəkildə nəzərə çarpır. «Azərbaycan xalqının ən qədim mahnı və rəqsləri, əyləncələri təbiət, təsərrüfat və əmək fəaliyyətləri ilə bağlı olaraq yaranmışdır.» «Qobustanda ov münasibəti və odu qorumaq məqsədi ilə keçirilən mərasimdə oynanılan rəqslər bugünkü «Yallı»lara çox bənzəyir» (6, 12). İbtidai insanın ilk əmək fəaliyyəti ovçuluqla bağlı olduğundan, rəqslərin də ovçuluq və odu qorumaq mərasimlərilə bağlı yarandığından, heç şübhə etmədən demək olar ki, rəqslər ibtidai icma quruluşunda meydana gəlmişdir. Biz, rəqslərin əmək, idman, hərbi, məişət və s. növlərini kənara qoyaraq burada toy mərasimləri ilə bağlı rəqslərdən bəhs edəcəyik.

Rəqslər əsasən toylarda, el şənliklərində musiqi sədaları altında ifa olunurdu. Rəqs musiqisi əsasən dəf və qara zurnada çalınırdı. Saz havasına da rəqs edərdilər. Ən çox ruhu etibarilə «Ruhani» havası çalınanda rəqs olunardı. Keçən əsrin 70-ci illərində Kəmərli kəndində Zalxa nənənin bu hava üstündə oynadığının şahidi olmuşuq. Rəqs həm kişilər, həm də qadınlar tərəfindən ifa olunurdu. Odur ki, oyun havaları öz xarakterinə görə iki yerə bölünürdü: sürətlə və süzgün. Sürətli oyunlar kişilər, süzgün oyunlar isə qadınlar tərəfindən ifa olunurdu. Kişi oyunlarında qəhrəmanlıq, igidlik, cəngavərlik, qadın rəqslərində isə incəlik, zəriflik, kövrəklik oyunun xarakterini təşkil edirdi. Azərbaycan xalq rəqsləri üç hissədən ibarət idi: birinci dövrə

boyu gediş, ikinci lirik hissə olurdu. Bir nöqtədə dayanaraq rəqsi davam etdirmək – süzmək, bu hissədə ayaqlar demək olar ki, hərəkətsiz qalır, gövdənin yuxarı hissəsi isə öz-özündən nazlanır kimi ədalar göstərir, üçüncü yenə dövrə boyu sürətlə, təntənə və böyük coşqunluqla gəziş (143, 162). Qadın rəqslərində əsas hərəkət bədənin yuxarı hissəsinə, qolların, çiyinlərin, başın, gözün hərəkətlərinin gözəlliyinə verildiyi halda, kişi rəqslərində ayaqların hərəkətinə əsas yer verilir və inkişaf etdirilirdi.

Qazax toylarında əsasən «Yallı», «Tərəkəmə», «Uzundərə», «Vağzalı» (Qazax bölgəsində buna «Atdandırma», «Gəlin atlandı» da deyirlər), «Heyvagülü», «Mirzeyi», «Qəşəngi», «Ceyranı», «Heyratı», «Sultanı», «Keçiməməsi», «Cəngi», «Qazağı» və s. rəqslər ifa olunurdu. «Cəngi» və «Qazağı» öz xarakteri ilə sürətli oyun olub gənclər, kişilər tərəfindən oynanılırdı. O biri oyunlar isə həm kişilər, həm də qadınlar tərəfindən oynanıla bilərdi. Oyunlar tək-tək və ya dəstə ilə oynanılardı. «Yallı» isə yalnız dəstə ilə oynanılardı. P.Vostrikov bu oyunun Yelizavetpol quberniyasında geniş yayıldığını göstərir (148, 11). Bu oyun çox güman ki, insanların təsərrüfatla bağlı həyatında ifa olunmuş və kollektiv xarakter daşımışdır. Bu yerlərdə ən geniş yayılan rəqslərdən biri də «Tərəkəmə»dir. Bu oyun şübhəsiz ki, xalqın maldarlıqla bağlı yayda yaylağa, qışda qışlağa köçən tərəkəmə həyatından törəmiş və belə bir ad qazanmışdır. Ehtimal etmək olar ki, bu əsasən yerli əhalinin dağa köçmə mərasimlərində ifa olunub, sonralar isə xalqın ümumi rəqs repertuarına daxil olmuşdur (52). «Uzundərə» oyunu çox cazibədar, incə, lirik ifadəli bir rəqs olmaqla, əsasən, toyda gəlin tərəfindən oynanılmışdır. Lakin bu rəqsi təkcə gəlin oynamazdı. Rəqslərdə də xalqımız öz duyğularını, hisslərini, arzu və istəklərini əl, qol, çiyin, baş, göz hərəkətləri ilə ifadə edərək toylarda, şənliklərdə nümayiş etdirmişlər.



## 1.9. OYUN VƏ ƏYLƏNCƏLƏR

Tarixi kökləri etibarilə çox qədimlərlə səsləşən xalq oyun və əyləncələri də xalqımızın həyatı ilə möhkəm şəkildə bağlı olmuşdur. Bu oyunlar ulularımızın keçib gəldiyi tarixi-mədəni inkişaf yolunu, məişətini, adət-ənənələrini, cəngavərlik, qəhrəmanlıq vərdişlərini əks etdirir. Elin-obanın alp-ərənlərinin boş vaxtlarında keçirtdiyi bu oyunların böyük tərbiyəvi əhəmiyyəti vardır. Onlar bununla bilgilərini, nailiyyətlərini, müvəffəqiyyətlərini övladlarına aşılayır, qəhrəmanlıq, cəngavərlik ruhunda tərbiyə edirdilər. Bu oyunlar eyni zamanda ağlın, dərrakənin təlqin olunması baxımından da diqqəti cəlb edir. Çünki xalq öz gələcəyini ağılla cəngavərliyin birliyində görürdü. Ona görə də zaman-zaman bu iki keyfiyyəti ulularımız övladlarına mənimsətməyə çalışmışlar. Bunun üçün isə müxtəlif vasitələrdən istifadə olunmuşdur. Belə vasitələrdən biri də oyunlar idi. Həmin oyunlar çevik hərəkət, güc, qüvvət, sağlam bədən, sağlam ruh, iti ağıl və s. xüsusiyyətləri özündə əks etdirir.

Xalqımızın tarixi inkişaf yolunu öyrənmək baxımından da bu oyun və əyləncələrin mühüm əhəmiyyəti vardır. Düzdür, bu oyunların müəyyən bir qismi tarixin ağır keşməkeşlərində unudulmuşdur. Lakin hal-hazırda xalq arasında yaşayan və müxtəlif tarixi mənbələrdə öz əksini tapan oyunlar bizə çox mətləbləri açır. Onların bir qismi xalq ədəbiyyatının toplayıcıları, etnoqraflar tərəfindən toplanıb çap olunmuşdur. Lakin digər bir qismi isə hələ xalq arasında yaşayır. Həmin oyunların toplanıb araşdırılması, müqayisələrin aparılması günün vacib problemlərindən biri kimi diqqəti cəlb edir.

Tarixin gedişində zaman-zaman dəyişikliklərə məruz qalan xalq oyun və əyləncələri xalqın əhvali-ruhiyyəsini, psixologiyasını, inamını, dinini, məişətini, əmək vərdişlərini və s. özündə təcəssüm etdirmək baxımından əvəzsizdir. Bu

və ya digər məsələlərin öyrənilməsi baxımından da əhəmiyyət kəsb edir.

Xalqımızın oyun və əyləncələrinin bir çoxu indi yaşamasa da, digər bir hissəsi klassik şairlərin, tarixçilərin əsərlərində, rəsmlərdə dövrümüzə qədər gəlib çatmışdır. Həmin oyunların bir qismi ətraflı şəkildə təsvir edildiyindən, bərpa etmək mümkünsə, digər bir hissəsinin ancaq adı çəkildiyi üçün haqqında ətraflı danışmaq çətindir.

Oyunlar xalq arasında icra olunan mərasimlərlə bağlı tamaşalar, əyləncələr, əmək, qəhrəmanlıq, idman, uşaq oyunları və rəqslərdən ibarətdir. Onlar öz sayı etibarilə yüzlərlədir, mahiyyət və məqsədi baxımından hərəsinin öz yeri var. Biz əvvəlki və sonrakı fəsillərdə onların bəziləri haqqında danışdığımızdan, burada yalnız qəhrəmanlıq, cəngavərlik, idman və uşaq oyunlarından bəhs edəcəyik.

Xalqımızın tarixi keçmişi qəhrəmanlıq səhifələri ilə doludur. Ulularımız həmişə mərdliyi, qəhrəmanlığı öymüş, ona daim yüksək qiymət vermişlər. Öz igidliyi, hünəri, şücaəti ilə seçilən igidlər elin-obanın rəğbətini qazanıb, nəmər almışlar. Haqqında el arasında ağız dolusu danışılmış, şəninə nəğmələr qoşulmuşdur. Bu cür yüksək qiymətləndirilməni tarixi mənbələrdə də, yazılı abidələrimizdə də, klassiklərimizin əsərlərində də aydın şəkildə görürük. Orda igidliyin, qəhrəmanlığın təcəssümü ilə yanaşı, xalq oyunları haqqında da məlumat verilir. Məsələn, «Kitabi-Dədə Qorqud» dastanlarında - «Dirsə xan oğlu Buğacın boyu»nda oxuyuruq: «Məgər xanım! Bayındır xanın bir buğası vardı, bir dəxi buğrası vardı. Ol buğa qatı daşa buynuz vursa idi un kimi üyüdülərdi. Bir yazın, bir küzin /bu/ buğranı savaşdırardı. Bayındır xan qalın Oğuz bəyləri ilə tamaşaya baxardı, təfərrüc olardı.

Məgər sultanım, yenə yazın buğayı saraydan çıxardılar. Üç kişi sağ yanından, üç kişi sol yanından dəmir zəngir ilə buğayı tutmuşlardı. Gəlib meydan ortasında qoyu verdilər. Məgər, sultanım! Dirsə xanın oğlancığı üç dəxi



ordu uşağı /meydanda/ aşıq oynayardılar. Buğayı qoyu verdilər, oğlancıqlara «qaç» dedilər. Ol üç oğlan qaçdı. Dirsə xanın oğlancığı qaçmadı. Ağ meydanın ortasında baxdı, durdu» (64, 36). Bu nümunə xalq oyunlarının qədimliyini, qəhrəmanlıq əzmini özündə əks etdirir. Burada, bir növ, qəhrəmanı sınama, igidliyinə, şücaətinə bələd olma nəzərə çarpır. Göründüyü kimi, el adəti xarakteri daşıyır. Orada təkcə uşaqlar deyil, yurdun ağsaqqalları da iştirak edir. Yuxarıdakı nümunədə həmin sınağa elin-obanın başbilənləri rəhbərlik edir və onlar tərəfindən təşkil olunur. Digər bir maraqlı cəhət isə aşıq oyununun adının çəkilməsidir. Bu həmin oyunun o dövrdə geniş yayıldığını və daha çox uşaqların oynadığını bir daha təsdiqləyir. «Kitabi-Dədə Qorqud» dastanlarının digər boylarında da qəhrəmanı sınağa çəkmə, cəngavərlik oyunları nəzərə çarpır. «Bayburanın oğlu Bamsı Beyrək boyu»nda qız öz gələcək həyat yoldaşını sınağa çəkir, onun kimliyinə, şücaətinə bələd olmadan ailə qurmağa razılıq vermir. Məhz bu məqsədlə at çapır, ox atır, güləşir. «Ol qız elə adam deyildir ki, sənə görünə – dedi. Amma mən Banıçiçəyin dadısıyam. Gəl imdi səninlə ava çıxalım. Əgər sənin atın mənim atımı keçərsə, onun atın dəxi keçərsən. Həm səninlə ox atalım, məni keçərsən, onu dəxi keçərsən və həm səninlə güləşəlim, məni basarsan, onu dəxi basarsan – dedi (64, 54-55). Bu nümunə həmin dövrdə cıdır, güləşəngi, oxatma kimi xalq oyunlarının geniş yayıldığını və birbaşa qəhrəmanlıqla bağlı olub, həyatın özündən doğduğunu göstərir. N.Gəncəvi «Xosrov və Şirin» poemasında Şirinin Xosrovu çövkən oyunu ilə sınağa çəkdiyini göstərir. «Koroğlu» dastanında və digər qəhrəmanlıq dastanlarında, eləcə də nağıllarımızda qəhrəmanlıq, cəngavərliklə bağlı xalq oyun və əyləncələrinə geniş yer verilir. Çünki onların hər biri, demək olar, xalqımızın igidlik, qəhrəmanlıq salnaməsi ilə bağlıdır.

XIX əsrdə və XX əsrin əvvəllərində də bu oyunlar xalq arasında geniş yayılmışdı. Azərbaycanın hər yerində olduğu

kimi, Qərb bölgəsində, (Qazax bölgəsində) də xalq oyun və əyləncələrinə xüsusi əhəmiyyət verilirdi. Həmin oyunların əksəriyyəti öz qədim məna və mahiyyətini qoruyaraq qəhrəmanlıq ənənələrini yaşadırdı. Belə oyunlar insanlarda gücü, qüvvəti, çevikliyi artırır, tamaşaçılar üçün isə əyləncə vasitəsinə çevrilirdi. Bu əyləncələrin özünə də böyük mənada tərbiyələndirmə, belə bir əhvali-ruhiyyədə böyütmək xüsusiyyəti vardı. «Dirədöymə», «Güləş», «Cıdır», «Artırma», «Kəndirbaz», «Zorxana» və s. oyunlar qəhrəmanlıq, güc, qüvvət nümayiş etdirirdi. Lakin bu oyunların bəziləri zaman keçdikcə dəyişərək uşaqların malına çevrilib uşaq əyləncəsi xarakteri daşımışdır. T.Məmmədova xalq oyunlarındakı bu xüsusiyyəti nəzərə alaraq yazır: «Qeyd etmək lazımdır ki, həmin oyunların əksəriyyəti getdikcə öz ibtidai forma və məzmununu dəyişərək son əsrlərdən uşaqların malına çevrilmiş və onlara xidmət etmişdir» (79, 166). Onu da demək yerinə düşər ki, bu oyunlarda da xalqın qəhrəmanlıq, güc, qüvvət təlqin etmə ənənələri özünü büruzə verir. Bu oyunlar eyni zamanda keçirilmə xüsusiyyəti ilə də maraq doğurur. «Kəndirbaz» oyunu xüsusi çalğıçılar dəstəsinin çağırışı ilə camaatı bir yerə topladıqdan sonra başlanardı. Ə.Haqverdiyev kəndirbazların oyununu aşağıdakı kimi təsvir edir: «Böyük meydanların birisində iki-iki haçalanmış dörd ağac basdırılır. Həmin ağaclar arasında yerdən beş-altı metr hündürlükdə tarım kəndir çəkilir. Kəndirin ucları yerə basdırılır. Zurna çalıb adam yığırlar. Xeyli camaat toplandıqda kəndirbaz ortaya çıxır, bəd gözdən qorunmaq üçün o, boynuna cürbəcür dua, pitik asır. Müvazinət saxlamaq üçün əlində ləngər tutur. Kəndirbazın keçəpapaq adlanan köməkçisi vardır. Kəndirbaz kəndirin üstündə çox qorxulu hərəkətlər edir, tullanır, uzanır, oynayır, mis qabın içərisində oturaraq kəndirdə yeriyir, ayağına bir neçə iti xəncər bağlayaraq kəndirin üstündə gəzinir və sair. Bu zaman keçəpapaq meydan sulayaraq öz ustasının



hərəkətlərini gülməli bir tərzdə təqlid edir. Bununla da bəd gözləri kəndirbazdan uzaqlaşdırır. Oyun zamanı keçəpapaq bir çox şit zarafatlar edir, gülməli sözlər danışır, tamaşaçılardan pulu o yığır» (49, 390). Onu da qeyd edək ki, bu oyunlarda əsas hərəkətləri Keçəpapaq icra edir. Müəllifin bütün təfərrüatı ilə təsvir elədiyi bu oyun Qazax bölgəsində ən çox yayılan oyunlardan olub, adətən, yaz və payız aylarında icra olunardı. Bu oyunda keçəpapağın hərəkətlərində bir əyləncə nəzərə çarpırsa, kəndirbazın hərəkətlərində çeviklik üstünlük təşkil edirdi. Ona görə də kəndirbazın komik hərəkətləri onu bəd gözdən qoruyurdu.

Xalq oyun və tamaşaları öz mahiyyəti etibarilə tərbiyə məqsədi daşıyırdı. Cəldlik, çeviklik, mərdlik, qüvvə, düşüncə, əməyə məhəbbət və s. kimi insani keyfiyyətlər onların əsas motivini təşkil edirdi. Uşaq oyunlarına nümunə olaraq «aşıq-aşıq», «Beş daş», «Çilik-dəstə», «Qığımətək», «Bənövşə», «Gizlənpaç», «Qələndər ay, Qələndər», «Əli ağa qoyun tələb edir», «Oğru-oğru», «Siçan-pişik», «Dəftəndir, ya düdükdən», «Sümük atma» və s. göstərmək olar. Uşaq oyunlarında qız və oğlanla bağlı heç bir prinsipial fərq yox idi. On-on iki yaşlarına qədər onlar bir yerdə oynayırdılar.

Bu bölgədə ən çox yayılan oyunlardan biri də «Dirədöymə» olmuşdur. H.Sarabski bu oyunu «Cızıq turnası» kimi qeyd edir. Bəzi yerlərdə isə ona «Dizə döymə» deyirlər. Dirədöymə əsasən toylarda, el şənliklərində, bayramlarda oynanılırdı. Onun özünəməxsus oynama xüsusiyyəti var. Belə ki, bu oyunu oynamaq üçün düz bir yerdə dairə çəkilirdi. Dairənin isə dörd yerində yalaq qazılırdı. Hər yalağa yumrulanmış kəmər qoyulurdu. Dairənin içərisində kəmərlər oyunçuların ayaqları altında olurdu. Həmin kəmərləri dairənin kənarındakı oyunçulardan qoruyurdular. Dairənin kənarındakılar isə hər vasitə ilə kəməri götürməyə çalışırdılar. Əgər onlardan biri kəməri götürsə kənardakılar içəridəkiləri həmin kəmərlə şallaqlayırdılar. Dairənin içərisindəkilərdən biri əllərində

kəmər olanın hansısa birini vursa, dairənin çölündəkilər məğlub olmuş hesab edilirdi. Sonra məğlub olanlar kəməri yalaqlara qoyub onları qoruyurdu. Qaliblər isə kəməri almağa çalışırdılar. Oyun bu şəkildə davam edirdi. Bu oyun çox qədim tarixə malikdir. «Çox qədim tarixə malik olan dirədöymə əsrlərlə el şənliklərinin bəzəyi olmuşdur. Oyunda məqsəd gücü sınamaq, çeviklik göstərməklə gənclərdə igidlik, çeviklik aşılamaq olmuşdur» (27, 45). Doğrudan da bu oyunda çeviklik, cəldlik əsas amil kimi diqqəti cəlb edir. Onun sayəsində tərəflər bir-birinə qalib gəlir. Hər vasitə ilə bir qrup kəməri qorumağa, digər qrup isə onu ələ keçirməyə çalışır. Təbii ki, belə bir mübarizədə zəif tərəf məğlub olur. Bayram və toy şənliklərində daha çox yayılmış olan bu oyunun əsas qayəsi mübarizlikdir.

İgidliyin və qəhrəmanlığın təlqin olunması baxımından geniş yayılıb xüsusi diqqəti cəlb edən oyunlardan biri də güləş olmuşdur. Bu oyun da öz tarixi kökü etibarilə çox qədimlərə gedib çıxır. Qədim abidələrdə, nağıl və dastanlarımızda, xalq mərasimlərində güləş haqqında çoxlu məlumatlar vardır. Qəhrəmanlar öz gücü, qüvvətilə böyük nüfuz qazanıb, hörmət sahibi olublar. Hətta onların gücü bir ordunu döyüşdən xilas edib, öz tərəfinə qələbə gətiribdir. Belə tarixi faktlar kifayət qədərdir.

Bütün xalqlarda olduğu kimi, güləş bizim xalq arasında da geniş yayılmışdır. Qazax rayonunda güləş əsasən məhəlli xarakteri daşımışdır. Eyni zamanda bu oyunun özünəməxsus keçirilmə xüsusiyyəti vardır. Oyun, demək olar ki, açıq havada keçirilirdi. Güləşçilər xüsusi yığnaqlarda, toylarda, el şənliklərində «Güləşəngi», «Qazağı», «Misiri», «Koroğlu», «Cəngi» kimi havaların sədaları altında güləşərdilər. «Qazağı» qəhrəmanlıq havasından da göründüyü kimi, bu bölgədə güc, qüvvət tələb edən oyunlar da geniş yayılmışdı. Bu oyun zamanı badalaq, sarma, qol qırma, baş üzərindən atma və s. kimi fəndlərdən istifadə olunurdu. Oyunda xüsusi mükafatlandırma prinsipi



də vardı. Qalib gələn güləşçiyə nəmər verilərdi. «Bu oyun mərdlik, çeviklik, fənd işlətmək, möhkəmlik tələb etdiyi üçün geniş yayılmışdı. Qədim dövrlərdə müharibələrdə çox zaman pəhləvanların üz-üzə gələrkən birinin digərini məğlub etməsi hərbin taleyini həll etmişdir» (30, 135). Elə bunun nəticəsidir ki, lap qədim zamanlardan gücün və qüvvətin inkişaf etdirilməsi geniş təqdir olunmuşdur.

İdmanın ən qədim növü olan bu xalq oyununun tarixinin öyrənilməsinə xüsusi ehtiyac var. Çünki bu ən birinci idman növü kimi mühüm əhəmiyyət kəsb edir. Bu oyunla bağlı məlumatlara qaya təsvirlərində, müxtəlif əfsanə və rəvayətlərdə də rast gəlinir. At çapmaq, atmaq və s. ilə bərabər, qurşaq tutmaq, güləşmək də xalqımızın sevimli oyunlardan olmuşdur. Tarixi kökləri etibarilə çox qədimlərə gedib çıxan bu oyunun başlıca xüsusiyyəti xalq arasında geniş təşəkkül tapması idi. Azərbaycanın bütün ərazisində, eləcə də Qazax bölgəsində belə bir oyunun keçirilməsi tarixən ənənə şəklini almışdı. XIX əsrdə və XX əsrdə xüsusi bayram şənliklərində, toyda, mağarda digər oyunlarla yanaşı, bu oyuna da əhəmiyyət verilmişdir. Hətta bəzən el-oba arasında güləş yarışları keçirilmişdi. Qonşu kəndlərin ər oğulları da bəzən yarışlarda iştirak edərdi. Qara zurnanın müşayiəti altında keçirilən həmin güləşlərə el ağsaqqalları nəzarət edər, qaliblərə böyük hörmət və rəğbətlə yanaşardılar. Onlar xüsusi mükafata layiq görülərdilər. Bütün bunlar həmin dövrdə qədimdən gələn ənənənin yaşamasını göstərir.

Qazax bölgəsi əhalisi arasında ən geniş yayılan oyunlardan biri də cıdır idi. At çapma və bu oyunda göstərilən məharət xalqımızın qəhrəmanlıq, cəngavərlik ənənəsinin nəticəsidir. Tarixi mənbələrdə də cıdır haqında ətraflı məlumat verilir. «Kitabi-Dədə Qorqud» dastanlarında qəhrəman öz gücü, qüvvəti, ox atması, at çapması ilə öyünür. Bu keyfiyyətləri ilə qələbə çalan, seçilən qəhrəmanlar qiymətləndirilir, qalib hesab olunur. «Qanlı

Qoca oğlu Qanturanlı» boynunda Qanturanlının dediyi sözlər də bunu bir daha təsdiqləyir: «Baba, mən yerimdən durmamış ol durmuş ola. Mən qaraqoç atıma minmədən ol minmiş ola. Mən qanlı kafir elinə varmadan ol varmış ola, mənə baş gətirmiş ola» (64, 85). Bu xalqımızın qəhrəmanlıq, cəngavərlik tarixini bir daha təsdiqləyir. Eyni zamanda bir daha aydın şəkildə göstərir ki, at çapmaq da güləş, ox atmaq, nizə oynatmaq kimi mühüm əhəmiyyət kəsb etmişdir. Tarixin bütün mərhələlərində qəhrəmanlar öz gücü, qüvvəti ilə yanaşı, at çapmaq məharətlərii ilə də seçilmişlər. Keçirilən cıdır yarışları qəhrəmanların taleyini, hökmdarların bacarığını, məharətini müəyyənləşdirmişdir. Eldəgizlər, Səfəvilər dövründə bu yarışların xüsusi təntənə ilə keçirilməsi buna nümunədir. «Koroğlu» dastanında Koroğlunun igidliyini şərtləndirən amillərdən biri də onun at çapmasıdır. «Həmzənin Qıratı aparması» qolunda ata verilən üstünlük bir daha təsdiqlənir, qəhrəmanın igidliyinin yarısı səviyyəsində tutulur: «Deyirsiniz ki, Koroğlunun nə qədər igidliyi varsa, onun tən yarısı Qıratdı» (65, 128). Xalq arasında işlədilən «at igidin qardaşıdır» - ifadəsi də bunu bir daha təsdiqləyir. Qaçaq Nəbinin, Qaçaq Kərəmin, İsfəndiyar ağanın, Cahandar ağanın (Qəmər atı) at çapmada göstərdiyi məharət onun igidliyinin əsas şərtlərindəndir. Bu qəhrəmanlar ona görə öz atlarını yüksək qiymətləndirib ona arxa, dayaq kimi baxmışlar. Bütün bunlar qədim zamanlardan xalqımız arasında təşəkkül tapan atçapma oyunlarının səbəbini aydınlaşdırır, XIX əsr və XX əsrin əvvəllərində cıdırın bir oyun kimi keçirilməsi zərurətini göstərir. Qeyd etdiyimiz kimi, cıdır zamanı at çapılması xalqımızın qəhrəmanlıq, cəngavərlik ənənələrinin nəticəsi idi. Bu zaman təkcə atın gücü, qüvvəti, qaçma məharəti ilə yanaşı, at çapanın da məharəti nəzərə alınırdı. Çünki bu iki amil bir-birini tamamlamadan qələbə çalmaq mümkün deyil. Mərhum şairimiz O.Sarıvəlli at çapmanın bu



xüsusiyyətini nəzərə alaraq yazır: «Hünər həm atdadır, həm də süréndə».

XIX əsrdə və XX əsrin əvvəllərində cıdır Qazaxda ən çox keçirilən oyunlardan olmuşdur. N. Dubrovin bu yarışın xalq arasında geniş yayılmasını göstərərək yazır: «Cıdır xalqın ən sevimli oyunudur» (131, 362). Bu yerlər igid, qəhrəman oğulları ilə yanaşı, özünün Dilboz atları ilə də məşhur olmuşdur. Heç şübhəsiz cıdırın müvəffəqiyyətinə bunun güclü təsiri olmuşdur. Yüksək sürətlə qaçan atların olması və onların daha qaçağanlarının aşkarlanması xüsusi maraq kəsb etmişdir. Ona görə də bu yerlərdə cıdırın geniş yayılması səbəblərindən biri də Dilboz atların olması ilə bağlıdır. Cıdır da başqa oyunlar kimi toylar və el şənlikləri ilə bağlı keçirilmişdir. Xalqın xoş əhvali-ruhiyyəsini, qəhrəmanlıq və şücaətini, bacarığını göstərmək üçün bu oyunların keçirilməsi diqqətəlayiq idi. M.A.Abbaszadə «Novruz bayramı» məqaləsində Gəncədə Novruz bayramında cıdırda çox təntənəli musiqi sədaları olduğunu qeyd edir (81). Şübhəsiz ki, bu oyun Qazax mahalında da belə bir təntənə ilə keçirilmişdir. Qaliblər əvvəlcədən müəyyənləşdirilmiş nəməri alardılar. Cıdırın keçirilməsinin müəyyən xarakterik əılamətləri də vardır. Cıdırda iştirak etmək istəyən şəxs atına xüsusi qulluq göstərər, ona çoxlu arpa verərdi. Onu da qeyd edək ki, cıdır atları həmişə seçilmişdir. Cıdıra üç gün qalmış isə arpa tamamilə kəsilər, bir növ çox cüzi qida verilərdi. Bu isə atın yüngülləşməsi, cıdırda yorulmaması demək idi. Ata su da cıdır ərəfəsində çox az verilərdi. Atlar cıdıra çıxarkən müxtəlif hərəkətlər etdirilər cıdırçılar onun üstündə yəhərdə fırlanar, ayaq üstə durar, atı şah qaldırılar, qarnının altından dolanıb çıxardılar (26-inf.). Bununla cıdırçılar öz şücaətini, igidliyini nümayiş etdirərdilər. Qazağın Dilboz atları öz yüksək sürətli qaçışı, yüngüllüyü ilə həmişə nəməri almışdılar. Xalq şairi O.Sarıvəlli Dilboz atların cıdırdakı bu qələbəsini belə qeyd edir:

Kim minər Qazağın Dilboz atını,
Götürər toyların şal-xalatını.

Bu oyunun mahiyyətində qəhrəmanlıq, at çapma məharəti dayanırdı. Xalqımızın məhz cıdırı belə təntənə ilə keçirməsi də cıdırın qədimliyi və qəhrəmanlıq əhvali-ruhiyyəsi ilə bağlıdır.

Həmin dövrdə bölgədə ən çox yayılan oyunlardan biri də kənbibaz oyunudur. Bu oyun da cıdır güləş, dirədöymə kimi çox təntənəli keçir, özünə çoxlu tamaşaçı kütləsi cəlb edirdi. Kəndir üzərində müxtəlif təhlükəli və məharət tələb edən hərəkətlər nümayiş etdirən oyunçu kənbirbaz adlanırdı. Kəndir iki tərəfdən haçalı ağac üzərindən çəkilərdi. Kəndirbazın kəndir üzərində hərəkətlərini yerdə keçəbölük ( əslində «keçəbörk» - yəni keçəpapaq –M.A.) təqlid edər, yamsılayar, oyunun maraqlı keçməsinə kömək olardı. Eyni zamanda keçəbölük tamaşaçılardan nəmər pul da toplayardı. V.Vəliyev «Azərbaycan folkloru» kitabında bu oyunu belə xarakterizə edir: «Kəndir üzərində göstərilən oyunlar adamı heyrətə gətirir. Lakin tamaşa yalnız kəndir üzərində hərəkət edən, tullanan şhəxsin məharətinin nümayiş etdirilməsi ilə tamamlanmır, kəndirbazdan aşağıda, yəni tamaşaçılar arasında ikinci bir şəxs də çıxış edir, bu kəndirbazın köməkçisi «yalançı pəhləvan», ya da «keçəpapaq» adlanan şəxsdir. Keçəpapağın hərəkətləri tamaşaçını bir anlığa kəndirbazdan ayırıb əsil tamaşaya - xalq oyunlarına aparır. Çünki buradakı komik hərəkətlər, kəndirbazı yamsılamaq tamaşaçıda gülüş doğurur. Keçəpapağın hərəkətləri də, onun geyimi də gülüş doğurur» (113, 388). Müəllifin bu fikirləri oyunu çox aydın şəkildə əks etdirir. Onu da qeyd edək ki, bu oyunlar da digər oyunlar kimi daha çox ilin bahar və payız fəsillərində icra olunardı. Ancaq bu da şərt deyildir ki, başqa vaxtlarda bu oyunlar icra olunmurdu. Əksinə bu oyunların icrası üçün heç bir məhdudiyyət yox idi. Keçəbölük oyunu tamaşaçıların sayı etibarilə daha çox gur keçirilirdi. Bir neçə gün əvvəlcədən oyunun keçiriləcəyi haqqında məlumat verilirdi. Böyüklü-



kiçikli demək olar ki, camaat ora toplaşardı. Keçəpapağın yanında isə camaatı tanıyan bir nəfər olardı. Həmin şəxsin vasitəsilə müəyyən adamların adı çəkilər, komik sözlər deyilər və nəmər alınardı. Bütün bunlar «keçəbölük» xalq oyununun özünəməxsus xüsusiyyətlərini əks etdirir.

Xalqımızın yaratdığı oyunların bir hissəsini də uşaq oyunları təşkil edir. Bu oyunlar öz mahiyyəti etibarilə fiziki və mənəvi tərbiyəni birləşdirir. Uşaqların həm fiziki, həm də mənəvi inkişafına güclü kömək göstərir. Uşaq oyunları uşaqlarda güc, qüvvət, çeviklik, cəldlik tərbiyə etməklə yanaşı, mənəvi inkişafında dözüm, ayıqlıq, gözü açıqlıq, dəqiqlik, təmkin, düşünmə qabiliyyəti aşılayır. Uşaq oyunları, eyni zamanda, uşaq folklorunun müəyyən hissələrini özündə saxlamaqla yanaşı, musiqi ritmlərini, xor nümunələrini də özündə birləşdirir. Bunlar uşaqların duyumuna, mənəvi tərbiyəsinə güclü təkan verir. Uşaq oyunlarının folklorla bağlılığını, şeirlə ifadəsini V.Vəliyev belə səciyyələndirir: «Uşaq oyunlarının şeirlə birləşməsi heç şübhəsiz ki, oyunda bir qayda yaratmaqla, onda iştirak edənləri məşğul etmiş və oyunun yadda saxlanmasına kömək etmişdir» (113, 402).

Uşaq oyunları özünün zənginliyi və genişliyi etibarilə də xüsusi əhəmiyyət kəsb edir. Bu, uşaqların maraq dairəsi, dünyagörüşü ilə əlaqədardır. Uşaq oyunları bütün bölgələrdə özünün çalarları ilə səciyyələnir. Qərb bölgəsində də belədir. XIX əsrdə və XX əsrin əvvəllərində Qazaxda çoxlu uşaq oyunları mövcud olmuşdur. Bunun bir hissəsini F.Köçərli «Balalara hədiyyə» kitabında vermişdir. Həmin oyunlar içərisində ən çox yayılanı «Bənövşə» oyunudur. Bu oyunu bəzən «Qın-qılınc» (121, 188) kimi də adlandırırlar. Bənövşə oyununda eyni sayda olan iki dəstə bir-birindən xeyli aralıda əl-ələ tutaraq üz-üzə dayanırlar. Hər iki dəstə burada xor ilə növbələşərək deyirlər:

I dəstə: Qın qılınc
II dəstə: Qınnan qılınc

I dəstə: Ox atdım
II dəstə: Oğru tutdum.
I dəstə: Daş atdım,
II dəstə: Dovşan tutdum.
I dəstə: Bənövşə,
II dəstə: Bəndə düşə.
I dəstə: Sizdən bizə kim düşə
II dəstə: Bu qaracan (121, 188).

- deyə uşaqlardan birinin adı çəkilir. Adı çəkilən uşaq öz gücünü toplayaraq o biri dəstəyə tərəf yüyürür. Əgər o cərgəni yarıb keçsə, o biri dəstədən istədiyi uşağı öz dəstəsinə gətirib gəlir. Yox, əgər dəstəni yara bilməsə orada qalmalı olur. Oyun dəstələrdən birində uşaq qalmayana qədər davam edir.

Bu oyunun çağırış xarakterli hissəsinin demək olar ki, yarısı artıq unudulmuşdur. Göründüyü kimi, oyun bir neçə məqsəd daşıyır. Ən əvvəl burada xalq yaradıcılığının ilkin nümunəsi və musiqi ritmləri təlqin olunur. Bundan başqa oyunda çəldlik və güc aparıcı amil kimi diqqət mərkəzində dayanır. Bir qədər diqqətlə yanaşdıqda, «Bənövşə» oyununda nəzərə çarpan cəhətlərdən biri də düşünmə, rəqibdə zəif cəhətləri bilmə qabiliyyətidir. Onunla oyunçu öz rəqibinin vəziyyətini qiymətləndirir. Bütün bunlar oyunun təsadüfi səciyyə daşımadığını, dərin köklərə malik olduğunu göstərir.

Maraqlı oyunlardan biri də «Bir quşum var bu boydana» oyunudur. V.Vəliyev bu oyunun əslində «Səməndər, ay səməndər» olduğunu qeyd edir (113, 403). Müəllif həmin oyun haqqında yazır: «Bu oyunu əsasən yeniyetmələr icra edirlər. Bayram axşamlarında, toy mərasimlərində gənclər bir yerə cəm olduqları zaman bu oyunu oynayardılar» (113, 403). Oyun belə oynanılır: Bir dəstə uşaq bir yerə toplanır. Bir nəfər ortaya çıxır. Qalan uşaqlar isə onu dövrəyə alır. Ortada olan uşaq özünə bir köməkçi seçir. Həmin köməkçi əlinə bir kəmər alır və bir



ucunu uşaqlardan birinə verir. Ortada olan uşaq əlləri ilə göstərməklə deyir:

Bir quşum var bu boyda,
Dimdiyi var bu boyda,
Qaşı var bu boyda.
Gözləri var bu boyda,
Ayağı var bu boyda.

Bu oyun respublikamızın demək olar bütün ərazisini əhatə etmişdir. Lakin digər bölgələrdən fərqli olaraq Qazaxda uşaqlar hər cümlənin sonunda «Səməndər, ay səməndər» deyə təkrar etmirlər. Təsvir qurtarandan sonra kəmərin ucundan tutan uşaq səhv olaraq bir quşun (məsələn: qarğa) adını çəkir. Onda ortada duran «ver qarğaya» - deyir. Bununla tapmadığını deyir və kəmərin ucundan başqa uşaq tutur. Təsvir yenidən başlayır. Qurtardıqdan sonra yenə uşaq hər hansı quşun adını çəkirsə, ver filan quşa deyərək kəmərin ucundan başqa adam tutur. Oyun beləliklə davam edir. Uşaq quşun adını düz tapdıqda aparıcı «vur çatlasın» - deyir və tapan uşaq kimə çatarsa, kəmərlə vurur. M.H.Təhmasib bu oyunun məqsəd və əhəmiyyəti haqqında yazır: «Bizcə, quşlar aləmi ilə uşaqları tanış etmək, onlarda əlamətlərinə görə quşları tanıya bilmək vərdişi, eyni zamanda … həm də düşmən əlindən qurtarmaq, düşməni qovub tutmaq üçün çəld qaçmaq məharəti yaratmaq məqsədi daşıyan bu hekayə (oyun – M.A.) ən kiçik təfərrüatına qədər ətraflı şəkildə təsvir edilmişdir» (111, 21). Burada müəllifin qeyd etdiyi kimi, çevik düşmənə dərk edib cavab vermə və əks təqdirdə sürətlə qaçmaq, çevik hərəkət nəzərə çarpır. Oyunda da belə bir əlamət təlqin olunur.

Xalq arasında geniş yayılan oyunlardan biri də «Sümük atma» oyunudur. M.Həkimov bu oyun haqqında danışarkən deyir: «Şübhəsiz ki, «Sümükatma», «Dar-dar», «Atlandırma», «Yalaqqazma», «Çilingağac» və bir sıra oyunlar əslində baharın gəlişi ilə bağlıdır» (56, 135). Bu

oyun əsrimizin 50-ci illərinə qədər Qazaxda geniş şəkildə oynanılmışdır. Qeyd etməliyik ki, bu oyun ayrı-ayrı türk xalqları arasında da geniş yayılmışdır. Türkmənlər arasında «Ak sünk», qırğızlarda «Ak kolmek», tuvalarda, «Akıyaqi» adı ilə tanınır və müxtəlif vaxtlarda yeniyetmələr arasında oynanılır. Onu da qeyd edək ki, türk xalqları arasında geniş yayılan bu oyunun prinsip etibarilə bir-birindən heç bir fərqi yoxdur.

«Sümükatma» oyunu əsasən payız aylarında aylı gecələrdə 8-12 yaşlı uşaqlar arasında oynanılırdı (121, 187). Bu oyunun S.Vurğun «Acı xatirələr» şeirində poetik bir təcəssümünü vermişdir:

Bəzən də yuxudan yarımçıq qalxıb,
Aylı gecələrdə sümük atardıq.

Bu oyunun keçirilməsi zamanı oyunçular dörd nəfərdən az olmayaraq iki yerə ayrılır. Onlar «əvə» (oyunun mərkəzi, başlanğıc yeri – M.A.) yeri müəyyənləşdirirlər. Oyunçulardan hər hansı biri heyvan sümüyünü əlinə götürür, qalanları isə gözlərini yumur. Əlində sümük olan bu zaman sümüyü bacardıqca uzağa atır. Bundan sonra oyunçular onu axtarmağa başlayırlar. Sümüyü tapan oyunçu öz yoldaşları ilə sümüyü əvə yerinə çatdırmağa çalışırdılar. O biri dəstə də çalışır ki, sümüyü onların əlindən alıb əvə yerinə özü çatdırsın. Əgər sümüyü tapan dəstə əvəyə özü çatdırarsa qalib hesab olur. Əksinə olarsa, o biri dəstə qalib olur. Bu oyun, göründüyü kimi, gərgin bir mübarizə şəraitində keçir. Xüsusi güc, cəldlik, dözümlülük, bacarıq tələb edir. Olduqca gərgin bir şəraitdə keçən bu oyun uşaqlarda prinsipiallıq tərbiyə edir.

Qazax bölgəsi əhalisi arasında geniş yayılan və xüsusi diqqət mərkəzində dayanan oyunlardan biri də «Qığımətək» oyunudur. Bu oyunda iki uşaq iştirak edir. Hər oyunçu özü üçün üç çala - mətək qazardı. Oyunçuların mətəkləri iki cərgə yan-yana olardı. Eyni zamanda hər oyunçu özü üçün udacaqları qığını yığmağa bir mətək də qazardı. Çalaların



içinə hərəsinə yeddi qığı qoyulardı. Qığılar qoyunların qurumuş peynindən olardı. Onları xırda daşla da əvəz etmək mümkün idi. Püşkə əsasən onlardan biri oyuna başlayardı. Oyuna başlayan öz mətəyinin istədiyi birindən qığıların birini saxlamaqla qalanını götürər və istədiyi istiqamətə yoldaşının mətəkləri də daxil olmaqla paylayardı. Kimin mətəyindən asılı olmayaraq /cüt olan/ iki olan qığıları götürərdi. Sonra o biri oyunçu oyuna başlardı. O da istədikləri mətəkdən başlamaqla birini saxlayıb qalan qığıları götürər və istədiyi istiqamətdə paylayardı. Nəticədə cütlənən /iki olan/ qığıları götürərdi. Oyun bu cür ardıcıllıqla davam edərdi. Qalib isə qığının sayına görə müəyyənləşdirilərdi. Oyunun təsvirindən göründüyü kimi, burada əsas rolu güc deyil, ağıl oynayardı. Bu oyun öz mahiyyəti etibarilə uşaqların hesablama qabiliyyətinin artırılmasına kömək edirdi. Adətən, 8-12 yaşlı uşaqlar arasında geniş yayılan bu oyun uşaqların düşünmə qabiliyyətini, çevik hesablama aparmalarını xeyli dərəcədə sərbəstləşdirirdi..

Xalq oyunları içərisində geniş yayılan oyunlardan biri də «Dəstə-çilik» idi. Bu oyun bəzən «çilik-ağac» da adlanır, uşaqlar arasında olduqca geniş yayılan oyunlar sırasında dayanırdı. Bunu yeniyetmələr də oynayırdı. Dəstə-çilik bir sıra oyunlardan fərqli olaraq, istənilən vaxtı quraqlıq olan günlərdə oynanılırdı. Oyunda iki nəfər iştirak edirdi. Oyunçuların hərəsində 80-100 sm uzunluğu olan bir dəstə olurdu. Çiliyin isə 20-25 sm uzunluğu vardı. Bir kiçik çala qazılırdı. Oyuna püşk və ya sanama ilə başlayırdılar. Oyunçulardan biri o birini işlədirdi. Çiliyin bir ucu çalanın içinə qoyulur, yuxarı qalxan ucundan isə dəstə ilə vurulurdu. Yuxarı sıçrayan çiliyin arxasından vururdular ki, bacardıqca uzağa getsin. Öz növbəsində o biri oyunçu (işləyən) çalışırdı ki, çiliyi ya havada tutsun, ya da qazılan çalanın içinə atsın. Atılan çilik işlədən oyunçunun dəstəsinin uzunluğu radiusda çalaya yaxın düşərdisə, oyunçuların yeri

dəyişilərdi. Bu hal çilik havada tutulardısa da belə olardı. Onun üçün işlədən oyunçu çalışardı ki, çiliyi işləyən oyunçu havada tuta bilməsin. Eyni zamanda öz dəstəsi ilə çalaya atılan çiliyi vurub kənara çıxarmağa çalışardı. Çünki əks halda o işləməli olardı. Göründüyü kimi, bu oyun dəqiqlik, sərvaxtlıq, cəldlik tələb edir və uşaqlara bu xüsusiyyəti aşılamaq mahiyyəti daşıyır.

Bütün bunlar Qərb bölgəsində (Qazax mahalında) xalq oyun və əyləncələrinin geniş şəkildə yayıldığını göstərir. Bunların hamısında demək olar ki, insani keyfiyyətlər: qəhrəmanlıq, cəngavərlik, ağıl, kamal, çevik və cəld hərəkət, çevik düşüncə tərbiyə olunur.

Beləliklə, Azərbaycanın Qərb (Qazax) bölgəsinin mənəvi mədəniyyətinin milli-mənəvi dəyərlər səviyyəsinə yüksəlmiş xalq yaradıcılığı sahələrini tarixi-etnoqrafik cəhətdən araşdırmaqla, burada bu milli sərvətlərin məhəlli-lokal xüsusiyyətləri ilə fərqlənən orijinal bir variantının olduğunu müəyyənləşdirə bildik. Bu milli-mənəvi dəyərlər zaman-zaman xalqın həyatında, məişətində formalaşmış, dövrün bir sıra sosial-siyasi, iqtisadi-mədəni və etnik proseslərinin fəal təsiri ilə biçimlənmiş, çoxu unudulub aradan çıxsa da, tərəfimizdən bərpa olunaraq gələcək nəsillər üçün ərməğan edilmişdir. Hələ neçə-neçə xalq yaradıcılığı nümunələri də aşkarlanmalı və tədqiqata cəlb olunmalıdır.



# II FƏSİL

## DİN VƏ XALQ BAYRAMLARI

XIX əsr və XX əsrin əvvəllərində bölgədə hakim din İslam dini idi. Lakin bununla belə ibtidai dinlərin – fetişizm, totemizm, animizmin qalıqları özünü müxtəlif şəkillərdə əhalinin inamlarında, andlarında, adət-ənənələrində və s. biruzə verirdi. Hələ lap qədimlərdən ulu babalarımız müxtəlif allahlara sitayiş etmişlər. Yunan tarixçisi Strabon (e.ə. 64 – b.e. 24) albanların allahlardan Helios, Zevs və Selenaya (Helios-Günəş, Zevs-Göy, Selena-Ay allahıdır – M.A.) sitayiş etdiyini göstərirdi. (99, 126) Herodot massagetlərin Günəş allahına atlardan qurban verildiyini qeyd edirdi. Günəşə sitayişin izlərinə xalq arasında indi də yaşayan «gün haqqı» andında rast gəlirik. 1992-ci ildə Poylu kənd sakini, el ağsaqqalı Məhəmməd Yusibovla söhbətimizdə o bildirdi ki, bu and daha çox yayılmış andlardan olmuşdur. Lakin bu dövrdə aya sitayişin izlərini özündə əks etdirən heç bir material əldə edə bilmədik. Təkcə onu qeyd etmək lazımdır ki, Strabon Seleneya İberiya sərhədlərinin yaxınlığında sitayiş edildiyini və qurban kəsildiyini göstərdiyi üçün çox güman ki, bu mərasim Qazax rayonu ərazisində Avey dağında olmuşdur. Bu dağın ilk adı da ehtimal ki, Ayev olmuş və burada olan Ay ilahəsi abidəsinin yerində sonralar xristianlığın qəbul edilməsi ilə Alban xristian Aveydağ kilsə abidələri yaradılmışdır. Görünür, xristianlığın qəbul edilməsindən sonra Ay ilahəsi ilə bağlı inamlar unudulmuş və bu yerin adı Avey – ov yeri şəklinə düşmüşdür.

İbtidai dinlərdən animizm – ruha inam bu dövrdə, elə indi də ata-babaların ruhunun əziz tutulmasında, müəyyən

vaxtlarda, bayramlarda ölənlərin qəbirlərinin ziyarət edilməsində, nəzirlər verilməsində özünü göstərir. Maraqlıdır ki, ölənlərin ruhuna and içmək indi də qalır. İndi də ölənlərin ruhunu incitməmək üçün «ölənin arxasınca danışmazlar» - ifadəsi xalq arasında yaşayır. Novruz çərşənbələrindən biri Qara çərşənbə adlanır və həmin gün ölən qohumların qəbri ziyarət edilir.

Müxtəlif heyvan və bitkilərin müqəddəsləşdirilməsi, onların toxunulmaz olması və əgər onları məhv edərlərsə, məhv edənə xətər toxunacağı ilə bağlı inamlar Qazax bölgəsində indi də yaşayır. Belə canlılara qaranquş, alabaxta kimi quşları, dağdağan, əncir və s. kimi ağacları göstərə bilərik. Bu dövrdə müəyyən daş pirlərin, ağacların fetişləşdirilməsi – hər şeyə qadir olması ilə bağlı inamlar yaşamış və müəyyən arzularla onlar ziyarət olunmuş, nəzirlər deyilmiş, qurbanlar kəsilmişdir. Belə ziyarətgahlardan Kəmərli kənd yaxınlığında Ağoğlan ziyarətgahını, Qaranəri, Yuxarı Salahlıda Aslanbəyli yolunun üstündə olan tənha ağacı göstərmək olar. Qeyd etmək lazımdır ki, indi də bu ağaca müxtəlif parçalar bağlayırlar. Kazım ağa Salik keçən əsrdə Şıxlı yaylaqlarını təsvir edərkən orada bir müqəddəs yerin də olduğunu qeyd edir:

Kuhi-Maymaq ocaqdır, bu səbəbdən ki, anın,
Nəzrini verməsələr, yəni doğar kövsələ xəm.

Müqəddəs yerlərin sitayişinin öz qaydaları olmuşdur. Hacı Kərim Sanılı «Aran köçü» adlı poemasında bunu çox gözəl bir dəqiqliklə təsvir edir:

Ellər dağa köçəndə
Bir də dağdan qaçanda
Pir dağına çıxırlar.
Yağlı piltə yaxırlar.
Naxır, sürü, kallah, at
Böyük, kiçik, qız, arvad
Bu pir dağa dolanır (91, 89).



Kəndlərimizdə indi də müşahidə etmək olar ki, bağ və bostanlarda ağac payaların başına at və ya it kəlləsi taxırlar və bəzən də evin qapısına nal vurub, tikan taxırlar ki, bədnəzərlərin qarşısı alınsın. Heç şübhəsiz ki, bunlar ibtidai inamların indi də qalan izləridir.

İslam dininin yayılması ilə bağlı bir çox din nümayəndələrinin qəbri də ziyarətgah olmuş və indi də ziyarətgahdır. XIX əsrin sonlarından, daha doğrusu 90-cı illərdən Qazaxda, eləcə də Borçalı ərazisində olan müsəlman türklərinin ziyarətgahlarından biri nəqşbəndliyin görkəmli nümayəndəsi Hacı Mahmud Əfəndi Qaraninin qəbridir. Bu qəbir ziyarətgah kimi indi də müqəddəs sayılır və ziyarət olunur. Muğanlı kəndində yolun kənarında naməlum «Seyidin qəbri» də belə ziyarətgahlardandır. Bu qəbir haqqında rəvayətlər əhali arasında indi də yaşayır.

Azərbaycanda ən geniş yayılmış din İslam dinidir. Türklər müxtəlif zamanlarda başqa dinlərə də inanmışlar, lakin onların çoxu mənfi təsir buraxmış, varlıqlarına bəzən ziyan vurmuşdur. Məsələn, Avropa hunları yığınla məsihi olub Avropa millətləri arasında əriyib getmişlər (33, 58). Bu hal özünü xalqımızın tarixində də göstərmişdir. Belə ki, müsəlmanlığı qəbul etməyən xristian albanların bir hissəsi qriqorian erməni kilsəsinin təsirilə erməniləşmişlər. Lakin bunun əksinə olaraq islamı qəbul edən Azərbaycan türkləri bir xalq kimi öz milli xüsusiyyətlərini qoruyub saxlamışdır.

## 2.1. DİN

VII əsrin birinci yarısında yaranan İslam dini Yaxın və Orta Şərqdə, Şimali Afrikada az bir vaxt ərzində geniş yayılaraq hakim din olmuşdur. İslam dininin əsas kitabı Qurandır. Bu kitab islamın əsas müddəalarını: - dini, hüquqi, əxlaqi, məişət qaydalarını və s. özündə bütün təfərrüatı ilə əks etdirir. Quran bütün müsəlmanlar kimi Qazax bölgəsi əhalisinin də müqəddəs ilahi kitabıdır. Qazax

rayonunun Qazaxbəyli kənd sakini Həsrət babayla (Orucov Həsrət – 1902-ci ildə anadan olub) söhbətdə o bildirdi ki, Qurana and içmək həmişə həyəcan və qorxu törətmişdir. Ona and içməzdən əvvəl mütləq təmizlənib pak olmaq lazım idi. Yalandan and içmək isə faciəylə nəticələnərdi. Odur ki, ona yalandan and içməyi yerli əhali heç ağlına da gətirməzdi.

İslam dini müsəlmanlar qarşısında beş vəzifə qoyur ki, bu da aşağıdakılardan ibarətdir: Vahid allaha inam gətirmək, namaz qılmaq, oruc tutmaq, zəkat, xüms vermək və sonuncu Həccə getmək, yəni Məkkə şəhərində Kəbəni ziyarət etmək. Bu beş qaydanı hər bir müsəlman bilməli və ona mütləq əməl etməli idi. Yaşayış tərzindən, yerindən asılı olmayaraq demək olar ki, həmin qaydalara əməl olunurdu. Ancaq müqəddəs yeri (Kəbəni) ziyarətə getməkdə müəyyən maddi imkanlar nəzərə alınırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində Qazax bölgəsində də, bəzi istisnalar nəzərə alınmazsa, bu qaydaları hamı bilir və əməl edirdi. Rayonun bütün kəndlərində, hətta ayrı-ayrı məhəllələrdə məscidlər tikilir və fəaliyyət göstərirdi. Həmin qaydalar və müxtəlif dini mərasimlərin keçirilməsi oradan başlanır və din başçılarının nəzarəti altında olurdu. Eyni zamanda onu da qeyd edək ki, böyükdən kiçiyə bu, bir növ, tərbiyə məktəbi idi. Mollaxana və mədrəsələrdən başqa, hər bir valideyn evində öz övladına bunları öyrətməli idi.

İslamın əsas şərtlərindən birincisi iman gətirməkdir. Bu isə kəlmeyi-şəhadəti söyləməkdən ibarətdir. Yəni hər bir müsəlman şəhadət edib deməlidir ki, «Allahdan başqa məbud yoxdur və Məhəmməd Allahın rəsuludur» ((76, 126). Bütün müsəlmanlar böyüklüyündən, kiçikliyindən asılı olmayaraq /əgər özünü dərk edirsə/ həmişə, hər yerdə, hətta ölüm ayağında da bu kəlməni söyləməliydilər.

Müsəlmanın ikinci borcu namaz qılmaqdır. Namaz qılan zaman kəlmeyi-şəhadəti bir neçə dəfə təkrar edirdilər. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, kəlmeyi-şəhadət bütün



işlər üçün başlanğıc idi. Namaz qılmaq isə məcburi hesab olunurdu. Bu, Quranda da məcburidir. Şəriət qaydalarına görə müsəlman gündə beş dəfə namaz qılmalıdır. Namazı hər yerdə; evdə, məsciddə, çöldə, işdə də qılmaq olardı (63, 9). Bu beş namaz sübh, günorta, ikinci, şam və yatmaq namazlarından ibarət idi. Namaz qılmazdan əvvəl mütləq dəstəmaz alınardı. Dəstəmaz üçün müsəlman əllərini, üzünü və qollarını dirsəyə kimi yuduqdan sonra əllərini təpədən alnına qədər başlarına və ayaqlarına çəkərdilər. Bu, namaza təmiz getmək adəti idi. Namaz qılıb, ibadət edənlər üzlərini Allaha tutub ona səcdə edirdilər. Onların üzü mütləq cənuba-Kəbəyə tərəf olmalı idi.

Müsəlmanların üçüncü borcu oruc tutmaq idi. Bu dini mərasimə görə hər bir müsəlman 30 gün sübh tezdən gün batana qədər heç nə yeməməli, ac qalmalı idi. Ən yaxşı oruc tutma isə yeniyetmələrin oruc tutması hesab olunurdu. Bu adət Qazax rayonunun ucqar kəndlərində daha çox nəzərə çarpırdı. Belə bir mərasimin keçirilməsi Allahın yanında bütün günahların bağışlanması məqsədi daşıyırdı. Eyni zamanda oruc tutma mərasimində maraqlı olan digər bir cəhət yeniyetmələrin orucu başqa adamların adına tutması idi. Bu mərasimdə oruc tutan yeniyetmə öz orucunu qocaların adına tuturdu. O da müqabilində yeniyetməyə müəyyən hədiyyə verirdi. Orucluq ayında bütün gün ərzində vaxt ibadət etməklə keçirilir, Allaha sitayiş olunur və namaz qılınırdı. Beləliklə, otuz gün ərzində hər gün bir cüz Quran oxunurdu. Quran orucluğun otuz günü ərzində başa vurulardı (8 – inf.). Möminlik düşüncələri onları daim məşğul etməli, Quran və başqa dini kitablar oxumalı idilər. Bu mərasimdə müəyyən güzəştlər də nəzərə alınmışdır. Belə ki, xəstələr, uzaq səfərdə olanlar oruc tutmaqdan azad idilər.

Hər bir müsəlmanın müqəddəs borcu (imkanı olarsa) Məkkədə Kəbəni ziyarət etmək idi. Şəriətə görə burada da müəyyən güzəştlər nəzərə alınmışdı, yəni burada heç bir

məcburiyyət yox idi. Kasıblar, imkansızlar getməyə bilərdilər. Bu ancaq könüllülük əsasında olurdu. Həcc mərasimi zilhiccə ayında başlanırdı. Ziyarətçilər ağ paltar geyinir (ihram), yuyunub pak (qüsl) olur və Kəbə ətrafında dövrə vurduqdan sonra Zəmzəm çeşməsindən su içirdilər. Qeyd etməliyik ki, XIX əsrdə və XX əsrin əvvəllərində Qazax rayonunda həmin müqəddəs yerləri ziyarətə gedənlər olmuşlar. Onlar arasında Aslanbəyli kəndindən olan Hacı Mahmud əfəndi ilə bağlı rəvayət və söyləmələr daha çox diqqəti cəlb edir. Hətta bu gün onun tikdirdiyi türbə, namaz qıldığı müəyyən yerlər müqəddəs ziyarətgah kimi qəbul edilir. Çətin vəziyyətlərdə həmin yerlərə dilək dilənir, qurbanlar kəsilir.

Müsəlman qarşısına qoyulan digər bir borc xüms və zəkat verməkdən ibarətdir. Şəriətə görə zəkat yoxsullar arasında əmlak və gəlirdən tutulurdu. Eyni zamanda hər bir müsəlman ianə məqsədi ilə sədəqə – pay da verməli idi. Bu sədəqələr yoxsullara, kimsəsizlərə, əlsiz-ayaqsızlara verilirdi. Belə bir hal müsəlmanlıqda geniş yayılmış və müsəlmanların bir-birinə kömək olması ideyasından irəli gəlmişdir. İanə-sədəqə vermə adəti XIX-XX əsrdə də mövcud olmuş, ondan əvvəl də, bu gün də mövcud olaraq qalır. Zəkat, bir prinsip olaraq, məhsul ilə ödənilirdi. Qeyd etməliyik ki, zəkat artıq dövlət vergisinə çevrilmişdi. Bu, İslamın prinsiplərindən hakimiyyətin öz məqsədləri üçün istifadə etmək məsələsindən irəli gəlirdi. Çünki İslam bütün müsəlmanlıqda hakim olan yeganə qüvvə idi. Ona görə də müəyyən narazılıqların qarşısını kəsmək üçün, bir növ, etiraz doğuracaq məsələlər İslam bayrağı, İslam ideyası altında həyata keçirilirdi. Zəkat vergisində istehsal olunan məhsulun müəyyən hissəsi dövlətə təhvil verilirdi. Bu, həm də müsəlman ruhaniləri tərəfindən geniş kütlə arasında güclü təbliğ olunurdu.

Bu dövrdə Qazax mahalında müsəlmanlar əsasən iki təriqətə-sünnü və şiəliyə mənsub idilər. XIX əsrdə



N.A.Abelov Yelizavetpol quberniyası əhalisi haqqında yazırdı: «Qeyd etmək lazımdır ki, dini inamlarına görə müsəlmanlar da şərtidir, belə ki, bəzi ailələrdə ailə üzvlərinin bir hissəsi şiə təliminə, o biri isə sünnü təliminə aiddir. Bu iki İslam təriqəti ardıcılları arasındakı münasibət maraqlıdır. Sünnülər müqayisədə azdır, ayrıca kəndlərdə, başlıca olaraq Kür sahili bölgələrdə cəmləşmişlər, qalan yerlərdə isə onlar şiələrlə qarışıq yaşayırlar (119, 22). Bütün bunlar XIX əsrdə Qərb bölgəsində müsəlmanlar arasında heç bir təriqət ziddiyyəti olmadığını, şiələrlə sünnülər arasında olan qarşılıqlı mehriban münasibəti, qohumluq əlaqələrini göstərir. Ancaq digər bir cəhəti də qeyd etməliyik ki, Qazaxda əhalinin əksəriyyətini sünnülər təşkil etdiyi halda, müəllif nəyə görəsə şiələrin çoxluq təşkil etdiyini göstərmişdir. N.A.Abelovun verdiyi bu məlumat həm də bütünlükdə Yelizavetpol quberniyası əhalisi haqqındadır. Bu yerin əhalisinin sünni təriqətinə mənsub olması haqqında B.Veniaminov da məlumat vermişdir (149, 104).

XIX əsr və XX əsrin əvvəllərində, bəzi istisnalar nəzərə alınmazsa, dinin bütün qayda və qanunlarına əməl olunmuşdu. İslam bu dövrdə bölgə əhalisinin həyat və fəaliyyətində, əxlaqında, dünyagörüşündə hakim rol oynayırdı. Müxtəlif dini adət-ənənələrə əməl olunur, bayramlar keçirilirdi. Nikah mollalar tərəfindən kəsilir, əks təqdirdə haram hesab edilirdi. Onu da qeyd etmək lazımdır ki, şiələr arasında geniş yayılmış siğə /müvəqqəti/ nikah forması bölgədə nə şiələr, nə də sünnülər arasında yayılmışdı. Qadınların üz gizlətmə adəti yalnız yaşmaqla məhdudlaşdırılırdı.

Dinin ən çox özünü göstərdiyi sahə yas mərasimləridir. Yas mərasimləri demək olar ki, tamamilə İslam qayda-qanunlarına uyğun olurdu. Qazax mahalında da, bütün Azərbaycanda olduğu kimi, qəbirlərin üzünün cənuba - müsəlmanların dini mərkəzi Məkkəyə tərəf olması burada dinin təsirinin nə qədər güclü olduğunu təsdiqləyir.

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı istila etməsi imperiya siyasətinin yeridilməsinə səbəb oldu. Belə ki, çarizm Qafqazda yaşayan xalqları itaətdə saxlamaq üçün onların özlərinin milli xüsusiyyətləri müqabilində istilaçılıq planlarını həyata keçirməyə başladı. Bunun üçün xalqın aparıcı qüvvələrindən, inamlarından çox bacarıqla istifadə edilirdi. İlkin başlanğıcda çarizm din xadimlərini öz tərəfinə çəkməyə çalışırdı. Belə bir vəziyyətdə uzunmüddətli siyasət planı hazırlanırdı. Dini idarələrin quruluşunda müəyyən dəyişikliklər aparılırdı. Onlar din xadimlərini xalqın inamını nəzərə alaraq öz tərəfinə çəkməklə bir məmuruna çevirməyə çalışırdılar. Bunun üçün 1823-cü ildə Cənubi Qafqaz şiələrinə başçılıq etmək üçün Şeyxul-islam vəzifəsi təsis edildi. 1832-ci ildə isə Tiflis şəhərində Cənubi Qafqaz sünnülərinin dini başçısı - Müfti vəzifəsi təsis edildi. (46,54). Bunlar hələ tam mənası ilə ruhani idarə deyildi, tək-tək fəaliyyət göstərən dini başçılar idi. Bu isə çarizm siyasətinin ucqarlarda alınmasını açıq-aşkar müəyyənləşdirirdi. Şeyxül-islamın nəzarətində şiə, müftinin nəzarətində isə sünni ruhani idarələri 1872-ci il 5 aprel tarixli çar fərmanı ilə təsis edilmiş və 1917-ci ilin fevralına qədər fəaliyyət göstərmişdir (46, 54). Hər iki təriqət başçıları böyük nüfuza malik olub, yerlərdə dini adətləri həyata keçirməklə, çarizmin siyasətinin də, bir növ, aparıcı rolunda çıxış edirdilər. Qafqazda Qubernatorluq təşkil edilmişdi ki, Müfti və Şeyxül-islam da həmin qubernator tərəfindən təyin edilirdi. Onlar isə bununla çar məmuru hesab olurdu. Eyni zamanda ayrı-ayrılıqda şiə və sünnü təsisatlarının yaradılması Qafqazda imperiyaya qarşı mübarizəni zəiflətmək üçün təriqət ayrılıqlarından istifadə etmək məqsədi daşıyırdı. Lakin bu siyasət Qazaxda və onun heç bir kəndində baş tutmamış, ziddiyyətlərin yaranmasına səbəb olmamışdı. Bu isə müxtəlif təriqətlərə məxsus əhalinin qarşılıqlı əlaqələrindən, səmimi münasibətlərindən irəli gəlirdi.



Qafqaz sünnüləri içərisində öz təsirini artırmaq məqsədi ilə 1832-ci ildə təsis edilmiş müfti vəzifəsinə Qafqaz Qubernatoru tərəfindən Qazan tatarı Tacutdin Mustafin əfəndi təyin olunur və ona hərbi kapitan rütbəsi verilir (82, 63). Lakin o, Qafqazın sünni əhalisi arasında hörmət qazana bilmir və tezliklə bu vəzifədən uzaqlaşdırılır. Tacutdin Mustafindən sonra sünnülərin başçısı vəzifəsinə 1842-ci ildə Molla Vəli Vidadinin oğlu Osman əfəndi Vəlizadə təyin olunmuşdu. F.Köçərli bu haqda danışarkən onun «alim və fazil» bir şəxs olduğunu qeyd edir. Müfti Osman əfəndinin 1847-ci ildə vəfatından sonra onun oğlu Məhəmməd əfəndi Müftizadə (Vidadov) Cənubi Qafqaz sünni müsəlmanlarının müftisi təyin edilmişdir (22, 60). Məhəmməd əfəndi xalq arasında öz ağlı, dərrakəsi, insani keyfiyyətləri ilə böyük nüfuz qazanmışdır. O, 1872-ci ildə Tiflisdə şiə və sünni müsəlmanlarının ruhani idarələri yaradılarkən sünni ruhani idarələrinin rəisi təyin olunmuşdur. Ümumiyyətlə, Məhəmməd əfəndi 1880-ci ilə qədər, yəni ölümünə qədər bu vəzifədə olmuşdur. Onun ölümündən sonra isə bu vəzifəyə 1881-ci ildə Hüseyn əfəndi Qayıbov təyin olunmuşdur. O, M.V.Vidadinin qız nəvəsi olmuşdur. Əvvəllər o, Qori Müəllimlər Seminariyasında Şərq dillərindən dərs demişdir. Hüseyn əfəndi Qayıbov ömrünün sonuna qədər - 1917-ci ilə kimi Cənubi Qafqaz sünni idarəsinin müftisi olmuşdur. O, geniş dünyagörüşə, güclü ağıla, yaradıcılıq qabiliyyətinə malik bir ziyalı idi. Böyük bir idarənin başçısı olub, xalqa ağsaqqallıq etməklə yanaşı, yüksək səviyyəli bir ziyalı kimi, xalqın zəngin ədəbiyyatını, ayrı-ayrı sənətkarların bədii sənət nümunələrinin üzünü köçürüb saxlamaqla da məşğul olmuşdur. Bu onun xalqa, mədəniyyətimizə olan əvəzsiz xidməti idi. Onun «Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir» əsəri XVIII-XIX əsr ədəbiyyatımızın öyrənilməsi üçün əsas mənbədir. Bu məcmuədə XVIII-XIX əsrdə yaşamış 100-dən artıq şairin əsərlərindən nümunələr toplanmışdır.

Buradan göründüyü kimi, XIX əsrdə və XX əsrin əvvəllərində Qazaxda yüksək savada malik din xadimləri olmuş və 1842-ci ildən 1917-ci ilədək Cənubi Qafqaz sünniləri ruhani idarəsinə məhz Qazaxdan olan ruhanilər başçılıq etmişlər. Bunlar həmin dövrdə Qazaxda dinin geniş şəkildə təşəkkül tapdığını göstərir. Eyni zamanda XIX əsrdən etibarən Qazaxda nəqşbəndlik təriqətinin də geniş yayıldığı müşahidə olunur.

Bu təriqət XIV əsrdə Orta Asiyada hənəfilər arasında təşəkkül tapmışdır. Onun banisi Bahəddin Nəqşbəndi Səid Məhəmməd ibn Cəlaləddin Buxarəvi (1314-1389) olmuşdur. Nəqşbəndlik adı isə məşğul olduğu peşə ilə bağlıdır. Belə ki, ipək və dəmir parçaların üzərinə nəqş saldığı üçün o nəqşbəndi adlanmışdır. Lakin bu ad zahiri görkəm olub, təriqət özü isə mahiyyəti etibarilə sufi təriqət idi. Sufi təriqətlərindən də özünəməxsusluğu ilə fərqlənirdi. Çünki nəqşbənilər öz tərəfdarlarını, ardıcıllarını tərkidünyalığa, zahidliyə çağırmır, əksinə, onları mübariz əhvali-ruhiyyəli olmağa, müəyyən prinsipiallıq göstərməyi tərbiyə etməyə çalışırdı. Onlara həmişə belə bir ideya də təbliğ olunurdu ki, çalışqan əkinçi, sənətkar, tacir olmaq, müəyyən dövlət vəzifələrini tutmaq lazımdır. Nəqşbəndiyyə təriqəti rəsmi İslam dini ilə dinc yola gedirdi (63, 93). Onlar sufilərdən həm də onunla fərqlənirdilər ki, heç bir ehsan və sədəqə hesabına yaşamırdılar. Halal zəhməti, əkinçi, sənətkar, tacir əməyini yüksək qiymətləndirir və bu yolla hakimiyyətdə müəyyən mövqe tutmağa çalışırdılar. Onlar eyni zamanda sufilərin bu cür yaşayışına da biganə münasibət bəsləmir, əksinə, sədəqə, ehsanla yaşamağın əleyhinə çıxırdılar. Hətta bu istiqamətdə müəyyən təbliğat da aparılırdı. «Bütün mövcudata məhəbbət ideyası nəqşbəndilik təriqətinin əsasını təşkil edir» (98, 52).

Orta Asiyadan öz başlanğıcını götürən nəşqbəndilik təriqəti az bir zamanda çoxlu tərəfdarlar toplayaraq Şərqin müsəlman ölkələrində geniş yayılmışdı. Bəs bunun geniş



yayılmasının səbəbi nədir? Ən birincisi qeyd edilməlidir ki, bu təriqət rəsmi İslam dini ilə, dini idarələrlə dil tapa bilmiş, dinc yolla fəaliyyət göstərməyi bacarmışdır. Məhz bunun nəticəsi idi ki, bu təriqətin tərəfdarları içərisində savadlı, bilikli, müəyyən dünyagörüşə malik adamlarla yanaşı, savadsızlar da az olmamışdır. Bu təriqətin tərəfdarları içərisində bütün Şərq aləmində də tanınmış, böyük nüfuza malik Əbdürrəhman Cami (1414-1492), Əlişir Nəvai (1441-1501), Seyid Mirhəmzə Nigari (1815-1888) kimi şairlər olmuşdur.

Nəqşbəndliyin Qazaxda geniş yayılması Seyid Mirhəmzə Nigarinin adı ilə bağlıdır. Nigari 1815-ci ildə Qarabağın Zəngəzur mahalının Cijimli kəndində anadan olub, 1885-ci ildə Türkiyədə vəfat etmişdir. Nigari təxəllüsü onun vaxtsız vəfat etmiş sevgilisinə hörmət əlaməti olaraq götürülmüşdür. Məlum olan şeirləri də bu imza ilə yazılmışdır. O, İslam dinini, tarixi, fəlsəfəni dərindən mənimsəmiş bir şəxs olmuş sonralar nəqşbəndilik təriqətini qəbul etmişdir. «Deyilənə görə onun təriqət ustası kürdəmirli İsmayıl əfəndi olmuşdur» (67, 142). O, ömrünün xeyli hissəsini Qazaxın Xanlıqlar kəndində yaşayaraq bu təriqəti yaymaqla məşğul olmuşdur. Seyid Mirhəmzə Nigarinin Qazaxa gəlməsi təqribən XIX əsrin ortalarına təsadüf edir. Bunu tarixi müqayisələr və faktlar da aydın şəkildə göstərir. Çünki onun müridlərindən Hacı Rəhim ağa Dilbazov Vahidi onunla 1837-ci ildə Həccə gedərkən görüşmüşlər. Məhz onun burada öz ideyalarını təbliğ etməyə başlaması ilə nəqşbəndilik təriqəti Qazaxda geniş yayılmış və özünə xeyli tərəfdarlar toplamışdır. Qazax rayonunun Kəmərli kənd sakini Molla Sədət (Qiyasbəyli) bu təriqət haqqında xeyli məlumat verdi. Yüz on yaşının olmasına baxmayaraq, bu təriqətin prinsipləri, ideya və məqsədləri haqqında maraqlı söhbətlər etdi. Nigarinin və digər yaradıcı nümayəndələrinin əsərlərindən çoxlu nümunələr söylədi. Digər bir maraqlı cəhət isə söhbətimiz zamanı onun bizə

Nigarinin şeirlər kitabını göstərməsi oldu. Həmin kitabın müqəddəs olduğunu və heç kimə verilə bilməzliyini qeyd etdi. Bütün bunlar təriqət üzvlərində olan inamı, ideyaya möhkəm bağlılığı göstərir.

Sufilər kimi nəqşbəndilər tərkidünyalıq təbliğ etmirdilər. Çox güman ki, bu təriqətin geniş yayılmasının başlıca səbəblərindən idi. Nigari öz təriqətini şeirləri ilə yayırdı. Bu ideyalar əslində nəqşbəndiliyin mövcudata, yaranmışlara olan eşq, məhəbbət fəlsəfəsindən ibarət idi və həmin fəlsəfə nəqşbəndilikdə qanun şəklini almışdı.

Tezliklə Nigarinin ətrafına, müridlər, tərəfdarlar toplanır və onlar ustadlarının şeirlərini öz məclislərində, yığıncaqlarında nəğmə kimi zərb alətlərinin müşaiyyəti ilə oxuyurlar. Onlar həmin musiqinin ritmləri altında təriqət rəqsləri edirdilər. Şeirlərə uyğun olaraq havalar, havalara uyğun hərəkətlər mərasimin əsas hissələrini təşkil edirdi. Müridlər bu mərasimdə paltarlarını dəyişdirməsələr də, əsl müdrik rolunu oynayırdılar. Tamaşa edən müridlər oyunun ümumi ahənginə uyğun hay vurur, hətta əl də çalırdılar (101, 69). Bu şeirlər dünyəvi, ilahi məhəbbəti təbliğ edirdi. Təbii gözəllik, eşq yolunda dözüm, dəyanət, sədaqət bu şeirlərin tərənnüm obyekti idi. Onlar hər bir yaranışda Allahın varlığını axtarır və onun nişanələrini görməyə çalışırdılar. Lakin onu da qeyd edək ki, nəqşbəndilər Allahın ən böyük təzahürünü insanın eşqiylə, sevgisiylə bağlayırdılar. Allah gözəlin sürətində təzahür edir və gözələ bu qədər sevgi, məhəbbət də Allaha, yaradana sevgi ilə bağlıdır. Məhz ona görədir ki, eşq şərabı, məna şərabı onların təriqət şeirlərində geniş təbliğ olunurdu.

Nəqşbəndilik təriqətinin özünəməxsus xüsusiyyətləri vardı. Adətən, mərasimdən 40 gün əvvəl pəhriz elan olunurdu. Pəhriz olanlar ancaq quru çörək yeyib su içə bilərdilər. Göründüyü kimi, bu müsəlmanlığın orucluğuna bənzəmir. Qırx günün müddətində müridlər bir guşəyə çəkilərək daim ibadətdə olurdular. Qırxıncı gün isə əsl



mərəkə başlayırdı. Həmin gün müridlər qəsəbənin ən varlı hampasının evində toplanır, xörək yeyib, şərbət içirdilər. Başda mürşid əyləşirdi. Onun xüsusi yeri olurdu. Bir azdan ya mürşidin özü (müəyyən olunmuş vaxtda) və yaxud da gözəl səsə malik müridlərdən biri mürşidin işarəsi ilə pəsdən oxumağa başlayırdı. Başqa müridlər dodaqaltı zümzümə edir, getdikcə məclis qızışırdı və iştirakçılar cuşa gəlirdilər. Oxumaq bitdikdə müridlərin dəf mərasimi başlayırdı. Oradakılar isə yavaş-yavaş ayağa qalxaraq rəqs edirdilər. Arada müridlərin hər birisi şeyxin (yəni Seyid Nigarinin) şeirlərindən bir parça oxumalı idilər. Şeirlərin oxunuşunda da müəyyən musiqi ritmləri nəzərə alınırdı. Yəni, müəyyən bir qismi muğamat üstündə, digər bir qismi isə təsnif üstündə oxunurdu. İstər dəflərin çalınması, istərsə də oxumalar ilə ümumi vəcd yaradırdılar. Müridlər şüurlarını itirənə qədər rəqs edirdilər. Özündən gedənlər olduğu yerdə də qalırdılar. Buna xalq arasında «cəza olma» deyirdilər. Bütün sufi təriqətlərində bu cəhət özünü göstərir. Məqsəd isə ilahinin xəlq etdiyi, yaratdığı bəndənin yenidən qayıdıb Allaha qovuşmasını təmin etməkdir. Daha doğrusu, bütün sufi təriqətləri kimi, nəqşbəndiliyin də əsas məqsədi Allah axtarıcılığıdır. Bununla onlarda belə inam yaranırdı ki, haqqa, Allaha qovuşurlar. Mərasimdə kişilərlə bərabər qadınlar da iştirak edirdilər. Bu hadisə Azərbaycan üçün tamamilə yeni məsələdir. Mərasim eyni zamanda açıq şəkildə aparılırdı. Yəni mərasimin tamaşaçıları da olurdu (101, 68-69). Bütün bunlar nəqşbəndliyin xarakterik cəhətlərini, onun özünəməxsus keçirilmə xüsusiyyətlərini göstərir. Bu mərasimlər XIX əsrdə, XX əsrin əvvəllərində, hətta 60-cı illərin axırlarına qədər Qazax rayonunun müxtəlif kəndlərində keçirilmişdir. Molla Sədət nəqşbəndilik mərasimlərinin 60-cı illərin axırlarına qədər Qazax rayonunun İncə dərəsində keçirildiyini qeyd edir.

Bu təriqətin ən çox nəzəri cəlb edən cəhətlərindən biri də müsəlmanlar arasında ayrı-seçkilik salan təriqət ayrılıqla-

rına qarşı çıxmasıdır. Bu təriqət müsəlman dünyasını parçalayan şiə, sünni təriqətlərinə qarşı çıxır, birliyə, nəcib əməllər, xeyirxah işlər uğrunda mübarizəyə çağırırdı. Nəqşbəndiliyin bu ideyası onun tərəfdarlarının şeirlərində də özünü göstərir. Seyid Nigarinin şeirlərindən birində onun bu ayrılıqlara etirazı aydın şəkildə nəzərə çarpır:

Allahı, Məhəmmədi, ali sevən dostdanız,
Nə sünniyüz, nə şiə, biz xalis müsəlmanız (98, 62).

- deyə müsəlman dünyasını didib-dağıdan bu təriqət ayrılıqlarını qəbul etmir. Ustadın fikrini onun müridlərindən olan Şahnigar xanım Rəncur da öz şerlərində bu və ya digər şəkildə ifadə edir:

Nə şiə, sünnüyəm purlaf,
Çihar yara könlüm saf,
Nə əhli-zülmə-biinsaf,
Nə mərdiyə inanam mən. (15, 112-113)

Bu faktı Qazax rayonunun Aslanbəyli (Asdanbəyli) kəndində olan Hacı Mahmud Əfəndi türbəsindəki iki qəbir də sübut edir. Həmin qəbirlərdən biri Hacı Mahmud Əfəndi Qaranayiyə, digəri isə Seyid Yasin əfəndiyə məxsusdur. Belə ki, bunlardan birincisi sünni, ikincisi isə şiə olmuşdur. Gətirdiyimiz faktlar bir daha açıq-aşkar göstərir ki, nəqşbəndilik təriqətinin tərəfdarları sünni-şiə ayrılıqlarını təkcə ideyalarında deyil, eyni zamanda, əməllərində də qəbul etməmiş və hətta açıq şəkildə narazılıqlarını bildirmişlər. Rayonun elə kəndləri olmuşdur ki, sünnilərlə şiələr qarışıq yaşamış, çox vaxt bir-birinə qız verib, qız almışlar.

Qeyd etdiyimiz kimi, nəqşbəndilik təriqətinin Qazaxda çoxlu ardıcılları olmuşdur. Hətta bütün kəndlərdə, demək olar, ardıcıllarına rast gələ bilərik. Bunlara «Vahidi» təxəllüsü ilə şerlər yazan Xanlıqlar kənd sakini Rəhim ağa Dilbozovu, atası Allahyar ağanı, Ağköynəkli Şahnigar xanım Rəncuru, Seyid Yasin əfəndini, Hacı Mahmud əfəndini və başqalarını göstərə bilərik. Maraqlıdır ki, Hacı Mahmud Əfəndi Seyid Nigarinin ən sevimli ardıcıllarından, daha doğrusu, xəlifəliyə layiq gördüyü yeddi nəfərdən biri olmuşdur. Onun Aslanbəyli kəndində olan türbəsi bu gün də yerli əhali ilə birlikdə yaxın bölgələrin camaatı tərəfindən ziyarət olunur, hətta onun Kəmərli kəndində namaz qıldığı yer də müqəddəs sayılır, çətinə düşənlər nəzir verib ora pənah aparırlar.



Onu da qeyd edək ki, nəqşbəndilik təriqəti bəhs olunan dövrdə təkcə Qazax mahalında deyil, Gürcüstanın azərbaycanlı əhalisi arasında da geniş yayılmışdı.

## 2.2. QURBAN BAYRAMI

Azərbaycan xalqının mənəvi mədəniyyətinin mühüm bir hissəsini İslam dini ilə bağlı olan dini bayram və mərasimlər təşkil edir. Belə bayramlardan biri Qurban bayramıdır. Bu bayram etnoqrafik ədəbiyyatda müəyyən qədər öz əksini tapmış, meydana gəlmə, inkişaf tarixi haqqında araşdırmalar aparılmışdır. Lakin onun bölgələr üzrə müqayisəli öyrənilməsi, oxşar və fərqli cəhətlərinin, özünəməxsus xüsusiyyətlərinin araşdırılması hələ də bir problem olaraq qalır. Belə bölgələrdən biri də Qazax bölgəsidir. Bu bayram XIX-XX əsrin əvvəllərində bölgə rayonlarında çox təntənəli, həm də xüsusi maraqla qeyd olunurdu. Araşdırmalar göstərir ki, nəinki indi, XIX əsrdə və XX əsrin əvvəllərində də Qurban bayramı xalq arasında daha təntənə ilə keçirilmişdir. Bunu həmin dövr mətbuat səhifələrində gedən ara-sıra məqalələr və ağsaqqalların yaddaşından topladığımız məlumatlar da təsdiqləyir.

Ərəblər arasında İd-al-adxa, id al-Kurban və ya İd al-Kabir (böyük bayram), fars dilli xalqlarda Eyde-Qurban, Pakistan, Banqladeş və Hindistan müsəlmanları arasında Bakrid kimi tanınan (142, 5) bu bayram Azərbaycan türkləri arasında Qurban bayramı adı ilə qeyd olunur.

Qurban vermə adəti dünyanın, demək olar ki, bütün xalqlarında, o cümlədən Azəri türklərində mövcud olmuşdur. Xalqımız arasında bu bayramın geniş yayılmasının əsas səbəblərindən biri qədim inam və etiqadlarla bağlı olmasıdır. M.Dadaşzadə «Həcclə bağlı olan qurban vermək adəti isə azərbaycanlıların qədim adətləri, etiqadları ilə bağlı olduğundan geniş yayılmışdır» (38, 47) - deyə qeyd edir. Bu adətin islama qədərki ərəb adətləri ilə bağlı olması mülahizəsi də, bizim fikrimizcə, mübahisəlidir. Belə fikir irəli sürmək daha düzgün olar ki, bu mərasim İslam dininə Məhəmməd Peyğəmbər tərəfindən qədim ərəb adətlərindən əxz olunaraq gətirilmişdir. Onu da qeyd edək ki, qədim əcdadlarımız təkcə heyvanlardan deyil, hətta insanlardan da qurban kəsmişlər. Qədim insanın təsəvvürünə görə, insan öləndən sonra da yaşayır, o ancaq şəklini dəyişdirir. Onun ruhuna ehtiram vacibdir. Buna görə də qədim azərbaycanlılar ölülərin öz rəsmi bayram vaxtlarında öz yaraqları ilə, vuruşda onun ən yaxın sədaqətli dostu atı ilə, əksəriyyətini isə öz varı ilə dəfn edirdilər. Bunun izini dilimizdə indi də yaşayan «qurban olum» ifadəsi və folklor nümunələri də qoruyub saxlayır:

Mən aşiqəm, can sənə,
Olmuşam qurban sənə.
Quzu qurbanı nədi,
Mən özüm qurban sənə (23, 27).

Tarixi inkişafın sonrakı mərhələlərində insan qurbanları tam şəkildə heyvan qurbanları ilə əvəz olunmuşdur. Qədim yunan tarixçisi Herodot hələ eramızdan əvvəl Azərbaycanın qədim tayfalarından olan massagetlərin Günəşə atlardan qurban verdiklərini qeyd edir (127, 76). İnsanın allaha inamı və bu inamdan başlayan insan qurbanlarını S.A.Tokarevin əsərlərində də görürük: «Bəli, əslində dini asketizmin bütün sistemi onun dərəcələri və rəngbərəngliyi ilə (adət-ənənələrindən başlayaraq qatı mövhumatçıların inamlarına, hind tərkidünyasına,



müsəlman dərvişliyinə kimi və s.) özünü allaha həsr etmək və eyni zamanda ona qurban verməkdən irəli gəlir» (151, 594). Bütün bu inamlar xalqların hər birində özünü müxtəlif şəkildə göstərsə də, göründüyü kimi, birləşdirici cəhətləri də vardır. Azərbaycan xalqının qədim tarixindəki bu inamlar sonralar Qurban bayramının yaranmasına gətirib çıxarmışdır.

Qurban bayramı hər il müsəlman təqviminin on ikinci ayı olan zilhiccə ayının 10-da başlanır və üç gün davam edir. Onu da qeyd edək ki, bu bayramın vaxtı hər il on bir gün irəli çəkilir.

Qurban adətlərinə görə qurban kəsiləcək heyvan sağlam olmalı və heç bir şikəstliyi olmamalı idi. Adətən, qurbanlıq üçün heyvan əvvəlcədən seçilib bəslənirdi. Həmin heyvan toğlu, erkək, cöngə ola bilərdi. Qeyd etməliyik ki, Qərb bölgəsində təkcə erkək heyvanlar deyil, həm də dişi heyvanlar qurban kəsilirdi. Cöngəni adətən qurban olaraq yeddi ailə bir yerdə qurban kəsərdi. Etnoqrafik ədəbiyyatda bu heyvanların yaşının ən azı bir olması göstərilir (140, 234). Lakin Qazax rayonunun ayrı-ayrı kəndlərində söhbət etdiyimiz qocaların dediyinə görə altı aydan yuxarı olan, tükünü dəyişmiş heyvan qurban kəsilə bilər. Bunu eyni zamanda xalq arasından yazıya aldığımız aşağıdakı bayatı da təsdiqləyir:

Gəlmə sən oğru kimi,
Dur, gəl bəy oğlu kimi.
Canım canına peşkəş,
Qurbanlıq toğlu kimi (39- inf.).

Məlum olduğu kimi, altı aydan bir yaşa qədər heyvanlar toğlu adlanır (53, 61; 59, 43). Doğrudur, bu bayatılarla quzu qurbanı haqqında da məlumatlar var. Lakin quzu qurbanı kəsmək Qərb bölgəsində düzgün sayılmamışdır. Bunu Qazax rayonunun müxtəlif kəndlərində qocalarla söhbət zamanı da müşahidə etdik. XIX əsrdə və XX əsrin əvvəllərində belə bir adət də vardı ki,

qurban kəsiləcək heyvanın belinə həmişə xına, rəng çəkilərdi. Bu ənənə 70-ci illərin ortalarına qədər geniş şəkildə icra edilmişdir. Belə rənglənmənin səbəbi qurban kəsiləcək heyvanı başqalarından ayırmaq, mərasim ovqatı vermək mülahizələri ilə bağlı idi. Deyilənə görə, belə heyvanları hətta oğurlamazdılar. Xalqımızın böyük şairi S.Vurğun şeirlərində Qurban bayramı haqqında da söhbət açmış, onun keçirilməsindən danışmışdır:

Qurban bayramıydı, gülürdü dağlar,
Qonşumuz xınalı bir erkək kəsdi (96, 138).

Adətə görə, qurbanlıq heyvan molla Quran oxuyandan sonra kəsilərdi. Kəsilən heyvanın qanı isə bir qaba tutulub basdırılardı. Qurbanlıq ətindən yeddi qapıya pay verilərdi. Buna el arasında «qurban tikəsi» deyilirdi. Onu da qeyd edək ki, belə pay adətən daha çox kasıblara, əlsiz-ayaqsızlara, kimsəsizlərə, imkanı olmayanlara verilirdi. Salahlı məktəbinin müəllimi B.Veniaminov XIX əsrin səksəninci illərində bu məsələ ilə əlaqədar olaraq yazırdı: «Qurban bayramı başqa bayramlardan onunla fərqlənirdi ki, bu bayramda kəsilmiş qurban ətinin bir hissəsini kasıblara, şikəst qonşulara paylayır, qalanını isə ev yiyələri özləri yeyirdilər» (149, 112). Belə bir adət Qazax rayonunun bütün kəndlərində vardır. Lakin B.Veniaminovun göstərdiyi kimi, bu adət təkcə Qurban bayramı ilə bağlı deyildir. Belə ki, bu cür pay vermə özünü Novruz və Orucluq bayramında da göstərirdi. Bu xalqımızın təbiətindəki xeyirxahlıq hissi ilə birbaşa bağlıdır. Qurban bayramındakı pay vermə adəti də xeyirxahlığın əlamətidir.

Qurbanlıq heyvanın ətindən mollaya da pay verilərdi. Bu pay isə ətin xeyli hissəsini təşkil edərdi. Heyvanın ən yaxşı yeməli yerlərindən kəsilər, daha çox isə heyvanın başı, döşü mollaya verilərdi.

Adətə görə, qurbanlıq heyvanın əti ilə spirtli içki içmək olmazdı və bu qəti qadağan idi. Böyük günah hesab olunan qurbanlıq ətlə spirtli içki içməyin qarşısını almaq üçün



düşünülmüş müxtəlif qorxulu rəvayət və əhvalatlar xalq arasında indii də dolaşmaqdadır. Bunlar xalqın inamı və Qurban bayramına məhəbbətin ifadəsi kimi yaradılmışdı. Əgər belə bir hal baş versə, qurban uğurlu, keçərli hesab olunmurdu. Eyni zamanda, xalqın inamına görə, hər iki tərəf – qurban əti paylayan da, onu yeyən də günaha batmış hesab olunurdu. Ona görə də evdə tapşırılır və demək olar, hamı da əməl edirdi.

Bütün bu deyilənlərlə yanaşı, digər bir cəhəti də qeyd edək ki, qurban təkcə Qurban bayramında deyil, başqa vaxtlarda, müxtəlif niyyətlərlə də kəsilirdi.

## 2.3. ORUCLUQ BAYRAMI

Dini mərasimlər içərisində ən geniş yayılanı və ən çox diqqəti cəlb edəni Orucluq bayramı və oruc tutma mərasimi idi. Oruc tutma mərasimi İslam dininin müsəlmanların qarşısına qoyduğu beş əsas vəzifədən biridir. Bu bayram Azərbaycanda İslam dininin təşəkkülündən sonra yaranmışdır. Lakin buna baxmayaraq, xalq arasında ən çox yayılmış və geniş şəkildə qeyd olunan bir mərasim olmuşdur. Qeyd edək ki, oruc tutma adəti bütpərəst ərəblərdə daha əvvəllərdən də mövcud olmuşdur. M.Dadaşzadə bu məsələ ilə əlaqədar danışarkən göstərir ki, bu ayin onların pəhriz adətləri ilə bağlı olmuşdur (38, 67). Z.Göyüşov isə orucluğun qədim ərəblərin təsərrüfat- istehsal həyatı ilə əlaqəsini qeyd edir (47, 15). Ümumiyyətlə, İslamın əksər adət-ənənələri islamaqədərki kultlardan əxz olunmuş, lakin onlar yeni sosial mahiyyət kəsb etmişdir. İslamın yayıldığı bütün ölkələrdə Orucluq bayramı mərasimi keçirilmişdir.

Müsəlman İslam dini qaydalarına görə, bütün Ramazan ayı boyu, yəni 30 gün oruc tutmalıdır. Orucluq bayramı hicri təqviminin günəş təqvimindən on bir gün az olmasının nəticəsində hər növbəti ildə on bir gün əvvələ

keçirilir. Məhz ona görə də bu bayramın keçirilməsi ilin müxtəlif vaxtlarına düşür. Həmin vaxt isə oruc tutmaq bütün müsəlmanlar üçün məcburidir. Lakin bu adətin özündə də müəyyən istisnalar vardır. Bu isə müəyyən şəraitlə, vəziyyətlə bağlı olan bir haldır. Belə ki, xəstələr, səfərdə olanlar, uşaqlar, qocalar, hamilə və uşaq əmizdirən qadınlar oruc tutmaqdan daim azad edilmişlər. Həm də məcburiyyət qocalardan və uşaqlardan başqa, müvəqqəti idi. Bunun müqabilində başqa vaxtlarda qəza orucu tutulmalıydı.

Tutulan orucun bir çox şərtləri var idi, buna əməl etmək lazım gəlirdi. Əks halda oruc batil hesab edilirdi. Burada, eyni zamanda, digər bir cəhət də vardı ki, oruc tutanlar oruc tutmazdan əvvəl niyyət edər və niyyət namazı qılardılar. Həm də orucluğun tələbinə görə oruc tutan adam təmiz olmalı idi. Oruc bir tələb də qoyurdu ki, boğazdan o yana bir damcı da getməməlidir. Hətta papiros çəkilsə belə, oruc pozulmuş hesab edilirdi. Orucluq müddətində qan aldırmaq, banka qoydurmaq, musiqiyə qulaq asmaq da qadağan edilirdi. Müəyyən istisna hallar da orucluq namazında nəzərə alınırdı. Məsələn, oruc tutan adamın bilmədən bir şey yeməsi zamanı oruc pozulmuş hesab edilmirdi.

Oruc gün doğandan gün batana qədər davam edirdi. Ancaq həmin vaxt ərzində sərbəstlik verilirdi. Müəyyən işlər, yemək, içmək və s. şər qarışandan səhər açılana qədər olmalı idi. Onu da qeyd edək ki, ilkin mərhələdəki orucluqda XIX əsr və XX əsrin əvvəllərindəki orucluq mərasimi arasında müəyyən fərqlər olmuşdur. Görkəmli İslam dini tədqiqatçısı A.Masse bu məsələ ilə əlaqədar olaraq yazır: «Hicrətdən sonra Məhəmməd Mədinə yəhudilərini təqlid edərək aşura orucu adətini qoydu. Bu oruc yalnız səhərdən axşama qədər deyil, yəhudi adətinə görə, bir gün batandan o biri gün batana qədər davam edirdi. Lakin hicri ikinci ildə (bütün hadisələrdə bu tarix



göstərilir) Məhəmməd ilə yəhudilərin arası pozulub münasibətləri kəskin bir şəkil aldığına görə ramazan ayı orucluq ayı elan edildi, aşura isə məcburi olmadı» (63, 134). Oruc tutan adamlar orucluğun adətinə görə yalnız gün batandan sonra və səhər tezdən, yəni o başdan hava işıqlaşmamış yemək yeyə bilərdilər. Qazax rayonunun bütün kəndlərində gecə yeyilən yeməyə yastılıq yeməyi deyirdilər (2 – inf.). Oruc tutulan günün sonunda namaz qılar, allaha şükür edərdilər. Orucluğun başlanması isə adətə görə, el-obada molla tərəfindən elan olunurdu. Oruc tutma mərasimi edilən günahların bağışlanması məqsədi daşıyırdı. Xalq arasında olan inama görə, hər hansı bir adam öz günahlarını bağışlamaq üçün oruc tutmalı idi. Əgər belə olarsa, onun günahlarından keçilir və Allah yanında üzü ağ olurdu.

Orucluq mərasimi şəvval ayının birində başa çatırdı. Orucluğun sona çatması böyük təntənə ilə qeyd edilirdi. Bayram keçirilir, şadlıq təşkil olunurdu. Bu bayramın sona yetməsi ilə əlaqədar olaraq namaz qılınır, ayrı-ayrı evlərə bayramlaşmağa gedilirdi. Bu münasibətlə plov, əriştə bişirilir, çay içilirdi. Bayramın qurtarması münasibətilə yoxsullara sədəqə verilidi. Həmin sədəqə hər ailə üzvünə, imkan və gəlirin miqdarına görə paylanırdı. Bu, əslində humanist niyyətin nəticəsi idi. Belə bir xüsusiyyət Novruz bayramında da vardır.

## 2.4. NOVRUZ BAYRAMI

Xalqımızın keçirdiyi bayramlar içərisində ən çox maraqla qarşılanan, təntənə ilə qeyd edilən və geniş şəkildə yayılan bayram Novruz bayramıdır. Bu, mövsüm mərasimidir. Onun belə qarşılanmasının səbəbi də mövsümlə bağlı olmasındadır. Yəni qədim zamanlardan xalq qışın sərt sazağından, amansız soyuğundan daim əziyyət çəkmiş, ailənin və min bir əziyyətlə saxladığı ev

heyvanlarının ruzusunu təşkil etmək üçün min bir əziyyət çəkmişlər. Ona görə də bu əzab-əziyyətdən, çətinlikdən üzü ağ, sağ-salamat yaza çıxmaq üçün böyük səbirsizliklə üzləşmişlər. Hətta qurbanlar kəsib, nəzir-niyaz demişlər. Novruz bayramı özünün keçirilmə xüsusiyyətinə görə digər bayramlardan, hətta dini bayramlardan da təmtəraqlı olmuşdur. «Bu bayram o qədər əziz tutulur ki, hətta «Mövludi-Nəbi» belə buna nisbətən yox mənziləsinə gəlir. səbəbi aşkardır: xalq özü yaratdığı bir adəti kənardan gələn və qılınc zoru ilə təlqin olunan bir adət-etiqada tərcih edir» (36, 82). Y.V.Çəmənzəminlinin bu fikrini H.Sarabski də öz əsərlərində ətraflı şəkildə qeyd edir: «Novruz bayramı Bakıda Qurban və Orucluq bayramlarından dəfələrlə artıq bir təntənə ilə keçirilirdi» (92, 19). Bu bayramın xalq arasında belə geniş yayılmasının səbəbi məhz xalqın həyatından doğması ilə bağlıdır.

Mənbələr də bu bayramın qədim bir tarixə malik olmasını göstərir. Onun haqqında ilk yazılı məlumat eramızdan əvvəl 505-ci ilə aiddir (38, 11). Bu bayram əvvəllər Fərvərdi adlandırılmış, (77, 50) yalnız orta əsrlərdə Novruz məfhumu ilə qeyd edilmişdir. Qədim mənbələrdə daha çox bahar bayramı kimi göstərilir (38, 98-99).

Novruz haqqında məlumat verən mötəbər mənbələr içərisində «Avesta» xüsusi yer tutur. «Avesta»da Novruz xalqın bolluğa, qüdsiyyətə sitayiş bayramı hesab olunur. Hətta bəzən əkinçilik bayramı olmasına da rast gəlinir. «Avesta»da Novruzun əkinçilik bayramı olması ilə yanaşı, firavanlığın başlanğıcı kimi də göstərilir.

İslam din xadimləri də Novruzdan öz məqsədləri, hakimiyyətlərini möhkəmlətmək üçün istifadə etmişlər. Belə ki, ilk xəlifənin taxta çıxması həmin gün olmuşdur. Lakin bütün cəhdlərə baxmayaraq, Novruz nə Zərdüştiliyin, nə də İslamın təsiri altına düşməmişdir. Xalqın yaddaşında bütün dinlərdən və təriqətlərdən uzaq ümumxalq bayramı kimi yaşamışdır.



Novruz haqqında bir qədər geniş və ətraflı məlumatlara IX-X əsrlərdə yaşamış, əsərlərini ərəb dilində yazan Orta Asiya tarixçisi Əbu Reyhan əl-Biruninin (973-1048) «Qədim xalqlardan qalmış yadigarlar», «Qanuni-məsudi», «Ət-təfim» əsərlərində, Ö.Xəyyamın (1045-1131) «Novruznamə» və XI əsr ərəb tarixçisi Nizamül-Mülkün «Siyasətnamə» əsərlərində rast gəlinir.

Ömər Xəyyam «Novruznamə»sində yazırdı: «Cəmşid bu günü Novruz adlandırmaq barədə fərman verdi. Hər il Fərvərdinin (mart ayının) başlanğıcını bayram eləməyi, yeni ili həmin gündən hesablamağı əmr verdi». Firdovsinin «Şahnamə»sində İran təqviminin ilk ayı olan Fərvərdinin bayram edildiyi göstərilir. Təsadüfi deyil ki, İsgəndərin Bərdə hökmdarı Nüşabəyə qonaq gəldiyi gün də elə Novruz bayramı günü idi.

Tarixi mənbələr, eyni zamanda, Novruzun təqvim bayramı olmasını da göstərir. Yerin Günəş ətrafında hərəkəti ilə bağlı fəsillərin dəyişməsi, qışın keçib, yazın gəlməsi yeni əmək mövsümünün başlanması idi. Ona görə də bu günü böyük təntənə ilə qeyd edirdilər.

Bütün bu deyilənlərdən, tarixi mənbələrin verdiyi məlumatlardan bir daha aydın olur ki, Novruz bayramı xalqımızın həyatı, təsərrüfatı, əmək fəaliyyəti, eyni zamanda, sırf təbiət hadisəsi - qışın yazla əvəz olunması, yeni təsərrüfat ilinin başlanması ilə bağlıdır.

«Novruz adətlərinin Azərbaycan xalqı içərisində uzun zamanlardan bəri davam edib gəlməsinin səbəbi, hər şeydən əvvəl, onun xalq təsərrüfatı ilə, xalqın əmək və məişəti ilə bağlı olmasıdır (77, 50). Doğrudur, Novruz bayramını tarixən ayrı-ayrı şəxsiyyətlərlə, Ataşpərəstlik və İslamla bağlamağa çalışmışlar, lakin bunun heç bir tarixi əsası olmamışdır. Müxtəlif dinlər bu bayramın xalqın həyatına sirayət etmiş olduğunu gördükdə, öz mənafeləri naminə istifadə etməyə çalışmış, bir çox ayin və mərasimlərini də

oraya calaq etmişlər. Novruz adətləri içərisində rast gəlinən zərdüştlük izləri də, heç şübhəsiz, bununla bağlıdır.

Novruz hər il köhnə təqvimlə mart ayının 7-8-9-da keçirilirdi. Yeni təqvimlə bu martın 20-21-22-nə uyğun gəlir. Xalq mərasim nəğmələrinin birində də bu tarixə rast gəlirik:

Gəldi martın doqquzu,
Bayram etdik Novruzu.

Lakin bu bayram təkcə martda ilin əvvəlində keçirilən Novruzdan ibarət deyildir. Bu bayram böyük bir mərasimlər toplusundan ibarətdir. Həmin silsilə isə xalqın bahar, yaz istəyindən yaranmışdır. «Yazın gəlməsi istər ovçuluqla, maldarlıqla, istərsə də əkinçiliklə məşğul olan türkdilli xalqlar üçün həyat məsələsi idi. Havanın, torpağın qızması yazın gəlişindən, təbiətin oyanmasından xəbər verirdi. Bir çox türkdilli xalqlarda olduğu kimi, Azərbaycanda da yazın uğurlu olması üçün əsasən iki şeyi ram etmək, ovsunlamaq arzusunda olmuşlar: birincisi yazın istiliyi, ikincisi su. Buna görə də xalq yazı qarşılamaq, onu ağacların çiçəklənməsi, toxumların cücərməsi, mal-qaranın balalaması üçün istiliklə, güclə, qüvvətlə təmin etməkdən ötrü müəyyən ayin, mərasim keçirmişdir» (94, 103). Xalqın yaz, istilik arzusu ilə keçirdiyi ilk mərasim Xızır Nəbi bayramıdır. Bu bayrama «Peyğəmbər» bayramı da deyirlər. Xızır bayramı yaşlı qocaların dediyinə görə fevralın 13-15-də üç gün keçirilərdi və həmişə ilin eyni vaxtına düşərdi (5-inf.). Bir mənbədə bu bayram fevral ayının ilk günündən keçirilməyə başladığı göstərilir (18, 251). Q.Cavadov isə bu bayramın fevralın birinci ongünlüyündə keçirildiyini qeyd edir. Göründüyü kimi, burada bir-birindən fərqli tarixlər göstərilsə də, maraqlı olan cəhət müəlləflərin onun eyni vaxtda keçirilmələrini qeyd etmələridir. Bunlar «Xızır Nəbinin» «Peyğəmbər bayramı» adlansa da, Qazax mahalının əhalisi arasında dinlə heç bir əlaqəsi olmadığını göstərir. Araşdırmalar bir daha təsdiqləyir ki, bayram mövsümlə



əlaqədar keçirilən bayramdır. Xızır Nəbi bayramında əhali, əsasən, «odu», «xizi» - istiliyi vəsf etmişdir:

Xızır, xızır, xız gətir,
Var dərədən od gətir…
Xızıra Xızır deyərlər,
Xızıra çıraq qoyarlar (18, 30).

Bu misradan aydın görünür ki, xalq Xızırdan od, istilik, hərəkət diləyir. Odun, istiliyin gətirilməsi isə təbiətin oynaması deməkdir. Xızır Nəbi xalq arasında Xıdır İlyas kimi də adlanmışdır. Xalqın ilkin dünyagörüşünə, mifoloji təfəkkürünə görə Xızır və İlyas bir-birilə bağlı olmuşdur. Onların hər ikisi də təbiətin bir-birilə möhkəm əlaqədə olan yaradıcı təzahürləridir. Əslində qəbul olunan odur ki, Xızır yaşıllıq, İlyas isə su məbududur (61, 43). Xalq mərasimləri ilə əlaqədar olan hər iki mifoloji obraz xalqın həyatının müəyyən mərhələsində inamlarının təcəssümüdür. Müasir insan üçün nə qədər uydurma görünsə də, bu obrazlar əkinçi, maldar tayfaların yaşıllıq və həyat mənbəyi olan su istəyindən yaranmışdır.

Xızır Nəbi bayramında əhali buğdanı qovurar, sonra isə onu üyüdüb qovut düzəldərdilər. Qocaların dediyinə görə, hər ailə neçə günlük əkin yeri olsa, hər gün hesabı ilə bir çanaq buğda üyüdərdi. Sonra qovut bayramlıq üçün paylanardı (26 – inf.). Bu bayramda qovutla yanaşı, halva, əriştə və s. kimi yeməklər də hazırlanardı. İnama görə Xızır Nəbi boz at belində gələrmiş: Eldə-obada qovudun ununu ələyib təknədə yükün altına qoyarmışlar. Xızır Nəbi isə gecə gəlib əməlisaleh adamların qovuduna əlini vuraraq ovsunlarmış. Beləliklə, gələn il də həmin adamın məhsulunun, ununun bol olacağına inanardılar.

Bu bayram, göründüyü kimi, öz mahiyyəti etibarilə təbiətlə bağlıdır. Bizə belə gəlir ki, bu bayram baharın qarşılanması ərəfəsində Novruzun ilk başlanğıc mərasimidir.

Bölgədə Novruza bir ay qalmış ilaxır çərşənbələr adlanan dörd çərşənbə keçirilərdi. Bu çərşənbələrin hamısında

od qalanar, uşaqlar «ağırlığım-uğurluğum odlara» - deyə odun üstündən hoppanardılar. İnama görə, bu zaman qada-balalar odda yanardı.

Keçirilən bu çərşənbələrin birincisi «yalançı çərşənbə»-dir. «Yalançı çərşənbə» zamanı adamlar ev-eşiyi, həyət-bacanı təmizləyir, müəyyən səliqə-sahman yaradırdılar. Həyətlərdə ocaq çatılırdı. Böyüklü-kiçikli hamı onun ətra-fına toplanırdı. Uşaqlar odun üstündən tullanır, böyüklər isə ətrafında söhbət edirdilər. Evlərdə süfrə bəzənir, müxtəlif ləziz yeməklər, meyvə düzülürdü.

İkinci çərşənbə xalq arasında «xəbərçi çərşənbə» kimi tanınırdı. Bu zaman havalar isinməyə başlayırdı. Təbiət yavaş-yavaş oyanırdı. Bütün çərşənbələrdə olduğu kimi, «xəbərçi çərşənbə»də də tonqal qalayıb üzərindən tullanırdılar. Qocalar olandan-olacaqdan danışır, gənclər isə şənlənirdilər.

Çərşənbələrin üçüncüsü «qara çərşənbə» idi ki, xalq bu günə xüsusi hazırlaşırdı. Müxtəlif yeməklər, şirniyyat hazırlanır, qəbir üstə gedirdilər. Qəbir üstə müxtəlif şirniyyatlar qoyulur, şam yandırılır, ölənlərin, ata-babaların ruhu hörmətlə yad edilirdi (40 – inf.). Onların ruhuna hörmət əlaməti olaraq ehsan, xeyrat verilərdi ki, bu da İslamdan əvvəlki dünyagörüşlə bağlıdır. Qara çərşənbədə qəbirlərin üstü təmizlənir, qaydaya salınırdı. Göründüyü kimi, bu adət İslam dininin «müsəlmanların qəbri zaman keçdikcə itməlidir» - ehkamına tamamilə ziddir və islamaqədərki mərhələ ilə bağlıdır. Qəbiristanlığa qayğı, ruhlara hörmət təqdirəlayiq adətlərdən olub, indi də davam etməkdədir. Çünki «ölüsünə hörmət etməyən, dirisinə də hörmət etməz» - anlamı məhz bu adətin möhkəmliyi və qədimliyini bir daha təsdiqləyir. Qeyd etmək lazımdır ki, bu adət özünün qədimliyi etibarilə bəlkə də Novruz mərasimindən də qabaq olmuşdur. Həm də qəbir üstə getmə ilin müxtəlif vaxtlarında ola bilərdi.

Nəhayət, xalq arasında sonuncu çərşənbə «axır çərşənbə» kimi tanınırdı. Axır çərşənbə o biri



çərşənbələrdən daha təmtəraqlı keçirilirdi. Axır çərşənbəni bütün el-oba elliklə bayram edirdi. Həyətlərdə tonqallar qalanır, uşaqlar üstündən hoppanırdı. S.Vurğun həmin adəti belə təsvir edir:

Baxın, hər qapıda bir tonqal yanır.
Uşaqlar hoppanır od-alov üstdən;
Göyə şölə düşür, yer işıqlanır,
Od da yandırmayır heç kəsi qəsdən (97, 80).

Axır çərşənbədə bayram yeməkləri hazırlanır, müxtəlif şirniyyatlar bişirilirdi. Yumurtalar müxtəlif rənglərdə boyanır, qovurğa qovurulurdu. Səməni göyərdilməsi isə xalqın bolluq, bərəkət, yaşıllıq, təbiətin canlanması arzusu kimi dəyərləndirilirdi. Bayram əhvali-ruhiyyəsi, sevinc rəmzi kimi səməniyə qırmızı qurşaq bağlayırdılar. Səməni göyərdilməsi özünün tarixi kökləri etibarilə çox qədimdir. Etnoqraf H.Quliyev midiyalıların taxılı müqəddəs hesab etdiyini və ilin əvvəlində ondan «Omami» adlı yemək hazırladıqlarını qeyd edir (73, 53). Bu yemək, heç şübhəsiz ki, Novruzda bişirilən Səməni halvasıdır. Onun əhəmiyyəti, M.Həkimovun 1962-ci ildə Ağstafa rayonunun Salovlu kənd sakini 90 yaşlı mərhum Sayalı Həsən qızından topladığı bir folklor nümunəsində belə ifadə olunur:

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səndən mən can istərəm,
Damara qan istərəm.
İllətimin loğmanı,
Yamanlığın amanı…( 51, 132)

Yuxarıdakı misralardan aydın şəkildə görünür ki, xalq «illətimin loğmanı», «yamanlığın amanı» olan səmənidən çox şey gözləyir. Bu nümunədə xalqın inamı, qışın amansız sərtliyini yox edəcək baharın gəlişi aydın şəkildə nəzərə çarpır. Xalq səmənidən zəifləmiş orqanizmin gücünün bərpa olunması, qanının təmizlənməsi, görmə qabiliyyətinin

zəifləməsinin qarşısını almaq üçün istifadə etmişdir. «Səməninin və şirəsinin orqanizm üçün müalicə əhəmiyyətini, heç şübhəsiz, babalarımız uzun əsrlər tarixi təcrübə əsasında əldə etmişlər ki, bu öz inikasını xalq mərasim nəğləmələrində dövrümüzə qədər xüsusi mərasim şəklində yaşatmışdır» (51, 132).

Xalq, eyni zamanda:

Səməni, ay səməni,
Sən gələndə yaz olur,
Saz olur, avaz olur –

deyə səməninin göyərməsi ilə yazın gəlməsinə inanmış və yazın gəlməsi ilə bayram şənlikləri keçirildiyini xüsusi olaraq qeyd etmişdir.

Axır çərşənbədə ən maraqlı adətlərdən biri də taleyin necə olacağını müəyyən etmək üçün keçirilən fallar idi. Fallar müxtəlif formada özünü büruzə verirdi. Qeyd etmək lazımdır ki, bu fallar əsasən gənclər tərəfindən həyata keçirilirdi. Onlardan biri «qulaq falı» idi. Buna bölgədə «qapı pusma» da deyirdilər. A.Nəbiyev bu haqda yazır: «Axır çərşənbə günü qaş qaralandan sonra qonşunun qapısını pusurlar. Qapıya yaxınlaşarkən eşidilən ilk sözü və ya bir neçə sözü yozub bəxt haqqında müəyyən mülahizələr söyləyirlər» (83, 48). Qərb bölgəsində, xüsusilə Qazax mahalında geniş şəkildə keçirilən bu mərasimin xüsusi təsir dairəsi vardı. Məhz ona görə də əvvəlcədən ağsaqqallar tərəfindən xeyir söz danışmaq, yaxşı söhbət eləmək tapşırılırdı. Bu isə qapı pusana xoşbəxtlik arzulamaq, yaxşı inam yaratmaq ideyasından irəli gəlirdi. Adətə görə, gələcək taleyini müəyyən etmək üçün gizlicə qonşu qapısını pusurdular. D.Bağırov bu məsələ ilə əlaqədar olaraq yazır: «Qapı pusmağa gedərkən, qapı pusan adam əlində bir parç su və güzgü tutardı» (121, 189). Xalq şairi S.Vurğun isə bu adəti belə təsvir edir:



Xəyalat başını bir an tərk edir,
Xeyirxah bir xəbər eşitmək üçün.
Qonşu qapısını pusmağa gedir.
(Qayda belədir ki, birinci kərə,
Xeyir söz eşitsə şad olacaqdır,
Yaman söz eşitsə yenə qəmlərə
Qərq olub içində qovrulacaqdır) (97, 82).

Odur ki, axır çərşənbə axşamı hamı evdə xoş söz, səmimi, xeyirxah söhbət etməyə çalışardı. Məhz belə bir inamın əsasında qapı pusmağa gedən adamın güclü həyəcanı nəzərə çarpırdı. Bu, sonrakı taleyin necə olacağı narahatçılığı idi.

Qazax mahalında adət formasını almış fal formalarından biri də qızların duzlu çörək yeyib yatması idi. Duzlu çörəyi belə hazırlayırdılar: yeddi üskük duz, yeddi üskük un qatışdırıb xəmir qatılır, balaca kökə bişirilirdi. Xəmiri, qocaların dediyinə görə, yetkinlik yaşına çatmamış qız yoğurub bişirməlidir. Duzlu çörəyi isə yetkinlik yaşına çatan qız yeyib yatırdı. O, eyni zamanda, yatanda yastığının altına şirniyyat da qoyurdu. Yuxuda ona kim su versə, həmin qız ona ərə gedəcəyinə inanırdı (23 –inf.).

Digər bir fal forması qıfıl falı idi. Adətə görə, bu falda qıfılı bağlayıb açarı yanına qoyardılar. Eyni zamanda ora güzgü və su da qoyulardı. Gecə yatıb səhər oyananda görərdilər ki, qıfıl açılıb. Onda həmin adamın bəxtinin bu il açılacağına inanardılar.

Axır çərşənbədə keçirilən maraqlı adətlərdən biri də «dan atmaq»dır. Tovuz, Goranboy rayonlarında və Gəncəbasarda buna «çilə çıxarmaq» deyirlər. Bu mərasimi keçirmək üçün qızlar xüsusi hazırlıq görərdilər. Məhəllə qızları hərə öz imkanına görə ərzaq, meyvə gətirər, bir yerə toplaşardılar. Onlar hazırlayıb bayram süfrəsinə əyləşərdilər. Bu məclisdə eyni zamanda küsülüləri barışdırardılar. Qızlar həmin gecəni şən keçirər, mahnı oxuyar, rəqs edib oynayar, məclisin xoş, hay-haraylı keçməsini təmin edərdilər. Bu

məclisdə qızlardan ikisi qaradinməz seçilər, onları bulağa su gətirməyə yollayardılar. Həmin qızlar su gətirənə kimi bir kəlmə də danışmazdılar. Əks halda həmin su lal su hesab olunmaz və onda iynə oynatmaq, üzük salmaq olmazdı. Qızların qorxmaması üçün su gətirməyə gedərkən onların qardaşları və qohumları da onlarla gedərdi. Su gətirənlər suyu gətirib ortaya qoyduqdan sonra danışa bilərdilər. Cama lal su tökər, iynələrin və ya sancaqların başına pambıq dolayıb suya salardılar. İynələrin biri qız, digəri oğlan hesab olunardı. Bu mərasimi İ.Şıxlı «Dəli Kür» romanında belə təsvir edir: «Qızlar iynələri suya saldılar. Pakizə də onlara qoşuldu. Ancaq bir şey başa düşmədiyindən, təkrar soruşdu:

- Bu iynənin biri Fatmadır, bəs biri kimdir?

- Onu özü bilər. Ürəyində hansı oğlanı tutubsa, odur.

İynələr suda üzməyə başladı. Qızların nəfəsi suya toxunduqca iynələrdən biri qaçır, o biri qovur, gah da əksinə, qaçan dayanır, qovan qaçırdı. Qızlar öz ürəklərində belə hesab edirdilər ki, əgər iynələr birləşsə, demək oğlanla qız görüşəcək və evlənəcəklər».(107, 190).

Başqa bir fal forması badyada olan lal suya üzük və ya sancaq salınması idi. Bu halda qızlar hərəsi öz üzük və ya sancağını badyaya atardılar. Badyanın üstünə isə yaylıq salardılar. Bundan sonra vəfsi-hal - bəxti sınamaq üçün mahnılar oxuyaraq sudan üzük və ya sancaq çıxarardılar. Oxunan vəsfi-halın məzmununa görə çıxarılan üzük, yaxud da sancağın sahibinin taleyinin necə olacağına inanardılar. Məsələn, bu tipli vəsfi-hallar oxuyardılar:

Dağlar başında lalə,
Əlində var piyalə
Qız sənindir, ay oğlan
Düşmə özgə xəyalə

Qara qızın yaxası
Oğlan qıza baxası.



Güldən köynək tikmişəm
Bənövşədən yaxası.

Göründüyü kimi, bu fallarda güclü bir inam duyulmaqdadır. Bu inamla da onlar öz həyatlarını, yaşayışlarını qurardılar. Bütün bunlar axır çərşənbədə keçirilən mərasimlər idi. Qazax rayonunun kəndlərində axır çərşənbədə çaydan, bulaqdan su gətirər, evə, həyət-bacaya səpərdilər. Bununla həmin il dərd-bəlanın onlardan uzaq olacağına inanardılar. Suyun isə aydınlıq, xeyir gətirəcəyinə ümid bəsləyərdilər. Həmin gecəni dan atıb səhərə qədər oyaq qalardılar. Yatanlar isə yorğan-döşəyə tikilərdi. A.Nəbiyev dan atma və ya günəşi qarşılama mərasimi haqqında yazır: Onlar «Novruzla bağlı qədim mərasimlərdəndir. Ayrı-ayrı rayonlarda müxtəlif adlarla yaşayır. Adamlar hündür təpələrə çıxıb tonqal qalayırlar. Axır çərşənbədə həmin tonqalın ətrafına toplaşıb günəşin doğmasını gözləyirlər. Elə ki, günəş doğdu, hamı onu salamlayan «Qodu xan» nəğməsini oxuyur, tonqalın başına dövrə vurur, sonra da hərə tonqalın odundan məşəlini yandırıb ocaqlarını alışdırmaq üçün evə tələsir» (83, 49).

Axır çərşənbədə nəzərə çarpacaq xüsusiyyətlərdən biri də səhər tezdən su üstünə gedib axar sudan tullanmaq, əl-üz yumaq idi. Bununla da əhali öz ağrılarını, dərd-bəlalarını axar su ilə axıtdıqlarına inanardı. Suya, oda, eyni zamanda, baharın gəlişi ilə həyat şəraitinin yaxşılaşacağına olan bu inamlar ulu əcdadlarımızın ilkin təsəvvürləri və təxəyyül imkanları ilə bağlıdır. Həmin təsəvvürlərin bu cür sabitliyi, XIX əsrə və XX əsrə qədər gəlib çıxması, ilkinliyini qoruyub saxlaması isə yerli əhalinin mənəvi dünyasında inamlara əhəmiyyətli yer verməsini şərtləndirir.

Novruz mərasiminin ən maraqlı hissəsi Novruz bayramı idi. Bu bayram mart ayının 20-21-22-də keçirilirdi. Həmin vaxt il tamam olur, gecə ilə gündüz bərabərləşirdi. Dini bayramlardan fərqli olaraq, Novruz bayramı hər il eyni vaxta düşürdü. İslamda olan dini bayram və mərasimlər

Orucluq bayramı, Qurban bayramı, Məhərrəmlik mərasimi və s. qəməri il təqvimi ilə keçirildiyi halda, məhz Novruz Günəş ili təqvimi üzrə keçirilir və həmişə eyni bir vaxta, eyni bir günə – şimal yarımqütbündə bahar fəslinin girməsinə, gecə-gündüzün bərabərləşməsinə təsadüf edirdi ki, bu da ilin uzun və qısa olmasından asılı olaraq mart ayının 20 və ya 21-nə (bayram axşamı), Novruz (yeni gün, ilin ilk günü) də ayın 21 və ya 22-nə təsadüf edirdi (71, 18). İl sona çatıb yeni il başlananda tüfənglərdən atəş açılardı. Buna xalq arasında «Novruzun topu atıldı» - deyirdilər. Elə həmin vaxt əvvəlcədən yığılan ot, saman, oduna od vurur, üstündən tullanır, ağırlığını-uğurluğunu odda yandırırdılar. H.K.Sanılı «Novruz axşamı tək ellər çıraqban» - deyə Novruz axşamlarının bu xüsusiyyətini qabarıq şəkildə təsvir etmişdir. Novruz bayramında olan oda atəşpərəstliyin izi kimi baxırlar. Bu tədqiqatçılar arasında müəyyən mübahisələrə səbəb olmuşdur. Bizim fikrimizcə də belə yanaşma düzgün deyildir. Etnoqraf Q.Cavadov çox haqlı olaraq bu məsələ ilə əlaqədar olaraq yazır: «Çünki atəşpərəstlikdə od müqəddəs idi. Müqəddəs sayılan bir şeyin üstündən tullanmaq isə olmazdı. Əksinə, odun başına dolanar, itaət edərdilər» (34, 129). Göründüyü kimi, burada od atəşpərəstliyin nümunəsi kimi deyil, tamamilə əksinə, Novruzun özünəməxsus təzahürüdür, azar-bezarı yandıran bir vasitədir. Od atəşpərəstlikdən daha əvvələ aiddir. Ehtimal ki, bahar mərasimində tonqal ətrafında keçirilən şənlik mərasimi odun əldə edilməsi ilə əlaqədardır (51, 134). Tonqal ətrafında keçirilən şənliklər də, heç şübhəsiz, onunla bağlıdır. Od, istilik də baharın əsas atributlarından olduğu üçün, onun ətrafında şənlənərdilər. Kəmərli kəndində indi də Novruz bayramında təkcə həyətlərdə deyil, dağların başında da tonqal qalanır. «Dədə Qorqud» dastanlarında da xalqın ağır və sevincli günlərində dağların başında ocaq qalandığını görürük. Mənbələrin birində Dərbənd yaxınlığında Qurd dağı deyilən yerin yüksəkliyində düşmən hücumunu xalqa bildirmək üçün tonqal qalandığı göstərilir.



Axır çərşənbənin Novruza düşməsini xalq daha uğurlu hesab edirdi. Bunu S.Vurğun belə tərənnüm edir:

Axır çərşənbədir … İl tamam olur,
Bu il kənd içində danışır hamı,
At üstə gəlmişdir Novruz bayramı.
Qulunlu at üstə…Bu bir muraddır.
Qocalar deyir ki, bolluq keçəcək,
Torpaq su yerinə şərbət içəcək.
Odur ki, hamının ürəyi şaddır,
Hamının arzusu, ümidi gülür,
Üzündən, gözündən nurlar tökülür» (97, 79).

Böyük türk dünyasında, eləcə də Azərbaycan xalqı içərisində belə bir inam var ki, hər il bir heyvan üstə gəlir. Həmin heyvanlar aşağıdakılardır: siçan, sığır, bəbir, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, toyuq, it və donuz. Heyvanların insan həyatında oynadığı rola görə həmin ilin necə keçəcəyinə, məhsulun bol və ya az olacağına, sakitlik, əmin-amanlıq və ya müharibə baş verəcəyinə, qan-qada olacağına inanardılar. M.Həkimov ilin at üstündə gəlməsini belə mənalandırır: «At ili murad ilidir. Türk müdriklərinin duyumuna görə insanlar dözümlü olacaq. İl uğurlu olacaq. Adamlara xoşbəxtlik gətirəcək» (86, 28). Həmin təqvimin başqa bir cəhətini qeyd edərək Q.Cavadov yazır: «Bəzi heyvanların insanlar üçün xüsusi əhəmiyyət kəsb etməsinə və ya zərərli olmasına baxmayaraq, ilin onlar üzərində gəlməsi xalq arasında qorxu, həyəcan doğururdu. At, meymun, toyuq kimi heyvanlar məhz bu qəbildəndir. Türk-monqol təqvimində at müharibə simvolu hesab edilirdi. Lakin bundan fərqli olaraq ilin qulunlu at üstə gəlməsi əmin-amanlıq, dinclik, bolluq kimi qiymətləndirilirdi. Xalq arasında belə bir söz də var ki, qulunlu at öz balasının yanından tərpənməz, qaçmaz. Buna görə də o sakitlik, bolluq, murad kimi qiymətləndirilir» (35, 199). Beləliklə, bütün bunlar xalq şairimiz S.Vurğunun ilin qulunlu at üstündə gəlməsinin xüsusi vurğu ilə

vurğulamasının səbəbini aydınlaşdırır. Eyni zamanda, ilin uğurlu keçməsini təmin edən ikinci bir inam axın çərşənbə ilə Novruzun, yuxarıda qeyd etdiyimiz kimi, eyni vaxta düşməsidir.

Novruz bayramı ilə əlaqədar olan inamlardan biri bayramın keçirilməsində ailə üzvlərinin birgə iştirakı idi. Əks təqdirdə yeddi il həmin adam bayramda ailə üzvləri ilə bir yerdə ola bilməzdi. Bayramda Novruz süfrəsi bəzənilirdi. Süfrədə fəsəli, qatdama, kömbə, müxtəlif şirniyyatlar, plov və s. olurdu. Ailə üzvlərinin hamısının adına şam yandırılırdı. Ölənlərin ruhuna hörmət əlaməti olaraq da bu yerlərdə şam yandırılırdı. Süfrədə yaz, bolluq rəmzi səməninin olması mütləq idi. Bayram gecəsi uşaqlar Novruz payı – «baca-baca» toplayırdılar. Novruz payı toplanması zamanı evlərin quruluşunun əhəmiyyəti böyük olurdu. Çünki burada evlər əsasən torpaqda ağacdan tikilir, pəncərə əvəzinə damda bir deşik saxlanırdı (149, 105). «Qaradam» adlanan belə evlərdə uşaqlar torbalarını bacadan sallayaraq Novruz payı yığırdılar. Sadıqlı kəndində torbanı oxlovun ucuna taxaraq qapıdan içəri uzadıb, pay almaq adət şəklini almışdı. Novruz payı, əsasən, müxtəlif şirniyyat, yumurta, meyvə və s.-dən ibarət olurdu. Onlar topladıqlarını bir yerdə yeyərdilər. Qohum-qonşulara, əlsiz-ayaqsızlara da Novruz yeməklərindən pay göndərərdilər. Nişanlı qızlara da, adətə görə, nişanlılarından pay-ətlik heyvan, şirniyyat xonçası, geyim yollayardılar. Novruzda hamı təzə paltar geyinərdi. S.Vurğun bu xüsusiyyəti «Acı xatirələr» şeirində belə xatırlayır:

Uşaq əziz gündə sınmasın deyə,
Anam cehizliyi yorğan üzündən,
Mənə üst köynəyi tikdi hədiyyə.
Mən də iki dəfə öpdüm üzündən

Novruzun xarakterik xüsusiyyətlərindən biri də küsülülərin barışması idi. Xalq adətinə görə, küsülülər bir-birinə bayram payı yollayıb barışardılar.



Novruz şənliklərinin müəyyən hissəsini də oyunlar təşkil edirdi. Bu oyunlar özünün təmtəraqlı keçirilməsi ilə diqqəti cəlb edirdi. Həmin oyunlara güləş, atçapma, çiling-ağac və s. göstərmək olar. Oyunların nəticəsi olaraq güləş və atçapmanın qalibinə nəmər də verirdilər. Bundan əlavə, rəqslər də təşkil edilirdi.

Novruzla bağlı maraqlı qədim oyun-mərasimlərimizdən biri də «Kosa-kosa» idi. Bu oyun yaz rəmzi keçi ilə, qışın rəmzi Kosa arasında gedən mübarizə üzərində qurulmuşdu. Əslində, qışla yaz, xeyirlə şər arasında gedən mübarizə bu oyunun əsas mövzusu idi. Bu oyun-mərasim aşağıdakı qaydada keçirilirdi: Başına motal papaq, əyninə tərsinə çevrilmiş kürk geymiş, ayağına çarıq taxıb, üz-gözünü tanınmaz hala salan bir nəfər meydana çıxırdı. Eynilə özü kimi geyinmiş köməkçisi kosaya üz tutaraq:

A kosa-kosa gəlsənə,
Gəlib salam versənə -

deyə müraciət edirdi. Sonra kosaya və camaata üz tutub onlardan pay istəyirdi:

A kosa-kosa gəlsənə,
Gəlib salam versənə
Torbanı doldursana
Kosanı yola salsana

Sonra köməkçi camaatı başa salırdı ki, kosa yola çıxır, səfəri var. Ona kömək etmək, xərclik vermək lazımdır. Camaatın ona kömək etmək istədiyini görən köməkçi keçiyə müraciət edirdi. Keçi camaatdan pay toplayır və kosaya verirdi. Sonra özünə də pay toplayırdı. Lakin acgöz kosa bunu da onun əlindən alır və keçini qovurdu. Bundan sona kosa arxayın yatırdı. Geri qayıdan keçi onun başına daş salırdı. Bunu görən köməkçi:

Arşın uzun, bez qısa,
Kəfənsiz öldü kosa –

deyə fəryad qoparırsa, camaat əksinə sevinir, deyib gülürdü. Göründüyü kimi, burada xeyir şərə, yaz qışa qalib gəlirdi.

Camaat yazın gəlməsinə sevinirdi Topladığımız etnoqrafik-çöl materialları və ədəbiyyat göstəriciləri sübut edir ki, Qazax mahalının Dağ Kəsəmən kəndində Əhməd Qızıl Əli oğlu, Əbdül Kərim Bəşir oğlu, Nərimanlı Əli, Həsən Məmməd oğlu bu oyun-tamaşaların məharətli ifaçıları olmuşlar (6, 153)

Qışa qarşı mübarizə hələ qış girməmiş keçirilən «Kövsəc» adlı mərasimdə də öz əksini tapmışdır. Bu mərasim haqqında M.Arif yazır: «Novruzdan başqa keçmişdə Azərbaycan xalqı içərisində «Kövsəc» adlı bir ayin də var imiş. Bu ayin azər (noyabr) ayında olub, qışı qorxutmaq və qışa hazırlaşmaq məqsədi daşıyırmış. Həmin şənlik zamanı xalq ətli və yağlı xörəklər, bədənə istilik verən şeylər yeyər, sonra bir adamı qış düşməni rolunda qatıra mindirib gəzdirərlərmiş. Adamların onun üzərinə soyuq su və qar tökməsinə baxmayaraq, o, «Yandım! Yandım» - deyə bağıraraq soyuğa etina etməzmiş» (77, 54). Bu ayin haqqında folklorşünas B.Abdullayev «Novruz gəlir» adlı məqaləsində də bəhs edir (2). Göründüyü kimi, «Kövsəc» mərasimi də «Kosa-kosa» kimi qışa qarşı mübarizə mahiyyəti daşımışdır.

Novruz mərasimlərində diqqəti cəlb edən daha bir tamaşa «Hodu-hodu» idi. Bu oyun-tamaşaya təkcə Novruzda deyil, ilin başqa vaxtlarında da təsadüf olunurdu. Bu oyun-tamaşada xalq Novruzda əkinə başlamaq üçün günəş arzulayırdısa, başqa vaxtlarda şəraitdən asılı olaraq yağış arzusunu da ifadə edə bilirdi. 1899-cu ildə iyul ayının 13-də bu mərasimin şahidi olan A.İoakimov yazırdı: «Keçən ayın uzun sürən yağışlı günlərindən birində həyətdən gələn qəribə səslər eşitdim. Həyətə çıxanda belə bir mənzərə gördüm. Yerli müsəlman uşaqları əllərindəki ağacları yerə döyə-döyə nə isə oxuyurdular. Oxuyub qurtardıqdan sonra onlardan biri mənim yanıma boynuna kəhrəba boyunbağı keçirilmiş qadın şəklində bir müqəvva gətirdi. Mən uşaqdan onun nə olduğunu soruşdum. Uşaq:



- Qodudur, – dedi.

- Qodu nədir? – Mən soruşdum.

- Günəş və ay – deyə, uşaq fikirləşmədən cavab verdi. Mən uşaqdan həmin nəğməni təkrar etməsini xahiş etdim» (136, 128).

Qazax bölgəsində, bütün Azərbaycanda olduğu kimi, əhali ardıcıl yağışlar yağanda günəşi çağırmış, quraqlıq əkin-səpini məhv etdikdə yağış arzulamış, qodu gəzdirərək mahnı oxumuşdu:

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördünmü?

və ya:

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Ağca yağış gördünmü?

Bütün bunlar xalqın təbiət qüvvələrinə təsir etmək, onu müəyyən mənada dəyişdirmək, yaşamaq amalından irəli gəlmişdir. Yağış arzulayan vaxt Qodu boz və ya göy rəngdə (su rəmzi), günəş arzusu ilə təşkil edildikdə qırmızı rəngdə (günəş rəmzi) olurdu. Əgər mərasimin keçirilməsində məqsəd yağış arzulamaqdırsa, onda həyətlərdə qodunun üstünə mütləq su, günəş arzuladıqda kül tökülürdü (13, 144). Onlar həyət-həyət gəzib pay toplayardılar. Göründüyü kimi, bu oyun-mərasim xalqın sırf həyati istəyi, təsərrüfatı ilə bağlıdır. Ümumiyyətlə, Novruz mərasimləri «xalqın yaşayışı, məişəti, əmək çalışmaları ilə sıx bağlı» (95, 25) olmuşdur. Məhz ona görə də təbiəti dost və düşmən təki təsəvvür edən xalq Xızırdan xız, od, istilik, Qodudan günəş, yağış istəyir, Keçinin (yazın), Kosanın (qışı) öldürməsinə sevinirdi. Bölgə əhalisinin təbiətlə bağlı görüşləri, inamları, mərasimləri yaşayış tərzindən, maldarlıq, əkinçilik

həyatından qaynaqlanmışdı. Məhz ona görə də bu bayram min illərin sınağından keçərək bu günümüzə qədər gəlib çatmışdır.

Azərbaycanın Qərb (Qazax) bölgəsi əhalisinin mənəvi mədəniyyətinin din və xalq bayramları sahəsi minilliklərin təcrübəsindən süzülüb gələn əməli vərdişlərə, empirik biliklərə və ibtidai təxəyyül imkanlarına əsaslanaraq özündə bölgə əhalisinin inamlarını, adət-ənənələrini, etiqadlarını mükəmməl şəkildə əks etdirir. Aparılan tədqiqatın nəticəsi sübut edir ki, istər bölgə əhalisinin dini baxışları və dinə münasibəti, istərsə də dini və mövsümi bayramlara münasibəti bölgədə mövcud olan yüksək əxlaqi normalarla tənzimlənmiş, bu gün də özünün ilkinliyini bir çox tərəfdən qoruyub saxlamaqdadır.



# III FƏSİL

## İCTİMAİ MƏİŞƏT

### 3.1. MAARİF, ELM

Xalqın mənəvi mədəniyyətinin inkişafında onun maariflənməsinin mühüm rolu vardır. Məhz ona görə də XIX əsrdə xalqın qabaqcıl ziyalıları nicat yolunu maariflənmədə görürdülər. Lakin bu işə başlamağın özünün müəyyən çətinlikləri vardı. Geniş əhali kütləsi arasında bu istiqamətdə iş aparmaq, onlara maariflənmənin əhəmiyyətindən danışmaq lazım idi. Müəyyən mütərəqqi dünyagörüşlü adamların övladlarını məktəblərə cəlb eləmək, onlara təhsil vermək mühüm məsələ kimi qarşıda dururdu. Digər tərəfdən, məktəblər açmaq, müəllimlər cəlb etmək lazım idi. Bütün bu işləri görmək o qədər də asan deyildi. Ancaq olduqca çətin olan bu işin öhdəsindən xalqın qabaqcıl ziyalıları böyük səbir və prinsipiallıq hesabına gələ bildilər. Onlar digər bir cəhəti də yaxşı bilirdilər ki, xalqın maariflənməsi digər elm sahələrinin inkişaf etməsi demək idi.

Bütün Azərbaycanda olduğu kimi, XIX əsrin ortalarına qədər Qazax mahalında da təhsil və maarif ocaqları ruhanilərin əlində idi. Yəni yerlərdə ruhani məktəbləri - mollaxana və mədrəsələr mövcud idi. Onlara da rəhbərliyi ruhanilər edirdi. Bütün dərslər onların nəzarəti altında, dinin ümumi prinsipləri əsasında məhdud bir dairədə tədris olunurdu. Doğrudur ki, XIX əsrin 30-cu illərində Azərbaycanın bir çox şəhərlərində Şuşa, Gəncə, Şamaxı, Bakı, Naxçıvanda qəza məktəbləri vardı. Lakin ilkin başlanğıc üçün bunların çoxlu çətinlikləri ortaya çıxırdı. Dərsliklərin çatışmamazlığı, tədris şəraitinin olmaması, kadrların azlığı və s. məsələlər ortaya çıxırdı. Məhz həmin çətinliklər üzündən elə

bölgələr var idi ki, orada məktəb açmaq nəzərdə tutulduğu halda, mümkün olmamışdı. Məsələn, yuxarıda göstərdiyimiz siyahıya görə Qazaxda da qəza məktəbi açılmalı idi. Bu haqda əmr də vardı. Ancaq tədris binasının olmaması üzündən orada məktəb açmaq mümkün olmadı. Qəza məktəblərində tədris əsasən dünyəvi mahiyyət daşıyırdı. Burada Azərbaycan və rus dilləri, hesab, hüsnxət və şəriət dərsləri tədris olunurdu. Lakin bu tədris ocaqları xalqın maariflənməsi üçün olduqca azlıq təşkil edirdi.

XIX əsrin ortalarında Qazaxda, demək olar ki, bütünlüklə ruhani məktəbləri fəaliyyət göstərirdi. Bu məktəblərdə yalnız oğlanlar oxuyurdu. Qızlar həmin dövrdə təhsildən tamamilə uzaqlaşdırılmışdı. Onsuz da məhdud çərçivədə aparılan məktəb sistemi qızların maariflənməsinə ciddi şəkildə qadağa qoymuşdu. Olduqca nadir hallarda qızlar təhsil ala bilərdi. Bu da, olsa-olsa, ancaq ev şəraitində ola bilərdi. Y.V.Çəmənzəminli XIX əsrdəki bu vəziyyəti xarakterizə edərək yazırdı: «Bunun xeyirli bir iş olmağını inkar edən gərək olmasın. Çünki dünyada xeyirli, xoşbəxt ömür sürmək istər isək, bilgi toplamalıyıq. Bilgini də verən ən əvvəl məktəb olur. Bunun üçün məktəblərimizin sayı nə qədər artsa, bir o qədər də tərəqqi etməyə qadir ola biləcəyik. Ancaq iş burasındadır ki, məktəbləri yalnız oğlan uşaqları üçün açıb qız balalarını yaddan çıxardıqda tərəqqimiz də ətraflıca olmayıb birtərəfli qalar. (36, 171) Tərəqqinin aparılması məktəblərin açılmasında görünürdü və bunun üçün də mütərəqqi düynagörüşlü adamlar ciddi-cəhdlə məktəblərin açılmasına çalışırdı.

Qazax mahalında da, bütün Azərbaycanda olduğu kimi, ruhani məktəblərində müəyyən edilmiş təhsil müddəti yox idi. Bu məktəblərdə Qurani-Kərim, Azərbaycan dili, ərəb dili oxumaq və yazmaq, öyrədilirdi. Mollaxanada oxuyan uşaqların ilk dərsliyi Çərəkə idi. Bildiyimiz kimi, Qurani-Kərimdə otuz Cüz var və onun kiçik ayələrindən ibarət birinci Güzünə «çərəkə» deyilir. Çərəkə uşaqlar tərəfindən bir ilə, il



yarıma oxunub mənimsənilirdi. Eyni zamanda, ruhani məktəblərində klassik Şərq ədəbiyyatı, Şərq poeziyası da öyrədilirdi. Ruhani məktəblərində cismani cəza sistemi mövcud idi. Falaqqa geniş şəkildə tətbiq olunurdu. Bunun isə adi qəbul olunması kimi bir qanunauyğunluq vardı. Cəzalar, adətən, dərslərini hazırlamayanlara, özünü düzgün aparmayanlara qarşı tətbiq edilirdi. Ruhani məktəblərində, eyni zamanda, oxumaq üçün pulla və ya müəyyən məhsulla müəllimlərə verilən haqqa müəyyən bir hədd qoyulmurdu. Bu haqq şagirdin ailəsinin tərəfindən ödənilir, bayramlarda isə müəyyən bəxşişlər verilirdi.

Qazax mahalında XIX əsrdə məktəblərin sayı haqqında dəqiq fikir söyləmək də bir qədər çətindir. Çünki arxiv sənədlərində bir-birini təkzib edən fikirlər vardır. H.Əhmədov arxiv materiallarına əsaslanaraq 1850-ci illərdə Qazaxda 7 məktəbin olduğunu və burada 162 şagirdin təhsil aldığını qeyd edir. Eyni zamanda, müəllif şagirdlərin sayı haqqında da məlumat verir. Belə ki, ən çox Salahlı məktəbində (61 şagird), ən az isə Qıraq Kəsəməndə (10 şagird) təhsil alırdı. (44, 6). Lakin müəllif daha sonra başqa bir sənədə əsaslanaraq Qazaxda 8 məktəb olduğunu qeyd edir və hər məktəbdə şagirdlərin miqdarını göstərir: Şıxlı (23). Salahlı (13), Kəmərli (11), Aslanbəyli (21), Qaymaqlı (21), Dəmirçilər (3), Qıraq Kəsəmən (37), Əskipara (11) (44, 7). Lakin sənədlərdə göstərilən bu ziddiyyətli faktlara baxmayaraq, rəqəmlər əhalinin sayı nisbətində olduqca azdır. Belə ki, həmin dövrdə Qazaxda 30 mindən çox əhali yaşayırdı. Bundan əlavə varlılar içərisində öz uşaqlarını Tiflisdə oxudanlar da vardı.

Qazax mahalında ruhani məktəblərinin heç birinin açılma tarixi məlum deyildir. Lakin bu məktəblərin açılma tarixinin ən azı bir-iki əsr əvvəl olduğunu ehtimal etmək olar. Çünki məktəbləri olmayan bir məmləkətdə M.V.Vidadi, M.P.Vaqif, Əbdürrəhman ağa Dilbazoğlu, Kazım ağa Salik, Mustafa ağa Arif və s. kimi geniş dünyagörüşlü şairlər yetişə bilməzdi. Təbii

ki, qüdrətli və möhkəm təhsil sisteminin sayəsində onların fitri istedadı inkişaf üçün imkan tapmışdır.

Artıq XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda öz dayaqlarını möhkəmləndirmək üçün Rus çarizmi prinsipial tədbirlər görməyə başladı. Bunun üçün ən birincisi onun siyasətini yerlərdə yerinə yetirəcək adamlar hazırlanmağa başladı. Rus dilini bilən və çarizmə xidmət edən sadiq çinovniklər yetişdirmək üçün çar hökuməti rus dilində təhsil verən dünyəvi məktəblər açdı. Belə məktəblərdən biri ilk dəfə Yelizavetpol quberniyasının Qazax qəzasının Salahlı kəndində 1875-ci il yanvarın 2-də Tauhiddin Mamleyev tərəfindən açıldı. (85, 24).

Məktəbdəki təhsil sistemi özünəqədərki (Qazax bölgəsindəki məktəblər nəzərdə tutulur) məktəblərin təhsil sistemindən fərqlənirdi. Hətta belə demək mümkünsə, tamamilə başqa təhsil sistemi idi. Məktəbdə Azərbaycan və rus dilləri (oxu və yazı), hesab, rəsmxət, təcrübi, qrammatik (orfoqrafiya), gimnastika və şəriət öyrədilirdi. Dərslər isə sentyabrın 1-dən mayın 1-dək davam edirdi. Məktəbə yeddi yaşından yuxarı olan uşaqlar qəbul olunurdu. Burada əhalinin bütün sosial təbəqələrinə mənsub uşaqlar təhsil alırdı. Dərslərin keçirilməsi vaxtı da tam dəqiq vaxt ölçüsündə aparılırdı. Belə ki, dərslər saat 2-də qurtarırdı. Başlanması isə səhər saat 8-də olurdu. Bundan başqa uşaqların dərsləri hazırlamasına da nəzarət edilirdi. Belə ki, şagirdlər evə gedəndən sonra saat 6-da təzədən geri qayıdır və saat 9-dək məktəbdə olurdular. Bu vaxt ərzində sabahkı dərslər hazırlanır və ona nəzarət olunurdu. (149, 106). Məktəbdə ilk dəfə 23 şagird təhsil alırdı. Məktəb pullu idi. İldə bir şagird 18 manat təhsil haqqı ödəməli idi. Burada, eyni zamanda, kasıb ailələrə də güzəştlər olunurdu. Belə ki, həmin məktəbdə kasıb ailədən olan 3 şagird təhsil haqqından azad idi. Eyni zamanda ətraf kəndlərdən gələn uşaqlar üçün də şərait yaradılmışdı. Onların qalması üçün pansion vardı. Belə məktəblərdə, əvvəlki ruhani məktəblərindən fərqli olaraq, cismani cəza tətbiq edilmirdi.



Başlıca fərq isə şagirdlərin əzbərçiliyə, deyiləni kor-koranə yadda saxlamasına deyil, dərsləri qavramasına, başa düşməsinə yönəltməkdə idi.

Salahlı məktəbinin ilk müdiri Tauhiddin Mamleyev idi. «Əkinçi» qəzeti 1877-ci ildə onun barəsində yazırdı: «Gəncə quberniyasının Salahlı qəryəsində bir Kazan şəhəri sakini müsəlman uşaqları üçün məktəbxana açıb, onlara rus dili oxuyur». T.Mamleyev burada dörd il müdir işləmiş, sonra isə məktəbə 1894-cüilədək Ə.Muxtarov və B.Veniaminov rəhbərlik etmişdir. 1894-1916-cı illərdə isə Salahlı məktəbində Əhməd ağa Mustafayev rəhbərlik etmişdir.

Bunun ardınca 1876-cı ilin bir sentyabrında Dağ Kasəməndə, 1886-cı ilin 16 martında isə Şıxlı kəndində dünyəvi məktəblər açılmışdır. Bu cür məktəblərin açılması XIX əsrdə xalqın maariflənməsi, mütərəqqi dünyagörüşlü ziyalıların yetişməsi sahəsində atılan mühüm addım idi. Salahlı məktəbinin açılmasından başlanan bu iş digər kəndlərdə öz təsirini göstərərək yeni məktəblərin yaranması ilə nəticələndi.

XIX əsrin sonlarında xalqın maariflənməsində 1-2 sinifli dəmiryol məktəblərinin də öz yeri vardı. Bu məktəblər dəmir yolu idarələrinin vəsaiti hesabına açılır və burada əsasən dəmir yolunda işləyən işçilərin uşaqları oxuyurdu. Həmin məktəblərdə də təhsil pullu idi. Lakin məktəblərin özünün kasıb ailələrin uşaqları üçün qərar çıxarıb pulsuz oxutmaq imkanı da vardı. Bu, pedaqoji şuranın çıxardığı qərara əsasən edilirdi. Bu cür məktəblər çox deyildi. XIX əsrin 80-90-cı illərində cəmi üç məktəb vardı. Həmin məktəblər Bakı, Gəncə və Ağstafada fəaliyyət göstərirdi. (90, 36).

XIX əsrin 70-ci illərinədək Azərbaycanda müəllim kadrları hazırlayan heç bir məktəb yox idi. Həmin illərdə Tiflisdə Aleksandrovsk Müəllimlər İnstitutu fəaliyyətə başladı. Lakin burada təhsil alan azərbaycanlı uşaqları az idi. 1876-cı ildə isə Qoridə Zaqafqaziya (Cənubi Qafqaz – M.A.) Müəllimlər Seminariyası fəaliyyətə başladı. Yalnız üç ildən sonra 1879-cu ildə bu seminariyada Azərbaycan bölməsi

yarıdıldı. Seminariyanın Azərbaycan şöbəsi mövcud olduğu təxminən 40 il müddətində xalq məktəbləri üçün 250 nəfər müəllim hazırlamışdı. (93, 121) Məhz bu məktəbdə xalqımızın tarixində mühüm rol oynayan böyük elm xadimləri, ədəbiyyatçılar, musiqiçilər, şairlər yetişmişdi. Sonrakı mərhələdə inkişafın mühüm nailiyyətləri məhz onların fəaliyyətlərinə əsaslanmışdır. Qori Müəllimlər Seminariyasında Azərbaycan bölməsinin ilk rəhbəri A.Çernyayevski olmuşdur. Məktəb 1918-ci ilə qədər Qoridə fəaliyyət göstərmiş və 1918-ci ilin iyul ayında çar Rusiyası imperiyasının tarix səhnəsindən silinməsi ilə əlaqədar milli respublikalar elan olunduqdan sonra Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi tərəqqipərvər maarifçi Firudin bəy Köçərilinin böyük zəhməti və təşəbbüsü ilə Qazaxa köçürülmüşdür. Həmin seminariyanın Qazaxa köçürülməsi orada mütərəqqi dünyagörüşlü ziyalı mühitinin daha da genişlənməsinə və təhsilə cəlb olunmasına səbəb olmuşdu. Belə bir mütərəqqi addımın sayəsində təhsilə olan maraq artmış, nisbətən yaxın olan yerlərdən, bir növ, seminariyada təhsilə axın başlamışdı. Möhkəm tələbkarlığın və ciddi bir sistemin olması sayəsində seminariyada böyük müvəffəqiyyətlər əldə edilmişdir.

Seminariyanın yerləşdirilməsi üçün binanı əslən Kosalar kəndindən olan maarifpərvər və mütərəqqi bir şəxs - Məşədi İbrahim ağa bağışlamışdı. Xalqın balalarını maarifləndirmək arzusu ilə yaşayan səxavətli Məşədi İbrahim ağa özünəməxsus 17 otaqlı mülkünü gələcəyin maarif işığını Azərbaycanın ucqar kəndlərində yandıracaq balalara böyük ürəklə hədiyyə vermişdi. Özü isə doğma kəndi Kosalara köçüb oradakı beş otaqlı mülkündə ömrünü başa vurmuşdu. (85, 141).

Qazax Müəllimlər Seminariyası özünün yüksək tədris üsulları, mükəmməl bir proqrama malik olması ilə diqqəti cəlb edirdi. Belə bir prinsipiallığın nəticəsi idi ki, seminariya yüksək nailiyyətlər qazanmış və böyük şəxsiyyətlər yetişdirmişdir. Məhz onun işığının nəticəsi idi ki, maariflənmə sahəsində nəinki həmin ərazidə, eyni zamanda, başqa ərazilərdə də



böyük işlər görülməyə başlanmışdı. Bütün bunlara baxmayaraq, həmin məktəb XX əsrin 40-cı illərində düzgün olmayan münasibətin nəticəsində bağlanmışdı.

XIX əsr və XX əsrin əvvəllərində məktəblərin sayının az olmasına baxmayaraq, Qazax qəzasında geniş dünyagörüşlü, qabaqcıl fikirli ziyalılar nəsli yetişmişdi. Neçə-neçə şairlər, hərbçilər, yazıçılar, elm adamları, din xadimləri həmin məktəblərin yetişdirmələriydi. Bu isə həmin məktəblərdəki tədrisin keyfiyyəti ilə bağlı olan xüsusiyyətlər və nailiyyətlər idi.

Qeyd etdiyimiz kimi, XIX əsrdə və XX əsrin əvvəllərində elm və mədəniyyətin inkişafı Qazaxda müsbət hal kimi xarakterizə edilir. Bu, ən birincisi, həmin qəzanın məktəblərinin yetişdirmələrinin fəaliyyətində nəzərə çarpır. Belə məktəblərin yetişdirmələrindən biri Hüseyn Əfəndi Qaibov (1830-1917) olmuşdur. Özünəməxsus inkişaf və tərəqqi yolu, yaradıcılıq məktəbi keçən bu şəxs xalqımızın tarixində ziyalı fəaliyyəti ilə əvəzsizdir. Onun «Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir» kitabı həmin dövrdə bir institutun görə bilməyəcəyi iş səviyyəsindədir.

H.Ə.Qayıbov 1830-cü ildə Salahlı kəndində anadan olmuş və ibtidai təhsili Musa əfəndidən almışdır. O, dövrünün elmlərini mükəmməl mənimsəmiş bir şəxs olmuşdur. Ədib dini elmlərlə yanaşı, ərəb, fars dillərini və Şərq ədəbiyyatını dərindən öyrənmişdir. 1858-ci ildə Tiflisə gedib Tiflis müsəlman məktəblərində Şərq dilləri müəllimi, kadet korpusu məktəbində, Ter-Akopovun xüsusi kişi məktəbində işləmiş, «Müqəddəs Nina» qadın məktəbində şəriətdən dərs demişdir. O, eyni zamanda, xeyriyyəçilik məqsədilə 1875-ci ildə maddi ehtiyacı olanlar üçün xüsusi məktəb açmışdır. Elə həmin illərdə Hüseyn Əfəndi mədrəsədə ana dilini öyrətmək üçün «Məbdeyi-təlimi-siyan» (Uşaqların ibtidai təlimi) adlı dərslik kitabı tərtib etmişdir. Kitab 24 dərsi əhatə edirdi. (37, 181). Həmin dərslik o dövrdə, tədrisin olduqca mürəkkəb olduğu və heç bir mükəmməl dərsliyin, kitabın olmadığı vaxtda çox qiymətli vəsait idi.

H.Ə.Qayıbov Azərbaycan elminin və mədəniyyətinin tarixində xüsusi xidmətləri olan bir sıra şəxsiyyətlərin müəllimi olmuşdur. General Ə.Şıxlinski, şair-tərcüməçi Abbas ağa Nazir, jurnalist C.Qayıbov və s. onun məktəbinin yetişdirmələridir. Ədibin özünün maraqlı bir fəaliyyət yolu olmuşdur. Belə ki, o, 1879-1884-cü illər Qori Müəllimlər Seminariyasında müəllim işləmiş və 1884-cü il yanvar ayının 31-də Cənubi Qafqaz müftisi olmuşdur. Ömrünün axırına qədər bu işıqlı şəxsiyyət həmin vəzifədə işləmişdir. O, eyni zamanda, xalqın tarixində mühüm rol oynayacaq neçə-neçə mütərəqqi işlərin müəllifidir. Onlardan biri də Qafqaz Arxeologiya Komissiyasının yaranması və fəaliyyət göstərməsidir. Zəngin şifahi xalq ədəbiyyatımızın toplanması sahəsində də H.Qayıbovun xüsusi xidməti olmuşdur. Toplama materialları M.F.Axundov tərəfindən tərcümə olunaraq «Aktı…» məcmuəsində çap edilmişdir. H.Ə.Qayıbovun Azərbaycan mədəniyyəti tarixində ən böyük xidməti, yuxarıda qeyd etdiyimiz «Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir» toplusunun tərtibidir. Məcmuədə XVIII-XIX əsrlərdə yaşamış 107 şairin əsərlərindən nümunələr toplanmışdır. Lakin böyük zəhmət hesabına başa gələn bu məcmuə onun sağlığında işıq üzü görməmiş, yalnız 1986-cı ildə prof. C.Qəhrəmanovun təşəbbüsü ilə çap olunmuşdur.

XIX əsrdə Qazaxda yetişən elm adamlarından biri də riyaziyyatçı və münəccim Əbdülkərim Nəsib ağa oğlu Qayıbov (1851-1894) olmuşdur. O, ilk təhsilini Salahlı kəndində almış, sonralar Tiflisə gedərək Tiflis hərbi gimnaziyasına daxil olmuşdur. Sonralar elm arxasınca Peterburqa gedərək orada topçu məktəbini və hərbi tipoqrafiya məktəbini bitirmişdir. O, böyük zəhmət və əmək hesabına 2-ci dərəcəli «İslam təqvimi»ni hazırlamışdır. Həmin əsər özünün dəqiqliyi və elmi dəyəri etibarilə müasir mütəxəssisləri belə heyran qoyur. Mütəxəssislərin rəyinə görə bu təqvim hətta 1940-cı ildə Leninqradda (indiki Sankt-Pererburq) Dövlət Ermitajı tərəfindən akademik İ.Orbelinin redaktəsi ilə nəşr olunmuş



sinxronik cədvəldən geri qalmır. (102). Çox təəssüf ki, belə yüksək səviyyəli elm adamı təbliğ olunaraq geniş kütləyə tanıtdırılmamışdır. Hətta elmi ədəbiyyatlarda onun haqqında ətraflı şəkildə məlumat da verilməmişdir.

Bu dövrdə hərb elmi sahəsində də müəyyən ixtisaslı mütəxəssislər yetişməkdə idi. Belə hərbiçilərdən biri general İbrahim ağa Paşa oğlu Vəkilov idi. Onun təhsil almasına H.Ə.Qayıbov köməklik göstərmişdir. O, 1866-ci ildə Mejevoy hərbi gimnaziyasına daxil olub, 1879-cu ildə oranı bitirmişdir.

O, yüksək ixtisaslı topoqraf olmuşdur. İbrahim ağa Əfqanıstan-Rusiya sərhədlərini dəqiqləşdirən komissiyanın tərkibində çalışmış, İran dövlətinin xahişi ilə İranın xəritəsinin hazırlanmasında mühüm rol oynamışdır. O, eyni zamanda, 1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsini yaratmışdı.

Azərbaycanın hərb tarixində mühüm rol oynayan şəxslərdən biri də general Əliağa Şıxlinski olmuşdur. O, rus dilində yazıb oxumağı Salahlı kəndində öyrənmiş, sonra Tiflisdə gimnaziyada təhsil almışdır. Hərbi təhsil aldıqdan sonra yüksək səviyyəli topçu olmuş və «rus artileriyasının allahı» kimi şöhrət qazanmışdır (72). Öz dövrünün hərb elmində «Şıxlinski üçbucağı» kimi tanınan Şıxlinski formulu mühüm rol oynamış, hətta bütün xarici ölkələrin hərbiçilərinin nəzərini özünə cəlb etmişdir. O, «Gələcək müharibədə toplar», «Alay topları», «Topların piyada və süvarilərlə qarşılıqlı əməliyyatı», «Topların dağlıq yerlərdə ataş xüsusiyyəti haqqında» və s. əsərləri ilə hərb elminə böyük töhfə vermişdir. Ə.Şıxlinskinin fəaliyyətinin mühüm cəhətlərindən biri də ilk dəfə olaraq «Rusca-Azərbaycanca qısa hərbi lüğət» (1926) yaratmaşıdır. Ömrünün sonlarında həyatından bəhs edən «Xatirələrim» adlı xatirə-bioqrafiyanı diktə etmişdir. Onun həyat yoldaşı Nigar xanıma yazdığı məhəbbət şeirləri də diqqəti cəlb edir.

Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux Qayıbov, tibb bacısı, Ə.Şıxlinskinin həyat yoldaşı H.Ə.Qayıbovun qızı Nigar

xanım da bu yurdun övladlarındandır. Məmməd Rza Mənsur oğlu Vəkilov (1864-1944) Xarkov Universitetinin tibb fakültəsini bitirərək bu yerdən çıxan ilk ali təhsilli həkim olmuşdur. Yüksək tibbi savada malik olan Məmməd Rza Vəkilov Qafqaz Tibb Cəmiyyətinin həqiqi üzvü idi. O dövrün görkəmli təbiblərindən biri də Məsim Şeyxzadə olmuşdur. Sonra o, Ağdaşda yaşamış, həkimlik fəaliyyəti də bura ilə bağlıdır. Qayğıkeşliyi və dərin savadı ilə xalqın sevimlisinə çevrilmişdir. Oğlu Maqsud Şeyxzadə sonralar Özbəkistan xalq şairi adını almışdır.

XIX əsrdə şair-tərcüməçi Dağkəsəmənli Mustafa ağa Nasir (1824-1873) geniş mütaliəsi və dərin savadı ilə müasirləri arasında tanınmışdır. O, bir sıra Şərq dilləri ilə yanaşı, rus, polyak, fransız dillərini də bilmişdir. Nasir özü gözəl şeirlər yazmaqla yanaşı, tərcümə sahəsində də qələmini sınamışdır. N.Gəncəvinin «Xosrov və Şirin» əsərini tərcümə etməyə başlamış, lakin amansız ölüm onun bu işi sona çatdırmasına imkan verməmişdir (67, 333).

Başqa bir şair-tərcüməçi Abbas ağa Nazir (1849-1914) olmuşdur. Onun həm xalq şeiri, həm də klassik üslubda yazdığı qoşma, gəraylı, qəzəl, rübai, mənzumələr, satirik şeirlər özünün poetik siqləti ilə diqqəti cəlb edir. O, eyni zamanda, bir sıra tərcümələr də etmişdir. 1909-cu ildə L.Tolstoya məktub yazaraq onun «İnsana çoxlu torpaq lazımdır» hekayəsini tərcümə etmək üçün icazə istəmiş və müsbət cavab almışdır. Həmin tərcümə onun tərcüməçilik bacarığını aydın şəkildə göstərir.

Bu dövrdə Qazaxda yüksək savada, tədris bacarığına malik olan müəllim-pedaqoqlar da yetişmişdir. Bunlardan F.Köçərlinin «alim və fazil şəxs» adlandırdığı oğlu Osman əfəndi, Hüseyn Əfəndi Qayıbov, Əhməd ağa Mustafayev, Əli əfəndi Hüseynov, Süleyman Qayıbov, İbrahim Əfəndi Qayıbov, Yusif Qasımov, Məmməd Qarayev və başqalarını göstərmək olar. Cənubi Qafqazda ilk pedaqoji elmlər doktoru (1947-ci ildə «XIX əsr Azərbaycan pedaqoji fikrinin əsas



nümayəndələri» adlı doktorluq dissertasiyası müdafiə etmişdir) Əhməd Yusif oğlu Seyidov (1892-1977) da bu mühitin nümayəndəsi olmuşdur. O, ilk təhsilini Kəmərli, Salahlı məktəblərində almış, 1911-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olmuş, 1917-ci ildə oranı bitirib öz doğma kəndi Aslanbəylidə oğlan və qız məktəbi açmışdır. Onun hazırladığı şagirdlərdən 17 nəfər Qazax Müəllimlər Seminariyasına, 5 nəfər Gəncə Qiraət Texnikumuna, 5 nəfər isə Qazax Pedaqoji Texnikumuna qəbul olunmuşdur. Sonralar 1921-1925-ci illərdə Kosalar və Musaköy (Xanlıqlar) kəndində müəllim işləmişdir, 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsini bitirib və ömrünün sonuna qədər Azərbaycan Pedoqoji İnstitutunda işləmişdir. Uzun müddət də həmin institutun rektoru olmuşdur.

Qori Müəllimlər Seminariyası məzunlarından cəmi 25 illik maraqlı həyatı olan Məmməd Qarayevi göstərə bilərik. O, Malıbəylidə 1911-ci ildə Qız məktəbi açmışdır. Həmin məktəbin qızları böyük məhəbbətin əlaməti olaraq ona xalça toxuyub bağışlamışlar. O, eyni zamanda, mətbuat səhifələrində müxtəlif məqalələrlə çıxış etmişdir. (93, 125-128). Məhz belə yüksək səviyyəli müəllimlərin fəaliyyəti nəticəsində Azərbaycan xalqının elmində, ədəbiyyatında öz yeri, imzası ilə seçilən böyük şəxsiyyətlər yetişmişdir.

XIX əsrdə yüksək savada malik, xalq arasında böyük nüfuz qazanmış, mükəmməl dini təhsil almış şəxslər də olmuşdur. Onlardan Osman əfəndi Vəlizadə, Məhəmməd əfəndi Müftizadə, Hüseyn əfəndi Qayıbov və başqalarını göstərmək olar. Bütün bunlar XIX əsrdə və XX əsrin əvvəllərində Qazaxda elmin, mədəniyyətin yüksək sürətlə inkişaf etdiyini göstərir. Dini və dünyəvi elmlər sahəsində mütərəqqi irəliləyiş olduğunu, ayrı-ayrı elm xadimlərinin yetişdiyini bir daha aşkarlayır. Əhalinin sayı ilə nisbətdə məktəblərin sayının azlığına baxmayaraq, geniş dünyagörüşlü ziyalı qrupunun yetişməsi bölgədə maarif və elmin inkişafı ilə nəticələnmişdir. Sonrakı mərhələ üçün isə həmin nümayəndələr

bir ədəbi məktəb rolunu oynayaraq müxtəlif sahələrin inkişafına güclü təkan vermişlər.

## 3.2. XALQ TƏBABƏTİ

Xalq təbabəti özünün təşəkkül və inkişaf tarixi etibarilə çox-çox qədimlərlə bağlıdır. İlkin araşdırmalar onun ibtidai icma dövrü ilə səsləşdiyini göstərir. Xalq təbabəti insanların, ulu əcdadlarımızın yaşamaq əzmindən, təcrübəsindən və ibtidai təxəyyül imkanlarından qaynaqlanmış, zaman-zaman formalaşmışdır. Qarşılanan bəlaların müalicəsi üçün əhalinin hafizəsində ilkin empirik məlumatlar toplaşırdı. Müxtəlif xəstəliklərin müalicəsi üçün toplanan həmin məlumatlar nəsildən-nəslə ötürülərək dövrümüzə qədər gəlib çıxmışdır. Orta əsrlərdə xalq təbabəti özünün yüksək bir mərhələsinə çatmışdır. İbn Sina, Əbu Reyhan Biruni, Zəkəriyyə Razi, İbn Təlmiz Ən-Nəfis, İbn Qaytar və s. kimi məşhur loğmanlar, təbiblər yetişmişdir. Şərqdə həmin mərhələdə tibb elmi özünün ən yüksək mərhələlərindən birini yaşamış, neçə-neçə elmi kitabların yaranması ilə xarakterizə olunmuşdur. İbn Sina öz əsərlərində 480, Biruni isə 880 dərman bitkisindən bəhs etmiş, onların müalicə əhəmiyyətindən və istifadə qaydalarından danışmışdır. (57, 6).

Azərbaycanda da xalq təbabəti, digər elm sahələri kimi, mühüm inkişaf xüsusiyyətləri ilə diqqət mərkəzində olmuşdur. Onun qüdrətli biliciləri və ardıcıl mütəxəssisləri fəaliyyət göstərmişdir. Həmin şəxslər camaat arasında xalq təbabətinin biliciləri kimi böyük nüfuz qazanmışlar. Onların əldə etdiyi nailiyyətlər müasirləri və xələfləri tərəfindən qəbul edilərək istifadə olunmuşdur. Əbu Mənsur Müvəffəqi, İbn Kəbiri, Həsən ibn Şirvani, Məhəmməd Əttar Səlyani, Məhəmməd Yusif Şirvani, İbrahim ibn Zeynalabdin Naxçıvani və s. kimi xalq təbabətinin biliciləri meydana gəlmişdir. Əbu Mənsur hələ X əsrdə 446 bitki mənşəli və 44 heyvan mənşəli dərman bitkiləri haqqında öz əsərlərində ətraflı məlumat vermişdir.



Əbu Mənsurun bu kitabı 1893-cü ildə alman dilinə tərcümə edilib çap olunmuşdur. XVII əsrdə Seyid Məhəmməd Mömin isə 1400-dən çox bitki, heyvan mənşəli dərman bitkiləri haqqında fikirlər söyləmişdir (57, 6). Bütün bunlar Şərqdə xalq təbabətinin inkişafını göstərməklə yanaşı, onun bir parçası olan Azərbaycanda da geniş nailiyyətlər qazanıldığını göstərir. Xalqın çox qədim zamanlardan bəlalardan qurtuluş yolunu axtarması, müəyyən türkəçarələrin ayrı-ayrı xəstəliklərdən qorunmaq üçün istifadə olunması artıq ənənəvi təbabətin inkişafı haqqında tam təsəvvür yaradırdı. El-obada xüsusi xalq təbabəti biliciləri meydana gəlmişdi. Təbii bitkilərin köməkliyi ilə xəstəlikləri onlar müalicə edirdilər. D.Hüseynov və H.Göyüşov həmin mərhələni geniş xarakterizə etmişlər. Azərbaycanda yayılmış 4200 bitki növünün demək olar ki, hamısında dərman bitkisi xüsusiyyəti vardı. Rəsmi təbabətdə bunların hələlik yalnız 240 növündən istifadə edilir. (58, 5).

XIX əsr və XX əsrin əvvəllərində, bütün Azərbaycanda olduğu kimi, Qazax mahalında da xalq təbabəti xeyli inkişaf etmişdir. Xalq arasında ənənəvi təbabətin biliciləri fəaliyyət göstərirdi. Onlar el-obada xəstələri müalicə edir, ağır anlarda köməyə gəlirdilər. Həmin dövrdə bu bölgədə müalicəxanalar, xəstəxanalar olmasa da, xəstəliklər əldə olunmuş təcrübəyə əsasən müalicə olunurdu. Kifayət qədər müalicə üsulları da vardı. Belə müalicəni xalq arasında «təbib», «loğman» kimi tanınan türkəçarəçilçər aparırdılar. Xəstəliklərin müalicə təcrübəsi minillərlə zaman arasında nəsillərdən-nəsillərə keçərək yayılmış təcrübələr idi. Həkimlər həmin təcrübələrdən istifadə edərək xəstəliklərə qarşı mübarizə aparırdılar. Onlar, eyni, zamanda həm də axtarışda idilər. Yeni-yeni araşdırmalar aparır, qarşıya çıxan bəlaların həlli üçün müxtəlif vasitələr arayırdılar. Bəzən təbii prosesdə həmin bəlalara əlac tapılırdı. Digər bir cəhəti də qeyd etmək lazımdır ki, onlar lazım olan dərman bitkilərindən dərmanları özləri hazırlayırdılar. Dərmanlar əsasən bitki, heyvan və mineral mənşəli olurdu. Həmin dərmanların özünün isə müəyyən hazırlanma prinsipləri

vardı. Çünki onlar nəticəyə görə məlum prinsiplərə ciddi şəkildə əməl edirdilər. Məsələn, belə bir qayda vardı ki, bitkilərdən dərman hazırlamaq üçün xalq təbabəti biliciləri onları axşamüstü, günəş batan vaxt və yaxud da səhər tezdən gün çıxmamış yığardılar. Onlar çox isti və nəm olmayan kölgə yerlərdə qurudulardı. Bu qayda nəinki təbabətdə, hətta xalq arasında indi də yaşayır. Belə ki, xüsusi müalicəvi əhəmiyyətə malik kəklikotu, sarıçiçək, itburnu və s. bitkilər yığılıb kölgə yerdə qurudulur. Əks təqdirdə, onlar müalicəvi əhəmiyyətini xeyli dərəcədə itirirlər. Bu dərman vasitələrinin çoxunu bitkilər təşkil edir. Bitkilər əsasən, Qazax bölgəsində dağlarda bitən otlardan, yabanı şəkildə yayılmış meyvələrdən və bağlarda, bostanlarda becərilən mədəni bitkilərdən ibarət idi. Müalicə təcrübəsində kəklikotu, sarı çiçək, çəmən, bağayarpağı, itburnu, zoğal, yemişan, zirinc, moruq, tut (ağ və qara), qarpız, alma, armud və s. tətbiq olunurdu. Heyvan mənşəli müalicə vasitələri içərisində süd, keçi piyi, bal və s. üstünlük təşkil edirdi.

XIX əsrdə və XX əsrin əvvəllərində xalq təbabətinin Qazax mahalında geniş şəkildə inkişafı müşahidə olunur. Bu dövrdə müalicə məqsədilə müxtəlif vasitələrdən istifadə olunurdu. Banka qoymaq, qan almaq, ovma (masaj), psixiatriya təmrinləri və s. müxtəlif xəstəliklərin əlacı idi. Onu da qeyd edək ki, müalicə üçün dərmanları xalq təbabəti biliciləri özləri hazırlayırdılar. Onlar bu dərmanları müvəqqəti vaxt üçün deyil, il boyu işlətmək üçün düzəldirdilər. Həm də belə dərmanların nə vaxt hazırlanması, hansı şəraitdə saxlanması qaydalarının dəqiqliyini nəzərə alırdılar. Əks təqdirdə, onların müalicəvi əhəmiyyəti azalır, təsir göstərmə qabiliyyəti itirdi.

Xəstəliklərin müalicəsinin digər bir cəhəti profilaktik tədbirlərlə bağlı idi. Bu tədbirlər əsasən inam şəklində xalqa təlqin olunurdu. Camaat arasında həmin xəstəliklərin müalicəsinin mümkünlüyü və həkimlərin, daha doğrusu, xalq təbabəti bilicilərinin əlac etmə qabiliyyətinin gücünə inam



yaranırdı. Qeyd etmək lazımdır ki, bu inamlar xalq arasında indi də yaşamaqdadır.

Yuxarıda qeyd etdiyimiz belə inamlar, tədbirlər nağıl, bayatı, atalar sözləri, rəvayət və s. şəklində xalq arasında yayılır və şübhəsiz bundan da istifadə edilirdi. Məsələn, «Evin zibilini süpürüb qapı ağzında saxlamaq günahdır», «Yuyunmadan xəmir yoğurub çörək bişirmək günahdır. O evin bin-bərəkəti olmaz. Ailədə belə çörək yeyilərsə hamını qara basar», «Kim uşaqlıqdan çoxlu sarımsaqlı, ağartılı xörək yeyərsə, onda yaman şiş – xərçəng xəstəliyi olmaz». «Ağartı və göyərtini çox yeyən adam sağlam və uzunömürlü olar» və s.

Xəstəliklər müxtəlif üsullarla müalicə olunar və müxtəlif dərmanlardan istifadə edilərdi. Soyuqdəymə zamanı zoğal mürəbbəsilə, itburnu, kəkotu çayı verilərdi. Onlarda güclü tərlətmə xüsusiyyəti vardı. Ona görə də bu xəstənin tərləməsində müsbət təsir göstərirdi. Eyni zamanda soyuqdəyməni xalq təbabəti biliciləri masaj vasitəsilə də müalicə edərdilər. Belə ki, xəstə keçi piyi ilə ovulardı. Soyuqdəymədə istifadə olunan müalicə vasitələrindən biri də banka qoymaq idi. Bundan sətəlcəm zamanı da istifadə olunurdu. Lakin soyuqdəymədən fərqli olaraq bu zaman banka qoyulan yer çərtilərək qan alınardı. Sətəlcəm olan adam təzə qoyun dərisinə də salınardı. Qan almadan qan təzyiqi (qocalar buna baş ağrısı da deyirlər) zamanı da istifadə olunardı. Belə vəziyyətlərdə xəstənin alnı ülgüc vasitəsilə çərtilərdi. Adətən, bunu dəlləklər həyata keçirərdilər. Göründüyü kimi, bütün bunlar bölgədə qan almadan geniş istifadə olunduğunu göstərir.

Oynaq çıxıqları, sümük sınıqları isə sınıqçılar tərəfindən müalicə edilirdi. Qazax rayonunda çıxıq və sınıqları müalicə edə bilən çoxlu sınıqçılar olmuşdur. Onlara demək olar ki, hər kənddə rast gəlinirdi. Onu da qeyd edək ki, əhali indi də sınıq, çıxıq kimi zədələrin müalicəsi üçün həkimlərdən daha çox sınıqçılara, xalq təbabəti bilicilərinə müraciət edirlər. Sınıqçılıqla bu bölgədə, əsasən, kişilər məşğul olurdu. Bəzən

onlar arasında qadınlara da təsadüf edilirdi. Müalicə vaxtı yağ, xəmir, yumurta və taxta parçaları istifadə olunurdu. Xalq arasında sınıqçılığın mahir biliciləri olmuşdur. Onlardan sınıqçı Məhəmməd, Tüyürlü Usub, Emnallı Mustafa, Pirioğlu və s. haqqındakı söhbətlər xalq arasında indi də dolaşmaqdadır. Uşaqlara sünnət edilməsi ilə dəlləklər məşğul olurdu. Onlar, eyni zamanda, qanalma ilə xəstəliklərin müalicəsini də edirdilər. Qeyd etmək lazımdır ki, Qazax rayonunun bir sıra kəndlərində öz sənəti ilə tanınan nəsillər olmuşdur. Onlar həmin sənətlərinin adı ilə çağırılmışlar. Məsələn, Kəmərli kəndində Dəlləkli, Çöpçü öyü, adında nəsil yaşayır. Qocaların dediyinə görə, onlar bu sənəti nəsilliklə bilmişlər. (37 – inf.).

Xalq arasında geniş istifadə olunan üsullardan biri də çöpçülükdür. Uşaqların boğazında çöp qalardısa, onun çöpünü çıxarmaq və ya üfürmək üçün çöpçüyə müraciət etmək lazım gəlirdi. Çöpçülüklə əsasən qadınlar məşğul olurdu. Aslanbəyli çöpçü Pəri arvadı ətraf kəndlərin əhalisinin əksəriyyəti də yaxşı tanıyırdı.

Uşaq öskürərkən acqarına səhər-səhər bəkməz, süd içirdərdilər. Bu xəstəliyi yumurta ilıdıb içməklə də müalicə edərdilər. Qarın ağrısına qaşrı camış qatığı və əzilmiş qurutdan geniş istifadə edilərdi. Gilənarın saplağının və bağayarpağının dəmləməsindən də qarın ağrısına qarşı istifadə olunurdu.

Qulaq və göz ağrıları zamanı qız doğmuş ana südündən istifadə olunurdu. Qulağı ağrıyanların qulağına duzsuz kərə yağı və ya toyuq yağı da əridib tökürdülər. Duz qızdırıb qoymaq da buna kömək edirdi. Böyrək ağrıları, sidik kisəsinin soyuqlaması və iltihabında qarğıdalı saçağı, itburnu və cəfəri dəmləməsindən istifadə xeyirli sayılırdı. Yovşanı suda qaynadıb diş ağrısı zamanı verərdilər. Heyva yarpağının dəmləməsindən körpə uşaqların əsəblərini sakitləşdirici vasitə kimi istifadə olunurdu. Şüyüd və nanə dəmləməsi körpə uşaqların köpünü sakitləşdirirdi. Yarpız öd xəstəliyində dəmlənib içilirdi. Yel xəstəliyi olan adamların ayağını ayı yağı



ilə ovardılar. Qocaların dediyinə görə, bu xəstəliyin əvvəlində, ağrılar təzə başlayanda daha təsirli olurdu. Yel xəstəliklərini arının sancması, gicitkanla dalatmaqla da müalicə edirdilər. Bundan əlavə, yel xəstəliyi olan adamlara kirpi əti də yedizdirirdilər. Babasil xəstəliyini müalicə etmək üçün yarpız qaynadıb buğunu verməklə xəstəni bu bəladan qurtarırdılar. Yarpızdan qan laxtalandırıcı vasitə kimi istifadə olunurdu. Qızılca çıxardan uşağa eşşək südü verirdilər. Böyrəklərində daş olan adama çoxlu qarpız yemək məsləhət görülürdü. Gec dil açan uşağa göyərçin yumurtası içirtmək məsləhət idi. Təbabət biliciləri soyuqdəymə, öskürək, boğaz və sinə ağrıları zamanı əvəlikli umac yeməyi xeyirli hesab edirdilər. Sınıq zamanı qoyunun baş-ayağını yemək sümük bitişməsini sürətləndirirdi. Ürək xəstəliklərinə qarşı gicitkanı bişirib yemək, eləcə də qara yemişan yemək məsləhət görülürdü.

İrinli yaraları, adətən, yetişdikdən sonra neştərlə deşirdilər. Yaranı tez yetişdirmək üçün isə soğanı bir az bişirib onun üstünə qoyurdular. Bağayarpağı ilə də irinli yaraları, çibanları tez yetişdirirdilər. Qazax rayonunda gərməşovun gövdə və budaqlarını döyüb un halına salır, kərə yağı ilə qatıb məlhəm hazırlayaraq gec sağalan irinli yaraları müalicə edirdilər. Yaraların qanını kəsmək üçün isti ocaq külündən, sidik və baldan istifadə edirdilər.

Göz dəyməsinə qarşı müxtəlif vasitələrdən istifadə olunurdu. Uşaqların üstünə dağdağan çiliyi, it peyini, üzərlik, iynə qırığı, kömür (kiçik parça arasında) və s. tikirdilər. Gözdəyməsi zamanı üzərlik yandırıb tüstüsünü uşağa verirdilər. Üzərlik otu zəhərli olduğu üçün həm də dezinfeksiya etmək keyfiyyətinə malikdir ki, onu yandırıb tüstüsünü havaya verməklə, havada olan və adamlara xəsarət gətirən zərərvericiləri məhv etmək, bununla da havanı təmizləmək mümkündür (22, 142). Göz dəyməni inam müalicəsi ilə də müalicə edirdilər. Bunun üçün göz dəyən uşağın başına duz hərləyib oda atırdılar. Göz dəyən uşağın üstünə dua yazdırıb tikməklə də onun sağlamlığına inanırdılar. İnam müalicəsi ilə

qorxan adamları, dəli olanları da müalicə edirdilər. Qorxan adama suyun içinə açar salıb onu içirirdilər. Eyni zamanda, bu adamlar üçün mollaya dua yazdırırdılar, pirlərə aparırdılar. Bütün bunlar ümumilikdə Qazax mahalında XIX - XX əsrin əvvəllərində xalq təbabətinin inkişaf etdiyini göstərir. Elmi təbabətin hələ inkişaf etmədiyi dövrlərdə ənənəvi xalq təbabəti bölgə əhalisinin xəstəlikləri müalicə işində müraciət etdiyi sahə idi və bu sahə əhalinin tələbatını, az-çox dərəcədə ödəyə bilirdi.

## 3.3. QONAQPƏRVƏRLİK

Xalqımızın məişətində geniş kök salan maraqlı adət-ənənələrdən biri də qonaqpərvərlikdir. Ulularımızın mayası həmişə xeyirxahlıq və alicənablıqla yoğurulduğu üçün qonağa həmişə böyük hörmət və qayğı ilə yanaşılmışdır. Bu adət bütün xalqlarda özünü göstərmişdir. Hər bir xalq öz milli psixologiyasına, adət-ənənəsinə uyğun olaraq qonağı qarşılamışdır. Azərbaycanda da bu adət özünün qədim kökləri etibarilə diqqəti cəlb edir. Torpaqlarımıza qədəm qoyan bütün Avropa və rus səyyahları, yazıçıları, alimləri geri qayıtdıqdan sonra onlara göstərilən qayğı və hörmətdən ağız dolusu danışmışlar. Qonaqpərvərliyimiz haqqında söhbət açmışlar. Ulularımız çox-çox qədimdən qonağa xüsusi hörmət göstərmiş, onu müqəddəslik səviyyəsinə qədər yüksəltmişlər. «Qonaq Allah qonağıdır» - ifadəsi də elə qonağa bu münasibətin nəticəsidir.

Qonaqpərvərlik bəzən ictimai mahiyyət daşısa da, əsasən, ailə daxilində həyata keçirilən bir adət olaraq həyatımızda yaşayır. Əlaqələrin zəif olduğu bir zamanda «qonaqpərvərlik adəti… insanlar arasında əsas ünsiyyət vasitələrindən biri idi». Qonaqpərvərlik adətinin bu xüsusiyyətini keçən əsrin 70-ci illərində N.F.Dubrovin «yenilik yanğısı» kimi ifadə etmişdir.

Elin-obanın adətinə görə, qonaq istənilən vaxt, gecə və gündüz qəbul edilərdi. Həmişə ona xüsusi hörmət göstərilər, yer düzəldilər, oturduğu yerə döşəkcə salınar, qoltuğunun



altına mütəkkə qoyulardı. Yalnız bundan sonra söhbət başlardı. Qonağı qəbul etmək, ona qayğı göstərmək, saxlayıb yola salmaq ev yiyəsinin müqəddəs borcu hesab edilərdi. Qonaq üçün hətta evdə saxlanc da olardı. Belə ki, ehtiyat ərzaq, meyvə, şirniyyat saxlanardı ki, birdən evə vaxtlı-vaxtsız qonaq gələr. Hətta uşaqlar da ona toxunmaz, valideynlər tərəfindən qoyulan qaydaya əməl edilərdi. Onu da qeyd edək ki, qonaq üçün daha yaxşı ərzaq, meyvə saxlanardı.

Qonaq qəbul ediləndən sonra dərhal yemək hazırlanardı. Yemək hazır olana qədər isə çay içirlər, söhbət edilərdi. Yeməklər ailənin imkanları daxilində hazırlanardı. Yəni, el arasında işlənən «varını verən utanmaz» - prinsipinə əməl olunardı. Hətta «qonaq özünün də xəbəri olmadan ayaq basdığı kasıb evinin son tikəsini yeyə bilər. Ev sahibi bunu bildirməz» (100, 88). Ev yiyəsi öz qonağını ləyaqətlə qarşılayıb yola salmaq üçün borca belə düşməyə hazır idi. Bu baxımdan İ.Şıxlının əsərlərində rast gəldiyimiz Kəmərli kəndindən Həsən ağa Qiyasbəylinin xatirəsi maraq doğurur: «Üç-dörd qardaş-bacı yetim qaldıq. Adımız bəy olsa da, kasıb idik. Atamın ölümündən bir neçə ay sonra, bir gün gördük ki, kəndin ortasından keçən çayın o üzündəki təpəlikdən kəndə enən torpaq yolla beş-on atlı gəlir. Anam əlini gözünün üstünə qoyub xeyli baxdı və birdən təlaşla dilləndi:

- A bala, bu atlılar bizə gəlir, kişinin dostlarıdır. Evimizdə də heç nə yoxdur, biabır olduq.

Anam tədbirli arvad idi. Birimizi tez qonşuya göndərdi ki, bir-iki çanaq borc un alaq. O birimizi göndərdi ki, bir heyvan alaq. Oduna qədər borc istəyəsi olduq. Xülasə atlılar dərəni keçib evimizə çatana qədər qonum-qonşular əl-ayaq verdilər, ocaq qalanıb sac asıldı, xəmir yoğruldu, heyvan da kəsildi. Atlılar həyətdə yəhərdən aşırılıb düşəndə samovar buğlanırdı. Anam «xoş gəldin» dedi, içəri dəvət elədi. Heç beş dəqiqə keçmədi, kəndin sayıb-sayılan kişiləri gəldilər, çay içdilər, süfrə açıldı, kabab çəkildi, isti fətir ortaya gətirildi. Düz bir həftə evimizdə yemək-içmək oldu. Bilmədik aşığı kim

çağırdı. Həyətdə boyun-boyuna verən erkəkləri kim göndərdi, un dolu çuvalları, odun dolu arabaları kim göndərdi, kim həyətə boşaltdı. Bilmədik bizə əl-ayaq verən, odun yaran, heyvan kəsib kabab çəkən, xəmir yoğurub kündə salan, sac asıb fətir yayan, bulaqdan su daşıyıb samovar qaynadanlar kimlərdir? Qonaqlar gedəndən sonra toydan avazımış kimi oturub nəfəsimizi dərdik və gördük ki, evimizdə üç-dörd aylıq azuqə var. O gündən allah bizim ruzumuzu verdi. Süfrəmiz həmişə bol, qonaq-qonaqçalı oldu» (108, 56-57). Göründüyü kimi, öz qonağını ləyaqətlə qarşılamaq üçün borca düşməyə hazır olan ev sahibinə kənd camaatı hər cür kömək göstərir. Çünki qonağın yaxşı qarşılanması təkcə ev yiyəsinin deyil, həm də elin-obanın adına hörmət gətirərdi. Qonağın inciyib getməsi ən böyük təhqir hesab olunardı.

Yeməyə əyləşməzdən əvvəl cavan bir oğlan əlində aftafa-ləyən, qolunun üstündə dəsmal qonaqların əlinə su tökər, qonaqlar əllərini yuyub qurulayardılar. Onu da qeyd etmək lazımdır ki, qocaların dediyinə görə qonağa evdə əvvəlcədən hazır olan yeməkdən verilməsi qəbahət sayılardı. Ona görə də qonağa hörmət əlaməti olaraq, qazan asılar, təzə yemək bişirilərdi. Qonaqlar yerdə bardaş qurub oturardılar. Hər kəs isə istədiyi yeməkdən götürüb yeyərdi. Yeməyi əllə yeyərdilər (131, 262). Yeməyə «bismillah ərrəhman ərrəhim» - deyə başlayar, qurtarandan sonra isə «şükür, əlhəmdülilillah»; «allah süfrənizi bol eləsin» - deyə dua edərdilər. Qonağa içki kimi ayran və çay verilərdi. Spirtli içkilər, bəzi istisna hallar nəzərə alınmazsa, demək olar ki, yox idi. Çünki İslam dininə görə spirtli içki məqbul hesab edilmirdi. Qonaqpərvərlik adəti təkcə dostlar, qohumlar, tanışlar arasında yayılmış bir el adəti deyildi. Bu adətə görə, istənilən yolçu, səfərə çıxan qonaq qəbul edilər, hər cür hörmət göstərilərdi. Ağsaqqalların dediyinə görə, yol gedən adam su istərdisə, onun ac olduğu zənn edilər və mütləq evə qonaq gətirilər, yedirib içirdərdilər. Əgər qonaq ev yiyəsindən inciyib gedərdisə bu ev yiyəsi üçün böyük təhqir hesab edilər və belə adama kənddə pis münasibət



bəslənilərdi. Odur ki, ev sahibi qonağa hər cür hörmət edərdi. Xalq şairimiz S.Vurğun bu xüsusiyyəti belə ifadə edir:

Sən bizim ellərin ruhuna bir bax,
Bizdən inciməmiş bir əziz qonaq…( 96, 270)

Qonaq gələn adamın atının cilovu tutular və onun atdan düşməsinə kömək edərdilər. At üçün də yem verilərdi.

Qazaxda qonaqpərvər, çörəkli kişilər çox olmuşdur. Belə kişilərdən Salahlı Annax bəy haqqında indi də eldə-obada danışırlar. Onun qonaqpərvərliyinin 1916-cı ildə oğlu Məhəmməd bəyin toyunda Aşıq Ələsgər də şahidi olmuşdur (80). Böyük təntənədən, çal-çağırdan sonra Annax bəy Aşıq Ələsgəri yola salmışdır. Aşıq Ələsgər isə onun qonaqpərvər-liyini, böyük hörmət və izzət sahibi olmasını şeirlərindən birin-də belə təsvir etmişdir:

Qazax bəylərindən qonağı gəldi,
Bir həftə ziyafət göyə yüksəldi,
Şah Abbas şüləni məclis düzəldi,
Hatəm süfrəsini açdı Annax bəy (11, 201).

Bu cür qonaqpərvərliyi, insanlara olan qayğını, el-oba adətini digər nümunələrdə də oxuyuruq. Qulu Çaylı da Qazax əhalisindəki hörməti, bəylərinin qonaqpərvərliyini öz şeirlərində çox gözəl ifadə etmişdir:

Gəlin sizə isnad verim,
Salahlıda Annax bəyi.
Kəsmək ona adət imiş,
Hər qonağa bir inəyi.

Gecə-gündüz yığılmayıb,
Süfrəsinin bol çörəyi…
Bir az da söhbət açım,
Söyünbəyli Söyün bəydən…
Görənlər söyləyirlər
Yüz qonağı gəlib birdən…(72)

Göründüyü kimi, qonaqlıqlar bir neçə gün çəkər və çox təmtəraqlı, çal-çağırlı, şən keçərmiş. Qonaqların dincəlməyi

üçün xüsusi otaq ayrılar, rahatlığı üçün hər cür şərait yaradılardı. Bu, eyni zamanda, qonağın sərbəst olması üçün edilərdi. Onların yatması üçün təzə yorğan-döşək salınardı.

Qonaqdan nə üçün gəldiyini soruşmaq ez yiyəsi üçün qəbahət hesab olunardı. Odur ki, qonaqdan heç vaxt nə üçün gəldiyi və nə vaxt gedəcəyi soruşulmazdı. Əgər qonaq hər hansı bir iş üçün gələrdisə, bu haqda onun özü söhbət açmalı idi. Eyni zamanda, qonağı qohumlar, qonşular da evinə dəvət edər, onun şərəfinə süfrə açar, müxtəlif yeməklərə qonaq edərdilər. Onu da qeyd etmək lazımdır ki, nəinki uşaqlar, hətta evdə olan yetkin yaşlı oğlanlar ataları evdə olardısa, süfrə başında oturmaz, ayaq üstə dayanıb onlara qulluq edərdilər. Əgər ata evdə olmasaydı, qonağı onlar qəbul etməliydilər. Qonağın xoşuna gələn bir şey olsaydı və bu söhbət əsnasında məlum olsaydı, həmin şey, dəyərindən asılı olmayaraq, mütləq ona bağışlanardı. 1818-ci ildə A.S.Qriboyedov İrana səfər edəndə Qazaxın İncə kəndində bir evdə qonaq qalıbmış. Evdəki nəfis şəkildə toxunan xalça onun xoşuna gəlir. Adi, savadsız kəndli qadının toxuduğu bu gözəl xalça Qriboyedovu heyran edir. El adətinə görə, qonağın xoşu gəldiyi əşyalardan xurcun, heybə, xalça ona hədiyyə verilir (84, 27). Folklorşünas-alim M.Həkimovun şəhadətinə görə həmin xalça indi də Moskvada bir kilsədə saxlanılır.

Qonağı bütün ailə üzvləri və ya kəndin camaatı yola salardı. Əgər yol uzaq olardısa, ona yol üçün yemək, içmək qoyular, atının cilovu tutular və üzəngisi basılıb ata minməsinə kömək edilərdi. Eyni zamanda, qonağın arxasınca su atılar və uğurlu yol arzulanardı.

Qonaqpərvərlik adətimizdə bir cəhəti də qeyd etmək yerinə düşərdi. Qonaq ev yiyəsinin düşməni olsa belə, hətta arada qan düşmənçiliyi vardısa da, elin-obanın adətinə görə ev yiyəsi ona hörmət etməli, düşmənlərindən qorunmaq üçün ona pənah gətirən qonağına sığınacaq verməli, onu pis vəziyyətdə qoymamalı idi. Belə bir əhvalat Qazax bölgəsində el qəhrəmanı Qaçaq Kərəmin başına gəlmişdir. Qaçaq Kərəm çar



strajniklərindən qorunmaq üçün Şülaverdə düşməni - şəhər pristavı Abbas bəyin evinə pənah gətirir və orada sığınacaq tapır. Abbas bəy isə bütün düşmənçiliyi və vəzifə borcunu bir yana ataraq elin adətinə sədaqət göstərir. Xalqın qonaqpərvərliyinə üstünlük verərək düşməni olan Kərəmi qoruyur və düşmənlərlə qarşılaşmasına imkan vermir (40, 18). Çünki, əks halda, nəinki el-oba, hətta öz doğmaları da onu lənətləyər, ondan üz döndərərdilər.

Eldə-obada özünün qonaqpərvərliyi ilə ad çıxaran, indi də böyük hörmət və izzət sahibi kimi xatırlanan, haqqında maraqlı əhvalatlar, xatirələr danışılan el ağsaqqallarından biri də Şıxlı Hacı Mansur ağa olmuşdur. O, imkansızlara, fəqir-füqəraya həmişə kömək etmişdir. Salahlı Pənah ağa Vəkilov da belə adamlardan olmuşdur. Ağır məclislər, şənliklər onların müdrikliyi, məsləhətləri altında aparılar, çətin məsələləri onların bir kəlməsi, baş tərpətməsi həll edərdi. Qonaq-qaralı ailələr, evlər məxsusi olaraq barmaqla göstərilərdi. Qonağa hörmət edib, ona qayğı göstərmək bir növ mənəvi borc idi. Ac olana çörək vermək, süfrə açmaq, yol göstərmək kimi ali keyfiyyətlər xalqımıza xas olan və geniş yayılan milli-mənəvi dəyərlər olmuşdur. Göründüyü kimi, xalqımızın qonaqpərvərlik adəti xeyirxah və humanist bir adət olmuş, Qazax bölgəsində də geniş yayılmış və böyükdən kiçiyə kimi hamı tərəfindən ona əməl olunmuşdur.

Beləliklə, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərb (Qazax) bölgəsində də sosial məişət institutu daim yeni-yeni ənənələr, empirik biliklər və təcrübələr hesabına inkişaf etdirilmiş, xalqımızın yaratdığı milli-mənəvi dəyərlər sisteminin milli-müəyyənlik göstəricisi kimi nəsillərdən-nəsillərə ərməğan edilmişdir. Bölgə əhalisi hazırda da sosial məişət institutunun bir çox tərəflərini böyük qayğı ilə qoruyub saxlayır, gənc nəslin tərbiyəsində bu dəyərlərdən yetərincə yararlanır.

# NƏTİCƏ

Xalqımız minilliklərdən bəri özünün ibtidai təxəyyül və fəhm imkanlarından qaynaqlanan, empirik biliklər, əməli vərdişlər və təcrübələrə əsaslanan, zaman-zaman yaradıcılarının simasında daha da inkişaf etdirilən və milli-mənəvi dəyərlər səviyyəsinə qaldırılan çoxçalarlı və zəngin mənəvi mədəniyyət irsinə sahiblək etmişdir. Xalqın ədəbiyyatı, folkloru, musiqisi, incəsənəti, adət-ənənələri, bayram və mərasimləri, oyun və əyləncələri həmin mənəvi mədəniyyətin mühüm tərkib hissələridir. Bu mədəniyyət hər bir xalqın sosial-iqtisadi həyatı və məişəti ilə birlikdə inkişaf etmiş, bir çox əhəmiyyətli cəhətləri özündə yaşatmışdır. Xalqın həyatından, tarixindən, təsərrüfatından, məişətindən kənarda olan mənəvi mədəniyyət təsəvvür etmək olduqca çətindir. Xalq öz həyatı və məişəti ilə həmahəng olaraq mənəvi mədəniyyətini yaratmış və minillərin sınağından keçirərək bu günümüzə qədər gətirib çıxarmışdır. Tarixi Azərbaycanın bir hissəsi kimi Qərb bölgəsi mənəvi mədəniyyətimizin zənginliyi ilə diqqəti daha çox cəlb edir. Ağsaqqal babaların, ağbirçək nənələrin yaratdığı, sinələrində qoruyub saxladıqları bu əvəzsiz sərvət daim gələcək nəslə ötürülmüş, zəmanəmizə mükəmməl mədəni irs kimi gəlib çatmışdır.

Folklor qaynaqları mənəvi mədəniyyətimizin bir həssəsi olub, xalqımızın yaradıcı təfəkkürünün göstəricisi kimi mühüm əhəmiyyət kəsb edir. Xalq öz həyatını, məişətini, adət-ənənəsini, arzu və istəyini, acılı-şirinli günlərini xalq yaradıcılığının müxtəlif nümunələrində əks etdirərək yaşatmış və şifahi təfəkküründə zaman-zaman yaşadaraq hal-hazıra qədər gətirib çıxarmışdır. Minillər boyu ulularımız uzun qış gecələrində nağıllar, əfsanələr söyləmiş, rəvayətlər danışmış, sevincli günlərində çalıb-oxumuş, nəğmə demiş, ağrılı-acılı günlərində ağı söyləmiş, layla sədaları altında övlad böyüdüb



boya-başa çatdırmış, məclislərdə, yığnaqlarda sözünü-söhbətini minillərin təcrübəsinin nəticəsi kimi atalar sözləri ilə kəsərləndirmiş, itiləmişdir. Tədqiqatlardan aydın olur ki, folklorun ilk nümunələrini xalqın əmək vərdişləri, daha doğrusu, maldarlıqla bağlı yaranan sayaçı sözləri, eydirmələr əkinçi nəğmələri, holavarlar təşkil etmişdir. Şübhəsiz ki, musiqinin də ilkin nümunələri bunların əsasında yaranmışdır. Aşıq yaradıcılığı da öz kökü etibarilə maldarlıqla bağlıdır. Aparılan araşdırmalardan aydın olur ki, musiqi ilə folklor bir-birilə qarşılıqlı əlaqədə inkişaf edib xalqın istək və arzularının nəticəsi kimi meydana çıxmışdır. Xalq həyatının elə bir sahəsi olmamışdır ki, öz əksini folklorda tapmasın. Bölgə əhalisinin XIX-XX əsrin əvvəllərinə aid folkloru bütün mahiyyəti etibarilə böyük əhəmiyyət kəsb edir. Folklor həm də bəhs olunan dövrün mənəvi düşüncəsini öyrənmək üçün mənbə rolunu oynayır. Dövrün öz musiqisi də maraqlıdır. Burada musiqi, əsasən, xalq musiqisi və aşıq yaradıcılığı əsasında inkişaf etmişdir. Bölgədə bəhs olunan dövrün Azərbaycan musiqisinin bir hissəsi olan muğam təşəkkül tapa bilməmişdir. Bunun səbəbi muğamın daha çox şəhər həyatı ilə bağlı olması və qəzəllərin fars dilində oxunması idi. Burada mövcud olan köçmə maldarlıq həyat tərzi əhalinin şənliklərinə sazəndələr dəstəsi dəvət etməsini də çətinləşdirmişdir. Odur ki, onlar öz şənliklərinə özləri üçün daha anlaşıqlı olan aşıqları dəvət etmişlər. Bu dövrdə aşıq musiqisində müəyyən muğam xallarına və nəqşibəndilərin öz məclislərində qavalın müşaiyəti ilə Seyid Nigarinin qəzəllərini oxumalarına rast gəlsək də, qeyd etdiyimiz kimi, muğam sənəti bu bölgədə inkişaf edə bilməmiş və bunun nəticəsi kimi tar və kamança da əhalinin musiqisinə yol tapa bilməmişdir.

Xalq bayramları və din də xalqın mənəvi mədəniyyətinin bir hissəsi kimi daim bölgə əhalisinin həyat və məişətində üstün yer tutmuşdur. Novruz bayramı dindən tamamilə uzaq olaraq, maldarlıq və əkinçilik həyatı ilə bağlı mövsüm mərasimlərindən olmuşdur. Bu bayram özündə silsilə mərasimlər sistemini cəmləşdirərək yazın gəlişini qarşılamaq üçün keçirilən «Xıdır

Nəbi», axır çərşənbə və Novruz – yeni il, Yaz bayramından ibarət olmuşdur. Qurban və Orucluq bayramları isə İslam dini ilə bağlı bayramlar kimi keçirilmişdir. Doğrudur, qurbanvermə adətləri, başqa xalqlarda olduğu kimi, Azərbaycanda da hələ İslamdan əvvəl mövcud olmuşdur. Lakin bəhs etdiyimiz dövrdə – XIX-XX əsrin əvvəllərində bu bayramlar İslam bayramları kimi keçirilmişdir. İslam dini, bütün Azərbaycanda olduğu kimi, bölgədə də əsas din olmuşdur. Əhali həm sünnü, həm də şiə təriqətinə etiqadda yaşamış, ancaq böyük əksəriyyəti sünnülərdən ibarət olmuşdur. Bundan başqa, bölgədə nəqşibəndilik də geniş yayılmışdır. Onun ardıcılları başqa dərvişlər kimi sədəqə almamış, halal əməkləri ilə dolanmış, sünnü və şiəlik kimi dini ayrılıqları qəbul etməyib, Allaha qovuşmağı eşqdə görmüşlər.

XIX əsrdə və XX əsrin əvvəllərində Qazax bölgəsinin mənəvi mədəniyyətinin müəyyən bir hissəsini də oyun və əyləncələr təşkil etmişdir. Bu oyunlər özünün keçirilmə qaydaları ilə başqa regiondakılardan fərqli və oxşar cəhətləri ilə maraq doğurur. Araşdırmalar onu göstərir ki, elə oyunlar olmuşdur ki, bunlar ancaq Qazax bölgəsinə aiddir. Oyunlar öz kökünü xalqın həyatından, mübarizəsindən almış, icraçılarına dözüm, təmkin, güc-qüvvət, səbr, mətanət, çəldlik, çeviklik, ayıqlıq və s. kimi yüksək əxlaqi keyfiyyətlər aşılamışdır. Bu oyunlar yalnız son əsrlərdə uşaqların əyləncə vasitəsinə çevrilmişdir. Bununla belə, oyunlar yenə də öz əvvəlki tərbiyələndirici mahiyyətini dəyişməmişdir. Bəhs olunan dövrdə bölgədə «Güləş», «Dirədöymə», «Sümükatma», «Gizlənpaç», «Qaçdı-tutdu», «Qığımətik», «Bənövşə» «Bir quşum var bu boyda» və ya «Səməndər ay Səməndər», «Çiling-ağac», «Yalaqqazma», «Dar-dar» və s. kimi oyunlar geniş yayılmışdır.

Araşdırmalar aparılan bölgədə bəhs olunan dövrdə elm və maarif də müəyyən inkişaf xüsusiyyətləri ilə səciyyələnmişdir. XIX əsrin 70-ci illərinə qədər bölgədə ruhani məktəbləri fəaliyyət göstərmişdir. Həmin vaxtdan rus-tatar (azərbaycanlı – M.A.) məktəbləri də açılmağa başlamış, elə bu



dövrdən etibarən Tiflisdə, Qoridə, Rusiya şəhərlərində və b. yerlərdə təhsil alan ziyalılar, hərbçilər, elm adamları yetişməyə başlamış və beləliklə, çoxlu sayda elm, maarif, ədəbiyyat xadimləri fəaliyyətləri ilə əhalinin gələcək inkişafında və maariflənməsində mühüm rol oynamışlar.

Xalq təbabəti, bütün Azərbaycanda olduğu kimi, Qərb (Qazax) bölgəsində də ara həkimləri (türkəçarəçilər), təbiblər, loğmanlar tərəfindən inkişaf etdirilmişdir. Onlar müalicə vasitələri kimi, əsasən müalicəvi bitkilərdən, heyvanat və mineral mənşəli xammaldan dərmanlar – cövhər, yaxı-məlhəm, həb, şirə, məcun və s. hazırlamış, bölgə əhalisinin müalisə ehtiyaclarını, hələ elmi təbabətin inkişaf etmədiyi dövrlərdə, qismən də olsa, ödəyə bilmişlər.

Bütün bunlar Qərb (Qazax) bölgəsinin mənəvi mədəniyyətinin XIX əsr- XX əsrin əvvəllərindəki inkişafını və mövcud durumunu xarakterizə edir. Bu dövrdə çar Rusiyasının işğalı ilə xalqın mənəvi mədəniyyətində, maarif və elm sahəsini çıxmaq şərtilə, elə bir dəyişiklik baş verməmişdir və minilliklərdən bəri davam edən özünəməxsusluğu qoruyub saxlamışdır. Bölgə əhalisinin zəngin folklorundakı çoxçalarlılıq (bu, özünü istər aşıq yaradıcılığında, el şairlərinin əsərlərində olsun, istərsə də atalar sözləri, bayatılar, nağıllar, əfsanələr, musiqi, rəqslər və s. olsun, aydın göstərir) daim mütərəqqiliyi ilə seçilmiş, məhəlli-lokal xüsusiyyətləri ilə şərtlənmişdir. Mövsüm və məişət mərasimlərindəki ənənəvilik və məhəlli səciyyəvilik, dini bayramların geniş şəkildə qeyd edilməsi bəhs olunan dövrlə daha çox bağlı olmuşdur. Əhalinin elminin, maarifinin, xalq təbabətinin, bir sözlə, sosial məişətinin inkişafının araşdırılması da Azərbaycanın Qərb (Qazax) bölgəsində zəndin mənəvi mədəniyyət dəyərlərinin formalaşmasını təsdiqləyir.

## MƏLUMATÇILARIN SİYAHISI

1. Abbasov Kamal – 1938-ci il, Xanlıqlar kəndi.
2. Abdullayev Məhəmməd – 1897-ci il, Muğanlı kəndi.
3. Alisgəndərov İbrahim – 1930-cu il, Aslanbəyli kəndi.
4. Alıcanov Cəfər – 1932-ci il, Köçvəlli kəndi.
5. Allahmanov Qara – 1913-cü il, Kəmərli kəndi.
6. Allahmanova Fəxrənsə – 1922-ci il, Kəmərli kəndi.
7. Bayramov Şamil – 1892-ci il, Muğanlı kəndi.
8. Carcalova Yetər – 1905-ci il, Kəmərli kəndi.
9. Civişova Ülkər – 1913-cü il, Çaylı kəndi.
10. Dərziyev Sandıq – 1913-cü il, Çaylı kəndi.
11. Dərziyeva Tamara – 1939-cu il, Çaylı kəndi.
12. Eminov Şərif – 1931-ci il, Akstafa şəhəri.
13. Əliyev Qara – 1937-ci il, Qaymaqlı kəndi.
14. Əliyev Fərhad – 1927-ci il, Xanlıqlar kəndi
15. Hacıyev Məhəmməd – 1934-cü il, Qazax şəhəri.
16. Hürü nənə – 1894-cü il, Kəmərli kəndi.
17. İbrahimova Fatma – 1925-ci il, Aslanbəyli kəndi.
18. İsmayılov Əli – 1936-cı il, Quşçu Ayrım kəndi.
19. İsmayılova Zəkiyyə – 1929-cu il, Çaylı kəndi.
20. İsmayılov Söhrab – 1922-ci il, Çaylı kəndi
21. Kazımova Pəri – 1892-ci il, Kəmərli kəndi.
22. Qiyasbəyli Sədət – 1892-ci il, Kəmərli kəndi.
23. Mansırov Sarı – 1904-cü il, II Şıxlı kəndi.
24. Mansırova Gülabi – 1928-ci il, Köçvəlli kəndi.
25. Mehdiyev Mehdi – 1918-ci il, Xanlıqlar kəndi.
26. Məmmədov Məhəmməd – 1910-cu il, Eynallı kəndi.
27. Musayev İsfəndiyar – 1928-ci il, Xanlıqlar kəndi.
28. Nağıyev Əhməd – 1926-cı il, Tatlı kəndi.
29. Nəsibov Şövkət – 1925-ci il, Akstafa şəhəri.
30. Orucova Xədicə – 1909-cu il, Qazaxbəyli kəndi.
31. Orucov Həsrət – 1902-ci il, Qazaxbəyli kəndi.
32. Ramazanova Gülnisə – 1935-ci il, Kalininkənd.
33. Rəsulov Mirzalı – 1932-ci il, II Şıxlı kəndi.



34. Süleymanov Süleyman – 1919-cu il, Kəmərli kəndi.
35. Süleymanov Süleyman – 1925-ci il, Kəmərli kəndi.
36. Süleymanov Mahmud – 1909-cu il, II Şıxlı kəndi.
37. Şahnisə Əhməd qızı – 1904-cü il, Kəmərli kəndi
38. Yolçiyev Məhyəddin – 1918-ci il, Muğanlı kəndi.
39. Yusifov Məhəmməd – 1894-cü il, Poylu kəndi.
40. Yusifova Qızxanım – 1901-ci il, II Şıxlı kəndi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində

1.Abdullayev B. Haqqın səsi. Bakı, Azərnəşr, 1989.
2. Abdullayev B. Novruz gəlir. - «Kommunist» qəzeti. 24 aprel 1989.
3. Ağayev Ə.B. Tatar xalq ədəbiyyatı təcrübəsindən. - «Kaspi» qəzeti, 1890.
4. Axundov Ə. XIX əsrdə yetişmiş görkəmli aşıqlar haqqında. - Tədqiqlər. I kitab, Bakı, 1961.
5. Allahmanlı M. Əbdürrəhman ağa Dilbozoğlu. - «Milli qurtuluş» qəzeti, 25 noyabr, 1993.
6. Allahverdiyev M. Azərbaycan xalq teatrının taritxi. Bakı, Maarif, 1978.
7. ASE. III c., 1979.
8. ASE. VIII c., 1984.
9. Aşıqlar. (toplayanı H. Əlizadə). I c., Bakı, 1937.
10. Aşıqlar. (toplayanı H. Əlizadə). II c., Bakı, 1938.
11. Aşıq Ələsgər. I kitab, Bakı, Elm, 1972.
12. Aşıq Calal Qəhrəmanov. Telli sazım məni dindir. Bakı, Sabah, 1992.
13. Azərbaycan etnoqrafiyası. I c. Bakı, Elm, 1988.
14. Azərbaycan aşıqları və el şairləri. Bakı, Elm, 1984.
15. Azərbaycan aşıq və şair qadınları. Bakı, Gənclik, 1991.
16. Azərbaycan tarixi. Bakı, Elm, 1963.
17. Azərbaycan tarixi. Bakı, Elm, 1993.
18. Azərbaycan folkloru antologiyası. I kitab, Bakı, 1968.
19. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. (toplayanı, tərtib edəni H.Ə.Qaibov). I c., Bakı, 1986.
20. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. (toplayanı, tərtib edəni H.Ə.Qaibov). II c., Bakı, 1986.
21. Azərbaycan xalq rəqsləri. Bakı, 1959.
22. Babazadə Q. Azərbaycan folklorunda xalq təbabətinə münasibət. - Tədqiqlər, VI kitab, Bakı, 1981.



23. Bayatılar. Bakı, Yazıçı, 1985.
24. Bədəlbəyli Ə. Musiqi lüğəti. Bakı, Elm, 1969.
25. Bülbül. Seçilmiş məqalə və məruzələri. Bakı, 1968.
26. Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı, Gənclik, 1975.
27. Bünyadov T. Qızıl qaya. Bakı, Gənclik, 1984.
28. Bünyadov T. Ana Kürüm. Bakı. Gənclik, 1979.
29. Bünyadov T. Azərbaycanda atçılığın tarixindən. Bakı, Gənclik, 1978.
30. Bünyadov Ş. Nizami və etnoqrafiya. Bakı, Elm, 1992.
31. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989.
32. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, Elm, 1985.
33. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, Azərnəşr, 1993.
34. Cavadov Q. Əkinçilik mədəniyyətimizin sorağı ilə. Bakı, 1990.
35. Cavadov Q. Səməd Vurğun poeziyasında Azərbaycan etnoqrafiyasının bəzi məsələlərinə dair. - «Azərbaycan» jurnalı, № 8, 1971.
36. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri. III c., Bakı, Elm, 1977.
37. Dadaşov Y. Kimdir Hüseyn Qayıbov? - «Azərbaycan» jurnalı, 1992, № 9-10.
38. Dadaşzadə M. Azərbaycan xalqının orta əsrlər mənəvi mədəniyyəti., Bakı, Elm, 1985.
39. Eldarova Ə. Azərbaycan aşıq sənəti. (Azərbaycan xalq musiqisi. Oçerklər). Bakı, Elm, 1981.
40. Eyvazlı F. Qaçaq Kərəm. Bakı, 1979.
41. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1981.
42. Əfəndiyev S., Rəcəbov A. Azərbaycan xalq təbabətindən. Bakı, Azərnəşr, 1992.
43. Əfsanələr, Bakı, Gənclik, 1986.
44. Əhmədov H. 100 yaşlı Salahlı məktəbi. Bakı, Maarif, 1978.

45. Əliyarov S. Tarixi-coğrafi qeydlər. - Kitabi-Dədə Qorqud. Bakı, 1988
46. Əsədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı, Azərnəşr, 1991.
47. Göyüşov Z. İslam dininin bayram və ayinlərinin mənşəyi və onların mürtəce mahiyyəti. Bakı, 1953.
48. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı, 1985.
49. Haqverdiyev Ə. Azərbaycanda teatr. Seçilmiş əsərləri. II c., Bakı, 1957.
50. Həkimov M. Bayatı kövrəkliyi. - Xalqımızın deyimləri və duyumları. Bakı, Maarif, 1986.
51. Həkimov M. Xalq mövsümləri və aşıq sənəti. - Tədqiqlər, IV kitab, Bakı, Elm, 1973.
52. Həsənov K. Qədim rəqslər. - «Ulduz» jurnalı, № 11, 1975.
53. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991.
54. Həvilov H. Martda mərək. Bakı, 1993.
55. Hüseynzadə H. Gülnaz nənənin bayatıları. - «Ulduz» jurnalı, № 12, 1975.
56. Xalqımızın deyimləri və duyumları. (tərtib edəni və toplayanı M. Həkimov), Bakı, Maarif, 1986.
57. Xalq təbabətinin izi ilə. Bakı, 1987.
58. Xalq təbabəti xəzinəsindən. B., 1992.
59. Xəlilov X. Qarabağın elat dünyası. Bakı, 1992.
60. «Xəzər» jurnalı, № 4, 1991.
61. İbrahimov İ. Atalar sözləri və məsəllər. - Tədqiqlər, I kitab, Bakı, 1961.
62. İlqar Məmməd. Məni baxtıma tapşırma. Bakı, Yazıçı, 1991.
63. İslam. (qısa məlumat kitabı). Bakı, Azərnəşr, 1985.
64. Kitabi-Dədə Qorqud. Bakı, Gənclik, 1988.
65. Koroğlu. Bakı, Gənclik, 1975.
66. Köçərli F. Azərbaycan ədəbiyyatı. I c., Bakı, Elm, 1978.
67. Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı, Elm, 1981.
68. Qasımlı M. Xətai və aşıq sənəti. - «Ulduz» jurnalı, № 11, 1992.
69. Qasımlı M. Bir uçaydım bu çırpınan yelinən. - «Mədəniyyət» qəzeti, 9 yanvar, 1992.



70. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974.
71. Qasımzadə F. Novruz – Bahar bayramı. Bakı, 1989.
72. Qulu Çaylı. Deyim. «Oğuz eli» qəzeti, 2 may, 1992.
73. Quliyev H. Məişətimizdə adət və ənənələr. Bakı, Azərnəşr, 1976.
74. «Qurani-Kərim. Bakı, 1993.
75. Laçınlı A. Bayatılar və musiqi. - «Ulduz» jurnalı, № 2, 1975.
76. Masse A. İslam. Bakı, Azərnəşr, 1964.
77. Məmməd Arif. Seçilmiş əsərləri. III c., Bakı, Elm, 1970.
78. Məmmədov A. Aşıq və xanəndə sənəti. - «Elm və həyat» jurnalı, № 7, 1984.
79. Məmmədova T. Uşaq oyunları haqqında. - Tədqiqlər. IV kitab, Bakı, Elm, 1973.
80. Miralay T. Aşıq Ələsgərin tədqiqi haqqında. - «Oğuz eli» qəzeti, 28 may, 1992.
81. Mirzə Abbas Abbaszadə. Novruz bayramı. - «Azərbaycan» qəzeti, 15 mart, 1991.
82. Mustafayev Q.İ. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, 1973.
83. Nəbiyev A. Novruz bayramı. Bakı, Yazıçı, 1990.
84. Nəzirli Ş. Vurğun keçib bu yerlərdən. Bakı, Yazıçı, 1986.
85. Nəzirli Ş. Qoridən gələn qatar. Bakı, Yazıçı, 1993.
86. Novruz mərasim və meydan tamaşaları. Bakı, APİ nəşri, 1991.
87. Paşayev S. XIX əsr aşıq yaradıcılığı. Bakı, 1990.
88. Rəhmətov Ə. Azərbaycan xalq çalğı alətləri. Bakı, İşıq, 1975.
89. Rüstəmzadə R. Qəhrəmanlıq nəğmələrinin tədqiqi və janr xüsusiyyətləri. - Tədqiqlər, II kitab, Bakı, 1966.
90. Sadıqov Ş., Əliyev R. Azərbaycan tarixi. Bakı, 1988.
91. Sanılı Hacı Kərim. Seçilmiş əsərləri. Bakı, 1993.
92. Sarabski H. Köhnə Bakı. Bakı, 1958.
93. Seyidov F. Qori seminariyası və onun məzunları. Bakı, Marif, 1988.

94. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
95. Seyidov M. Yaz bayramı. Bakı, 1991.
96. Səməd Vurğun. Seçilmiş əsərləri. I c., Bakı, 1976.
97. Səməd Vurğun. Seçilmiş əsərləri. II c., Bakı, 1976.
98. «Sınıq korpü» jurnalı, № 1-2, 1992.
99. Strabon. Coğrafiya. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
100. Sulla Benet. Necə yaşayasan yüzü haqlayasan. Bakı, Yazıçı, 1989.
101. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Bakı, 1964.
102. Sultanov M. XIX əsrin görkəmli riyaziyyatçısı. - «Kommunist» qəzeti, 16 aprel, 1948.
103. Sumər F. Oğuzlar. Bakı, Yazıçı, 1992.
104. Şair Çoban Əfqan. Bakı, 1955.
105. Şərifli M.F. IX-XI əsrin ikinci yarısında Azərbaycan feodal dövlətləri. Bakı, 1978.
106. Şıxlı İ. Seçilmiş əsərləri. I c., Bakı, 1986.
107. Şıxlı İ. Seçilmiş əsərləri. II c., Bakı, 1986.
108. Şıxlı İ. Ölüləri qəbiristanda basdırın. Bakı, Gənclik, 1992.
109. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. Bakı, Yazıçı, 1985.
110. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972.
111. Təhmasib M.H. «Məktəb» jurnalında folklora münasibət məsələsi. - Tədqiqlər. V kitab, Bakı, Elm, 1977.
112. Təhmasib M.H. VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı. - Azərbaycan ədəbiyyatı tarixi. I c., Bakı, 1960.
113. Vəliyev V. Azərbaycan folkloru. Bakı, Maarif, 1984.
114. Vəkilov Q. XIX əsr aşıq lirikası. Bakı, Maarif, 1992.
115. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
116. Zeynallı H. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1983.
117. Zərdabi H. Bizim nəğmələrimiz. - «Həyat» qəzeti, 1906, № 6.
118. Zöhrabov R. Muğam. Bakı, Azərnəşr, 1991.



Rus dilində.

119. Абелов А.Н. Экономический быт государственных крестьян Елисаветпольского уезда Елисаветпольской губернии. - МИЭБГКЗК, т., ВЫЫ, ч., 1, Тифлис, 1887.
120. Абдуллаева С. А. История Азербайджанских народных музыкальных инструментов. Баку, 1991.
121. Багиров Д. Детские игры и народные обряды в селение Шыхлы Казахского района Азербайджана. - СЭ, № 4-5, 1936.
122. Вениаминов Б. Селение Салахлы и татарские сказки, записанние в нем. -СМОМПК, вып. 3 отд. 2. Тифлис, 1883.
123. Бромлей Ю. Этнография на современном этапе. - Жур. «Коммунист», 1974, № 6.
124. Велиев Ф.И. Материальная культура западной зоны Азербайджана в Х1Х начале ХХ вв. (по материалом Казахского, Товузского и Шамхорского районов). - Автореферат на соискание уч. степен. кан. ист. наук. Ленинград, 1990.
125. Вострикова П. Музыка и песня у азербайджанских татар. - СМОМПК, вып. 42, отд. 2, Тифлис, 1912.
126. Гаджиев С.М. Дагестанские терекеменцы Х1Х начала ХХ вв., М., Наука, 1990.
127. Геродот. История. тт. 1-2. Перевод Ф.Г.Мишенко, М., 1888.
128. Джафарзаде И. М. Наскальные изображения Кобыстана. - ТИИАН. Азерб. ССР, т. 3, Баку, 1958.
129. Джикиев А. Традиционные народные праздники развлечения и игры. Ашхабад, 1983.
130. Добролюбов Н. Полн. Собр. Соч.т. 3. М., 1962.
131. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т. 1, кнг. 1, СПб., 1871.
132. Энгельс Ф. Похороны Карла Маркса. - К.Маркс, Ф.Энгельс. Сочинения. Изд. 2-ое, т. 19, 1968.

133. Еритсов А. Д. Экономический быт государственных крестьян Казахского уезда Елисаветпольской губернии. - МИЭБГКЗК, т. 2, вып. 3. Тифлис, 1886.
134. Эфендиев О. Азербайджанское государство Сафевидов. Баку, 1981.
135. Зубарев Д. Казахская дистанция. - ОРВЗК. ч. 2, СПб., 1836.
136. Иоакимов А. Вызывание солнца у мусульман гор. Елисаветполья во время продолжительних дожд. - СМОМПК, вып. 1Х, Тифлис, 1890.
137. Ирш Самбу. Тувинские народные игры. Кызыл, 1978.
138. История Азербайджана. Баку, 1958.
139. Керимов Э.А. Из история этнографического изучения Азербайджана в русском науке (ХВ – первая четверть Х1Х в.). - АЭС, вып. 1, Баку, 1964.
140. Климович Л.И. Ислам. М., Наука, 1965.
141. Кулиева Н.М. Современная сельская семья азербайджанцев (по материалом западной зоны Азербайджанской республики). Баку, Элм, 1992.
142. Мусульманские праздники. М., 1990.
143. Народы Кавказа. часть 2, М., 1962.
144. Обозрение Российских владений за Кавказом. СПб., 1836.
145. Омурзаков Д., Мусин Д. Киргизские народные игры. Фрунзе, 1973.
146. Плеханов Г. Б. Искусства и литература. М., 1948.
147. Серебряков И.А. Сельское хозяйство в Елисаветпольском уезде. Тифлис, 1862.
148. СМОМПК. вып. 42, Тифлис, 1912.
149. СМОМПК. вып. 3, от., 2, 1883.
150. Тейлор Е. Первобытная культура. М., 1939.
151. Токарев С.А. Ранные формы религии. М., 1990.
152. Тревер. К.Б. Очерки по истории и культуры Кавказской Албании. М.-Л., 1959.



153. Успенский В., Беляев В. Туркманская музыка. изд. 2-ое., т.1, Ашхабад, 1979.
154. Читая Г.С. Принципы и методы полевой этнографической работы. -«Советская этнография», № 4, 1957.
155. Якут Ал Хамави. Муджам ал булдан; Хамдуллах Казвини. Нузхат ал кулуб. Б., 1984.

## MƏHƏMMƏD QARA OĞLU ALLAHMANLI
(1963-2010)

Qazax rayonunun Kəmərli kəndində anadan olub. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Təhsil aldığı illərdən başlayaraq mətbuat səhifələrində elmin, mədəniyyətin ayrı-ayrı problemləri ilə bağlı məqalələr yazmışdır. «Sərbəst düşüncə», «Müxalifət», «Etimad» qəzetlərində müxbir, şöbə müdiri vəzifələrində çalışmışdır. Azərbaycanın xarici və daxili siyasəti, onun müxtəlif problemləri ilə bağlı analitik şərhlər vermək fəaliyyətinin mühüm bir hissəsini təşkil edib. Xalq yaradıcılığının toplanması, araşdırılması sahəsində gərəkli işlər görüb. Bütövlükdə ədəbi prosesi izləmək onun həmişə marağında olub. Tarixçi alim, tənqidçi, publisist kimi tanınıb. «XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat)» mövzusunda namizədlik disertasiyası müdafiə etmişdir (1998). Son dövrlərdə Azərbaycanın bağçılıq mədəniyyəti problemi ilə bağlı araşdırmalara daha çox üstünlük verirdi. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Tarixi etnoqrafiya şöbəsinin elmi işçisi olub. Beynəlxalq simpozium və konfranslarda Azərbaycan xalqının tarixi, etnoqrafiyası və ədəbiyyatı ilə bağlı maraqlı məruzələrlə çıxış edib. İki oğlu, bir qızı var.